# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YETMİŞ ÜÇÜNCÜ KİTAB

## FEVRAL 2016 - APREL 2016

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Bakıda keçirilən «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısında, «Çoxqütblü dünyaya doğru» mövzusunda IV Qlobal Bakı Forumunda, Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində, həmçinin BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda və Ankarada keçirilən İslam Əməkdaşlıq Təşkilatının toplantısında iştirakına dair materiallar toplanmışdır.

Kitabda dövlət başçısının Türkiyə Respublikasına və ABŞ-a səfəri, Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedevin və Qətər Dövlətinin Əmirinin Azərbaycana səfəri, həmçinin ölkəmizə gələn digər xarici dövlət və hökumət rəhbərləri, siyasi və mədəniyyət xadimləri, nümayəndə heyətləri ilə söhbətləri, nitq və çıxışları, nüfuzlu mətbuat orqanlarına və televiziya kanallarına verdiyi bəyanat və müsahibələri, müraciət və məktubları, bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri, səfər etdiyi bölgələrdə bir sıra orta məktəblərin, uşaq bağçaları və əyləncə mərkəzlərinin, parkların, sənaye müəssisələrinin açılışında və ictimaiyyətin nümayəndələri ilə görüşlərində çıxışları, tövsiyələri geniş yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M} - \textbf{651(07)} - \textbf{2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

# BAKIDA «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN İKİNCİ TOPLANTISI

*29 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 29-da «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısında iştirak etmişdir.*

*Dövlətimizin başçısı tədbirdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizin hamınızı Azərbaycanda salamlayıram və «Cənub Qaz Dəhlizi» layihəsi Məşvərət Şurasının ikinci toplantısında iştirak etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm.

Bu gün keçirilən görüş böyük əhəmiyyətə malikdir. Biz ötən il görülmüş işləri nəzərdən keçirəcəyik və 2016-cı il üçün proqramımızı planlaşdıracağıq.

Bakıda 1 il əvvəl keçirilmiş «Cənub Qaz Dəhlizi» layihəsi Məşvərət Şurasının birinci toplantısı bütün layihə üzvləri arasında əlaqələndirməni yaratmaq məqsədilə göstərilmiş səylərin təzahürü idi. Həmin səylər böyük uğurla nəticələndi.

Bir il ərzində ikitərəfli və çoxtərəfli formatda çoxsaylı görüşlərimiz olub. Bu gün aparılan əlaqələndirmənin və əməkdaşlığın səviyyəsi bizim düzgün yolda olduğumuzu nümayiş etdirir. 2015-ci ildə əldə edilmiş mühüm nailiyyətlərdən biri təməlqoyma mərasimi və TANAP layihəsinin həyata keçirilməsinin başlanması oldu. Ötən il Türkiyənin Qars vilayətində Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin iştirakı ilə TANAP-ın təməlqoyma mərasimi keçirildi. Bildiyiniz kimi, TANAP layihəsi «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşmasında olduqca əhəmiyyətli idi.

Hər şey cədvələ uyğun gedir. Biz düzgün istiqamətdəyik. Mən 2015-ci ilin nailiyyətləri sırasında səylərimizin əlaqələndirilməsini də qeyd etmək istərdim. Hazırda biz böyük komanda kimi çalışırıq. Bu heyət bir çox ölkələrdən ibarətdir. Əlbəttə, əməkdaşlıq və əlaqələndirmə səviyyəsi, qarşılıqlı etimad həmin genişmiqyaslı layihənin həyata keçirilməsində vacibdir.

«Cənub Qaz Dəhlizi» layihəsi Avropanın genişmiqyaslı infrastruktur və enerji layihəsidir. Azərbaycanın nəhəng qaz ehtiyatları, xüsusən də «Şahdəniz» yatağı hazırda «Cənub Qaz Dəhlizi» üçün yeganə resurs mənbəyidir. Həmin yataq dünyada ən iri qaz yataqlarından biridir.

Ümidvaram ki, təchizatın digər mənbələri də olacaq. Biz böyük həcmdə təbii qazı nəql edəcək boru kəmərini çəkirik. Zənnimcə, gələcək planlar və nailiyyətlər aramızda qarşılıqlı etimadın səviyyəsindən asılı olacaq.

Hesab edirəm ki, bu gün artıq bizim olduqca möhkəm əməkdaşlıq formatımız var. Mən layihədə iştirak edən bütün ölkələrin hökumətlərinə minnətdarlığımı bildirmək istəyirəm. Avropa Komissiyasına, Birləşmiş Ştatların hökumətinə bu layihənin həyata keçirilməsinə verdikləri dəyərli töhfəyə görə təşəkkür edirəm.

«Cənub Qaz Dəhlizi» layihəsi enerji təhlükəsizliyi layihəsidir. Bu gün enerji təhlükəsizliyi haqqında danışanda biz anlayırıq ki, o, ölkələrin milli təhlükəsizliyinin bir hissəsidir. Enerji resursları, şaxələndirmə hər hansı ölkənin sənaye və iqtisadi inkişafında əsas amillərdir. Zəngin təbii ehtiyatları olan ölkələr, əlbəttə ki, təhlükəsiz vəziyyətdədirlər, çünki onlar kənar təchizatdan asılı deyillər. Lakin eyni zamanda, onların bazarlara ehtiyacı var. Onlara qanunvericiliklə tənzimlənən, hasilatçıların təmin etdiyi həcmləri qəbul edə biləcək uzun perspektivli bazarlar lazımdır.

Fikrimcə, biz burada «Cənub Qaz Dəhlizi» layihəsi çərçivəsində hasilatçılar, tranzit ölkələr və eyni zamanda, istehlakçılar arasında maraqların çox yaxşı tarazlığına malikik. Həmçinin hesab edirəm, gələn 2-3 il ərzində planlarımızın uğurla həyata keçirilməsi göstərəcək ki, bu layihənin gələcək üçün çox yaxşı potensialı var.

Xatirimdədir, Azərbaycan hələ 1994-cü ildə «Azəri–Çıraq–Günəşli» kimi böyük neft yatağının işlənilməsi ilə bağlı dünyanın əsas neft şirkətləri ilə müqavilə imzalayanda hesab edirdik ki, bu layihənin

həyata keçirilməsi, Qara və Aralıq dənizlərinə neft boru kəmərinin çəkilməsi ilə biz öz işimizi başa çatdıracağıq.

Lakin indi, həmin tarixi gündən 22 il keçəndən sonra görürük ki, proses yenə də davam edir. Nailiyyətlərimiz çoxdur. Hətta deyərdim ki, enerji sektorunda Azərbaycan hökuməti bütün vədlərini yerinə yetirdi və planlaşdırdıqlarının hamısına nail oldu. Lakin bu proses yenə də davam edir. Çünki bir layihənin arxasınca digər layihə yaranır. Biz artıq dəhlizi yaratmışıq və ondan, həmçinin digər layihələr üçün də istifadə edirik. Gürcüstan və Türkiyəyə təbii qazın nəqlini nəzərdə tutan layihə məhz belə başlandı. Biz bu layihəyə Azərbaycan, Gürcüstan və Türkiyə arasında dəmir yolu xətti layihəsini əlavə etmişik. Ümid edirəm ki, həmin layihənin bu yaxınlarda açılışı baş tutacaq. Bütün bunlar Avrasiyanın müxtəlif ölkələri arasında regional əməkdaşlığa, geniş işbirliyinə yol açır.

Enerji təhlükəsizliyi bu gün dünya siyasətinin, eləcə də beynəlxalq təşkilatların gündəliyində əsas yer tutur. Cari ilin əvvəlində mən Davos İqtisadi Forumunda və Münhen Təhlükəsizlik Konfransında iştirak etdim. Enerji təhlükəsizliyi məsələsi hər iki tədbirdə – dünyanın iki ən mühüm toplantısının gündəliyində idi.

Əlbəttə ki, öz enerji siyasətinə qəti surətdə sadiq qalan, hər zaman azad rəqabəti, bazar iqtisadiyyatını, enerji sahəsində toqquşmanı deyil, əməkdaşlığı təşviq edən Azərbaycan enerji şaxələndirilməsində, enerji təhlükəsizliyində mühüm rol oynayır. Hesab edirəm ki, ölkəmiz bu layihənin həyata keçirilməsində düşünülmüş siyasət nümayiş etdirir.

Enerji amili heç zaman siyasi təşəbbüs və ya siyasi tələb vasitəsi olmalı deyil. Biz enerji əməkdaşlığını siyasi formatdan ayırmalıyıq. Yalnız bu halda biz uğur qazana bilərik. Fikrimcə, bu şəkildə qurduğumuz əməkdaşlıq bunu nümayiş etdirir. Biz «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsinə sadiqik. Azərbaycan üçün bu o deməkdir ki, gələn bir neçə il, onilliklər ərzində ölkəmiz hasil edə biləcək həcmə uyğun təbii qazın satışından yararlanacaq. Eyni zamanda, biz layihə üzvləri arasında olduqca möhkəm əməkdaşlıq quracağıq və bu işbirliyi iqtisadiyyatın digər sektorlarına aid olan sahələrdə də nailiyyətlərə imkan açacaq.

Bu layihə, həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər baxımından vacibdir. Enerji təhlükəsizliyi əməkdaşlığımızın mühüm elementidir.

Beləliklə, ölkəmiz üçün bu layihənin faydası aydındır. Əminəm ki, bundan, həmçinin bu zalda təmsil olunan bütün ölkələr də faydalanacaq. Biz istədiyimizə yaxşı dostluq və tərəfdaşlıq şəraitində nail olacağıq. Fikrimcə, dostluq və tərəfdaşlıq dəhlizin reallaşması üçün olduqca vacibdir.

Əminəm ki, Məşvərət Şurasının bu gün keçirilən toplantısında siz, həmçinin 2016-cı ildə həllini gözləyən məsələləri qaldıracaqsınız. 2016-cı il bu layihənin həyata keçirilməsində mühüm ildir. Biz, əlbəttə ki, layihənin həyata keçirilməsində bu məsələlərə vaxt baxımından diqqət yetirməliyik. Bəzi yubanmalar, daxili maneələr ola bilər. Lakin hesab edirəm ki, ölkələrimizin hökumətləri bu maneələri keçmək üçün bütün imkanlarından istifadə edəcəklər.

Hər ölkə layihənin öz ərazisində reallaşmasında məsuliyyət daşıyır. Fikrimcə, 2016-cı il bu baxımdan mühüm il olacaq. Ötən il biz artıq gözəçarpan irəliləyişə nail olduq. Hesab edirəm ki, ölkələrimizdəki ictimai rəy bu layihənin vacibliyini bütövlükdə müsbət dəyərləndirir və biz güclü tərəfdaşlıq və əməkdaşlıqla bu məqsədlərə nail olacağıq. TANAP layihəsinin həyata keçirilməsi hazırda olduqca fəal mərhələdədir. Əminəm ki, o, vaxtında, hətta cədvəldən əvvəl icra ediləcək. Əlbəttə, istərdim ki, eyni yanaşma Trans–Adriatik layihəsinin həyata keçirilməsində də olsun. Ümid edirəm ki, bu il tikinti işləri başlanacaq və hasilatçılarla əlaqələndirmə sayəsində «Cənub Qaz Dəhlizi» boru kəmərinin çəkilməsində məqsədlərimizə nail olacağıq.

Biz bu layihənin həyata keçirilməsində həmrəyik. Qonaqlarımızın tərkibi, bu gün burada yüksək siyasi səviyyədə təmsilolunma göstərir ki, bütün hökumətlər və tərəfdaşlarımız eyni məqsədə xidmət edirlər. Biz XXI əsrin tarixi layihəsini – «Cənub Qaz Dəhlizi»ni vaxtında və bütün iştirakçılar üçün maksimal fayda ilə icra edəcəyik.

Mən bu gün keçirilən toplantıya verdiyiniz töhfəyə və iştirakınıza görə sizə bir daha minnətdarlığımı və ümidvar olduğumu bildirmək

istəyirəm ki, biz bu gün böyük uğurlara və gözəçarpan irəliləyişə imza atacağıq.

Sağ olun.

* * *

*Azərbaycanın Energetika naziri Natiq Əliyev prezident İlham Əliyevin «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşmasına verdiyi dəstəyin işlərin daha səmərəli həyata keçirilməsinə imkan yaradacağını vurğuladı.*

**M a r o ş  Ş e v ç o v i ç** *(Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti):* Hörmətli prezident İlham Əliyevə, nazirlərə, xüsusi nümayəndə Amos Hokstayna, beynəlxalq maliyyə qurumlarının nümayəndələrinə, xüsusilə Konsorsiumun nümayəndəsinə təşəkkür edirəm.

Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyevə bizi Bakıda Məşvərət Şurasının ikinci toplantısına dəvət etdiyinə görə minnətdarlığımızı bildirmək istərdik. Çünki cənab Prezidentin qeyd etdiyi kimi, ötən il bir çoxlarımız üçün olduqca çətin olub. Lakin buna baxmayaraq, biz bu strateji layihə ilə bağlı yaxşı nəticələr əldə etmişik. Düşünürəm ki, nələri tamamladığımıza nəzər salmaq və bu çox iddialı layihənin başa çatdırılmasında, əminəm, həlledici olacaq bu il üzrə planlar hazırlamaq üçün yaxşı vaxtdır.

Prezident İlham Əliyev artıq ötən ilin bəzi nailiyyətlərini qeyd etdi. Mən vurğulamaq istərdim ki, bizim üçün Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Avropa bazarına çıxışına nail olunması uzun illər müzakirə mövzusu olub. Lakin biz heç vaxt buna indiki qədər yaxın olmamışıq. Müqavilə üzrə Azərbaycan, Gürcüstan və Türkiyədə davam edən tikinti işlərinə 10 milyard dollar vəsaitin ayrılması faktı əlamətdar bir hadisədir. Bu, olduqca güclü irəliləyişdir. Mən sizin hamınıza minnətdarlığımı bildirmək istərdim, çünki siz – hökumətlərin burada iştirak edən nümayəndələri, nazirlər, aparıcı şirkətlərin rəhbərləri, xüsusilə də ev sahibliyi edən Azərbaycanın təmsilçiləri bu uğura öz töhfənizi vermisiniz. Çünki onların səyləri, konstruktiv və güclü dəstəyi olmasaydı, layihə bu qədər sürətlə irəli gedə bilməzdi.

Mən ötən il prezident İlham Əliyev ilə birlikdə Türkiyənin Qars vilayətində idim. Biz layihənin necə konkretləşdiyini, tikintinin necə başlandığını gördük. Mən əminəm ki, biz boru kəmərinin digər hissələrinin tikintisində də eyni irəliləyişin şahidi olacağıq. Bu səbəbdən də inanıram ki, bu il çox həlledici il olacaq.

Prezident İlham Əliyev enerji təhlükəsizliyinin əhəmiyyətini qeyd etdi. Biz də ölkələrimiz, vətəndaşlarımız üçün Avropada enerji təhlükəsizliyini təkmilləşdirməyə ehtiyac olduğunu hiss etdik. Ötən il bizim enerji birliyi layihəsini təqdim etməyimizin səbəblərindən biri məhz bu idi. Biz şaxələndirmə vasitəsilə enerji və təchizat təhlükəsizliyinin təkmilləşdirilməsinə nail olmaq istədik. Buna görə də «Cənub Qaz Dəhlizi»ni Avropanın öz enerji ehtiyatlarını necə şaxələndirməsinin bariz nümunəsi kimi görürük. Söhbət yeni ünvandan gələn yeni təchizatçı, yeni marşrut, yeni qazdan gedir. Bu, Avropanın enerji təhlükəsizliyinə həqiqətən, yeni elementlər gətirir və bu da Avropa İttifaqına üzv ölkələr üçün çox vacibdir.

*Maroş Şevçoviç Cənub-Şərqi Avropa, həmçinin Balkan ölkələrində layihəyə böyük marağın olduğunu dedi. Beynəlxalq maliyyə təşkilatlarının bu layihəyə marağını və dəstəyini yüksək qiymətləndirən Maroş Şevçoviç «Cənub Qaz Dəhlizi» layihəsinə Avropa İttifaqının dəstəyini ifadə etdi.*

*Qısa fasilədən sonra Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı öz işini davam etdirdi.*

*Energetika naziri Natiq Əliyev texniki cəhətdən mürəkkəb layihə olan «Cənub Qaz Dəhlizi» ilə bağlı ötən dövrdə görülən işlərdən danışdı, tədarük olunacaq qazın Avropa ölkələrinin təchizatında mühüm rol oynayacağını dedi. Fransa, İspaniya, İtaliya, Yunanıstan kimi iri Avropa ölkələrinin layihəyə böyük maraq göstərdiyini deyən Natiq Əliyev bu layihənin reallaşmasının yeni iş yerlərinin açılmasına imkan yaratdığını bildirdi.*

*Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak TANAP layihəsinin əhəmiyyətindən danışdı. O, «Cənub Qaz Dəhlizi» layihəsinin mühüm qolu olan TANAP-ın reallaşmasında Türkiyənin siyasi, iqtisadi və texniki dəstəyinin davam etdiriləcəyini bildirdi.*

ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstayn bu layihənin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını dedi. Amos Hokstayn enerji təhlükəsizliyi sahəsində mövcud çətinliklərdən və onların aradan qaldırılması yollarından danışdı. ABŞ təmsilçisi Birləşmiş Ştatların «Cənub Qaz Dəhlizi» layihəsini dəstəkləməkdə davam edəcəyini diqqətə çatdırdı.

Böyük Britaniyanın Enerji və İqlim Dəyişikliyi Nazirliyinin beynəlxalq enerji departamentinin baş direktoru Edmund Hosker bu toplantını təşkil etdiyinə görə Azərbaycan hökumətinə təbriklərini çatdırdı. Ölkəsinin «Cənub Qaz Dəhlizi» layihəsini dəstəklədiyini deyən Edmund Hosker Birləşmiş Krallıq ilə Azərbaycan arasında uğurlu işbirliyindən danışdı, bu layihənin reallaşmasında ölkəmizin rolunu vurğuladı.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrell «Cənub Qaz Dəhlizi» layihəsinin icrası ilə bağlı bütün işlərin cədvələ uyğun yerinə yetirildiyini bildirdi, 2016-cı ilin layihənin icrasında mühüm dövr olacağını diqqətə çatdırdı.

Trans–Anadolu qaz kəməri layihəsinin baş meneceri Saltuk Düzyol TANAP kəməri üçün ilk qazın 2018-ci ildə tədarük olunacağını, 2020-ci ildən isə qazın axınının başlanacağını bildirdi. TANAP-ın baş direktoru layihənin texniki göstəriciləri barədə toplantı iştirakçılarına ətraflı məlumat verdi.

Sonra TANAP layihəsi ilə bağlı qazanılan nailiyyətləri əks etdirən videoçarx nümayiş olundu.

Trans–Adriatik qaz kəməri layihəsinin icraçı direktoru İn Bradşav TAP-ın tikintisinə 2016-cı ildə başlanılacağını bildirdi. O, slaydlar vasitəsilə layihə çərçivəsində görülən işlərdən danışdı.

«Cənub Qaz Dəhlizi» QSC-nin baş direktoru Əfqan İsayev, Asiya İnkişaf Bankının özəl sektor əməliyyatları üzrə baş direktoru Tod Frilyand, Avropa İnvestisiya Bankı Qrupunun nümayəndəsi Massimo Deufemia, Avropa Yenidənqurma və İnkişaf Bankının baş rezident-əlaqələndiricisi Nil Makkeyn, Beynəlxalq Maliyyə Korporasiyasının Cənubi Qafqaz üzrə regional meneceri Jan Van Bilsen «Cənub Qaz Dəhlizi»nin strateji baxımdan önəmindən danışdılar.

*Gürcüstanın Baş nazirinin müavini, Energetika naziri Kaxa Kaladze layihənin həyata keçirilməsində bu toplantının əhəmiyyətindən danışdı, ölkəsinin «Cənub Qaz Dəhlizi»nə dəstək verdiyini bildirdi.*

*Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak qısa vaxtda layihə ilə bağlı müəyyən uğurlara nail olunduğunu və ölkəsi tərəfindən növbəti addımların atılacağını dedi.*

*Yunanıstanın Ətraf Mühit və Energetika Nazirliyinin enerji və mineral ehtiyatlar üzrə baş katibi Mixail Verroiopoulos əsas diqqəti layihə çərçivəsində şirkətlər arasında əlaqələrə çəkdi, layihənin icrası zamanı ətraf mühitin qiymətləndirilməsinə dair işlərdən danışdı.*

*Albaniyanın Energetika və Sənaye naziri Damian Gjiknuri bildirdi ki, ölkəsi enerji strukturunu təkmilləşdirmək və müasirləşdirmək niyyətindədir, bu baxımdan «Cənub Qaz Dəhlizi» Albaniya üçün xüsusi önəm daşıyır.*

*İtaliya Nazirlər Şurasının Dövlət katibi Klaudio De Vinçenti ölkəsinin bu layihəyə dəstəyindən məmnunluğunu ifadə etdi, «Cənub Qaz Dəhlizi»nin reallaşmasının Avropa qaz siyasəti üçün önəmini vurğuladı.*

*Bolqarıstanın Energetika naziri xanım Temenujka Petkova birləşdirici kəmərlər, texniki-iqtisadi əsaslandırmalar barədə danışdı, ölkəsində və Yunanıstan ərazisində ətraf mühitin və mülkiyyət məsələlərinin qiymətləndirilməsi ilə bağlı işlərin görüldüyünü dedi. Layihənin icrasına dair Türkiyə ilə müştərək qrupun yaradılacağını deyən bolqarıstanlı nazir «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşmasının ölkəsinə öz təbii ehtiyatlarını şaxələndirməyə imkan yaradacağını diqqətə çatdırdı.*

*Monteneqronun İqtisadiyyat naziri Vladimir Kavariç Albaniya və Monteneqro ərazisində texniki dəstək məsələlərinin müzakirəsindən və bu layihənin Avropa Komissiyasının maraqlarına cavab verməsi üçün lazımi işlərin həyata keçirilməsindən danışdı.*

*Xorvatiyanın İqtisadiyyat naziri Tomislav Paneniç enerji təhlükəsizliyinin milli təhlükəsizliyin ayrılmaz hissəsi olduğunu deyərək bildirdi ki, bu layihə Xəzər dənizinin təbii ehtiyatlarının bir çox ölkələrə çatdırılmasına mühüm töhfə verəcək.*

**F e d e r i k a  M o q e r i n i** *(Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti):* İcazə verin, Sizə və Azərbaycan tərəfinə, cənab Prezidentə bu çox vacib toplantının təşkilinə və ona ev sahibliyi etməsinə görə minnətdarlığımı bildirim, hamınıza üzərinizə götürdüyünüz öhdəlik və bu səhər görülmüş yaxşı işlərə görə ünvanlanmış alqışlara mən də qoşulum.

Bu mənə bütün işlərin görülməsi üçün «gəlin yolumuza davam edək» fikrini söyləmək imkanı verir. Bu təşəbbüsə və həmçinin bu toplantıya Avropa İttifaqında verdiyimiz dəyər açıq-aşkardır. Həm Maroş Şevçoviç, həm də mən bu layihənin Avropa İttifaqının enerji təhlükəsizliyi strategiyasının zəruri elementi olduğunu və energetika diplomatiyasının bizim xarici işlər və təhlükəsizlik siyasətimizin əsas hissəsini təşkil etdiyini bildirmək üçün buradayıq.

Biz keçən il Maroş Şevçoviç ilə birlikdə fəaliyyətə Avropa İttifaqı daxilində enerji siyasətinin heç də həmişə xarici siyasətlə bağlı olmamasına dair fikirlərimizi paylaşmaqla başladıq. Biz Komissiya daxilində bütün 28 üzv ölkə ilə bu siyasətləri bir-birinə daha da bağlamaq üçün çalışırıq. Çünki bu gün dünyada enerjinin pisə və yaxşıya doğru aparmasına baxmayaraq, təhlükəsizliyin və bizim xarici əlaqələrimizin regional şəbəkənin bir hissəsi olduğunu görürük.

Ötən ilin iyul ayında mənim Maroş Şevçoviç ilə birlikdə Avropa İttifaqının xarici işlər nazirlərilə görüşümüz oldu. Bu toplantıda biz bütün üzv ölkələrin bir-biri ilə paylaşdığı nəticələr dəstini qəbul etdik. Eyni zamanda, biz burada energetika diplomatiyası üzrə tədbirlər planı üzərində razılığa gəldik. Razılaşdıq ki, Avropa İttifaqının xarici siyasətində bizim enerji mənbələrimizin daha da şaxələndirilməsi üçün əhəmiyyət kəsb edən tərəfdaşlarımıza və təşəbbüslərimizə xüsusi prioritet verilsin.

«Cənub Qaz Dəhlizi»nin və Xəzər regionunun bizim əsas prioritetlərimiz sırasında olması açıq-aşkardır. Beləliklə, buraya açıq, yaxşı müəyyən olunmuş bir mandatla gəlmişəm. Bu isə ondan ibarətdir ki, biz «Cənub Qaz Dəhlizi»nə ciddi şəkildə dəstək göstəririk və layihənin vaxtında tamamlanması, daha da irəliləməsi üçün hamımızın birgə hərəkətini təmin etməkdən ötrü üzərimizə düşən və xüsusilə şəxsən

mənim üzərimə düşən öhdəliyi mümkün olduğu qədər yerinə yetirmək əzmindəyik.

«Cənub Qaz Dəhlizi» layihəsi bizim üçün enerjinin şaxələndirilməsindən daha böyük anlam kəsb edir, eyni zamanda, bu layihə Avropa İttifaqının enerji təhlükəsizliyindən daha böyükdür. Bu layihə daha geniş regionda onun icrasına töhfə verə bilən bir sıra tərəfdaşlarla siyasi, iqtisadi və sosial əlaqələrin genişlənməsi və dərinləşməsindən ibarətdir.

*Xanım Federika Moqerini «Cənub Qaz Dəhlizi»nin Avropa İttifaqı ilə Azərbaycan arasında yeni mərhələ olduğunu bildirdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyini vurğulayan Federika Moqerini dedi ki, regionda sabitliyin bərqərar olunması zəruridir və Avropa İttifaqı Cənubi Qafqazda davamlı sülhün qorunmasındakı səyləri davam etdirir.*

*Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç aparılan müzakirələrin səmərəli olduğunu bildirdi. Qeyd etdi ki, bütün ölkələrdə layihənin gedişatı ilə bağlı tərəqqi var. «Cənub Qaz Dəhlizi»nin çox vacib regionda reallaşdırıldığını deyən Maroş Şevçoviç bu toplantını növbəti dəfə təşkil etdiyinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev yekun nitqi söylədi.*

## YEKUN NİTQİ

Əvvəlcə, mən xanım Moqerinini salamlamaq istəyirəm və «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının bağlanış sessiyasında bizə qoşulduğuna görə minnətdarlığımı bildirirəm. Bu gün səhər biz vitse-prezident Şevçoviç ilə müzakirələri açıq elan etdik. İndi isə Avropa Komissiyasının 2 vitse-prezidenti ilə onları başa çatdırırıq. Bu, Avropa İttifaqının həmin layihəyə və enerji təhlükəsizliyinə aid məsələlərə verdiyi əhəmiyyətin bariz nümunəsidir.

Bu gün xanım vitse-prezidentlə geniş şəkildə müzakirə edəcəyimiz Avropa İttifaqı ilə əlaqələrimizin yaxşı tarixi və inkişafı üçün çox əhəmiyyətli potensialı var. Söhbət yalnız enerji təhlükəsizliyindən getmir. Biz siyasi dialoqa, iqtisadi əməkdaşlığa aid bir çox məsələlər üzərində işləyirik. Avropa İttifaqı əsas ticari tərəfdaşımızdır.

Demək olar ki, ticarət dövriyyəmizin yarısı Avropa İttifaqının üzv dövlətlərinin payına düşür. Biz regionda təhlükəsizlik məsələləri, proqnozlaşdırma, multikulturalizm və mədəni müxtəliflik ilə bağlı sıx işləyirik. Fikrimcə, Azərbaycan əməkdaşlığın uzun illəri ərzində özünü etibarlı tərəfdaş kimi doğruldub. Biz üzv dövlətlərlə və bütövlükdə, Avropa İttifaqı ilə ikitərəfli münasibətlərimizi gücləndirmək istəyirik.

Yeri gəlmişkən, bildirmək istəyirəm ki, Avropa İttifaqına üzv dövlətlərin üçdəbir hissəsi ilə Azərbaycan strateji tərəfdaşlıq haqqında bəyannamələri, yaxud sazişləri artıq imzalayıb və ya qəbul edib. Bu əslində əməkdaşlığımızın mahiyyətini əks etdirir.

Bu gün mən vitse-prezident Şevçoviçə «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsinə verdiyi mühüm şəxsi töhfəsinə görə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

1 il əvvəl Bakıda biz Məşvərət Şurasının ilk toplantısını keçirdik. Çox şadam ki, 1 il sonra – hazırda Şuranın ikinci toplantısı baş tutur və bu göstərir ki, proses davam edəcək. Əminəm ki, həmin görüşlər bu cür genişmiqyaslı layihənin həyata keçirilməsi ərzində ənənəvi xarakter daşıyacaq. Həmçinin fürsətdən istifadə edərək, mən Birləşmiş Ştatların hökumətinə və verdiyi töhfəsinə görə şəxsən cənab Hokstayna təşəkkürümü bildirmək istəyirəm. 20 ildən çox müddət əvvəl bütün enerji təşəbbüslərimizin reallaşmasında Azərbaycana verdiyi davamlı dəstəyə görə ABŞ Hökumətinə minnətdaram. Bu gün bu layihənin həyata keçirilməsinə yardım etmək məqsədilə ABŞ-ın oynadığı rol çox əhəmiyyətlidir. Əminəm ki, məhsuldar əməkdaşlıq davam edəcək və gələcəkdə onun müsbət nəticələrini də görəcəyik.

Mən Məşvərət Şurasının bütün üzvlərinə fəal iştirakına, bu gün aparılmış müzakirələrə verdikləri töhfəyə və nəhayət, bir azdan imzalanacaq Bəyannaməni, eləcə də Azərbaycanın «Cənub Qaz Dəhlizi»nin əsas aparıcısı kimi strateji rolunu qeyd etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Fəaliyyətimizi bu cür dəyərləndirdiyinizə görə olduqca minnətdarıq. Şadıq ki, bu Məşvərət Şurası formatını qurmaq məqsədilə irəli sürdüyümüz təşəbbüslər tərəfdaşlarımız, Avropa Komissiyası tərəfindən dəstəkləndi. Əməkdaşlığın bu formatının praktiki, yaxşı nəticələrini görürük.

Son 1 il ərzində biz mühüm məsələlərin həllinə ikitərəfli və çoxtərəfli formatda xeyli vaxt sərf etdik. Bu, nadir formatdır ki, «Cənub Qaz Dəhlizi»nin bütün üzvləri, maliyyə təsisatları, Avropa Komissiyası, Birləşmiş Ştatlar bir araya gələrək, görülmüş işləri nəzərdən keçirirlər və gələcək üçün planlar hazırlayırlar. Ötən 2015-ci il layihənin həyata keçirilməsində uğurlu il oldu. Biz səhər bu barədə danışdıq. Əminəm ki, 2016-cı il bu layihənin reallaşmasında çox mühüm və əhəmiyyətli il olacaq. İnanıram ki, bu layihənin uğurlu və vaxtında icrası üçün şərait yaratmaq məqsədilə qarşıda duran bütün məsələləri həll edəcəyik.

«Cənub Qaz Dəhlizi» Avropada ən iri infrastruktur və enerji layihələrindən biridir. Çoxmilyardlıq – 40 milyard dollardan artıq vəsait layihənin bütün 4 seqmentinə yatırılacaq. «Cənub Qaz Dəhlizi»nin bütün 4 seqmentində çox yaxşı irəliləyişə nail olmuşuq. Bu, tərəfdaşlıq, əməkdaşlıq layihəsidir. Biz güclü tərəfdaşlıq qurmuşuq. Xanım Moqerininin qeyd etdiyi kimi, söhbət yalnız enerjidən getmir. Bu gün biz gələn bir neçə il üçün əsl tərəfdaşlıq yaratmışıq. Əməkdaşlığımız layihə başa çatdıqdan sonra bitməyəcək, davam edəcək. Əminəm ki, daha fəal əməkdaşlıq layihə başa çatdıqdan sonra reallaşacaq. Çünki hamımız bir-birimizlə bağlı və bir-birimizdən asılı olacağıq. «Cənub Qaz Dəhlizi» layihəsi bir çox illər ərzində hamımıza – hasilatçılara, tranzit ölkələrə və istehlakçılara fayda verəcək. Bu, enerji təhlükəsizliyi layihəsidir.

Bu gün səhər söylədim ki, enerji təhlükəsizliyi indi ölkələrin milli təhlükəsizliyinin ən mühüm elementlərindən biridir. Bu, enerji şaxələndirilməsi layihəsidir. «Cənub Qaz Dəhlizi» layihəsində biz nəinki marşrutların, o cümlədən mənbələrin şaxələndirilməsini görürük. Bu isə daha əhəmiyyətlidir.

Bu, aramızda səmimi əməkdaşlıq və tərəfdaşlıq layihəsidir. Bu vaxta qədər «Cənub Qaz Dəhlizi» layihəsinin yeganə resurs mənbəyi «Şahdəniz» qazı hesab edilib. Bu yataqda 1 trilyon kubmetrdən artıq qaz mövcuddur. Lakin bildiyiniz kimi, Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,5 trilyon kubmetrdən çoxdur. Buna görə əminəm ki, icrasını tərəfdaşlarımızla birgə planlaşdırdığımız gələcək layihələr bu layihəyə əlavə həcmləri təmin edəcək. Biz 4-5 il ərzində planlaşdırdığımız hasilatdan qat-qat çox həcmdə qazı nəql edə biləcək

boru kəmərini çəkirik. Bu səbəbdən bu, uzunmüddətli enerji əməkdaşlığı, şaxələndirmə, sabitlik, proqnozlaşdırma layihəsidir.

«Cənub Qaz Dəhlizi» layihəsi Avropanın enerji xəritəsini dəyişir. Azərbaycan qaydalarla, təcrübə və qanunvericiliklə tənzimlənən böyük bazarlara çıxış əldə edəcək. Avropa istehlakçıları etibarlı, dost mənbədən, yeni mənbədən qaz alacaqlar. Bu elə mənbədir ki, onilliklər boyu etibarlı təchizatı təmin edə bilər. Əminəm ki, belə də olacaq, çünki Azərbaycanın son 20 il ərzində başladığı bütün layihələr uğurlu olmuşdur.

Azərbaycan XIX əsrin ortalarında dünyada ilk dəfə neft hasil edən ölkə olub. Sonra, XX əsrin ortalarında dənizdə platforma vasitəsilə neft ilk dəfə məhz Azərbaycanda hasil edilib. Müstəqilliyin bərpasından cəmi 3 il sonra Azərbaycan «Əsrin müqaviləsi» kimi tanınan müqaviləyə imza atdı. Dünyada ilk dəfə olaraq, biz Xəzər dənizinin ehtiyatlarını xarici sərmayələr üçün açıq elan etdik və xarici şirkətləri tərəfdaş kimi, ölkəmizə dəvət etdik. Bu gün mən əsas sərmayədar və strateji tərəfdaş olan *bp*-yə minnətdarlığımı bildirmək istəyirəm. Bu şirkət Azərbaycana qəti surətdə sadiqdir və bizimlə artıq 20 ildən çoxdur ki, işləyir. Həmçinin həmin beynəlxalq əməkdaşlıq nəticəsində dünyanın ən mühüm enerji şirkətlərindən birinə çevrilmiş Dövlət Neft Şirkətini də qeyd edirəm.

1994-cü ildə biz cəmi 3 il idi ki, müstəqil idik. Xanım Moqerini qeyd etdi ki, bu gün apardığımız müzakirələrin bir hissəsi Ermənistan ilə Azərbaycan arasında münaqişənin həllinə aid olacaq. Biz «Əsrin müqaviləsi»ni Ermənistan ilə Azərbaycan arasında atəşkəs rejimi əldə olunduqdan cəmi 4 ay sonra – 1994-cü ilin sentyabrında imzaladıq. Əfsuslar olsun ki, ötən illər ərzində münaqişə öz həllini tapmayıb, çünki Ermənistan qoşunlarını işğal edilmiş ərazilərdən çıxarmaq, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsini icra etmək istəmir.

1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi gedirdi, iqtisadiyyat dağılmışdı. Tənəzzül, 1000 faizdən artıq inflyasiya mövcud idi. Bu cür şəraitdə xarici neft şirkətləri gələcəyimizə inandı. Azərbaycanın etibarlı tərəfdaş olduğuna inandılar və 1994-cü ildə müqaviləni

imzaladılar. Bu əslində bugünkü layihə üçün əsas yaratdı. Əgər nailiyyətlərin tarixinə nəzər salsaq görərik ki, 1994-cü ildə dünyada ən iri neft yataqlarından biri sayılan «Azəri–Çıraq–Günəşli» ilə bağlı müqavilə imzalandı. 2 il sonra, 1996-cı ildə Dövlət Neft Şirkəti ilə *bp*-nin rəhbərlik etdiyi konsorsium arasında bu gün «Cənub Qaz Dəhlizi» üçün resurs bazası olan «Şahdəniz» layihəsi ilə bağlı saziş imzalandı. Sonra Xəzər dənizini Qara dəniz ilə ilk dəfə boru xətti vasitəsilə birləşdirən Bakı–Supsa neft kəməri çəkilməyə başlandı. 1997-ci ildə *bp*-nin əməliyyatçı olduğu konsorsium dənizdəki «Çıraq» yatağında ilk neft hasil etdi. Sonra fəal əməkdaşlıq və sərmayələr dövrü başlandı. 2003-cü ildə Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin təməlqoyma mərasimi keçirildi. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılışı oldu. İlk dəfə olaraq, Xəzər və Aralıq dənizləri neft boru kəməri ilə birləşdirildi. Həmin boru kəməri olmasaydı, Azərbaycanın iqtisadi inkişafı bugünkü inkişafdan xeyli fərqli ola bilərdi.

2007-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən qaz boru kəmərinin açılışı oldu. Bu gün həmin boru kəməri genişləndirilir. O, «Cənub Qaz Dəhlizi»nin mühüm hissəsidir. 2011-ci ildə şaxələndirməni stimullaşdırmaq məqsədilə Avropa Komissiyası ilə Azərbaycan arasında çox mühüm sənəd hesab edilən strateji əməkdaşlıq və enerji sahəsində Anlaşma Memorandumu imzalandı. 2012-ci ildə TANAP – Trans–Anadolu boru kəmərinin çəkilməsinə dair Türkiyə ilə Azərbaycan arasında tarixi saziş imzalandı. O, hazırda uğurla icra olunur. Səmimi desək, həmin saziş olmadan bu gün bu layihə ilə bağlı vəziyyət tamamilə başqa cür olardı. Həmin sazişdən sonra sərmayədarlar «Şahdəniz-2» layihəsinə investisiya qoyuluşuna aid yekun qərar üzərində razılığa gəldilər. Bu, 2013-cü ildə baş verdi. 2014-cü ildə «Cənub Qaz Dəhlizi» ilə bağlı Bakıda təməlqoyma mərasimi keçirildi. 2015-ci ildə Türkiyənin Qars vilayətində TANAP-ın təməlqoyma mərasimi baş tutdu. Nəhayət, ümid edirik ki, 2016-cı ildə TAP layihəsinin təməlqoyma mərasimi olacaq. Sonra isə, 2018-ci ildə TANAP başa çatdırılacaq. Yəni 1 il və ya il yarımdan sonra layihə başa çatacaq.

Bir sözlə, siz layihəyə bu nöqteyi-nəzərdən baxsanız görərsiniz ki, əməkdaşlıq və sərmayə tarixi olmadan bu gün nailiyyətlərimiz müm-

künsüz olardı. Hazırda planlaşdırdığımız bütün işlər möhkəm bünövrəyə əsaslanır. Bütün bu müddət ərzində Azərbaycan özünü çox etibarlı və bacarıqlı tərəfdaş kimi göstərdi.

Biz qonşularımız, Avropa İttifaqının bir çox ölkələri ilə çox sıx münasibətlər qurmuşuq. Bu gün biz çox səmərəli, açıq və səmimi əməkdaşlığı görürük. Məşvərət Şurası formatının yaradılmasının əsas məqsədi əlaqələndirmə ilə bağlı idi. Çünki hazırda hamımız bir komandayıq: Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya. Çox şadam ki, Xorvatiya və Monteneqro nümayəndələri bugünkü görüşdə iştirak edirlər. Bu onu göstərir ki, «Cənub Qaz Dəhlizi» daha da genişlənəcək. Azərbaycanın qaz ehtiyatları və potensial əlavə ehtiyatlar, tikintisini planlaşdırdığımız infrastruktur bizə təbii sərvətlərimizi bir çox ölkələrə çatdırmaq imkanı yaradacaq. Biz layihəni uğurla icra etməliyik. Fikrimcə, bugünkü nailiyyət göstərir ki, bu, vaxtında mümkün olacaq. Sonra isə uzunmüddətli strategiyamızı həmin layihə üzərində quracağıq. Bu məqsədlə bu əməkdaşlıq və əlaqələndirmə davam etməlidir. Əminəm ki, davam edəcək.

Fürsətdən istifadə edərək, sizi «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının üçüncü toplantısında iştirak etmək üçün gələn il Azərbaycana dəvət edirəm. Əminəm ki, həmin vaxt bizim yaxşı hesabatlarımız olacaq. Sizin hamınıza uğurlar arzulayıram. İştirakınıza görə sağ olun.

## «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN İKİNCİ TOPLANTISININ BİRGƏ BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİ

*29 fevral 2016-cı il*

*«Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində fevralın 29-da nazirlərin ikinci toplantısının Birgə Bəyannaməsi imzalanmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Mogerini imzalanma mərasimində iştirak etmişlər.*

*Birgə Bəyannaməni «Cənub Qaz Dəhlizi» layihəsinin iştirakçısı olan ölkələrin nazirləri və xüsusi nümayəndələri imzaladılar.*

*Bununla da «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin Bakıda keçirilən ikinci toplantısı işini başa çatdırdı.*

## AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEVÇOVİÇ İLƏ GÖRÜŞ

*29 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 29-da Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviçi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın dinamik inkişafından məmnunluq ifadə olundu. «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısının böyük əhəmiyyətə malik olduğu qeyd edildi və Maroş Şevçoviçin bu tədbirdə iştirakı məmnunluqla vurğulandı.*

*Söhbət zamanı «Cənub Qaz Dəhlizi» layihəsinin icrasının hazırkı durumu və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN RƏSMİSİ AMOS HOKSTAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 29-da ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının Bakıda keçirilən ikinci iclasının layihənin icrası ilə bağlı məsələlər ətrafında birgə müzakirələrin aparılması üçün uğurlu format olduğunu qeyd etdi. Prezident İlham Əliyev ABŞ Hökumətinin layihəyə göstərdiyi dəstəyin əhəmiyyətini qeyd edərək, Amos Hokstaynın bu tədbirdə iştirakının önəmini vurğuladı. Dövlətimizin başçısı tədbirin yaxşı nəticələr verəcəyinə ümidvar olduğunu bildirdi.*

*ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstayn «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının ikinci iclasına dəvət olunmasından məmnunluğunu ifadə etdi. Keçənilki iclasın səmərəli keçdiyini vurğulayan Amos Hokstayn builki tədbirin layihə üçün önəmli olan indiki dövrdə baş tutmasının əhəmiyyətini qeyd etdi. O, layihənin icrası istiqamətində qarşıda duran müxtəlif məsələlər ətrafında birgə fikir mübadiləsi aparılması üçün iclasın yaxşı imkan yaratdığını vurğuladı.*

## GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ KAXA KALADZE İLƏ GÖRÜŞ

*29 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 29-da Gürcüstanın Baş nazirinin müavini və Energetika naziri Kaxa Kaladzeni qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında enerji layihələrinin yüksək səviyyədə həyata keçirildiyi, «Cənub Qaz Dəhlizi»nin uğurla reallaşdırıldığı bildirildi. Ölkələrimiz arasında enerji sahəsi ilə yanaşı, digər sahələri də əhatə edən birgə layihələrin uğurla icrasından məmnunluq ifadə olundu. İki ölkənin gələcəkdə də strateji tərəfdaş kimi əməkdaşlıq edəcəyi vurğulandı.*

## TÜRKİYƏ RESPUBLİKASININ ENERJİ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ BERAT ALBAYRAK İLƏ GÖRÜŞ

*29 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 29-da Türkiyə Respublikasının Enerji və Təbii Sərvətlər naziri Berat Albayrakı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən enerji sahəsində yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. TANAP layihəsinin cədvələ uyğun olaraq, uğurla həyata keçirildiyi vurğulandı, əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQININ ALİ NÜMAYƏNDƏSİ FEDERİKA MOQERİNİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*29 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən fevralın 29-da Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerininin şərəfinə ziyafət verilmişdir. Ziyafətdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç iştirak etmişlər.*

## AŞPA-nın PREZİDENTİ PEDRO AQRAMUNT İLƏ GÖRÜŞ

*1 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Avropa Şurası Parlament Assambleyasının prezidenti Pedro Aqramuntu qəbul etmişdir.*

*Avropa Şurası Parlament Assambleyasının prezidenti seçilməsi münasibətilə Pedro Aqramuntu təbrik edən dövlətimizin başçısı onun yeni vəzifəyə seçildikdən az müddət sonra Azərbaycana səfər etməsini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Təşkilatla tamhüquqlu əməkdaşlığımızın 15 illik bir tarixi əhatə etdiyini vurğulayan prezident İlham Əliyev Azərbaycanın Avropa Şurası Parlament Assambleyasının üzvü kimi, müsbət inkişaf proseslərinə öz töhfəsini verməkdə davam etdiyini bildirdi. Dövlətimizin başçısı tərəfdaşlığımızın bundan sonra da yeni inkişaf səviyyəsinə doğru irəliləyəcəyinə əminliyini ifadə etdi.*

*Bakıya səfərindən məmnunluğunu ifadə edən Avropa Şurası Parlament Assambleyasının prezidenti Pedro Aqramunt bu vəzifəyə seçildikdən sonra ilk xarici səfərlərindən birini Azərbaycana etdiyini vurğulayaraq, ölkəmizin onun üçün xüsusi əhəmiyyət daşıdığını bildirdi. Hazırda bütün dünyanın, xüsusilə Avropanın müxtəlif çağırışlarla üzləşdiyini deyən Pedro Aqramunt belə bir dövrdə qarşılıqlı maraq doğuran məsələlərin müzakirə olunmasının önəmini qeyd etdi və Azərbaycanın bəzi məsələlərin həlli baxımından mühüm ölkə olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin qarşılıqlı inam və hörmət prinsipləri əsasında daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BİRLƏŞMİŞ QƏRARGAH RƏİSLƏRİ KOMİTƏSİNİN SƏDRİ RƏŞAD MAHMUDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Rəşad Mahmudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Komitə sədri Rəşad Mahmud Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Siyasi, mədəni və dini əlaqələrimizin qədim tarixə malik olduğunu vurğulayan qonaq ölkələrimizin ən çətin vaxtlarda həmişə bir-birinin yanında olduğunu bildirdi. Rəşad Mahmud dedi: «Cənab Prezident, biz bu əlaqələrin inkişaf etdirilməsini həmişə arzulamışıq, Azərbaycan bizim ürəyimizdə yaşayır, biz bunu hər zaman sübut etmişik». Pakistanlı qonaq ölkəmizə səfəri çərçivəsində azərbaycanlı həmkarları ilə səmərəli qarşılıqlı təmasların olacağına əminliyini bildirdi.*

*Prezident İlham Əliyev Pakistan prezidenti Məmnun Hüseynin ölkəmizə uğurlu rəsmi səfərini, həmçinin Baş nazir Məhəmməd Nəvaz Şəriflə bu yaxınlarda Davosda keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı ölkələrimiz arasında tarixi köklərə malik olan ikitərəfli münasibətlərimizin hazırda çox uğurla inkişaf etdiyini vurğuladı, Azərbaycan ilə Pakistanın beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkəmizin Pakistan ilə bütün sahələri əhatə edəcək ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, mədəni, hərbi və digər sahələrdə daha da inkişaf etdirməkdə maraqlı olduğunu dedi. Dövlətimizin başçısı Pakistan İslam*

*Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Rəşad Mahmudun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı əməkdaşlığımızın daha da möhkəmləndirilməsi ilə bağlı müzakirələrin aparılacağına və ikitərəfli əlaqələrimizin genişləndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi baxımından uğurlu olacağına əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev Pakistan prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistan Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin gündəliyi ilə bağlı məsələlərin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını bildirdi. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsində hökumətlərarası birgə Komissiyanın fəaliyyətinin səmərəli olduğunu qeyd edərək, ötən dövr ərzində komissiya tərəfindən bir sıra məsələlərin icra olunduğunu vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, bu gün hər iki ölkə ikitərəfli münasibətlərimizi strateji tərəfdaşlıq əlaqələri kimi xarakterizə edir. Prezident İlham Əliyev bunu əməkdaşlıq istiqamətində birgə əldə olunan nailiyyətlərə verilən yüksək qiymət kimi dəyərləndirdi.*

*Azərbaycan ilə Rusiya arasında fəal siyasi münasibətlərin olduğunu deyən prezident İlham Əliyev dövlət başçılarının mütəmadi əlaqələrinin mövcud olduğunu vurğulayaraq, həm şəxsi təmaslar, həm də telefon danışıqları zamanı Rusiya Federasiyasının Prezidenti ilə çoxlu vacib məsələləri müzakirə etdiklərini və gündəlikdə duran bir çox məsələlərlə bağlı qarşılıqlı anlaşma əldə edildiyini bildirdi. Ölkələrimiz arasında ticarət dövriyyəsinə toxunan prezident İlham Əliyev Azərbaycan məhsullarının Rusiyaya ixracının həcminin artırılması ilə bağlı fəal iş aparıldığını dedi. Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz Rusiya ixracının Azərbaycan idxalında ənənəvi olaraq mühüm yerlərdən birini, hətta birinci yeri tutmasında maraqlıdır. Əməkdaşlığımızın bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, hərbi-texniki, humanitar sahələrdə mövcud*

*olan ikitərəfli münasibətlərə Azərbaycan tərəfinin böyük əhəmiyyət verdiyini bildirdi. Dövlətimizin başçısı, həmçinin regional miqyasda müvafiq strukturlar çərçivəsində əməkdaşlıq formatının yaradıldığını, regional forumların keçirildiyini dedi, bu istiqamətdə müsbət dinamikanın müşahidə olunduğunu bildirdi. Prezident İlham Əliyev bu işə hər iki ölkənin siyasi rəhbərliyinin təkan verdiyini xüsusi qeyd edərək, dövlətlərin müvafiq qurumlarının vahid istiqamətdə fəaliyyət göstərdiklərini vurğuladı.*

*Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozin dedi: «Cənab Prezident, xüsusi qeyd etmək istərdim ki, son illər dünyada baş verən iqtisadi böhranın və karbohidrogen bazarında məlum hadisələrin mövcud olmasına baxmayaraq, hökumətlərarası birgə Komissiyamız əməkdaşlığı daha da genişləndirməyə nail olub. Biz bu gün görürük ki, iki dövlətin başçıları arasında təmaslar nəinki artıb, bu təmaslar təkcə ikitərəfli münasibətləri deyil, hətta regional məsələlərin bütün spektrini əhatə edir».*

*Dmitri Roqozin hazırda beynəlxalq aləmdə, Yaxın Şərq regionunda meydana gələn təhdid və təhlükələrin, o cümlədən terror təhlükəsinin və digər məsələlərin regional səviyyədə müzakirə edilən mühüm məsələlərdən olduğunu dedi. Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin hazırkı dövrdə ən yüksək səviyyədə olduğunu bildirən Dmitri Roqozin hökumətlərarası birgə Komissiya səviyyəsində əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi, mədəni, təhsil və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyini vurğuladı. Dmitri Roqozin Rusiyaya qarşı sektoral sanksiyaların tətbiq olunduğu dövrdə Azərbaycanın Rusiya Federasiyasını fəal şəkildə dəstəklədiyini vurğulayaraq, Azərbaycan kənd təsərrüfatı məhsullarının Rusiyaya ixracının artdığını məmnunluqla qeyd etdi. O, Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiyada çox yaxşı tanındığını dedi, ölkəmizin məhsullarının yerləşdirilməsi üçün xüsusi anbarların yaradıldığını diqqətə çatdırdı.*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və uğurlar arzulayıram.

Azərbaycan qadınının cəmiyyətimizdə qazandığı yüksək mövqe və elmdə, təhsildə, mədəniyyətdə fəth etdiyi zirvələr bizim tarixi nailiyyətimiz, əbədi qürur mənbəyimizdir. Onun ictimai nüfuzu dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünü vahid məfkurə ətrafında birləşmiş şəkildə qarşılamağa hazırlaşan Azərbaycanın müasir həyatının diqqətəlayiq gerçəkliyidir. Azərbaycan xanımları ülvi amallar naminə zəngin ictimai fəaliyyətləri boyunca özlərinin daxili aləmlərinin ahəngdarlığını həmişə layiqincə qoruyub saxlamış, mürəkkəb sosial-siyasi dəyişikliklərin baş verdiyi ən müxtəlif dövrlərdə cəmiyyətimizin əsl mənəvi dayağı olmuşlar.

İnsan qəlbinin gözəlliklərinin tərənnümçüsü kövrək təbiətli qadın şair və musiqiçilərimizin, xeyirxahlıq, insanpərvərlik rəmzi qadın həkim və müəllimlərimizin adları yaxın keçmişimizin hər bir səhifəsini bəzəyir. Xalqımızın onun cəmiyyət həyatında yaxından iştirakına münasibətinin nəticəsidir ki, Azərbaycanda qadın hərəkatının görkəmli xadimləri öz dərin zəkalarına, tükənməz potensiallarına güvənərək, yeni tarixi şəraitdə böyük müvəffəqiyyətlər qazanmışlar.

Milliliklə müasirliyin vəhdətini mənəviyyatının ayrılmaz tərkib hissəsinə çevirən Azərbaycan qadınının zərifliyi, saflığı və sədaqəti söz, sənət abidələrimizdə əhatəli bədii təcəssümünü tapmışdır. İnanıram ki, sürətlə qloballaşan dünyada gənc nəslin çoxəsrlik tarixi-mədəni irsimizə ehtiram, vətənpərvərlik və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda yetişdirilməsi üçün siz bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, bütün gücünüzü, istedad və bacarığınızı ölkənin intellektual, mənəvi sərvətlərinin zənginləşdirilməsi yolunda səfərbər edəcəksiniz.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 4 mart 2016-cı il*

## BMT DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ TALEB RİFAİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də BMT Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifainin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifai ölkəmizə ötən səfərlərini və həmin səfərlər çərçivəsində prezident İlham Əliyev ilə görüşlərini xatırlatdı, bu görüşlər zamanı müzakirə olunan bir çox məsələlər, o cümlədən vizaların verilməsi, aşağı büdcəli uçuşların həyata keçirilməsi ilə bağlı işlərin Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə uğurla həyata keçirilməsini məmnunluqla qeyd etdi. Qonaq hər səfərində şəhərimizin gözəlliyinin onda xoş təəssürat yaratdığını dedi.

BMT Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifai ilə keçirdikləri görüşləri məmnunluqla xatırladan dövlətimizin başçısı Azərbaycanda turizmin inkişafına göstərdiyi dəstəyə görə ona minnətdarlığını bildirdi, qonağın verdiyi məsləhətlərin bu baxımdan önəmini qeyd etdi. Azərbaycanda turizmin daim prioritet sahələrdən biri olduğunu vurğulayan prezident İlham Əliyev bu sahənin inkişaf etdirilməsi üçün ölkəmizin əlverişli coğrafi mövqeyinin, gözəl təbiətinin yaxşı imkanlar yaratdığını dedi. Dövlətimizin başçısı dünyada iqtisadi böhranın mövcud olduğu indiki zamanda turizm sahəsinin yeni iş yerlərinin yaradılması, ölkəyə maliyyə axınının təmin edilməsi və digər məsələlər baxımından əhəmiyyətini qeyd edərək, Azərbaycanda turizm sektorunda islahatların davam etdirildiyini bildirdi. Dövlətimizin başçısı görülən işlər nəticəsində Azərbaycana səfər edəcək turistlərin sayının daha da artacağına ümidvar olduğunu söylədi.

*Görüşdə Azərbaycanda turizm xidmətlərinin genişləndirilməsi, turizmin iqtisadiyyatın digər sahələri ilə əlaqələndirilməsi, ölkəmizdə turizm infrastrukturunun daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*6 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 6-da ölkəmizdə rəsmi səfərdə olan Macarıstan Respublikasının Baş naziri Viktor Orban ilə təkbətək görüşü olmuşdur.*

*Baş nazir Viktor Orbanı və xanımı Aniko Levaini Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycan–Macarıstan əlaqələrinin genişləndirilməsi baxımından bu səfərin əhəmiyyəti qeyd olundu. İkitərəfli əlaqələrimizin müxtəlif sahələrdə inkişafı üçün yaxşı potensialın olduğu vurğulandı, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Azərbaycan Prezidenti, Macarıstanın Baş naziri və xanımları birgə foto çəkdirdilər.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*6 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan Respublikasının Baş naziri Viktor Orbanın martın 6-da təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

Prezident İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın respublikamıza rəsmi səfərinin ikitərəfli münasibətlərin daha da inkişafı baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz münasibətləri bütün istiqamətlərdə daha da genişləndirmək niyyətindədir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətləri dinamiklik və qarşılıqlı anlaşma fərqləndirir və Baş nazir Viktor Orbanın respublikamıza rəsmi səfəri ölkələrimiz arasında siyasi əlaqələri daha da möhkəmləndirəcək. Dövlətimizin başçısı ölkələrimizin işgüzar dairələrinin daha fəal çalışacaqlarına ümidvar olduğunu bildirdi. Səfər zamanı Azərbaycan ilə Macarıstan arasında bir neçə konkret razılaşmanın imzalandığını deyən prezident İlham Əliyev qeyd etdi ki, belə razılaşmalar daha çox olacaq. Azərbaycan üçün Macarıstan yaxın, dost dövlətdir və biz istərdik ki, iqtisadi əlaqələr münasibətlərimizin siyasi səviyyəsinə uyğun olsun. Eləcə də kənd təsərrüfatı, energetika, yüksək texnologiyalar sahələrində də yaxşı perspektivlər var. Dövlətimizin başçısı bildirdi ki, biz ölkəmizə Macarıstandan investisiyaların yatırılmasında da maraqlıyıq. İstərdik ki, Azərbaycanın özünün maliyyələşdirdiyi layihələrdə daha çox macar şirkətləri iştirak etsinlər. Son bir ildə Macarıstan məhsullarının Azərbaycana ixracının artdığını deyən prezident İlham Əliyev bu ölkənin şirkətlərinin respublikamızda müxtəlif infrastruktur, tikinti və kənd təsərrüfatı layihələrində iştirak etdiklərini vurğuladı.

Dövlətimizin başçısı əminliyini bildirdi ki, səfərin yekunlarına görə iqtisadiyyat və biznesdə əməkdaşlıq potensialını daha da

*artırmaq məqsədilə müvafiq qurumlara yeni tapşırıqlar veriləcək. İqtisadi sahədə bütün səyləri əlaqələndirən hökumətlərarası Komissiyanın uğurlu fəaliyyətini qeyd edən prezident İlham Əliyev Baş nazir Viktor Orbanın rəsmi səfərinin ölkələrimizi daha da yaxınlaşdıracağına və çox yaxşı nəticələrə təkan verəcəyinə əminliyini bildirdi.*

*Ölkəmizə rəsmi səfərə dəvətə görə minnətdarlığını bildirən Baş nazir Viktor Orban qeyd etdi: «...biz hər il şəxsən görüşürük, Sizə Macarıstana son səfərinizə görə təşəkkür edirik. Düşünürəm ki, ortaq işlərimizin sayı artdığına görə ildə bir dəfə yüksək səviyyədə görüşlər keçirmək yaxşı olardı. Çünki mən görürəm ki, bizim istənilən görüşümüz həm mədəni, həm də iqtisadi sahələrdəki fəaliyyətimizə təkan verir». «İnsan sözə əsaslanaraq dərk edir» macar atalar sözünə istinad edən Baş nazir Viktor Orban xüsusi vurğuladı: «...biz görüşəndə hamı anlayır ki, bu, mühüm görüşdür. Biz çox intensiv və əhəmiyyətli inkişafı qeyd edə bilərik. Bu, xüsusilə kənd təsərrüfatı sahəsində daha çox bilinir. Mən Sizə, cənab Prezident, bu sahədə təcrübəmizi təklif etmək istəyirəm». Bu məqsədlə Azərbaycandan ekspertlərin, peşəkarların gəlişini gözlədiklərini deyən Baş nazir Viktor Orban təcrübələrini böyük məmnuniyyətlə Azərbaycan ilə bölüşməyə hazır olduqlarını bir daha vurğuladı.*

*Görüşdə, həmçinin nəqliyyat, energetika, kənd təsərrüfatı, su təchizatı, informasiya-kommunikasiya texnologiyaları, şəhər təsərrüfatı və infrastruktur sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

## MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*6 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstan Respublikasının Baş naziri Viktor Orban martın 6-da geniş tərkibdə görüş başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar!

Sizi bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Macarıstan bizim üçün çox yaxın və dost ölkədir. Mən şadam ki, səfər çox uğurla keçir və səfərin nəticələri Macarıstan–Azərbaycan əlaqələrinin inkişafında mühüm rol oynayacaqdır.

Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. 2014-cü ilin sonunda mən Macarıstana səfər edərkən, biz Sizinlə strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalamışıq. Bu özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, bizim əlaqələrimiz strateji xarakter daşıyır. Bizim görüşlərimiz də müntəzəm olaraq keçirilir. Siyasi əlaqələrin yüksək səviyyədə olması bütün başqa sahələrə də müsbət təsir göstərir. Biz beynəlxalq təşkilatlarda uğurla fəaliyyət göstəririk. Macarıstan Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrində çox müsbət və fəal rol oynayır. Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir və əminəm ki, gələcəkdə Macarıstan bu əlaqələrin inkişafını daim dəstəkləyəcəkdir.

Bu gün biz bir çox məsələlər – siyasi əlaqələr, iqtisadi sahədə əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Hökumətlərarası Komissiyanın fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Bir çox məsələlər Komissiya çərçivəsində öz həllini tapır. Biz gözəl siyasi

əlaqələrimizin əsasında güclü iqtisadi əməkdaşlıq da qurmalıyıq. Mən şadam ki, keçən il Macarıstanın Azərbaycana ixracı artıb. Bu, gözəl göstəricidir. Bu gün biz bir çox konkret layihələr ətrafında fikir mübadiləsi apardıq. Energetika sahəsində çox gözəl əməkdaşlıq var. SOCAR ilə MOL şirkəti arasında əməkdaşlığın artıq yaxşı tarixi var və bu əməkdaşlıq yeni pilləyə qalxmalıdır. Biz bu gün bu barədə danışmışıq. Azərbaycanın enerji siyasəti bu gün Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirilir. Keçən ayın sonunda Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının ikinci toplantısı keçirilmişdir. Həmin toplantı nəticəsində qəbul edilmiş Bəyannamə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində və «Cənub Qaz Dəhlizi»nin icrasında aparıcı rolunu qeyd edir. Bizim zəngin neft-qaz yataqlarımız var. Bu gün «Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi layihəsidir. 3500 kilometr uzunluğunda tikiləcək bu kəmər gələcəkdə Avropanı Azərbaycan ilə daha da sıx birləşdirəcəkdir.

Bu gün biz digər istiqamətlər üzrə də geniş danışdıq. Dünən də Komissiyanın üzvləri fikir mübadiləsi aparmışlar. Kənd təsərrüfatı sahəsində çox gözəl imkanlar var. Konkret tapşırıqlar verilib ki, bu sahədə əməkdaşlıq daha da fəal olsun. Macarıstanın təcrübəsi bizim üçün çox maraqlıdır. Macarıstanda kənd təsərrüfatı çox inkişaf edibdir. Bizim üçün də bu sahə bu gün əsas prioritetlərdən biridir və hesab edirəm ki, burada əməkdaşlıq üçün çox gözəl imkanlar var.

Nəqliyyat sahəsində. Mən cənab Baş nazirə məlumat verdim ki, Azərbaycan hazırda Şərq–Qərb nəqliyyat dəhlizinin yaradılması üzərində işləyir. Artıq Çindən Azərbaycan ərazisindən Avropaya birinci sınaq konteyner qatarı keçib. Bu dəhlizin gələcək fəaliyyəti həm ölkələrimizi birləşdirəcək, həm də nəqliyyat təhlükəsizliyini təmin edəcəkdir. Turizmdə gözəl imkanlar var. Biz təhsil sahəsində uğurla əməkdaşlıq edirik və minnətdarıq ki, Macarıstan hökuməti bizim tələbələrə xüsusi təqaüd də təsis edib. Təhsil sahəsində əməkdaşlıq o deməkdir ki, gələcəkdə bizim insanlar da bir-biri ilə sıx əlaqədə olacaqlar.

Bu gün bir çox konkret layihələr müzakirə edildi. Ümumi yekun ondan ibarətdir ki, Macarıstan və Azərbaycan öz strateji

tərəfdaşlığını bu gün bir daha təsdiqləyir. Dünən hökumətlərarası əlaqələrə dair imzalanan sənədlər, bu gün biznes-forum çərçivəsində imzalanmış konkret layihələr bizi bir-birimizə daha da yaxın edəcəkdir. Biz bunu istəyirik. Macarıstan bizim üçün yaxın, dost ölkədir. Bizim cənab Baş nazirlə şəxsi münasibətlərimiz də dostluq münasibətləridir. Cənab Baş nazirin fəaliyyəti Azərbaycanda böyük hörmət və rəğbətlə qarşılanır.

Macarıstan o ölkələrdəndir ki, öz müstəqil siyasətini aparır. Xarici və daxili siyasət ancaq Macarıstan xalqının maraqlarına əsaslanır və ona görə bizim aramızda bu sahədə də oxşarlıq var. Məhz buna görə Macarıstan bütün dünyada və Avropada hökm sürən böhranlardan çox şərəflə çıxıb. Məhz buna görə macar xalqı cənab Baş nazirin fəaliyyətini yüksək qiymətləndirir. Əgər hökumət xalqın maraqlarını müdafiə edirsə və öz ölkəsinin inkişafına çalışırsa, xalq o hökuməti həmişə dəstəkləyəcək.

Ona görə, cənab Baş nazir, Sizin kimi dost bizim üçün çox əzizdir. Mən çox şadam ki, bu gün siyasi rəhbərliyin iradəsi ilə bizim əlaqələrimiz ən yüksək səviyyədədir. Əminəm ki, bu səfər bu əlaqələrin inkişafına yeni təkan verəcəkdir.

Hörmətli cənab Baş nazir, Sizi və nümayəndə heyətinizi Azərbaycanda bir daha salamlayıram, bir daha «Xoş gəlmisiniz!» – deyirəm.

## Macarıstanın Baş naziri Viktor Orbanın bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Macarıstanda belə bir atalar sözü var: «Bəzən insan öz arxasında böyük bir meşəni görmür». Bu bir daha onu göstərir ki, insanlar bəzən təfərrüatları itirir və qlobal şəkildə düşünmürlər. Mən xoşbəxt insanam. Mən 1990-cı ildən bəri Macarıstan parlamentinin üzvüyəm. Mənim belə bir şansım var idi ki, öz arxamdakı meşəni görüm. Mən 1990–1991-ci illərdə, sonrakı illərdə Azərbaycandakı vəziyyəti bilirdim. Mən yenidən Sizin ölkənizə səfər edərkən gördüm ki, hərtərəfli inkişaf təmin edilir. Tarixi kitablarda bu haqda

nə vaxtsa yazsalar, bu dövrü məhz xüsusi inkişaf dövrü kimi təsvir edəcəklər. Çünki Azərbaycan, demək olar ki, çıxılmaz bir vəziyyətdən inkişaf etməyə başladı. Hətta deyərdim ki, bütün dünyada hamı buna qısqanclıqla yanaşırdı. Buna görə sizinlə təmasları qurduğumuz zaman Sizə hörmət və ehtiramımızı bildirdik ki, son 20 ildən artıq müddət ərzində bu cür nəticələr əldə edilibdir.

Təbii ki, bu nailiyyətlər üçün çox vaxt tələb olunur. Bu uğurlarda xalqın dəstəyi və digər amillər mühüm rol oynayır. Lakin bu halda, təbii ki, liderlərə böyük ehtiyac duyulur. Həmin liderlər ölkəni xüsusi bir yolla irəliyə doğru aparırlar. Biz bunu gizlətmirik və cənab prezident Əliyevin səylərini, fəaliyyətini çox yüksək dəyərləndiririk. Çünki biz görürük ki, nəhəng inkişaf templəri var və bu, Azərbaycanın, ümumiyyətlə, Azərbaycanda rəhbər şəxslərin, xalqın böyük səyləri nəticəsində baş verir. Lakin dünyada uğurları hər zaman belə asancasına etiraf etmirlər. Burada bir çox səbəblər ola bilər. Yorulmaz fəaliyyət və uğur özünü gec və ya tez büruzə verir. Mən bunu Azərbaycanda görürəm. Son 2-3 il ərzində Azərbaycanın mövqeləri, çəkisi gözəçarpan dərəcədə artıb. Bu gün Avropa İttifaqına gəldikdə, həmin perspektivdən Azərbaycana baxdıqda sabit, uğurlu inkişafını təmin etmiş ölkəni görürük. Bu da Şərq ilə Qərb arasında uzunmüddətli əməkdaşlığa verdiyiniz töhfənizlə bağlıdır. Biz elə bir ölkə görürük ki, onun çox zəngin milli-mənəvi ənənələri var. Bununla belə, bu ölkə eyni zamanda, Avropa dəyərlərinin xüsusi elementlərini də nəzərdən keçirir. Bu, əvəzedilməz bir zənginlikdir. Məhz bu səbəblərə görə son 2-3 il ərzində ölkənizin nüfuzu artıb.

Biz bu gün neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar bəzi iqtisadi çətinlikləri də müşahidə edirik. Lakin Siz bu yeni sistemə çox yaxşı reaksiya verərək uyğunlaşırsınız və bu dövr, həmçinin digər yeni imkanları da açır. Buna görə bizim əməkdaşlığımız üçün yeni imkanlar yaranır. Çünki iqtisadi siyasətə gəldikdə, bu siyasəti artıq əvvəlki kimi həyata keçirmək mümkün deyil. Əvvəlcə neftin qiyməti fərqli idi. Ona görə biz bu yeni vəziyyətə uyğunlaşmalıyıq və bunu birgə edə bilərik. Həmçinin bizim elə təcrübəmiz var ki, biz ondan öz əməkdaşlığımızda istifadə edə bilərik.

Cənab Prezident, Siz kənd təsərrüfatı, informasiya texnologiyaları, xidmətlər sahələrini və enerji sahəsini artıq vurğuladınız. Zənnimcə, Azərbaycan elə bir ölkədir ki, bu dövrdən hətta daha güclü mövqe ilə çıxacaq. Yəni daha şaxələndirilmiş iqtisadiyyat qurulacaq və biz macarlar da bu prosesdə iştirak edə biləcəyik. Həmçinin biznes sahəsində də belə olacaq. Tələbələriniz ölkəmizdə təhsil almaqla, biz bu münasibətləri daha da gücləndirəcəyik. Mən buraya bu fikirlərimi bildirmək üçün gəlmişəm.

Qeyd etmək istəyirəm ki, bizim sonuncu görüşümüzdən sonra ölkələrimiz arasında əməkdaşlıq daha da fəallaşıb. Bu bir daha onu göstərir ki, biz gərək hər il yüksək səviyyədə görüşləri təşkil edək və bununla həm humanitar, həm iqtisadi sahələrin inkişafına təkan verək. Biz Macarıstana – öz ölkəmizə xalqlarımız arasında dostluğun gücləndirilməsi, iki dövlətin rəhbərləri arasında şəxsi münasibətlərin daha da möhkəmləndirilməsi ümidi ilə qayıdacağıq. Biz istərdik ki, Macarıstan ilə Azərbaycan arasında olan münasibətlər xalqlarımızın mənafelərinə xidmət etsin.

Cənab Prezident, bu səfərə dəvətə görə minnətdaram. Çox şadam ki, ölkənizə səfər edirəm. Sağ olun.

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVAYA MACARISTANIN ALİ ORDENİNİN TƏLTİFETMƏ MƏRASİMİNDƏ İŞTİRAK

*6 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın «Macarıstanın Xidmətlərə görə Komandor Xaçı» ordeni ilə təltif olunması mərasimində iştirak etmişdir.*

**V i k t o r O r b a n:** Hörmətli cənab Prezident, hörmətli birinci xanım!

Hörmətli xanımlar və cənablar!

Biz birinci xanıma «Macarıstanın Xidmətlərə görə Komandor Xaçı» ordeninin təqdim edilməsi üçün buraya toplaşmışıq. Sizin göstərdiyiniz xidmətlər burada orden ilə qiymətləndirilir. Bu orden macar xalqını özündə təcəssüm etdirir və Macarıstan Prezidentinin qərarı ilə təqdim olunur. Bu münasibətlə biz bütün macar xalqının Sizə olan hörmət və ehtiramını ifadə edirik. Biz bu ordeni cənab Prezidentin həyat yoldaşına yox, məhz ən tanınan Azərbaycan xanımına təqdim edirik. Mənə elə gəlir ki, ümumiyyətlə, Azərbaycan və macar xanımları arasında oxşarlıqlar çoxdur. Adət-ənənələrimizdən irəli gələrək, bizim cəmiyyətimizdə qadınlar mühüm mövqelər tuturlar. Onlar nəinki evdə xanım rolunu oynayırlar, həmçinin ictimai xadim kimi, mühüm fəaliyyət göstərirlər.

Xanım Mehriban Əliyevanın apardığı fəaliyyət bütün dünyada tanınır. Öz təmənnasız yardımını göstərdiyinə görə məhz Macarıstandakı uşaq evində yaşayan uşaqlar bu gün Mehriban xanım Əliyevaya böyük sevgi və məhəbbətlə yanaşırlar.

Hörmətli birinci xanım, Sizin həyata keçirdiyiniz bu xeyriyyəçilik fəaliyyəti, Sizin göstərdiyiniz bu yaradıcı səylər nəinki həmin uşaqlara yardımçı olur, o cümlədən ölkələrimiz arasında təşəkkül

tapmış münasibətlərin inkişafına töhfə verir. Burada söhbət sırf uşaqlara yardımdan getmir. Bu həmçinin onu göstərir ki, müsəlman ölkəsinin Fondu xristian ölkəsinin uşaqlarına yardım edir. İki mədəniyyət və dinlər arasında belə halda çox gözəl, ahəngdar bir ittifaq yaranır. Bugünkü dünyada artıq dini münaqişələr haqqında çox danışılır. Məhz belə bir şəraitdə bu cür fəaliyyətin göstərilməsi, səylər xüsusi diqqətə layiqdir.

Biz Macarıstanda Mehriban xanıma böyük hörmətlə yanaşırıq və olduqca minnətdarıq. Bunu xüsusilə qeyd edirik ki, o bu cür yardımları bizə göstərir. Macarıstanın ali ordenini Sizə böyük hörmət və böyük məmnuniyyətlə təqdim edirik.

* * *

*Baş nazir Viktor Orban Macarıstanın ali ordenini Mehriban Əliyevaya təqdim etdi.*

**M e h r i b a n  Ə l i y e v a:** Hörmətli cənab Baş nazir!

Hörmətli xanım Levai!

Əziz qonaqlar!

Məni Macarıstan dövlətinin yüksək mükafatı ilə təltif etdiyinizə görə dərin təşəkkürümü bildirirəm. Mənim üçün böyük şərəfdir ki, fəaliyyətim bizə dost olan ölkədə – Macarıstanda belə yüksək qiymətləndirilib.

Azərbaycan ilə Macarıstanı qarşılıqlı dəstək, hörmətə əsaslanan dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq bağlayır. Ölkələrimiz bir çox sahələrdə sıx əlaqələr qurub. Mən əminəm ki, Sizin ölkəmizə səfəriniz bu əlaqələrin möhkəmlənməsində öz mühüm rolunu oynayacaq.

Mən çox xoşbəxtəm ki, rəhbərlik etdiyim Heydər Əliyev Fondu ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərinə öz töhfəsini verir. Fond təhsil, sosial, səhiyyə sahələrində layihələr həyata keçirir. Humanitar sahədə həyata keçirilən layihələr, əminəm ki, insanları, xalqları bir-birinə daha dərindən tanıdır və daha yaxşı anladır.

Siz, cənab Baş nazir, dinlərarası münasibətlərlə bağlı tamamilə düz söylədiniz, bizim fəlsəfəmiz ondan ibarətdir ki, hər bir xalq, hər

bir insan öz dininə, tarixinə, mədəniyyətinə hörmətlə yanaşırsa, bütün dünyanın dini və mədəni müxtəlifliyini həmin şəkildə qəbul etməlidir.

Bu gün mənə verdiyiniz mükafatı mən eyni zamanda, bu əməkdaşlığa verilən yüksək qiymət kimi qəbul edirəm. Ümidvaram ki, cənab Baş nazir, Sizin və cənab Prezident, Sizin köməyinizlə bu əməkdaşlıq gələcəkdə davam edəcək. Mənim üçün xüsusi şərəfdir ki, bu mükafatı mənə şəxsən Siz təqdim edirsiniz.

Siz ölkənizdə öz prinsipial siyasətinizlə, xalqınızın maraqlarını hər şeydən üstün tutmaqla, böyük dəstək və hörmət qazanmısınız. Azərbaycanda isə Sizi ölkəmizin yaxşı və böyük dostu kimi tanıyırlar.

Mənim fəaliyyətimi belə yüksək qiymətləndirdiyinizə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm, Sizə uğurlar arzulayıram. Macarıstan xalqına dərin hörmətimi və məhəbbətimi bildirir, ona sülh və əmin-amanlıq arzulayıram. Təşəkkür edirəm.

## GÜRCÜSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MİXEİL CANELİDZE İLƏ GÖRÜŞ

*7 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Gürcüstan Respublikasının Xarici İşlər naziri Mixeil Canelidzeni qəbul etmişdir.*

*Mixeil Canelidze Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin və Baş nazir Giorgi Kvirikaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycana ilk rəsmi səfərindən məmnunluğunu bildirən Mixeil Canelidze iki ölkənin müvafiq qurumları tərəfindən birgə işlərin və həyata keçirilən bütün layihələrin fəal şəkildə davam etdirildiyini söylədi.*

*Ölkələrimizin Xarici İşlər nazirlərinin əlaqələrinin mütəmadi xarakter daşıdığını deyən prezident İlham Əliyev Azərbaycan və Gürcüstan Xarici İşlər nazirlikləri arasında əməkdaşlığın önəmini qeyd etdi. Azərbaycan ilə Gürcüstan arasında bir sıra məsələlərin uğurla həll edildiyini və ölkələrimizin bir-birinə daha da yaxınlaşdığını bildirən dövlətimizin başçısı özünün Gürcüstana keçənilki uğurlu rəsmi səfərini xatırlatdı. Əməkdaşlığımızın fəal şəkildə davam etdirildiyini vurğulayan prezident İlham Əliyev əlaqələrimizin siyasi, iqtisadi, energetika, humanitar sahələrdə və eləcə də çoxtərəfli formatda daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi.*

*Dövlətimizin başçısı Gürcüstanın Xarici İşlər naziri Mixeil Canelidzenin Azərbaycana səfərinin ölkələrimiz arasında cari il üçün birgə tədbirlər proqramının nəzərdən keçirilməsi baxımından yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin və Baş nazir Giorgi Kvirikaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstan Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*8 mart 2016-cı il*

*Azərbaycanda rəsmi səfərdə olan Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin martın 8-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Qətər Dövləti Əmirinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Tanini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Qətər Dövlətinin Əmirinə raport verdi.*

*Qətər Dövlətinin və Azərbaycan Respublikasının dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və əmir Şeyx Təmim bin Həməd əl-Tani Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Qətər Dövlətinin Əmiri Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri əmir Şeyx Təmim bin Həməd əl-Taniyə, Qətər Dövlətinin nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycan Prezidenti və Qətər Dövlətinin Əmiri rəsmi foto çəkdirdilər.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*8 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin martın 8-də rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra geniş tərkibdə görüşü keçirilmişdir.*

**İ l h a m Ə l i y e v:** Əmir həzrətləri, əziz qonaqlar!

Sizi Azərbaycanda salamlamaq istəyirəm. Sizi ölkəmizdə qəbul etməkdən çox məmnunam. Nümayəndə heyətinizin səfərinə böyük önəm verilir. Əminəm ki, səfəriniz ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərini daha da gücləndirəcək.

Bu gün biz, nümayəndə heyətimizin üzvləri ölkələrimiz arasında sıx əməkdaşlıq üçün yaxşı hüquqi bazanı yaradacaq bir çox sənədləri imzalayacağıq. Mükəmməl siyasi münasibətlərimiz mövcuddur. Beynəlxalq təşkilatlarda, xüsusilə həmişə bir-birimizi dəstəklədiyimiz BMT-də, İslam Əməkdaşlıq Təşkilatında uğurla əməkdaşlıq edirik. Beynəlxalq təşkilatlarda tərəfimizdən irəli sürülmüş təşəbbüslərə dəstək göstərdiyiniz üçün sizə minnətdarıq.

İqtisadi əməkdaşlığımızın səviyyəsini siyasi əməkdaşlıq səviyyəsinə qaldırmalıyıq və hesab edirəm ki, bu sahədə çoxlu imkanlar mövcuddur. Bu gün imzalanacaq sənədlərdən biri xüsusilə bunun üçün yaxşı baza yaradacaq. Əminəm ki, birgə Komissiyanın yaradılması ölkələrimiz arasında iqtisadi və ticari əməkdaşlığı artıracaq. Enerji əməkdaşlığı, turizm, kənd təsərrüfatı, texnologiyalar, daşımalar və investisiya qoyuluşu sahələrində yaxşı imkanlar görürük. Düşünürəm ki, bütün bu sahələr əməkdaşlıq üçün cəlbedicidir.

Ölkəniz dünyada çox dinamik, iqtisadi cəhətdən sabit və çiçəklənən bir ölkə kimi tanınır. Biz xalqlarımız arasında bu iqtisadi körpünü yaratmalıyıq. Hesab edirəm ki, yaxın gələcək üçün ən vacib hədəflərdən biri qarşılıqlı ticarət dövriyyəsinin səviyyəsinin artırılması olmalıdır və bunun üçün yaxşı imkanlar mövcuddur.

Eyni zamanda, daha da çox sayda Qətər vətəndaşlarının Azərbaycana səfər etməsi bizi məmnun edir. Bildiyiniz kimi, indi sizin vətəndaşlarınız üçün sadələşdirilmiş viza rejimi tətbiq olunur və ziyarətçilərin sayı artmaqdadır. Bu da, əlbəttə ki, xalqlar arasında əlaqələr üçün xüsusi fürsət yaradacaq. Birbaşa uçuşlarımız var, indi Azərbaycana çıxışınız daha da asanlaşıb. Bu da turizmin inkişafına stimul verəcək və öz növbəsində, xalqlarımız arasında daha da sıx münasibətlərin formalaşmasına gətirib çıxaracaq. Biz ölkələrimiz arasında bundan da sıx münasibətlərin formalaşmasını istəyirik.

Əmir həzrətləri, mənim dəvətimi qəbul etdiyiniz və Azərbaycana səfərə gəldiyiniz üçün Sizə çox minnətdaram. Səfəriniz qarşılıqlı hörmət, inam, dostluq və qardaşlıq əsasında qurulmuş münasibətlərin daha da inkişaf etdirilməsinə əlavə imkan verəcək. Bir daha Azərbaycana xoş gəlmisiniz!

**Təmim bin Həməd əl-Tani:** Zati-aliləri, qardaşım cənab prezident İlham Heydər oğlu Əliyev, bu dəvətə görə çox sağ olun.

Azərbaycanda, bu gözəl ölkədə olmaq mənim üçün böyük şərəfdir. Sizi, nazirlərinizi və Azərbaycan xalqını bu ölkədə göstərdiyiniz səylərə görə təbrik etmək istəyirəm.

Maşallah, hər dəfə buraya səfər etdikdə böyük dəyişiklikləri müşahidə edirik. Nümayəndə heyətimizin adından Azərbaycanda bizi yüksək səviyyədə qarşıladığınız üçün Sizə təşəkkürümüzü bildirmək istəyirəm. Bakıda və Azərbaycanda olduqda özümüzü həmişə öz evimizdəki kimi hiss edirik.

Zati-aliləri, Sizin də qeyd etdiyiniz kimi, bizim siyasi münasibətlərimiz çox güclüdür, iki ölkə arasında yüksək səviyyədə anlaşma var. Biz beynəlxalq təşkilatlarda, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və bir çox digər qurumlarda əməkdaşlıq edirik. Aramızda olan anlaşma və inamın, Allaha şükürlər olsun, bu səviyyəyə çatması vacibdir.

Biz münasibətlərimizi, zati-aliləri, Sizin də qeyd etdiyiniz kimi, xüsusilə iqtisadiyyat və ticarət sahəsində daha da genişləndirməliyik. Ümid edirik ki, bu razılaşmalardan sonra işlər daha da

sürətlə irəliləyəcək. Öz tərəfimizdən biz bu münasibətlərə çox sadiqik və bu münasibətləri daha da gücləndirmək üçün tərəfimizdən bütün səylərin göstərilməsini təmin edəcəyəm.

Sizin də qeyd etdiyiniz kimi, turizm sahəsi hər iki ölkə üçün vacibdir. Daha çox Qətər vətəndaşlarının Sizin gözəl ölkənizə gəlməsi bizi məmnun edir və ümidvarıq ki, eyni halı Qətərdə də müşahidə edəcəyik. Həmçinin mədəniyyət sahəsində də əməkdaşlıq etməliyik. Mədəniyyət sahəsində bir çox ortaq dəyərlərimiz var. Zati-aliləri, beləliklə, xalqlarımızın bir-birini daha yaxından anlaması vacibdir.

Siz energetika sektorunu qeyd etdiniz. Hər iki ölkədə enerji resursları mövcuddur və biz bu sahəyə sərmayə yatırmalıyıq, bu məsələnin üzərində işləməliyik. Bu dəvətə görə Sizə «Çox sağ olun!» – demək istəyirəm. Zati-aliləri, burada olmaqdan çox şadam.

* * *

*Görüşdə energetika, sərmayə qoyuluşu, turizm, kənd təsərrüfatı sahələrində əməkdaşlığın inkişafı məsələləri müzakirə olundu.*

*Söhbət zamanı üçüncü ölkələrdə birgə investisiya qoyuluşu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

# QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*8 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Tani ilə martın 8-də geniş tərkibdə görüş başa çatdıqdan sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə edildi. İqtisadi əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı. Bu səfərin münasibətlərimizin daha da möhkəmlənməsinə töhfə verəcəyi diqqətə çatdırıldı.*

*Söhbət zamanı ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*8 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin iştirakı ilə martın 8-də Azərbaycan–Qətər sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qətər Dövlətinin Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Qətərin Nəqliyyat və Rabitə naziri Cassem bin Saif əl-Sulaiti imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Qətər Dövlətinin Nəqliyyat və Rabitə Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Nəqliyyat naziri Ziya Məmmədov və Qətərin Nəqliyyat və Rabitə naziri Cassem bin Saif əl-Sulaiti imzaladılar.*

*«Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Qətər Dövlətinin Maliyyə Nazirliyi arasında büdcə və maliyyə məsələləri sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Maliyyə naziri Samir Şərifov və Qətərin Maliyyə naziri Əli Şərif əl-Emadi imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov və Qətərin Maliyyə naziri Əli Şərif əl-Emadi imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında təhsil, ali təhsil və elmi-tədqiqat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Təhsil naziri Mikayıl Cabbarov və Qətərin Mədəniyyət və İdman naziri Salah bin Qanem əl-Əli imzaladılar.*

*«Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qətər Dövlətinin Ədliyyə Nazirliyi arasında hüquq sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Qətərin Xarici İşlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman əl-Tani imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında diplomatik və xüsusi pasportlara malik müvafiq vətəndaşlar üçün viza tələblərinin ləğv edilməsi haqqında Sazişə dəyişikliklər edilməsi barədə Protokol»u Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Qətərin Xarici İşlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman əl-Tani imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın yaradılması haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Qətərin Xarici İşlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman əl-Tani imzaladılar.*

## RUSİYA FEDERASİYASININ «QAZPROM» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VİKTOR ZUBKOV İLƏ GÖRÜŞ

*8 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Rusiya Federasiyasının «Qazprom» şirkətinin İdarə Heyətinin sədri Viktor Zubkovu qəbul etmişdir.*

*«Qazprom» şirkətinin İdarə Heyətinin sədri Viktor Zubkov Bakıda gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.*

*Görüşdə Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, münasibətlərimizin bundan sonra da genişlənəcəyi əminliklə qeyd edildi.*

*Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, o cümlədən energetika sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Rusiya Federasiyasının müxtəlif neft-qaz şirkətləri, eləcə də «Qazprom» arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı.*

*Görüşdə, həmçinin Rusiya Federasiyasının «Qazprom» şirkətinin İdarə Heyətinin sədri Viktor Zubkovun da iştirak edəcəyi Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin keçirdiyi Qlobal Bakı Forumunun əhəmiyyətindən danışıldı, tədbirin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu.*

# NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN LATVİYALI VƏ MİSİRLİ HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*8 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri, Latviya Respublikasının sabiq prezidenti xanım Vayra Vike-Freyberqanı və Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini qəbul etmişdir.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin keçirdiyi Qlobal Bakı Forumunun beynəlxalq əhəmiyyətindən danışıldı. Forumun ənənəvi olaraq hər il yüksək səviyyədə təşkil edildiyi bildirildi. Qlobal Bakı Forumunun ildən-ilə genişləndiyi və tədbirə marağın getdikcə daha da artdığı vurğulandı.*

*Söhbət zamanı qonaqlar qeyd etdilər ki, Forumun uğur qazanması prezident İlham Əliyevin nüfuzu, uzaqgörənliyi və dəstəyi sayəsində mümkün olub.*

## UKRAYNA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VİKTOR YUŞENKO İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Ukraynanın sabiq prezidenti Viktor Yuşenkonu qəbul etmişdir.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi IV Qlobal Bakı Forumunun əhəmiyyətindən danışıldı, tədbirin beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi vurğulandı.*

*Forumda siyasi, iqtisadi, təhlükəsizlik, multikulturalizm və digər məsələlərin kompleks şəkildə müzakirə olunmasının önəmi qeyd edildi.*

## İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ SABİQ BAŞ NAZİRİ ABDELSALAM ƏL-MACALİ İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da İordaniya Haşimilər Krallığının sabiq Baş naziri Abdelsalam əl-Macalini qəbul etmişdir.*

*Sabiq Baş nazir Abdelsalam əl-Macali İordaniya kralı II Abdullahın salamlarını və Forum münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı. Azərbaycanın son illər ərzində böyük uğurlar qazandığını sevinc hissi ilə qarşıladığını qeyd edən Abdelsalam əl-Macali ölkəmizdə və paytaxtımızda aparılan quruculuq işlərinin onda xoş təəssürat yaratdığını bildirdi.*

*Görüşdə IV Qlobal Bakı Forumunun beynəlxalq əhəmiyyətindən danışıldı, tədbirə olan marağın ildən-ilə artmasının önəmi qeyd olundu, Forum iştirakçılarının ölkəmizlə yaxından tanış olmaları üçün tədbirin yaxşı fürsət yaratdığı bildirildi.*

*Abdelsalam əl-Macali İordaniya kralı II Abdullahın məktubunu prezident İlham Əliyevə təqdim etdi.*

*Dövlətimizin başçısı İordaniya kralı II Abdullahın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniyanın Kralına çatdırmağı xahiş etdi.*

## SERBİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ BORİS TADİÇ İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Serbiya Respublikasının sabiq prezidenti Boris Tadiçi qəbul etmişdir.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən qısa vaxt ərzində böyük işlər görüldüyü və bu qurumun mühüm beynəlxalq təşkilata çevrildiyi məmnunluqla qeyd edildi, mərkəzin təşkil etdiyi IV Qlobal Bakı Forumunda müzakirə olunan məsələlərin beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından önəmi vurğulandı, ölkəmizin təbliğində forumun əhəmiyyətindən danışıldı.*

## İSRAİL DÖVLƏTİNİN SABİQ BAŞ NAZİRİ EHUD BARAK İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da İsrail Dövlətinin sabiq Baş naziri Ehud Barakı qəbul etmişdir.*

*Görüşdə IV Qlobal Bakı Forumunun artıq böyük bir beynəlxalq tədbirə çevrildiyi vurğulandı. Forumun gündəliyində bir çox vacib məsələlərin yer aldığı qeyd olundu. Bakı Forumunun dünyada gedən prosesləri müzakirə etmək üçün yaxşı imkan yaratdığı bildirildi.*

## XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Xorvatiya Respublikasının sabiq prezidenti Stepan Mesiçi qəbul etmişdir.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi IV Qlobal Bakı Forumunun önəmi vurğulandı. Forumun gündəliyinin geniş sahələri, o cümlədən energetika, təhlükəsizlik, terrorizmə qarşı mübarizə, qaçqınlar, dinlərarası əməkdaşlıq və digər sahələri əhatə etməsinin aktual məsələlərin geniş müzakirəsi baxımından yaxşı imkan yaratdığı və tədbirin artıq mühüm beynəlxalq foruma çevrildiyi qeyd edildi.*

## MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviç ilə görüşmüşdür.*

Monteneqronun prezidenti Filip Vuyanoviç ölkələrimiz arasında möhkəm və yüksək səviyyəli dostluq münasibətlərinin inkişafından məmnunluğunu ifadə etdi, ikitərəfli əlaqələrin inkişafına verdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Özünün Azərbaycana, eləcə də prezident İlham Əliyevin Monteneqroya səfərlərini və keçirdikləri görüşləri xatırladan Filip Vuyanoviç bu səfərlər zamanı ikitərəfli əlaqələrimizin gələcək inkişafı üçün bazanın yaradıldığını dedi. İqtisadi əməkdaşlığın genişləndirilməsi üçün də yaxşı imkanların mövcud olduğunu vurğulayan Filip Vuyanoviç ölkələrimiz arasında imzalanmış çoxsaylı müqavilələrin önəmini qeyd etdi. Filip Vuyanoviç Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ölkəsinə sərmayə qoyuluşunu yüksək qiymətləndirdi, Monteneqronun SOCAR ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu dedi. Ölkəsinin «Cənub Qaz Dəhlizi» layihəsində iştirakına böyük əhəmiyyət verdiyini söyləyən Monteneqro Respublikasının Prezidenti bu layihənin qitələr və regionlar arasında əməkdaşlığın inkişafı baxımından önəmini qeyd etdi, bu layihənin, sözün əsl mənasında, «Əsrin layihəsi» olduğunu vurğuladı.

Azərbaycan ilə Monteneqro arasında ikitərəfli əlaqələrin səviyyəsinin razılıq doğurduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında dostluq əlaqələrinin yaradılmasını məmnunluqla qeyd etdi, bu münasibətlərin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı həmin səfərlər çərçivəsində qəbul edilən qərarların uğurla

*icra olunduğunu dedi. Prezident İlham Əliyev əməkdaşlığımızın müxtəlif sahələrdə, o cümlədən sərmayə qoyuluşu istiqamətində genişləndirilməsi üçün işlərin aparıldığını qeyd etdi. «Cənub Qaz Dəhlizi» layihəsinin artıq reallığa çevrildiyini bildirən dövlətimizin başçısı layihənin Məşvərət Şurasının bu yaxınlarda Bakıda keçirilən ikinci toplantısında Monteneqro nümayəndə heyətinin fəal iştirakını yüksək qiymətləndirdi və toplantı çərçivəsində 11 ölkənin nümayəndəsi, eləcə də Avropa Komissiyası tərəfindən imzalanan Birgə Bəyannamənin önəmini qeyd etdi.*

*Görüşdə IV Qlobal Bakı Forumunun beynəlxalq müzakirə məkanına çevrildiyi, tədbirə marağın getdikcə daha da artdığı vurğulandı, dünyada və regionda baş verən proseslərin müzakirəsi üçün forumun yaxşı imkan yaradacağına əminlik ifadə olundu.*

## BAKIDA «ÇOXQÜTBLÜ DÜNYAYA DOĞRU» MÖVZUSUNDA IV QLOBAL FORUMUN AÇILIŞI MƏRASİMİ

*10 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, bir sıra ölkələrin dövlət və hökumət başçıları martın 10-da Bakıda «Çoxqütblü dünyaya doğru» mövzusunda keçirilən IV Qlobal Bakı Forumunun rəsmi açılışı mərasimində iştirak etmişlər.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edildi. Bundan başqa, enerji və qlobal idarəçiliyin perspektivləri ilə bağlı məsələlər də forumun gündəliyinə daxildir.*

*Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentlərinin də qatıldığı forumda 27 sabiq prezident və 23 sabiq Baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən çox nümayəndə iştirak edirdi.*

*Forumu Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin açdı.*

**İsmail Serageldin:** Burada bu möhtəşəm tədbirin açılışında iştirak etmək mənim üçün böyük şərəfdir. Bizim IV Qlobal Bakı Forumu üçün müstəsna proqramımız var. XX əsrin sonunda üstünlük təşkil edən ənənəvi iqtisadi baxışlar XXI əsrin əvvəlindən başlayaraq bir sıra təhdidlərə məruz qalıb. Qərbin siyasi və iqtisadi baxışlarının təkəbbürü sərhəd tanımırdı, bu da Sovet İttifaqının süqutundan sonra və Çinin yüksəlişinə artıq göz yummaq mümkün olmazdan əvvəl bəzilərini tarixin sonu gəlməsi barədə, digərlərini isə yeni birqütblü dünya barədə danışmağa sövq edirdi. Buna baxmayaraq, yeni əsrin onilliyi ərzində bu mənzərə əsaslı şəkildə dəyişdi. 2008-ci ildə Qərbin maliyyə bazarlarının çökməsi, bunun ardınca bir sıra üzv ölkələrin, əsasən də Yunanıstanın borcu ilə

bağlı avrozonadakı böhran göstərdi ki, qlobal bazarların fəaliyyətində dərin nöqsanlar var. İnsanlar unutdular ki, bazar yaxşı xidmətçi, lakin pis sahibdir və o, qayğıkeş dövlətin müşayiəti altında olmalıdır.

Ekoloji vəziyyətin pisləşməsi ilə bağlı mürəkkəb çağırış dünya ölkələri tərəfindən daha yaxşı başa düşülməyə başlandı və 2015-ci ilin sonlarında dünya liderləri BMT-də yeni davamlı inkişaf məqsədlərini qəbul etdilər. İlin sonunda Parisdə iqlim dəyişikliyi ilə bağlı ümidverici razılaşma imzaladılar. Elm və texnologiya sahəsində İKT inqilabı tam gücü ilə davam edərək yeni imkan və yeni çağırışlara yol açdı, qlobal səviyyədə yeni bioloji elmlər də sürətli və iri addımlar atmağa başladı.

Siyasi cəhətdən əsasən keçən əsrin 90-cı illərini əhatə edən birqütblü perspektiv yeni, birgə çoxqütblü perspektivlə əvəzlənərək, daha çox ölkə arasında məşvərətçi qüvvələri genişləndirmək və «G7» və ya «G8» formulunu artırmaqla, «G20»nin yaranmasının əsasını qoydu. Sonra qlobal terrorizmin vüsət alması bütün hökumətlər üçün yeni çağırış yaratdı. İlkin olaraq Nyu-Yorkda 11 sentyabr dəhşətləri ilə başlayan terrorizm beynəlxalq miqyasda öz simasını tapmağa başladı.

Terrorizmin daha konkret təzahürü «Ərəb baharı» inqilablarının iflası ilə başlandı. Biz Yaxın Şərq və Şimali Afrikada iflasa uğramış dövlətlərin meydana gəlməsinin, vətəndaş müharibələrinin şahidi olduq. Suriya, İraq, Yəmən, Somali, Sudan, Liviya, Sinay və Afrika Səhrası kimi uzaq yerlərdə sözlə ifadə edilə bilməyən dəhşətlər törədildi. «Əl-Qaidə» və «İŞİD» terrorçuları islam uğrunda qəddar təşviqata başladıqlarına görə, həm əhalisinin əksəriyyəti müsəlman olan ölkələrdə, həm də Qərbin özündə və islamın ikinci din olduğu Qərbi Avropa ölkələrində Qərb və müsəlman icmaları arasında artmaqda olan uçurum yaranır. Buna görə də məsələlər təkcə siyasi, iqtisadi, hərbi deyil, həm də mədəni, sosial, dini, kimliyimiz və əvvəlki əsrlərdən bizə miras qalmış bir çox paradiqmaların yenidən nəzərdən keçirilməsinə səhnə olan ümumi bəşəriyyətimiz üçün ciddi çətinlik törədir.

Beləliklə, buna görə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi IV Qlobal Bakı Forumu bizim çoxqütblü dünyaya doğru

irəliləyib-irəliləməməyimiz və nə dərəcədə yaxşı irəliləməyimizlə bağlı məsələlərin araşdırılmasına həsr olunub. Çoxqütblü dünya əməkdaşlığın genişləndirilməsi üçün çoxlu imkanlar təklif edə, həlli çətin olan bütün problemlərə yeni baxış gətirə bilər. Biz İtaliya və başqa yerlərdə keçirilmiş görüşlərlə IV Qlobal Bakı Forumuna hazırlaşarkən, yadlaşmanın aradan qaldırılması, plüralizmin təbliği və icmalar arasında körpülərin qurulmasında dinlərarası dialoqun roluna nəzər saldıq. Bu gün biz dünya nizamına nəzər salacağıq. Bu gün bizdən xüsusi diqqət tələb edən bəzi əsas elementləri müəyyənləşdirməyə çalışacağıq. Bir çoxları razılaşar ki, Suriyadakı fəlakət müxtəlif miqyasda çağırışlara səbəb olur və qlobal səviyyədə reaksiya tələb edir. Bu səbəbdən də Suriyaya xüsusi sessiya həsr olunacaq. Sonda, biz onu da bilirik ki, dünya iqtisadiyyatı, açıq və bərabərhüquqlu cəmiyyətlərin hökumətləri, habelə gender əsaslı və insanlar üzərində qurulmuş qanunlar bizim diqqətimizi cəlb edəcək. Plüralizm və müxtəliflik, həmçinin insan haqlarına dərin hörmət bizim cəmiyyətlərimizin strukturuna əlavə olunmalıdır. Qadın hüquqları həm qadınların, həm də insan hüquqlarıdır.

Gələcəyin qadınlarını gücləndirərkən, biz dünənin insanını yenidən hazırlamalıyıq. Hər şeydən əvvəl biz gənclərə qulaq asmaq üçün proqramımızda yer ayırmışıq. Çünki bizim qurulmasına yardım etməyə çalışdığımız dünya onlarındır. Sonda lazımi diqqət və dərin düşüncə tələb edən bir neçə əlavə problem var. Birincisi odur ki, Avropa və ABŞ-dakı kimi yaxşı təşkil olunmuş demokratiyalarda ictimaiyyət ölkələrindəki siyasi proseslərdən və gördükləri kimi, fəaliyyət göstərən demokratiya maşınından ciddi şəkildə uzaqlaşır. Bir çox ölkələrdə ekstremist populist siyasətçilər qurulmuş sistemə qarşı çıxırlar.

İkincisi, İKT inqilabı gəncləri əlçatan edir, bu vəziyyət əvvəlkindən tamamilə fərqlənir. Ekstremizm və zorakılıq məqsədləri üçün gənclərin cəlb olunmasını təmin edən yeni vasitələrə göz yummaq olmaz.

Üçüncüsü, demokratik təhlükəsizliklə bağlı artmaqda olan problem mövcuddur. Biz terrorizmlə üzləşdikcə vətəndaşlarımızı qorumalıyıq, bu, bütün vətəndaşların başlıca insan hüququdur.

Lakin eyni zamanda, biz əmin olmaq istəyirik ki, bu, demokratiyanın təmin etdiyi insan haqları və azadlıqları bahasına başa gəlmir. Bu həqiqətən də bizim 2 gün ərzində nəzərdən keçirməli olduğumuz çox zəngin proqramdır.

İndi isə zati-aliləri, xanımlar və cənablar, böyük məmnuniyyət və şərəflə ev sahibimizə, prezidentimiz İlham Əliyevə söz vermək istəyirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əvvəlcə hamınıza Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm, sizi yenidən görməyimə çox şadam. Şadam ki, Bakı Qlobal Forumu yaxşı ənənəyə çevrilir.

İlk öncə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Şurasına və həmsədrlər xanım Vayra Vike-Freyberqaya və cənab İsmail Serageldinə təşəkkürümü bildirmək istərdim ki, onların böyük töhfəsi sayəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qısa bir zamanda dünya miqyaslı beynəlxalq təsisata çevrilib.

Bu gün biz beynəlxalq gündəlikdə duran geniş məsələləri müzakirə edəcəyik. Əlbəttə, müzakirələrin mövzuları hamımız, bütün bəşəriyyət üçün çox əhəmiyyətlidir. Lakin əminəm ki, forumda iştirak edən qonaqlar öz dəyərli fikir və ideyaları ilə dünyada sülh, təhlükəsizlik və proqnozlaşdırıla bilmə naminə bu işə töhfələrini verəcəklər. Hər bir beynəlxalq forum, onun səviyyəsi əsas etibarilə tədbir iştirakçılarının səviyyəsindən asılıdır. Burada, qonaqlarımız arasında 50-dən artıq hazırkı və sabiq dövlət və hökumət başçıları, görkəmli siyasətçilər, ictimai xadimlər və mütəxəssislər vardır. Bu isə bizim bu gün və sabah aparacağımız müzakirələrin səviyyəsini nümayiş etdirir.

Sonuncu dəfə ötən ilin yazında görüşümüzdən bu günədək dünyada vəziyyət dəyişibdir. Hamımız bunun şahidiyik və təəssüf ki, dəyişikliklər müsbət məcrada olmayıb. Dünya daha da sakit və təhlükəsiz olması əvəzinə, daha da təhlükəli olub. Bizim regionda da vəziyyət kəskin şəkildə dəyişib. Mövcud münaqişələr həll edilməmiş qalır, bununla yanaşı, yeni münaqişələr, yeni qarşıdurma və təhlükə

bölgələri yaranır. Bu səbəbdən hesab edirəm ki, dövlət və hökumət başçıları, siyasətçilər olaraq, biz gərginliyin azaldılması üçün rolumuzu oynamalıyıq. Çalışmalıyıq ki, əməkdaşlıq, qarşılıqlı anlaşma və hörmət üçün zəmin yaransın. Əks təqdirdə, gələcəkdə vəziyyət pisləşməkdə davam edəcək.

Yaxın Şərqdə və Avropanın müəyyən yerlərindəki vəziyyət, qaçqın böhranı – bunlar son illərin reallıqlarıdır. Odur ki, IV Qlobal Bakı Forumunun əsas məqsədlərindən biri bu məsələlərin müzakirəsidir və xüsusilə də iştirakçıların səviyyəsi, onların beynəlxalq məsələlərə töhfələri, təcrübə və biliklərini nəzərə alsaq, bunların hamısı yaranmış vəziyyətdən çıxış yolunun tapılmasına yardım edə bilər.

Düşünürəm ki, hamımız vahid məqsəd – əməkdaşlıq, qarşılıqlı anlaşma, sabitlik və sülhün təşviqi ətrafında birləşmişik. Çünki biz bir-birimizlə bağlıyıq. Bəzən adama elə gələ bilər ki, televiziya vasitəsilə izlədiyimiz qorxulu hadisələr yad bir planetdə baş verir. Lakin reallıqda bu, qonşuluqda baş verir və qaçqın böhranı nümayiş etdirdi ki, biz bir-birimizlə əlaqəliyik. Hər bir əməl, addım və ya digər dövlətlərin daxili işlərinə müdaxilə mütləq həmin müdaxiləni edənlər üçün çətinliklər yaradacaqdır.

Hesab edirəm ki, bugünkü reallıqların ibrət dərsi məhz budur. Biz bir-birimizə ehtiram nümayiş etdirməli, seçimə, ərazi bütövlüyünə və gələcəklə bağlı planlara hörmətlə yanaşmalıyıq. Bunların hamısı təmasda olmaq üçün zəruridir. Çünki əsas məqsədimiz gərginliyin və mövcud təhlükələrin azaldılmasıdır.

Bu il Azərbaycan müstəqilliyinin 25-ci ildönümünü qeyd edəcək. Bu illərdə, xüsusilə müstəqilliyin ilk illərində biz vətəndaş müharibəsi, humanitar böhran, işğal, təcavüz, iqtisadi çətinliklər və deyərdim, iqtisadi iflasdan əziyyət çəkmişik. Azərbaycan terror hücumlarının hədəfinə çevrilmişdi. Keçən əsrin 90-cı illərinin əvvəlində erməni terror təşkilatları dəfələrlə mülki vətəndaşlara qarşı terror aktları törətmişlər. Bu gün təəssüf ki, Ermənistan və Azərbaycan arasında olan münaqişə həll olunmamış qalır.Müstəqillik illərində ölkəmizin böyük uğurlara nail olaraq, müasir, sabit, proqnozlaşdırıla bilən, özünü təmin edən dövlətə çevrilməsinə baxmayaraq, bu münaqişə öz həllini tapmalıdır. Onun üçün həll olunmalıdır ki, 1 milyondan

artıq azərbaycanlı qaçqın və məcburi köçkün evlərinə qayıtsın, zorakılığa son qoyulsun və regionumuzda sülh bərqərar olunsun. Belə olmadığı halda, bütün ölkələr əziyyət çəkəcəkdir. Azərbaycanın tarixi və hüquqi ərazilərini işğal edən Ermənistan bundan bəhrələnə bilməmişdir. İqtisadi çətinliklər, təcridolunma, miqrasiya və yoxsulluq həmin təcavüzün və işğalın nəticəsidir.

Dağlıq Qarabağ Azərbaycanın tarixi və hüquqi bir parçasıdır. Bütün beynəlxalq birlik Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu münaqişə nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, bizə qarşı etnik təmizləmə aparılmışdır. Ərazimizin 20 faizinin işğalı hələ də davam etməkdədir. Beynəlxalq təşkilatlar, xüsusilə də BMT və onun Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən çoxsaylı qətnamələr qəbul edib. Təəssüf ki, bu qətnamələr həyata keçirilməyib.

Düşünürəm ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının mexanizmi məsələsi xüsusi mövzu kimi müzakirə edilməlidir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat və ya gün ərzində icra edilir. Bizə gəldikdə isə, artıq 20 il keçir. Bu, siyasi iradənin, xüsusilə də həmin qətnamələri qəbul edən dövlətlərin siyasi iradəsinin olmamasının təzahürüdür. Bu gün danışıqlar prosesi davam edir və burada hər hansı bir uğur yoxdur. Bunun başlıca səbəbi isə Ermənistanın sülh istəməməsidir. Onlar işğal edilmiş ərazilərin özlərinin qeyri-qanuni nəzarətində saxlanılmasını və status-kvonun dəyişməz olaraq qalmasını istəyirlər. Bu isə mümkünsüzdür – status-kvo dəyişməlidir. Danışıqlar prosesində həmsədrlik edən 3 ölkə – Təhlükəsizlik Şurasının daimi üzvü olan 3 dövlət dəfələrlə çıxış edərək, status-kvonun qəbuledilməz və dəyişməli olduğunu bəyan edibdir. Buna nail olmaq üçün Ermənistan işğal edilmiş əraziləri tərk etməli və işğala son qoymalıdır. XXI əsrdə hər bir nöqteyi-nəzərdən, istər siyasi, istər hüquqi, istərsə də humanitar baxımdan qonşu dövlətin ərazisinin işğalı və danışıqlar prosesinin əngəllənməsi tamamilə anormal haldır.

Hesab edirəm ki, münaqişənin həlli üçün ilk olaraq Azərbaycan daha da qüdrətli olmalıdır və proses davam edir. İkincisi isə beynəlxalq ictimaiyyət, xüsusilə də bu münaqişə ilə məşğul olmaq mandatına sahib dövlətlər siyasi iradə nümayiş etdirməli və təcavüzkarı işğala son qoymağa məcbur etməlidirlər. Necə ki, biz bunu dünyanın bir çox yerlərində görürük – təcavüzkar dayandırılır, cəzalandırılır, sanksiyalara məruz qalır və işğala son qoyulur.

İşğal edilmiş ərazilərimizdə hər şey darmadağın edilib. ATƏT oraya 2 dəfə faktaraşdırıcı missiya göndərib və hər iki halda onların hesabatları real vəziyyəti əks etdirib. Bu bizə də məlumdur. Bizim bütün tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız dağıdılıb. Bu gün biz tez-tez televiziya kanallarında Yaxın Şərqdə tarixi abidələrin məhv edilməsi ilə bağlı reportajlar izləyirik. 20 il bundan öncə eyni hadisələr Azərbaycanın işğal edilmiş ərazilərində baş vermişdi. Fərq ondan ibarətdir ki, o zaman beynəlxalq ictimaiyyət və media bu mövzuya o qədər də əhəmiyyət verməmiş, bəlkə də həmin məlumatlara çıxış əldə edə bilməmişdir. Ancaq mahiyyət dəyişmir – eyni məsələ və eyni yanaşma. Bu isə regionun sülh və təhlükəsizliyi baxımından çox qorxulu məsələdir. Çünki təcavüzkar cəzalandırılmadığı halda, o, yeni bir ssenari planlaşdıracaq.XX əsrin 90-cı illərinin əvvəllərində üzləşdiyimiz bu vəziyyətə və humanitar böhrana baxmayaraq, Azərbaycan uğurla inkişaf etmişdir. Yeri gəlmişkən deyim ki, həmin vaxt adambaşına düşən qaçqın sayına görə ən yüksək göstərici bizdə idi – 1 milyondan artıq insan doğma torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü. O zaman bizim əhalimizin sayı təqribən 8 milyona bərabər idi. Yəni biz humanitar böhranın öhdəsindən gəlməyi bacaran ölkəyik.

Ovaxtkı Azərbaycan bugünkü Azərbaycandan fərqli idi. Yoxsul, müstəqilliyini yeni bərpa etmiş, iqtisadiyyatı bərbad vəziyyətdə və sənayesi dağılmış olan ölkənin gələcək ilə bağlı perspektivləri yox vəziyyətində idi. Əsas məqsədimiz dövlətimizi qurmaq, güclü iqtisadiyyat yaratmaq, ölkəni xarici sərmayələr üçün açmaq və dünyanın bazar iqtisadiyyatı sisteminin tərkib hissəsinə çevrilməkdən ibarət idi.

Biz buna nail ola bildik. Bu gün ölkə sabitdir və biz islahatları davam etdiririk. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır. Bütün fundamental azadlıqlar təmin edilir – söz azadlığı, toplaşma azadlığı, dini azadlıq, media azadlığı. Bizdə azad internet mövcuddur. Son 20 ildir ki, senzura ləğv olunub və vətəndaşlarımızın 70 faizdən çoxu internet istifadəçisidir. Siyasi azadlıqlar iqtisadi islahatlarla dəstəklənir.

2004–2014-cü illərdə Azərbaycan iqtisadiyyatı dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı olmuşdur. Biz işsizlik və yoxsulluğu kəskin şəkildə azaldaraq, 40 faizdən 5 faizə endirməyə müvəffəq olmuşuq. İqtisadiyyatımız daha da rəqabətqabliyyətli olmuşdur və Davos İqtisadi Forumunun hesablamalarına əsasən, rəqabətqabliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı dünyada 40-cı yerdədir. Biz əsas infrastruktur layihələrini, o cümlədən insanlarımızın yaşayış standartlarını yaxşılaşdırmaq üçün sosial infrastruktur layihələrini icra etmişik və bununla həm də sərmayələr üçün daha münbit şərait yarada bilmişik.

Adambaşına düşən birbaşa xarici sərmayəyə görə biz ən qabaqcıl mövqelərdəyik. Bu ilk növbədə, neft-qaz sahəsinə yatırılmış sərmayələr idi. Hazırda isə biz qeyri-neft sektoruna sərmayəçilər cəlb etməyə çalışırıq. Neft və qazdan asılılığımızın azaldılması islahatlarımızın tərkib hissəsi olmuşdur və bunun nəticəsində bu gün neft-qaz sahəsi bizim ümumi daxili məhsulun təqribən 30 faizini, büdcə gəlirlərimizin isə 50 faizini təşkil edir. Məqsədimiz neft və qazdan asılılığımızı tamamilə aradan qaldırmaqdır. Bu yaxınlarda dediyim kimi, Azərbaycan üçün postneft dövrü artıq başlanmışdır. Ona görə yox ki, biz hasilatı azaltmışıq. Neftin qiyməti kəskin şəkildə – 4 dəfə aşağı düşüb. Bu səbəbdən tamamilə yeni bir vəziyyət yaranır və dünyanın heç bir ölkəsi buna hazır deyildir. Heç kəs təsəvvür edə bilməzdi ki, 1 ilin içində qiymət bu dərəcədə kəskin şəkildə aşağı düşsün. Bu səbəbdən biz bu vəziyyətin mənfi nəticələrinin aradan qaldırılması üçün fəal və səmərəli işləməli olduq. Hazırda bizim maliyyə vəziyyətimiz yenidən sabitdir, proqnozlaşdırıla biləndir və məlumat vermək istərdim ki, büdcəmizdə neftin barrelinin qiyməti 25 dollar səviyyəsində nəzərdə tutulub. Bu isə hər hansı bir iqtisadi

çətinliyə qarşı bir növ zəmanət deməkdir. Bizim Neft Fondunda böyük vəsaitlərimiz var ki, bu, yaranmış vəziyyətdən minimum risklə çıxmağımıza imkan verir.

Bu vəziyyət bizi islahatlarla bağlı daha da səmərəli işləməyə məcbur edir və artıq islahatların böyük hissəsi tətbiq edilməkdədir. Bu islahatlar Beynəlxalq Valyuta Fondu tərəfindən də dəstəklənir – yəni biz düzgün yoldayıq. Hazırda biz iqtisadiyyatımızın şaxələndirilməsi məsələsi ilə məşğul oluruq və iqtisadi inkişafın yeni sahələrini müəyyən edirik. Onlardan biri bizim illərdir ki, çalışdığımız, lakin beynəlxalq birlik üçün tamamilə yeni sahə olan nəqliyyat infrastrukturunun yaradılmasıdır. Biz Azərbaycana gələcəkdə bu regionda güclü mövqeyə malik olmağa imkan verəcək nəqliyyat infrastrukturu şəbəkəsi yaradırıq.Bizim coğrafi mövqemiz çox əlverişlidir. Bu səbəbdən nəqliyyat infrastrukturuna, o cümlədən dəmir yollarının, hava və dəniz limanlarının inşasına yatırılan sərmayələr sayəsində biz nəqliyyat infrastrukturlarının kəsişmə nöqtəsinə çevrilirik. Artıq Şərq–Qərb nəqliyyat dəhlizi fəaliyyətə başlamışdır və ümid edirəm ki, tezliklə biz Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yollarının birləşdirilməsini başa çatdıracağıq. Beləliklə, Avropa və Asiya yeni, ən qısa nəqliyyat marşrutu əldə edəcəkdir. Çindən Avropaya gedən ilk konteyner qatarı artıq Azərbaycan ərazisindən keçib. Bu, müasir infrastruktura malik olan yeni İpək yoludur və biz bu marşrutu daha da cəlbedici etmək üçün tərəfdaşlarımıza vahid tariflərin tətbiqini təklif etmişik.

Qonşularımız və tərəfdaşlarımızla birgə çalışdığımız daha bir layihə Şimal–Cənub nəqliyyat dəhlizidir ki, onun sayəsində yüklər Pakistandan Hindistana, daha sonra İrana, oradan Azərbaycan ərazisindən Rusiyaya və Şimali Avropaya nəql ediləcəkdir. Azərbaycan müasir infrastruktura sərmayə qoyur və ümid edirəm ki, tezliklə bu marşrutdan istifadə olunmağa başlanacaqdır. Bütün bu marşrutlar bizim ərazidən keçir. Təbii ki, bu, Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və gələcəkdə bizə ölkəmizin inkişafına sərf ediləcək əlavə gəlirlər gətirəcəkdir.

Əlbəttə, iqtisadiyyatımız üçün enerji sektoru öz önəmini saxlayır və bu gün enerji təhlükəsizliyi baxımından onun əhə-

miyyəti artmaqdadır. Ötən ayın sonu – fevralın 29-da biz Bakıda, həmin bu zalda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının ikinci iclasını keçirmişik. Biz bu layihəni XXI əsrin layihəsi adlandırırıq. Bu bir meqalayihədir və bu gün Avropada həyata keçirilən ən iri infrastruktur və enerji layihələrindən biridir. Onun təşəbbüskarı Azərbaycandır və Azərbaycan burada həm də təşkilatçı və sərmayəçi qismində aparıcı rol oynayır. Layihənin dəyəri 45 milyard dollara bərabərdir və bu işdə biz müxtəlif dövlət və şirkətlərdən ibarət güclü komanda yaratmışıq.

Həmin Məşvərət Şurasının yaradılmasında əsas məqsəd səylərimizin əlaqələndirilməsi və layihənin cədvəl üzrə icrasını təmin etməkdən ibarətdir. Bu layihə bir neçə mərhələdən ibarətdir. «Cənub Qaz Dəhlizi»nin 4 elementi var. Azərbaycanın nəhəng qaz yatağından hasil olunan qaz öz aralarında birləşmiş 3500 kilometr uzunluğunda 3 qaz boru kəməri vasitəsilə Bakını İtaliyanın limanları ilə birləşdirəcəkdir.Əlbəttə, bu, nəhəng sərmayədir və bu layihənin əlaqələndirməyə ehtiyacı vardır. Fevralın 29-da məhz bu zalda 11 dövlətin və Avropa Komissiyasının iştirakı ilə Bəyannamə imzalanmışdır ki, orada Azərbaycanın «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsində mühüm və strateji rolu vurğulanmışdır. Biz həqiqətən də müxtəlif ölkələrdən ibarət komanda yaratmışıq və kəmərin marşrutu boyu yerləşən ölkələrin adlarını sadalamaq istərdim – Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya «Cənub Qaz Dəhlizi» layihəsinin üzvləridir. Daha 2 dövlət – Xorvatiya və Monteneqro da Bəyannaməni imzalamış və əminəm ki, qarşıdan gələn illərdə onlar da heyətimizə qoşulacaqlar. Bəyannaməni imzalayanlar sırasında ABŞ və Böyük Britaniya hökumətlərinin yüksək səviyyəli nümayəndələri və Avropa Komissiyasının vitse-prezidenti də olmuşdur. Yəni bu 12 imza onu nümayiş etdirir ki, «Cənub Qaz Dəhlizi» artıq reallıqdır.

Bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və azad rəqabət layihəsidir. Zənnimcə, bütün enerji layihələri məhz bu şəkildə icra edilməlidir. Bizim əsas məqsədimiz bu layihəni başa çatdırmaqdır və onu kommersiya layihəsi kimi həyata keçirməkdir. Bəzən enerji

təhlükəsizliyinə aid olan məsələlər həddindən artıq siyasiləşdirilir və biz bunun əleyhinəyik. Siyasət və enerji bir-birindən ayrı olmalı, enerji siyasi alət kimi istifadə edilməməlidir. Həmçinin onun bu şəkildə istifadə edilməsi, biznes fəaliyyətinə müdaxiləsi çətinliklər yaradır.

Bu layihə sayəsində Azərbaycan bundan sonra onilliklər ərzində öz təbii sərvətlərini ixrac edəcək və bazarları şaxələndirəcəkdir. Avropa üçün isə bu, ehtiyac duyacağı qazın yeni mənbəyi deməkdir və bununla avropalı istehlakçıların tələbatı təmin ediləcəkdir. Baxmayaraq ki, bu gün biz dünyada iqtisadi çətinliklərin şahidi oluruq, ancaq bu müvəqqətidir və neftin qiyməti uzun müddət belə aşağı səviyyədə qalmayacaqdır. İqtisadi artım fəallığı yüksəldəcək və Avropanın təbii qaza olan tələbatı yalnız artacaqdır. Burada hər kəs üçün yer olacaqdır. Düşünürəm ki, lüzumsuz rəqabətin olmaması üçün istehsalçılar da səylərini əlaqələndirməlidir. Həm istehsalçıların, həm də istehlakçıların öz məqsədləri var.

«Cənub Qaz Dəhlizi» layihəsində biz istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında balans yaratmağa nail olmuşuq. Yəni burada uduzan tərəf yoxdur və bu səbəbdən o, olduqca uğurla inkişaf edir. Bu qədər iştirakçıların olduğu qısa bir zamanda və neftin qiymətinin aşağı olduğu bir vaxtda milyardlar tələb edən belə nəhəng layihənin həyata keçirilməsi böyük çağırışdır. Enerji təhlükəsizliyi şübhəsiz ki, siyasi gündəlikdə əsas yer tutacaq. Hesab edirəm, «Cənub Qaz Dəhlizi» vasitəsilə göstərdiyimiz nümunə nümayiş etdirir ki, enerji ilə siyasəti ayıranda uğur əldə oluna bilər. Bu il Azərbaycanda «Multikulturalizm ili»dir. Müxtəlif etnik köklərə, dinlərə malik insanlar əsrlərboyu Azərbaycanda sülh, əmin-amanlıq şəraitində yaşamışlar və biz bununla fəxr edirik. Fərəhlənirik ki, müstəqillik illərində bu müsbət meyil daha da güclənib. Multikulturalizm və dini dözümlülük Azərbaycanda dövlət siyasətidir və bu, cəmiyyətdə olan əhval-ruhiyyənin təcəssümüdür. Bu çox vacibdir ki, həmin sahədə dövlət siyasəti və ümumi ab-hava bir-birindən fərqlənmir.

2008-ci ildə biz «Bakı prosesi»nə start verdik və ilk dəfə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Mədəniyyət nazirlərini Avropa Şurasına üzv dövlətlərin Mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına dəvət etdik. «Bakı prosesi» artıq bir reallıqdır. Biz Azərbaycanda multikulturalizm dəyərlərini təşviq edən çoxsaylı beynəlxalq tədbirlər keçirmişik. Dünya dini liderlərinin zirvə görüşü, bir neçə dəfə Mədəniyyətlərarası Dialoq Forumu və Beynəlxalq Humanitar Forum təşkil etmişik. Təqribən bir aydan sonra biz BMT-nin təşkilatçılığı ilə Azərbaycanda Sivilizasiyalar Alyansının 7-ci toplantısını keçirəcəyik.

Azərbaycanın bu sahədəki təcrübəsi aparıcı beynəlxalq təşkilatlar və beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilir. Bu, multikulturalizmin yaşadığını, onun gələcəyinin olmasını sübut edir, sadəcə, siyasətçilər, ictimai rəyə təsir etmək iqtidarında olanlar, o cümlədən media nümayəndələri daha məsuliyyətli olmalıdırlar. Hesab edirəm ki, bu məsələdə medianın rolu daha müsbət olmalıdır. Təəssüf ki, bir çox hallarda biz xəbərlərdə qarşıdurma, qaçqın böhranı və bunlarla bağlı kadrlar görürük.

Bu yanaşma yalnız təcridolunmaya gətirir. Biz buna imkan verə bilmərik. Çünki qeyd etdiyim kimi, biz bir-birimizlə bağlıyıq və eyni planetdə yaşayırıq. Artıq şahidi olduğumuz kimi, Avropa ilə Yaxın Şərq arasındakı məsafə o qədər də böyük deyil. Yəni məsafə insanların sığınacaq tapmaq və öz ailələrini xilas etmək naminə oralara üz tutmağın qarşısını almır. Odur ki, multikulturalizmin müsbət nümunələri üzərində dayanmaqla, bu dəyərlərin təşviqi hamımıza yardımçı olar. Çünki gələcəkdə heç bir ölkə və millət təcrid olunmuş vəziyyətdə yaşaya bilməz. Biz bir-birimizə bağlıyıq. Dünya ölkələrinin mütləq əksəriyyətinin əhalisi çoxmillətli və çoxdinlidir. Biz bununla fəxr etməliyik.Ötən ay biz müsəlman dünyasının ən müqəddəs məkanlarından olan «İmamzadə» dini tarixi kompleksinin yenidənqurma və bərpadan sonra açılışında iştirak etdik. Yeri gəlmişkən, bu kompleks Gəncədə, Nizami Gəncəvinin vətənində yerləşir. Azərbaycan xalqı bu abidəni VIII əsrdən bəri qoruyur. Ərazidə yeni məscid də inşa edilib və mən Azərbaycanın müxtəlif bölgələrindən olan insanları ora dəvət

etmişdim. Orada mənimlə yanaşı, çıxış edənlərin arasında Azərbaycanın müxtəlif dini icmalarının rəhbərləri – Azərbaycan müsəlmanlarının, Azərbaycanın Rus Pravoslav kilsəsinin, yəhudi icmasının və Azərbaycanın Katolik kilsəsinin rəhbərləri də var idi. Onlar bu tədbirdə yalnız iştirak yox, həm çıxış etdilər, həm də yeni inşa edilmiş məscidi ziyarət etdilər. Bu işlər bizim ölkədə belə qurulub. Bu bizim cəmiyyətimizə, xalqımıza və dünyaya olan mesajımızdır.

Bir neçə ay bundan öncə Azərbaycanın ən böyük məscidində sünni və şiə müsəlmanlar bir yerdə namaz qılmışlar və bunu vəhdət namazı adlandırmışlar. Bu da bir daha real vəziyyəti əks etdirir. Burada nə müsəlman icması daxilində, nə də, ümumiyyətlə, cəmiyyətimizdə fərq qoyulmur. Bu, Azərbaycan reallığıdır, bizim ən böyük sərvətlərimizdəndir və uğurlu inkişafımızın zəmanətidir. Çünki bu konsensus, bu birlik olmadan biz uğur əldə edə bilmərik. Biz daha da böyük nailiyyətlər əldə etməyə, ölkəmizi müasirləşdirməyə davam etmək istəyirik. Biz buna yalnız dostluq və multikulturalizm kimi birgə dəyərlərə əsaslanaraq nail ola bilərik. Ötən il Azərbaycan ilk Avropa oyunlarına, 2012-ci ildə «Eurovision» mahnı müsabiqəsinə ev sahibliyi etmişdir. Bakı «İslam mədəniyyəti paytaxtı» elan edilmişdir və gələn il biz İslam Həmrəyliyi oyunlarını təşkil edəcəyik. Azərbaycan Avropa Şurasının və eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Bu, mədəniyyətlər, ənənələr, dinlər arasında körpüdür və bu bizim məsuliyyətimizdir. Biz bu rolu ilk öncə öz ölkəmizin uğurlu gələcəyi və regionda sabit proqnozlaşdırıla bilən vəziyyətin yaradılması naminə oynayırıq.

Əminəm ki, proqramın vacib mövzuları üzrə müzakirələr regionumuzda və dünyada müsbət inkişafa böyük töhfə olacaqdır. Forumun işinə uğurlar diləyirəm. Təşəkkür edirəm.

* * *

**Rosen Plevneliev** (*Bolqarıstan Prezidenti*): Sülh və azadlıq indi sınağa çəkilir. Onlar bu gün bir-birinə qarşı qoyulub. Biz indi dünyada təhlükəsizliklə bağlı olan vəziyyətin İkinci dünya müharibəsinin bitməsindən sonra necə inkişaf etməsini görürük.

Biz burada müxtəlif güclər, dövlətlər, regiondakı ayrı-ayrı ölkələr arasında münasibətlərin necə inkişaf etməsini görürük. Görürük ki, müxtəlif çətinliklər yaranıb, bu münasibətlər sınağa çəkilir. Biz eyni zamanda, bu gün nəyin şahidiyik? Biz bu gün çox mürəkkəb siyasi bir vəziyyətin formalaşmasını görürük. Biz görürük ki, regionda müxtəlif güclər, ölkələr artıq davamlı şəkildə münaqişələrin həllinə nail ola bilmirlər. Dünyada bu sahədə müəyyən təhlükələr var və onlar hələ ki, qalır. Müxtəlif qurumlar məsələləri kompleks şəkildə həll edə bilmirlər. Bu gün Avropa görür ki, Suriyada, Əfqanıstanda, İraqda baş verənlər bizim həyatımıza necə təsir göstərir. Sərhədlərə təsir göstərilir. Berlin divarlarının dağıdılmasından sonra 40-dan çox ölkə öz sərhədlərində qonşuları ilə 60-dan çox divar tikməli olmuşdur. Dünya bu gün tarazlaşdırmadan uzaqdır, tarazlı şəkildə inkişaf etmir. Yeni yollar tapılmalıdır. Qlobal, regional güclər bunu başa düşür və öz ambisiyalarını masa üzərinə qoyublar ki, balansa nail ola bilsinlər. Münaqişələrin həllinə göstərilən cəhdlər bunun bariz nümunəsidir. Bu gün dünyada güclər dəyişib və dəyişməkdədir. Təəssüflə qeyd etmək lazımdır ki, BMT Təhlükəsizlik Şurası buna qarşı tədbirlər görə bilmir. Bu sahədə səmərəlilik aşağı səviyyədədir. İslahatlara ehtiyac var. Müasir siyasətin məqsədləri dəyişməlidir, diplomatiyaya daha çox yer verilməlidir, münaqişələrə isə yox. Müharibəni asan şəkildə başlamaq olar. Müharibədə qalib olmaq da çətin deyil. Amma sülhə nail olmaq çətindir.

*Bolqarıstan Prezidenti dünyadakı müasir çağırışlarla bağlı birgə kompleks tədbirlərin görülməsinin vacibliyini vurğulayaraq bildirdi:*

– Bu gün miqrantlar daha yaxşı yaşayış səviyyəsinin təmin edilməsi üçün axtarışdadırlar. Öz sərhədlərinin təhlükəsizliyi naminə insan haqlarının pozulmasına yol verilməməlidir, insan haqları müdafiə olunmalıdır. «Frontex» Avropanın müdafiəsi üçün ön cəbhədə yerləşir. Mən Balkan ölkələrini sabitliyin və rifahın ön cəbhəsi hesab edirəm. Mən Balkan ölkələrini müxtəlif dinlərin, etnik azlıqların, millətlərin azad və tolerant yaşaması üçün ön cəbhə hesab edirəm. Bizim ölkəmizdə tarazlaşdırılmış xarici siyasətimiz var. Biz hamı ilə dost olmaq istəyirik. Ona görə ki, hamı dünyada mövcud olan

problemlərin və münaqişələrin həllinə, sabit inkişafa öz töhfəsini verə bilər və verməlidir. Həmrəylik və əməkdaşlıq olduğu halda, bu məsələləri həll edə biləcəyik.

Qarşımızda qlobal strateji istiqamətlər var. Biz bilirik ki, planetimizdə olan resurslardan necə istifadə edə bilərik. Milli maraqlarımızı qoruyaraq digər ölkələrlə sərhədlər yaratmamalı, tək danışıb müzakirələr aparmamalıyıq, icra etməliyik, həll etməyə çalışmalıyıq, problemlərin dərinləşməsinə imkan verməməliyik. Biz nə etməliyik? 1 il bundan qabaq mən Bakıda olarkən çıxışında profilaktik tədbirlərin görülməsi barədə, münaqişələrin erkən mərhələlərdə müəyyən edilib qarşısının alınması, münaqişələrin davamlı şəkildə həlli, düzgün siyasi qərarların qəbul olunması haqqında danışdım. Avropa İttifaqına indi bu lazımdır – diplomatiyanın gücü, danışıqlar aparmaq. Silahlardan istifadə onu göstərir ki, artıq heç bir başqa arqument qalmayıb. Güc prinsipləri maraqlar deyil. Xüsusilə beynəlxalq hüquq prinsipləri, ərazi bütövlüyü, suverenlik və hər bir dövlətin ərazi bütövlüyünün təmin olunması, sərhədlərin bölünməməsi kimi prinsiplər olmalıdır. Bu prinsiplər ətrafında danışıqlar aparılmalıdır.

Hörmətli dostlar, 2016-cı il artan risklərin, qeyri-sabitliyin və qeyri-müəyyənliyin ili olacaq. Biz get-gedə qeyri-sabit dünya nizamına doğru gedirik. Biz mümkün dərəcədə yeni balansa nail olmalıyıq. Biz yeni tarixdə müqavimət qabiliyyəti daha güclü olan, diplomatiya və sülh prinsiplərinə əsaslanan dünyanın yaradılmasına doğru getməliyik. Biz yeni dünya nizamına, yeni cəmiyyətlərin yaradılmasına nail olmalıyıq. Bu əsr münaqişələr əsri deyil, diplomatiya, əməkdaşlıq əsri olmalıdır.

Böyük Nizami Gəncəvi deyib ki, «siz yalnız biliklər vasitəsilə qapıların açılmasını təmin edə bilərsiniz». Düşünürük ki, biz öz liderlərimizi öz biliklərimizlə dəstəkləməliyik. Çox sağ olun.

**B u y a r N i ş a n i** (*Albaniya Prezidenti*): Mən qonaqpərvərliyə, dost kimi qarşılandığıma görə təşəkkürümü bildirmək istəyirəm. Bu qonaqpərvərlik bizə cənab prezident İlham Əliyev və bütövlükdə Azərbaycan xalqı tərəfindən göstərilib.

Mən bu dəvəti böyük məmnuniyyətlə qəbul etdim. Çünki IV Qlobal Bakı Forumu və onun mövzuları tamamilə vaxtında seçilən və müzakirəyə çıxarılan məsələlərdir. Bu müzakirələr həm regional, həm də qlobal inkişaf nöqteyi-nəzərindən çox vaxtında keçirilir. Mövzular barədə məlumat mənə çatdırılandan sonra ağlıma dərhal dünyada baş verən dəyişikliklər gəldi. Yəni son 25 il ərzində – «dəmir pərdə» dağıldıqdan və «soyuq müharibə» başa çatdıqdan sonra baş verən dəyişiklikləri nəzərdə tuturam. Ancaq meydana gələn yeni çağırışlar da diqqətdən kənarda qalmamalıdır.

Son 25 ildə dünya çox böyük dəyişikliklərə məruz qalıb. Biz hamımız bu dəyişikliklərə uyğun olaraq dəyişmişik – azadlıq, kibertexnologiyaların inkişafı, təbii sərvətlərin istismar edilməsinin əlaqələndirilməsi, bazar iqtisadiyyatı, sərbəst bazar münasibətlərinin yaradılması, iqtisadi və mədəni mübadilələrin intensivləşdirilməsi və digər bir çox aspektlər. Əvvəllər bəşəriyyətə məlum olmayan şəkildə inkişafa nail olunmuşdur.

*Albaniya Prezidenti hazırkı çağırışların öhdəsindən gəlmək üçün qabaqlayıcı tədbirlərə və kompleks yanaşmaya üstünlük verilməsinin vacibliyini diqqətə çatdıraraq bildirdi:*

– Belə təsəvvür yaranır ki, optimist olmağa heç bir əsas yoxdur. Amma erkən inkişaf dövrlərində olduğu kimi, insan cəmiyyəti və onun liderləri müdrikliklə hərəkət edərək, vaxtında tədbirlər görərək, bu çağırışların öhdəsindən gələ bilərlər. Bu çağırışlara qarşı hərtərəfli, yerli, regional və qlobal səviyyədə kompleks tədbirlər görmək lazımdır. Ona görə də bizim mövqelərimiz və hərəkətlərimiz, eyni zamanda, regional və beynəlxalq təşkilatların fəaliyyəti mütləq bu şəraitə uyğunlaşdırılmalıdır ki, yeni çağırışların öhdəsindən gələrək, inkişafa nail ola bilək.

Dünya dəyişib, meyillər də sanki çoxqütblü bir konfiqurasiyaya keçib. Amma sual ondan ibarətdir ki, artmaqda olan güclər nə dərəcədə müttəfiqlik yaratmaq və baş verən məsuliyyəti paylaşmaq iqtidarına malikdir? Bu sual müzakirə olunmalı və öz həllini tapmalıdır.

Bu gün aydın olan bir məsələ var ki, dünya dialoqa əvvəlkindən daha çox ehtiyac duyur. Dünyanın anlayış və əməkdaşlığa ehtiyacı

var ki, mövcud olan çağırışların öhdəsindən gələrək, onları həll etmək mümkün olsun. Buna görə də mən belə bir tədbirin keçirilməsini çox yüksək qiymətləndirirəm. Çünki Azərbaycanın XII əsrdə yaşamış filosof-şairi Nizami Gəncəvinin fəlsəfəsi ruhunda belə bir tədbirin keçirilməsi vacibdir. Çünki hələ o vaxt böyük Nizami dialoq anlayışının nə qədər önəmli olduğunu bildirib. Qlobal səviyyədə dialoqun bu gün çox böyük əhəmiyyəti var. Belə bir dialoqu yaratmaq zəruridir ki, çağırışların öhdəsindən gələrək, təhlükəsiz gələcəyi təmin etmək mümkün olsun.

Çox sağ olun. Diqqətinizə görə minnətdaram və forumun işinə uğurlar arzulayıram.

**Giorgi Marqvelaşvili** (*Gürcüstan Prezidenti*): Zatialiləri prezident Əliyev!

Hörmətli prezidentlər!

Hörmətli qonaqlar!

Mən çox şadam ki, buradayam və bu çox önəmli forumda iştirak edirəm. Mənim üçün buraya, dost ölkə olan Azərbaycana, dost Bakı şəhərinə gəlmək həmişə xoşdur. Burada tərəfdaşlıq, əməkdaşlıq ruhu var. Burada böyük imkanlar var. Bu imkanları biz azərbaycanlı dostlarımız və həmkarlarımızla bölüşürük. Mən inanıram ki, söhbət açacağımız dəyərlər böyük şairlərin, böyük Nizaminin ruhunda müzakirə olunmalıdır və bu ruhu biz öz ölkələrimizdə, dünyanın müxtəlif ölkələrində yaratmalıyıq, inkişaf etdirməliyik.

*Gürcüstan Prezidenti qlobal səviyyədə təhlükəsizliyin təmin edilməsində və terrorçuluğa qarşı mübarizədə ölkəsinin də fəal rol oynamağa çalışdığını vurğulayaraq bildirdi:*

– Qeyd etmək istərdim ki, Gürcüstan qlobal təhlükəsizliyə və terrorçuluğa qarşı mübarizəyə öz töhfəsini verir. Biz ənənəvi şəkildə Əfqanıstanda da, Afrikada da missiyamızla fəal olmuşuq. Ona görə də düşünürük ki, tərəfdaşlıq, əməkdaşlıq ruhunun yaradılması bizi daha yaxşı gələcəyə doğru aparacaq. Təkcə bu deyil. Prezident İlham Əliyev bizim birlikdə yerinə yetirdiyimiz böyük layihələr haqqında danışdı. Bu, nəqliyyat layihələridir. Biz bu layihələri Azərbaycan və Türkiyə ilə birlikdə inkişaf etdiririk. Bu, enerji layihələridir. Bu layihələr Xəzər dənizi ölkələrini, Türk-

mənistanı regionda daha fəal olmağa çağırır, bunu təmin edir. Eyni zamanda, Bolqarıstanla, bu ölkənin Prezidenti, mənim yaxın dostumla böyük layihələr həyata keçiririk. Biz düşünürük ki, bu təhlükəsizlik layihələri daha çox dostlar qazanmasına gətirib çıxaracaq. Bakı–Tbilisi–Qars dəmir yolu TAP, TANAP layihələrinin yerinə yetirilməsinə imkan yaradacaq, dünyada bu sahədə tərəfdaşlığın, əməkdaşlığın bərqərar olmasına yol açacaqdır.

Mən inanıram ki, bizim ambisiyalarımız, istəklərimiz, yanaşmamız üstünlük təşkil edəcək. Mən düşünürəm ki, Gürcüstanın öz dostlarına, tərəfdaşlarına açdığı imkanlar tamamilə istifadə olunacaq. Gürcüstan dünya okeanına çıxışı olmayan 14 ölkəyə bu layihələrdən bəhrələnmək üçün imkan yaradır. Gürcüstan, demək olar ki, bütün qonşuları və Avropa İttifaqı dövlətləri ilə azad ticarət münasibətlərinin yaradılmasına çalışır. Biz eyni layihələri Çindən olan dostlarımızla da həyata keçirməyə çalışırıq. Eyni azad ticarət münasibətlərini ABŞ ilə də yaratmağa çalışırıq. Bu onu göstərir ki, Gürcüstan tərəfdaşlıq üçün açıqdır. Bu forumda regionda münaqişələrin həll olunması üçün yolların tapılması haqqında müzakirələr olacaq. Düşünürəm ki, bu forumda yeni imkanların axtarışı, tapılması üçün yaxşı fikirlər söyləniləcək, xüsusilə də bizim region, Qafqaz regionu üçün. Ona görə ki, bu region Şərq ilə Qərb arasında tərəfdaşlığın önəmli komponentidir. Ona görə ki, biz artıq bu tərəfdaşlığın çox gözəl nümunələrini yarada bilmişik və bu nümunələrdən hər bir iştirakçı tərəf bəhrələnir.

Mən bir daha sizi burada salamlayıram və ümid edirəm ki, bu 2 gün ərzində çox yaxşı müzakirələr aparılacaq.

Diqqətinizə görə çox sağ olun.

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun foruma ünvanladığı məktubu həmin ölkənin Azərbaycandakı səfiri İrfan Siddiq oxudu. Məktubda deyilir:*

«Mən IV Qlobal Bakı Forumunun iştirakçılarını salamlayıram. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi bu Foruma uğurlar arzu edirəm. Mən düşünürəm ki, bu forumun keçirilməsi ilə biz çox böyük müdriklik ətrafında olan fikirlərin söylənilməsi

üçün geniş imkanlar açırıq. Cənab prezident İlham Əliyevi bununla bağlı təbrik edirəm.

Birləşmiş Krallıq son illər ərzində Azərbaycan ilə çox geniş məsələlər ətrafında gözəl münasibətlər yarada bilib. Ölkələrimiz arasında çox gözəl enerji münasibətləri formalaşıb. Eyni zamanda, təhlükəsizlik sahəsində də münasibətlər formalaşıb. Biz düşünürük ki, bu əməkdaşlığı bütün sahələrdə davam etdirməliyik. Qlobal çətinliklərin aradan qaldırılması üçün qlobal tədbirlərin görülməsi vacibdir. IV Qlobal Bakı Forumu çox gözəl bir təşəbbüsdür. Bu təşəbbüs nəticəsində beynəlxalq ictimaiyyət bir araya gəlib dünyada olan çağırışlara ən yaxşı şəkildə necə cavab vermək, hansı lazımi tədbirləri görmək üçün konsensusu – bu gözəl platformanı yaradır. Bu axtarışda hamınıza uğurlar arzu etmək istərdim.

**Baş nazir Devid Kemeron»**

* * *

*Kanadanın Baş naziri Castin Trüdonun videomüraciəti göstərildi:*

«Hamınızı salamlayıram. Bakı Forumunda sizi salamlamaq çox böyük məmnuniyyət hissidir. Mən həyata keçirilmiş bütün təşkilati işlərə görə sizə təşəkkür etmək istəyirəm. Mənim atam deyirdi ki, dialoq inandırma və anlayış, yəni bütün bu işlərin təmin olunması üçün çox böyük əhəmiyyət kəsb edir. Dünyada mövcud olan təhdidlərin öhdəsindən gəlmək üçün məhz bu 3 məsələni bir araya gətirmək lazımdır. Biz beynəlxalq əməkdaşlığı, əlbəttə, inkişaf etdirməliyik.

Bu tədbir çox böyük bir imkandır ki, millətlər, xalqlar arasında dialoq yaradılsın, beynəlxalq aləmdə etik qaydalar müəyyən edilsin. Bizi bir dünya kimi birləşdirən amillərdən eyni zamanda, bizi ayırmaq üçün istifadə olunmasın. Mən ümid edirəm ki, biz ruhlandırıcı bir şəkildə inkişaf edə biləcəyik.

Çox sağ olun. Sizə ən xoş arzularımı çatdırıram.

**Baş nazir Castin Trüdo**

* * *

*Daha sonra YUNESKO-nun baş direktoru İrina Bokovanın Forum iştirakçılarına videomüraciəti nümayiş etdirildi:*

«Cənab prezident İlham Əliyev!

Xanımlar və cənablar!

Mən hörmətli cənab prezident İlham Əliyevə uzun müddətdir ki, millətlərarası dialoqu təşviq etmək işinə sadiq qaldığına görə təşəkkür etmək istəyirəm.

«Bakı prosesi» 2008-ci ildə başlanıb. Keçən ilin may ayında III Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. Bu forumda birinci xanım, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bütün bu işlərə sadiq olduğunu bir daha nümayiş etdirdi. Mədəniyyətlərarası dialoq hazırda olduqca böyük əhəmiyyət kəsb edir. Çünki dünyada çox titrəyişlər, çox təhdidlər mövcuddur. Dəyişiklik üçün imkanlar var. Amma dialoq üçün ehtiyac heç zaman bu qədər yüksək səviyyədə olmayıb. Hazırda biz bəşəriyyətin malik olduğu ümumi dəyərləri həmişəkindən daha çox inkişaf etdirməliyik və bu məqsədə çatmaq üçün hərəkətə gəlməliyik. Biz bunu başlamaq üçün gəncləri seçməliyik. Biz onlara layiqli işləri görmələri üçün şərait yaratmalıyıq. Biz onların gələcəyinə təsir edən qərarları düzgün şəkildə qəbul etməliyik.

**YUNESKO-nun baş direktoru İrina Bokova»**

* * *

*«Çoxqütblü dünyaya doğru» mövzusunda IV Qlobal Bakı Forumunun mühüm əhəmiyyətini vurğulayan Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa Nizami Gəncəvinin ideyalarının hazırkı dövrdə də aktual xarakter daşıdığını bildirdi.*

**Vayra Vike-Freyberqa:** Hörmətli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Hörmətli Azərbaycanın birinci xanımı Mehriban Əliyeva!

Hörmətli həmkarlarım!

Burada iştirak edən prezidentlər, eyni zamanda, müxtəlif beynəlxalq təşkilatların nümayəndələri dünyada baş verən prosesləri müzakirə edirlər. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi nisbətən yaxın vaxtlarda – 5 il bundan əvvəl təsis edilib. Artıq IV forum keçirilir. Bu mühüm forumun ev sahibliyini həyata keçirmək üçün məhz bu Mərkəz seçilib. Düşünürəm ki, anlayış, ənənələri başa düşmək çox vacib əhəmiyyət kəsb edir. Çünki onlar bizi

ruhlandıran elementlər olaraq qalır. Həmin ideyalar ki, onlar bu gün bizim üçün bələdçi rolunu oynayır.

Hazırda müasir dünya, qlobal mühit dəyişir. Onun təsiri olduqca böyükdür və bu mühit bizdən tələb edir ki, mövcud problemlərin yeni, orijinal şəkildə həll yollarını tapaq, müdrikliklə, anlayışla hərəkət edək. İllərdən bəri əldə edilən təcrübəyə əsaslanaraq bu gün mövcud təhdidlərin və çağırışların öhdəsindən gələk.

Hazırda bu tədbirin keçirilməsi üçün Bakı düzgün yer olaraq seçilib. Bakı şəhərinin siluetinə nəzər salsaq görərik ki, orta əsrlərdən qalmış Qız qalası bu şəhərin müasirliyinin rəmzi olan «Alov qüllələri» ilə bir araya gələrək, Azərbaycanın qədim və müasir bir ölkə olduğunu bildirir. Yəni bunların bir araya gəlməsi ilə biz belə bir nəticəyə gələ bilərik ki, Nizami Gəncəvi tərəfindən müəyyən edilmiş və hazırda sivilizasiyaların mövcudluğu üçün lazım olan ideyalar bu gün də öz əhəmiyyətini qoruyur. Müdrik idarəetmənin mövcud olması çox böyük əhəmiyyət kəsb edir. Əgər yaxşı idarəçilik pis liderlərlə müşahidə olunarsa, bu, xalqlara fayda gətirə bilməz. Ona görə də qadın və kişilərin düzgün ruhda inkişaf etdirilməsi çox vacibdir. Məsələn, Boko Haram dini özü bildiyi kimi şərh edir. Ona görə dini düzgün şəkildə şərh etmək lazımdır.Nizaminin poemalarında biz dialoq ideyalarına hörmətin, dəyişikliyin, mübadilənin şahidi oluruq. Yəni digərlərinə qulaq asmadan, böyüklərə qulaq asmadan hansı zərərlərlə üzləşmək mümkündür – bütün bunları biz onun əsərlərində görürük.

*Vayra Vike-Freyberqa forumda aparılan müzakirələrin ümumi məqsədlərə böyük töhfələr verəcəyinə əminliyini ifadə edərək bildirdi:*

– Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dostlarını salamlamaq  və ən yaxşı hisslərimi Qarşılıqlı Fəaliyyət Şurasına çatdırmaq istəyirəm. Srağagün və dünən Bakıda Şuranın 33-cü illik plenar iclası keçirilib. Onun həmsədrləri Kanadadan sabiq Baş nazir Jan Kretyenə və mənim həmkarım Nigeriyanın sabiq prezidenti Olusegun Obasanjoya salamlarımı çatdırmaq istəyirəm. Mən Madrid Klubunun nümayəndələrini salamlamaq istəyirəm. Regional səviyyədə onların əhəmiyyəti çox böyükdür. Çünki onlar Nizami Gəncəvi Beynəlxalq

Mərkəzi ilə əməkdaşlıq edərək, Bakıda bu forumların birincisini keçirmək üçün əsas yaratmışlar. Bunun nəticəsində hazırda biz IV forumda iştirak edirik.

Xanımlar və cənablar, biz nəyə görə bir araya gəlmişik?! Mən sizə xatırlatmaq istərdim ki, biz burada ideyaların mübadiləsini həyata keçiririk. Siz bu ideyaları mütləq nəzərdə saxlamalısınız ki, xalqlarımıza xidmət edərək düşünək, onları əsaslandıraq. Yəni hansısa məsələ baş verirsə, biz onları əsaslandıraq, mövhumata qapılaraq qiymətləndirməyək və təcavüzkarlığa yol verməyək. Sizin hər birinizin çox böyük təsir dairəniz vardır. Aranızda hazırda hakimiyyətdə olan şəxslər də vardır. Amma sabahın gənc liderləri də var ki, onlar da bu gün bizimlə buradadırlar. Onların gələcəyi qarşıdadır. O gələcəyi hazırlamaq üçün mən gəncləri həvəsləndirmək istərdim ki, onlar bizimlə fikir mübadiləsində iştirak etsinlər. Bizim ağsaqqallarla, daha böyük təcrübəyə malik olan şəxslərlə fikir mübadiləsi aparsınlar ki, həll yolları tapılmış olsun. Bu müzakirələrdə interaktiv şəkildə iştirak edin. Çünki sabahın dünyasını siz yaradacaqsınız, gələcək də məhz sizin uğurlarınızla bağlıdır.Xanımlar və cənablar, ümid edirəm, siz bu toplantıda iştirakdan məmnunluq hissi duyursunuz ki, dünyanın təkmilləşməsinə töhfəmizi vermiş oluruq. Bu təkmilləşməni həyata keçirmək üçün fərqli və müxtəlif fikirləri mütləq bir araya gətirmək lazımdır. Biz işimizi məhz müzakirələr şəklində qurmalıyıq. Dünyada əhəmiyyət kəsb edən əsas prinsipləri götürsək, həmin prinsiplər əsasında razılığa gələrək, dünyanı daha yaxşı yaşayış yerinə çevirə bilərik. Amma yenə də hər zaman bir-birimizi həvəsləndirməliyik ki, təkmilləşməyə doğru daha da irəliyə getmiş olaq.

Çox sağ olun. Diqqətinizə görə təşəkkür edirəm.

## IV QLOBAL BAKI FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*10 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından martın 10-da IV Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə ziyafət verilmişdir.*

*Prezident İlham Əliyevin, xanımı Mehriban Əliyevanın və qızı Leyla Əliyevanın iştirak etdikləri ziyafətdə Bolqarıstanın, Albaniyanın, Makedoniyanın, Monteneqronun, Gürcüstanın prezidentləri, bir sıra ölkələrin sabiq dövlət və hökumət başçıları, dünya siyasətində əhəmiyyətli rol oynayan ictimai-siyasi xadimlər, ekspertlər və mütəxəssislər iştirak edirdilər.*

*Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa ziyafətdə çıxış etdi.*

**V a y r a  V i k e-F r e y b e r q a:** Cənab prezident Əliyev!

Xanım Əliyeva!

Hörmətli prezidentlər!

Sabiq prezidentlər və Baş nazirlər!

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əziz dostları!

Burada dünya liderlik alyansı – Madrid Klubunu dəstəkləyənlər və onun üzvləri, habelə Dünya İncəsənət və Elm Akademiyasının nümayəndələri əyləşiblər. Bütün bunlara görə dünyanın müxtəlif nöqtələrində hamımızın qarşılaşdığı və vəziyyətlə əlaqədar müxtəlif yollarla üzləşmək məcburiyyətində olduğumuz aktual məsələlər üzrə yüksək səviyyəli dialoqun keçirilməsinə ehtiyacı çox yaxşı anlayan zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarıq. Prezident Əliyev beynəlxalq dialoqa güclü dəstək verir. Biz ona bu dəstəyə, xüsusilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə verdiyi dəstəyə görə çox təşəkkür edirik. Onun dəstəyi, verdiyi önəm olmadan bu mərkəzi yaratmaq mümkün olmazdı.

Artıq Bakı Forumu dördüncü dəfə keçirilir və Prezidentin dəstəyi olmadan forum bu səviyyəyə çata bilməzdi. Məmnuniyyət hissi ilə bildirmək istəyirəm ki, Prezident hamımızın yüksək dəyərləndirdiyi bu dəstəyi davam etdirməyə maraqlı olduğunu bildirib və hesab edirəm ki, hamımız buna görə onu ürəkdən alqışlamalıyıq. Əlavə etmək istərdim ki, xanım Əliyeva da incəsənətə, adət-ənənələrə yüksək önəm verir. O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nail olmağa çalışdığı bütün işləri dəstəkləyir.

*Vayra Vike-Freyberqa bu cür mötəbər tədbirin keçirilməsində əməyi olan və vətəndaş cəmiyyətini təmsil edən könüllülərin fəaliyyətini vurğuladı. «Hesab edirəm ki, onlar istənilən ölkəyə lazım olan sosial iştirakçılıq və fəallığa sadiqliyin nümunəsidir» – deyən Latviyanın sabiq prezidenti Azərbaycanda çoxlu sayda belə gənclərin olduğunu diqqətə çatdırdı.*

**İlham Əliyev:** Hörmətli xanım Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Əvvəla, xanım Vayra Vike-Freyberqaya ölkəmizə, ölkəmizin nümayəndələrinə və Azərbaycanın inkişafına göstərdiyi dəstəyə və xoş sözlərinə görə minnətdarlığımı ifadə etmək istəyirəm. Biz bir-birimizi uzun illərdir ki, tanıyırıq. Prezident kimi, Latviyaya səfərim zamanı bizim xanım Prezidentlə çox yaxşı müzakirələrimizi və onun prezident kimi, Azərbaycana səfərini xatırlayıram. Çox şadam ki, bu dostluq indi də davam edir. Bu dostluq nəinki təkcə bizim ikitərəfli münasibətləri gücləndirməyə, həm də bizə dördüncü dəfədir ki, Azərbaycanda çoxsaylı görkəmli qonaqları qəbul etməyə imkan verir. Bu dostluq bu gün istənilən ölkənin sərhədlərini aşır.

Bu zalda bir çox ölkələrin nümayəndələri, görkəmli şəxsiyyətlər, fəaliyyətdə olan və sabiq ölkə rəhbərləri, beynəlxalq münasibətlərdə vacib rol oynayan və oynamağa davam edən insanlar, regionumuzda sülhün, inkişafın, sabitliyin, demokratiyanın və təhlükəsizliyin necə təşviq olunmasından ibarət ümumi məqsəd naminə bir araya gələn insanlar var.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi təsis edildikdə, səmimi söyləsəm, mərkəzin çox qısa müddət ərzində dünyada aparıcı beynəlxalq

təşkilatlardan birinə çevrilməsini təsəvvürə gətirmək çox çətin idi və bu, mübaliğə deyil. Xanım Freyberqanın rəhbərliyi, sadiqliyi, özünü işə həsr etməyi, istedadı sayəsində mərkəz indi qlobal əhəmiyyət kəsb edən məsələlərin həlli ilə məşğul olan dünyanın ən hörmətli beynəlxalq təşkilatlarından biridir. Mərkəzin Azərbaycanın dahi oğlunun, Nizami Gəncəvinin adını daşıması bizi fərəhləndirir. Hər bir azərbaycanlı onunla qürur hissi duyur. Biz tariximizdə belə şəxsiyyətə malik olmağımıza görə fərəhlənirik və onun fəlsəfəsi, şeirləri, fikirləri bütün tərəqqipərvər bəşəriyyəti birləşdirir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi nə qədər çox tanınarsa, Nizaminin fikirləri də bir o qədər dünyanın müxtəlif yerlərində olan insanları, gənc nəslin diqqətini cəlb edəcək. Xanım Prezidentin də qeyd etdiyi kimi, fəaliyyətimizin ən vacib nəticələrindən biri gənc nəslin qarşılıqlı fəaliyyət, etnik və dini tolerantlıq, multikulturalizm, demokratiya, əməkdaşlığın yaxşı nümunəsinə əməl etməsi olacaq. Bu bizim hamımızın dəstəklədiyi, qoruduğu fundamental dəyərlərdir və əlbəttə ki, Bakı Qlobal Forumu məsələləri ünvanlamaq üçün ən yaxşı məkanlardandır.

Gündəlik çox genişdir. Eşitdim ki, bu gün çox açıq, səmimi, bəzən də, yumşaq şəkildə söyləsəm, qeyri-diplomatik fikir və mövqe mübadiləsi aparılıb və bu da normal haldır, belə də olmalıdır. Biz fikirlərimizi paylaşmalıyıq, yalnız danışıqlar masasında qarşı-qarşıya durmalıyıq. Yalnız panel müzakirələri zamanı zərurət yarandıqda bir-birimizə qarşı olmalıyıq və sonra dünya daha da təhlükəsiz və müdafiə olunmuş olacaq. Hər bir ölkə digər ölkənin maraqlarına, ləyaqətinə, ənənələrinə, tarixinə, mədəniyyətinə və ərazi bütövlüyünə hörmət etməlidir. Yalnız bu halda dünyada müsbət inkişafı müşahidə edə biləcəyik. Bu gün əsasən təhdidlər barədə danışdıq. Əfsuslar olsun ki, təhdidlər artmaqdadır, yeni təhdidlər üzə çıxmaqdadır. Hesab edirəm ki, biz birgə səylərimizlə gərginliyin necə azaldılması, regionumuzun, dünyanın necə daha da təhlükəsiz olması yolları üzrə baxışlarımızı təklif etməyə davam edəcəyik. Əks halda, biz gözlənilməz nəticələrlə qarşılaşa bilərik. Müzakirə etdiyimiz miqrant böhranı bu günün ən böyük təhlükələrindən biridir və əlbəttə, insanlar bundan çox əziyyət çəkirlər. Miqrantların getdiyi ölkələrdə yaratdıqları narahatlıqlar, habelə sivilizasiyalar ara-

sındakı yadlaşma, dinlər arasındakı qarşıdurma təhlükəsi böyüyə bilər və bunun qarşısının hansı formada alınması, bu prosesin hansı formada geriyə qaytarılması əsasən aktiv siyasətçilərdən, keçmiş siyasətçilərdən, qərar qəbul edənlərdən, mütəxəssislərdən, media nümayəndələrindən, habelə multikulturalizm, tolerantlıq, əməkdaşlıq və dostluq dəyərlərinin tanıdılmasından asılıdır. Məncə bunlar bugünkü dünya üçün ən vacib mövzulardır.

Bir daha xanım Prezidentə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünya səviyyəsində beynəlxalq mərkəzə çevrilməsinə verdiyi töhfələrə görə təşəkkürümü bildirmək istəyirəm. Səhər öz çıxışımda dediyim kimi, hər toplantının, hər forumun əhəmiyyəti iştirakçıların tərkibinə əsaslanır. Məncə dünyanın intellektual elitası bu gün burada, Azərbaycandadır və bu günlərdə bizimlə olduğunuz üçün sizə təşəkkür edirəm. Fürsətdən istifadə edərək, sizi gələn ilin aprel ayında V Qlobal Bakı Forumuna dəvət etmək istəyirəm. Sağ olun.

* * *

*Bir daha qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumu artıq dördüncü dəfədir baş tutur və budəfəki forumda münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edilib. Forumda 6 ölkə dövlət başçısı ilə təmsil olunub. Ümumilikdə isə tədbirdə 27 sabiq prezident və 23 sabiq Baş nazir daxil olmaqla, 53 ölkədən 300-dən çox nümayəndə iştirak edib.*

## «EURONEWS» TELEKANALINA MÜSAHİBƏ

*10 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da IV Qlobal Bakı Forumunun rəsmi açılışından sonra «Euronews» telekanalına müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, Azərbaycan kimi neft-qaz istehsal edən ölkə üçün iqtisadiyyatı şaxələndirmək, neftin qiyməti ilə bağlı hazırkı dövrdə biznes modelini dəyişmək nə dərəcədə əhəmiyyətlidir?**

**C a v a b:** Əslində biz iqtisadiyyatın şaxələndirilməsi üzərində uzun illərdir ki, işləyirik. Lakin hazırda – neftin qiymətinin çox aşağı olduğu bir dövrdə bu bizim üçün əsas prioritetə çevrilib. Biz neft və qazdan asılılığı azaltmağa nail olmuşuq. Hazırda neft və qaz bizim ümumi daxili məhsulun cəmi 30 faizini təşkil edir. Lakin bizim hədəfimiz neftin qiymətindən asılı olmayacaq inkişaf modeli yaratmaqdır və bu proses davam edir. Hazırda biz Beynəlxalq Valyuta Fondu tərəfindən dəstəklənən əsasən qeyri-neft sektoru sahələrini – kənd təsərrüfatının, informasiya texnologiyalarının, turizmin inkişafını və digər sahələri əhatə edən geniş islahatlar paketi təqdim edirik. Bu səbəbdən də əminəm ki, qarşıdakı illərdə Azərbaycanın neftdən asılılığı daha da azalacaq.

**S u a l: Neftin və neftin qiymətinin qlobal təhlükəsizliyə, xüsusilə Yaxın Şərqdə təhlükəsizliyə təsiri Sizi nə dərəcədə narahat edir?**

**C a v a b:** Biz neftin qiymətinin azalması ilə qlobal təhlükəsizlik arasında birbaşa əlaqə görmürük. Lakin sözsüz ki, uzunmüddətli perspektivdə neftin qiyməti aşağı olaraq qalsa, bu bəzi problemlərə, iqtisadi və sosial problemlərə yol aça bilər. Çünki bəzi ölkələr neftdən gəlir götürməyə adət edib. Həmin səbəbdən də neft gəlirləri azalarsa, bu, büdcə ixtisarları ilə nəticələnə bilər. Buna görə də bu, baş verə bilər. Düşünürəm ki, neft hasil edən hər bir ölkənin əsas hədəfi neftdən asılılığı azaltmaq,

innovasiyalara, təhsilə və müasir texnologiyalara investisiya yatırmaq, neft və qaz layihələrindənsə müxtəlif başqa layihələri ixrac etməkdir. Bunlar baş tutsa, düşünürəm ki, regionda təhlükəsizlik yüksək səviyyədə təmin olunacaq.

**M ü x b i r:** Çox təşəkkür edirəm.

## POLŞA RESPUBLİKASININ SABİQ PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Polşa Respublikasının sabiq prezidenti Bronislav Komorovskini qəbul etmişdir.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunun əhəmiyyətindən danışıldı, yüksək səviyyədə təşkil edilən tədbirin ölkələrarası əməkdaşlığın genişləndirilməsi baxımından rolunun getdikcə daha da artdığı bildirildi. Qeyd olundu ki, dünyanın tanınmış siyasətçilərinin və nüfuzlu ekspertlərin beynəlxalq aləmdə baş verən hadisələri müzakirə etmələri baxımından forum çox yaxşı fürsətdir.*

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ BUYAR NİŞANİ İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Albaniya Respublikasının Prezidenti Buyar Nişani ilə görüşmüşdür.*

*IV Qlobal Bakı Forumunun artıq böyük beynəlxalq tədbirə çevrildiyini deyən dövlətimizin başçısı toplantıda getdikcə daha çox nüfuzlu qonağın iştirak etməsini məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyevə IV Qlobal Bakı Forumuna dəvətə görə minnətdarlığını ifadə edən Albaniya prezidenti Buyar Nişani tədbirin müxtəlif ölkələrdən olan nümayəndələrin bir araya gələrək, dünya dövlətlərinin üzləşdiyi bir sıra mühüm məsələlərlə bağlı fikir mübadiləsi aparması üçün yaxşı fürsət yaratdığını vurğuladı. Ölkələrimiz arasında yaxın dostluq və tərəfdaşlıq münasibətlərinə toxunan Buyar Nişani əməkdaşlığımızın bütün sahələrdə daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Əlaqələrimizin inkişafına verdiyi dəstəyə və ölkəsinə göstərdiyi dost münasibətinə görə şəxsən prezident İlham Əliyevə təşəkkürünü bildirən Buyar Nişani Albaniyanın Azərbaycan ilə əlaqələrin inkişafında maraqlı olduğunu vurğuladı. Albaniya ilə Azərbaycanın tarixində oxşarlıqların olduğunu deyən Buyar Nişani hər iki ölkənin bir sıra mühüm məsələlərin həlli istiqamətində birgə fəaliyyətinin önəmini qeyd etdi. Azərbaycanın qısa zaman ərzində sürətli inkişafa nail olduğunu vurğulayan ali qonaq bunun region və eləcə də digər ölkələr üçün nümunə ola biləcəyini qeyd etdi. Buyar Nişani prezident İlham Əliyevin, TAP da daxil olmaqla, bir sıra mühüm layihələrə verdiyi dəstəyi yüksək qiymətləndirdi. Ali qonaq bu layihənin nəinki iştirakçı dövlətlər, bütün Avropa üçün mühüm əhəmiyyət daşıdığını dedi.*

# MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Makedoniya Respublikasının Prezidenti George İvanov ilə görüşmüşdür.*

Görüşdə prezident George İvanovun ölkəmizə səfərinin Azərbaycan ilə Makedoniya arasında ikitərəfli əlaqələrin müzakirəsi üçün yaxşı imkan yaratdığı bildirildi.

Söhbət zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin rolunun mühüm əhəmiyyət daşıdığı vurğulanaraq, IV Qlobal Bakı Forumunun artıq dünya əhəmiyyətli aparıcı tədbirlərdən birinə çevrildiyi məmnunluqla qeyd olundu. Forumun proqramının geniş sahələri əhatə etdiyi, siyasi, iqtisadi, enerji, təhlükəsizlik və dünyanın diqqət mərkəzində olan digər məsələlərin müzakirəsi baxımından əhəmiyyətli olduğu bildirildi.

Görüşdə, həmçinin iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən energetika sektorunda hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da IV Qlobal Bakı Forumunda iştirak edən Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli əlaqələrin hazırkı səviyyəsindən, son illərdə ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişaf etməsindən və strateji tərəfdaşlıq səviyyəsində olmasından məmnunluq ifadə edildi. Sərmayə qoyuluşu, enerji, əczaçılıq və digər sahələrdə əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycan–Avropa İttifaqı əlaqələrinin inkişafından məmnunluq bildirildi və Bolqarıstanın bu münasibətlərin daha da genişləndirilməsinə öz töhfəsini verməyə hazır olduğu vurğulandı.*

*Görüşdə IV Qlobal Bakı Forumunun əhəmiyyəti xüsusi qeyd edildi, səmərəli müzakirələrin aparılması üçün tədbirin yaxşı imkan yaratdığı bildirildi. Diqqətə çatdırıldı ki, Forumun gündəliyində duran məsələlər aktualdır və beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi önəm daşıyır.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GİORGİ MARQVELAŞVİLİ İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvili ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Yüksək səviyyəli görüşlər zamanı əldə olunan razılaşmaların və qəbul edilən qərarların icrasının əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyi bildirildi. Ölkələrimiz arasında həyata keçirilən qlobal layihələrin regional əməkdaşlığın genişləndirilməsi baxımından da önəmi qeyd edildi. Azərbaycan–Gürcüstan dostluq və yaxın qonşuluq münasibətlərinin qədim tarixə və ənənəyə malik olduğu bildirildi, strateji dostluq əlaqələrimizin bundan sonra da genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğu vurğulandı.*

*Gürcüstan prezidenti Giorgi Marqvelaşvili bu səfəri zamanı da Azərbaycanda gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi.*

*Söhbət zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi IV Qlobal Bakı Forumunun yüksək səviyyədə keçirildiyi bildirildi. Bu tədbirin beynəlxalq və regional məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığı qeyd olundu, ölkələr arasında əməkdaşlıq əlaqələrinin inkişafı baxımından forumun mühüm əhəmiyyət daşıdığı vurğulandı.*

## İSRAİL DÖVLƏTİNİN SABİQ XARİCİ İŞLƏR NAZİRİ TSİPİ LİVNİ İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da İsrail Dövlətinin sabiq Xarici İşlər naziri Tsipi Livnini qəbul etmişdir.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə IV Qlobal Bakı Forumunun yüksək səviyyədə keçirilməsinin önəmi vurğulandı. Forumun artıq ənənə halı aldığı və tədbirə olan beynəlxalq marağın ildən-ilə daha da artdığı məmnunluqla qeyd edildi.*

*Söhbət zamanı müasir dünyada bu cür forumların keçirilməsinin beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsinin aparılması baxımından xüsusi önəm daşıdığı bildirildi.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN ÜZVÜ MLADEN İVANİÇ İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniçi qəbul etmişdir.*

*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç ölkəmizə əvvəlki səfərlərini, Bakıda I Avropa oyunlarının açılışı mərasimində iştirakını və prezident İlham Əliyev ilə keçirdikləri görüşləri xatırlatdı. IV Qlobal Bakı Forumunda iştirakından məmnunluğunu ifadə edən Mladen İvaniç hazırda bütün dünya ölkələrinin tamamilə yeni çağırışlarla üzləşdiyini, tədbirin bu məsələləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığını qeyd etdi.*

*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç ilə görüşlərini xatırladan dövlətimizin başçısı bu səfərlərin əməkdaşlığımızın yaxşı göstəricisi olduğunu vurğuladı. IV Qlobal Bakı Forumunun beynəlxalq əhəmiyyətinin hər il daha da artdığını deyən prezident İlham Əliyev tədbirin ümumi maraq doğuran bir çox məsələlərin müzakirəsi baxımından önəmini qeyd etdi.*

*Görüşdə ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## FİNLANDİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ TARYA HALONEN İLƏ GÖRÜŞ

*11 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Finlandiya Respublikasının sabiq prezidenti xanım Tarya Haloneni qəbul etmişdir.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi IV Qlobal Bakı Forumunun yüksək səviyyədə keçirilməsindən məmnunluq ifadə edildi. Forumun artıq aparıcı beynəlxalq müzakirə məkanları ilə eyni sırada dayandığı vurğulandı. Tədbirdə müzakirə edilən məsələlərin beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyi əminliklə qeyd olundu.*

## LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*11 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Latviya Respublikasının sabiq prezidenti Valdis Zatlersi qəbul etmişdir.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi Qlobal Bakı Forumunun yaxşı ənənəyə çevrildiyi və tədbirə olan marağın ildən-ilə artdığı vurğulandı. Forumda müzakirə edilən məsələlərin əhatə dairəsinin getdikcə daha da genişləndiyi və aktuallığı ilə diqqəti cəlb etdiyi bildirildi. Tədbirin əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün yaxşı imkan yaratdığı qeyd edildi.*

## İRAN İSLAM RESPUBLİKASI SƏRHƏD QOŞUNLARI KOMANDANI QASIM RZAYİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də İran İslam Respublikası Sərhəd Qoşunlarının Komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Bu yaxınlarda İran İslam Respublikasına uğurlu səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı səfərin gözəl nəticələr verdiyini dedi və ölkələrimiz arasında əməkdaşlığa dair ikitərəfli 12 sənədin imzalanmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev bütün sahələri əhatə edən əməkdaşlığımızın hazırda sürətlə inkişaf etdiyini bildirdi. İran və Azərbaycan sərhəd xidmətləri arasında əlaqələrin artıq böyük tarixə malik olduğunu vurğulayan dövlətimizin başçısı İran İslam Respublikası Sərhəd Qoşunlarının Komandanı Qasım Rzayinin ölkəmizə səfərinin bu əlaqələrə yeni təkan verəcəyini bildirdi. Prezident İlham Əliyev dedi ki, ölkələrimizi və xalqlarımızı böyük tarix birləşdirir. Dövlətimizin başçısı hazırda ölkələrimizin beynəlxalq çağırışlara qarşı birgə fəaliyyət göstərdiklərini qeyd etdi, hər iki ölkənin Sərhəd Xidmətlərinin fəaliyyətinin əlaqələndirilməsinin, genişləndirilməsinin və əməkdaşlığın dərinləşdirilməsinin vacibliyini vurğuladı.*

*Sərhəd Qoşunlarının Komandanı Qasım Rzayi Azərbaycan prezidenti İlham Əliyevin və İran prezidenti Həsən Ruhaninin ölkələrimizin sərhəd xidmətləri arasında əlaqələrin inkişafına verdikləri dəstəyin önəmini vurğuladı. O, prezident İlham Əliyevin İrana son səfərini və səfər zamanı məhsuldar görüşlərin keçirildiyini məmnunluqla qeyd etdi. Qasım Rzayi yüksək səviyyəli qarşılıqlı səfərlərin ölkələrimizin sərhəd xidmətləri arasında əməkdaşlığın genişləndirilməsi işinə təkan verəcəyini bildirdi.*

## RUSİYA FEDERASİYASI SƏRHƏD XİDMƏTİNİN RƏHBƏRİ VLADİMİR KULİŞOV İLƏ GÖRÜŞ

*11 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini, Sərhəd Xidmətinin rəhbəri Vladimir Kulişovu qəbul etmişdir.*

Prezident İlham Əliyev Vladimir Kulişovun ölkəmizə səfərinin ikitərəfli əməkdaşlığımızın gündəliyində duran məsələlərin müzakirəsi və birgə fəaliyyətin əlaqələndirilməsi baxımından məhsuldar keçəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı iki ölkənin sərhəd xidmətləri arasında əməkdaşlığın yaxşı səviyyədə olduğunu vurğuladı. Əməkdaşlığın daha da dərinləşdirilməsinin önəmini qeyd edən prezident İlham Əliyev bildirdi ki, bu öz növbəsində, həm insanların ünsiyyət qurmalarına və ticarət aparmalarına, iş adamlarının əlaqələri genişləndirmək üçün sərhədi maneəsiz keçmələrinə, həm də cinayətkar elementlərin, qaçaqmalçıların, terrorçuların, narkotik alverçilərinin qarşısının alınması işinə xidmət edə bilər. Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının sərhəd xidmətlərinin qarşısında ümumi məqsəd və vəzifələrin durduğunu, birgə səylərin gücləndirildiyini məmnunluq hissi ilə qeyd edərək, qarşılıqlı fəaliyyətin daha da təkmilləşdirilməsinin önəmini vurğuladı.

Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini, Sərhəd Xidmətinin rəhbəri Vladimir Kulişov prezident İlham Əliyev ilə əvvəlki görüşlərini məmnunluqla xatırlatdı. Vladimir Kulişov azərbaycanlı həmkarları ilə görüşlərinin həm Rusiyada, həm də Azərbaycanda mütəmadi olaraq keçirildiyini qeyd etdi. O, iki ölkənin sərhəd xidmətləri arasında əməkdaşlığın və birgə fəaliyyətin konstruktiv xarakter daşıdığını dedi. Vladimir Kulişov ölkələrimizin sərhəd xidmətləri arasında təmasların təkcə rəhbərlik səviyyəsində deyil, eyni zamanda, ekspertlər səviyyəsində

*də keçirildiyini bildirərək,* bunun *sərhəddəki şəraitə nəzarət edilməsi, ayrı-ayrı* qanun pozuntularına *cəhdlərin qarşısının alınması və davamlı sərhəd təhlükəsizlik* sisteminin *for-malaşdırılmasında önəmli* rol *oynadığını vurğuladı.*

# MOLDOVA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ GEORGE LEUKA İLƏ GÖRÜŞ

*12 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Moldova Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri George Leukanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir George Leuka Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*George Leuka etimadnaməsini təqdim etdikdən sonra prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Moldova arasında ikitərəfli münasibətlərin uzun illər ərzində müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və digər sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, bu münasibətlərin möhkəmləndirilməsi işində səfirin fəal çalışacağına ümidvar olduğunu bildirdi. Azərbaycan–Moldova əməkdaşlığının, xüsusilə iqtisadi sahədə yeni istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyini vurğulayan prezident İlham Əliyev ölkələrimizin qarşılıqlı ticarət və investisiya potensialından kifayət qədər istifadə olunmadığını dedi. Dövlətimizin başçısı ikitərəfli əlaqələrin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Ölkələrimizin Avropa İttifaqının ümumi proqramlarında iştirak etdiklərini vurğulayan prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlığımızın qənaətbəxş olduğunu dedi. Səfirin Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin, o cümlədən iqtisadi sahədə əməkdaşlığımızın inkişafı işinə töhfə verəcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı George Leukaya fəaliyyətində uğurlar arzuladı.*

*Moldovanın Azərbaycanda yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri George Leuka ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu*

*vurğuladı.* George Leuka Moldova*–Azərbaycan ikitərəfli əlaqələrinin inkişaf etdirilməsi, gələcək əməkdaşlığımızın və* dostluq *münasibətlərimizin möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini* dedi.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Ankara şəhərində törədilmiş amansız terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir və ona qarşı ən kəskin şəkildə mübarizəni vacib hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *13 mart 2016-cı il*

## AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin maraqlı olacağına və ilk dəfə Azərbaycana səfər edən heyət üzvlərinin ölkəmizlə yaxından tanış olmaları üçün səfərin yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirdi. Devid Harrisin ölkəmizin yaxın dostu olduğunu vurğulayan prezident İlham Əliyev səfərin qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi baxımından da önəmini qeyd etdi.*

*Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harris Azərbaycanın ABŞ üçün çox əhəmiyyətli bir ölkə olduğunu vurğuladı. Devid Harris təmsil etdiyi təşkilatın Azərbaycan ilə ABŞ arasında əlaqələrin dərinləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini dedi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vəziyyət ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycanda müxtəlif dini icmaların birgə yaşayışı, multikulturalizmin daha da inkişaf etdirilməsi ilə bağlı görülən tədbirlərin önəmi qeyd olundu, qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edildi.*

## ÇEX RESPUBLİKASI PARLAMENTİNİN DEPUTATLAR PALATASININ SƏDRİ YAN HAMAÇEKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Yan Hamaçekin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Yan Hamaçek ilə həm Azərbaycanda, həm də Çexiyada keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev Çex Respublikası Parlamentinin Deputatlar Palatası sədrinin böyük nümayəndə heyəti ilə Bakıya səfərinin iki ölkə arasında qarşılıqlı maraq doğuran məsələləri yenidən nəzərdən keçirmək, əlaqələrimizin inkişafına təkan vermək və gələcəkdə görülə biləcək işləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığını vurğuladı.*

*Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarını prezident İlham Əliyevə çatdıran Yan Hamaçek dövlət başçıları arasında çox yaxşı qarşılıqlı təmasların olduğunu qeyd etdi. İkitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən Yan Hamaçek hər iki ölkənin prezidentlərinin bu əlaqələrin inkişafına böyük töhfə verdiyini vurğuladı. O, ölkələrimizin parlamentləri arasında da yaxşı əməkdaşlığın mövcud olduğunu bildirdi.*

*Ölkəmizə sonuncu dəfə Bakıda keçirilən I Avropa oyunları zamanı səfər etdiyini məmnunluqla xatırladan qonaq oyunların qısa müddət ərzində yüksək səviyyədə təşkili münasibətilə ölkəmizi və şəxsən prezident İlham Əliyevi bir daha təbrik etdi. Bakının artıq Avropanın idman paytaxtına çevrildiyini qeyd edən Yan Hamaçek ölkəmizdə bu dəfə «Formula-1» yarışlarının keçirilməsinin bunun daha bir göstəricisi olduğunu dedi.*

*Prezident İlham Əliyev «Formula-1» yarışlarının Bakıda keçirilməsinin əhəmiyyətindən və bu istiqamətdə görülən işlərdən danışdı. Dövlətimizin başçısı bu yarışın tamaşaçı auditoriyası baxımından Yay Olimpiya oyunları ilə eyni səviyyədə tutulduğunu qeyd etdi və tədbirin ölkəmizə olan marağı daha da artıracağına əminliyini bildirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti ətrafında fikir mübadiləsi aparıldı, iki ölkə arasında bir sıra sahələrdə, o cümlədən enerji, bank sektoru, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olundu.*

*Dövlətimizin başçısı Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çex Prezidentinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*15 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Türkiyə Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı Ankara «Esenboğa» Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi qardaş ölkənin yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Ankara*

*15 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 15-də Ankarada Türkiyə Respublikası Prezidentinin sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə Türkiyə Prezidentinin sarayına gəldi.*

*Sarayın qarşısındakı meydanda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Prezident İlham Əliyevin şərəfinə toplardan yaylım atəşinin müşayiəti ilə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Prezident İlham Əliyev əsgərləri salamladı.*

*Türkiyənin rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Rəcəb Tayyib Ərdoğana təqdim edildi.*

*Sonra Azərbaycan və Türkiyə prezidentləri rəsmi foto çəkdirdilər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Ankara*

*15 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın martın 15-də rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə edildi. Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının əlaqələrimizin daha da dərinləşməsi işinə xidmət etdiyi vurğulandı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN–TÜRKİYƏ YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ BEŞİNCİ İCLASINDA İŞTİRAK

*Ankara*

*15 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə martın 15-də Ankarada Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası keçirilmişdir.*

**Rəcəb Tayyib Ərdoğan:** Əziz qardaşım, cənab prezident Əliyev!

Nümayəndə heyətinin dəyərli üzvləri!

Sizi ən səmimi hisslərimlə, məhəbbətlə, hörmətlə salamlayıram. Sizi ikinci Vətəniniz olan Türkiyədə qonaq qəbul etməkdən böyük məmnuniyyət hissi keçirdiyimi xüsusilə vurğulamaq istəyirəm. Millətimizin və ölkəmizin bu çətin günündə – Ankaranın mərkəzində, Kızılayda tamamilə mülki əhaliyə qarşı həqiqətən, çox ciddi terror aktı – terrorçu-intiharçının törətdiyi hücumla bağlı göstərdiyiniz həmrəyliyə görə öz adımdan və millətimiz adından təşəkkür edirəm. Bu gün Siz mərhum Heydər Əliyevin «bir millət – iki dövlət» kəlamını yaşayaraq  açıq-aşkar nümayiş etdirdiniz. Bu səfərinizlə bütün dünyaya, xüsusilə də dünyadakı bütün terror təşkilatlarına və onların arxasındakı qüvvələrə çox güclü və dəqiq mesaj verdiyinizə əminəm. Sizə millətim adından bir daha təşəkkürümü bildirirəm.

Builki iclasımızın Azərbaycanın müstəqilliyinin bərpasının 25-ci ilində keçirilməsi xüsusi bir məna daşıyır. Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olaraq, ötən 25 ildə keçdiyiniz inkişaf yolu və əldə etdiyiniz müvəffəqiyyətlərlə bağlı biz də ən azı sizin qədər qürur duyuruq. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasına dəyərli qardaşım, hörmətli Əliyev ilə birlikdə sədrlik etməkdən böyük

məmnuniyyət duyuram. Bu gün apardığımız və aparacağımız müzakirələrin ölkələrimiz üçün xeyirli olmasını arzu edirəm.

Sizinlə təkbətək görüşümüzdə ətraflı fikir mübadiləsi apardıq. Eyni zamanda, heyətlərimizin üzvləri də həmkarları ilə görüşlər keçirdilər. Hörmətli nazirlərimiz bu görüşlərin nəticələrini bir azdan Şuraya təqdim edəcəklər. Dünya iqtisadiyyatındakı böhranların hələ də davam etdiyini, maliyyə sabitliyinin hələ də təmin olunmadığını hamımız görürük. Bu mənzərə qarşısında bugünkü iclasımız çox böyük önəm və dəyər daşıyır.Türkiyə bütün sahələrdə Azərbaycanın ən yaxın strateji müttəfiqidir. Şükürlər olsun ki, ikitərəfli əlaqələrimiz bir çox ölkənin qibtə etdiyi və nümunə götürdüyü səviyyədə davam edir. Bu iclasımız, inşallah, mövcud əməkdaşlığımızı daha da inkişaf etdirəcək və möhkəmləndirəcək. İclasımızın əsas mövzuları enerji, nəqliyyat, iqtisadiyyat və hərbi təhlükəsizlik, yəni müdafiə sahəsində əməkdaşlıq olaraq müəyyənləşdirilib. Dünyadakı hazırkı iqtisadi və siyasi vəziyyəti nəzərə aldıqda, mən bu məsələlərin çox dəqiq seçildiyini vurğulamaq istəyirəm.

Əziz qardaşım, son illərdə Azərbaycan bütün sahələrdə sürətlə inkişaf edir. Ötən il ilk Avropa oyunlarının açılışını möhtəşəm təşkil etdiniz. Açılışda ən azı sizin qədər biz də qürur duyduq, iftixar hissi keçirdik. İnşallah, bu il də BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda iştirak etmək üçün Bakıya səfər edəcəyik. Həmçinin Sizin 2016-cı ili «Multikulturalizm ili» elan etdiyinizi bilirəm. Məlumdur ki, diskriminasiya, ksenofobiya və islamofobiya kimi irqçi meyillər dünyada yenidən fəallaşıb. Bu baxımdan ev sahibliyi edəcəyiniz BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun çox mühüm əhəmiyyət daşıdığını düşünürəm. Forumun uğur qazanması üçün sizinlə sıx əməkdaşlıq və əlaqələndirmə şəraitində çalışacağıq. Bilirsiniz ki, biz də ilk dəfə təşkil ediləcək Ümumdünya Humanitar Zirvə toplantısına mayın 23–24-də İstanbulda ev sahibliyi edəcəyik. İnşallah, Sizi orada qəbul edəcəyimə ümidvaram. Aprelin 14–15-də İslam Əməkdaşlıq Təşkilatının XIII Zirvə toplantısı İstanbulda keçiriləcək. Sizi həmin Zirvə toplantısında da görməkdən böyük məmnunluq duyacağam. Çünki

builki Zirvə toplantısında müzakirə olunacaq məsələlər mühüm əhəmiyyət kəsb edir.

Əhəmiyyət verdiyim digər məqam isə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətinin və təsir dairəsinin daha da artırılmasıdır. Asiya iqtisadi və ticari baxımdan XXI əsrin mərkəzinə çevrilir. Qafqaz bölgəsi isə Asiya ilə Avropa arasında ən mühüm nəqliyyat, ticarət və enerji marşrutlarından biri kimi, get-gedə daha çox diqqət mərkəzinə çevrilir. Bu baxımdan tarixi İpək yolunun bərpası və təkmilləşdirilməsi məqsədilə həyata keçirilən işlər qətiyyətlə davam etdirilməlidir. Azərbaycanın həmin layihələr üzrə qovşaq və yolların kəsişməsində yerləşməsi baxımından mühüm rolu var. Başda Bakı və Ələt limanlarında aparılan işlər olmaqla, logistik dəhlizi əhatə edən bütün layihələrdə Azərbaycan tərəfi ilə sıx əməkdaşlıq və əlaqələndirmə şəraitində işləmək istəyirik. Digər mühüm məsələ isə Azərbaycanın enerji resurslarının təhlükəsiz şəkildə Avropaya çatdırılmasıdır. «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsi üçün TANAP layihəsi üzrə səmərəli əməkdaşlığımız var. Hazırkı dövrdə «Cənub Qaz Dəhlizi»nin əhəmiyyəti daha da artıb. Bu dəhlizin onurğa sütununu isə TANAP təşkil edir. Bu baxımdan layihə mümkün qədər qısa vaxtda həyata keçirilməlidir.

Biz vətəndaşlarımızın təhlükəsizliyinə qəsd edən, ölkəmizi təhdid edən bütün terror təşkilatlarına qarşı mübarizəmizi davam etdirəcəyik. Bu məsələdə Azərbaycanın bizi dəstəklədiyini bilirik. Bu gün buraya gələrək, bunu sübut etdiniz. Həm də əsl dostluğun və qardaşlığın nə demək olduğunu bizə göstərdiniz. Millətimiz bunu heç vaxt unutmayacaq. Bu düşüncələrlə Sizi və nümayəndə heyətinizin üzvlərini bir daha salamlayıram və sözü prezident, əziz qardaşım İlham Əliyevə verirəm.

**İlham Əliyev:** Hörmətli cənab Prezident, əziz qardaşım!

Mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

İlk növbədə, iki gün əvvəl Ankarada törədilmiş dəhşətli terror aktı nəticəsində həlak olanlara Allahdan rəhmət diləmək istəyirəm. Həlak olanların yaxınlarına Allahdan səbir diləyirəm. Bu dəhşətli terror aktı bizi də sarsıtdı. Azərbaycan xalqı həmişə olduğu kimi, bu gün də türk xalqı ilə birlikdədir. Biz həmrəyik, dostuq, qardaşıq.

Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, qardaşlığı dayanır. Yaxşı günlərdə də, ağır günlərdə də biz hər zaman bir-birimizin yanındayıq.

Siz də qeyd etdiyiniz kimi, bu il Azərbaycan müstəqilliyinin bərpasının 25-ci ildönümünü qeyd edəcək. Bizim müstəqilliyimizi tanıyan ilk ölkə Türkiyə olmuşdur. O gündən bu günə qədər bizim əməkdaşlığımız dərinləşir, inkişaf edir və bu gün strateji tərəfdaşlıq səviyyəsinə qalxıb. Bu gün Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Biz bir çox sahələr üzrə ciddi fəaliyyət göstəririk. Siz qeyd etdiyiniz kimi, təhlükəsizlik, terrora qarşı mübarizə sahələrində, enerji, nəqliyyat, hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığımızın çox gözəl tarixi var və əminəm ki, bu əməkdaşlıq getdikcə daha da dərinləşəcək. Türkiyənin son illər ərzində sürətli inkişafı da bizi sevindirir. Türkiyə bu gün dünya miqyasında güclü ölkələr sırasındadır. Türkiyənin bütün dostları buna sevinir, ilk növbədə Azərbaycan xalqı buna sevinir.

Keçən ilin noyabr ayında Sizin rəhbərliyinizlə «G20» toplantısı keçirildi. Bu da ölkənizin növbəti böyük zəfəri idi. Biz fəxr edirik ki, Azərbaycan bu toplantıya dəvət olunmuşdur. Siz bir daha öz qardaşlığınızı göstərdiniz. Çünki Siz bir ölkəni dəvət edə bilərdiniz, o ölkə də Azərbaycan oldu. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir.

Bir sözlə, bizim əlaqələrimizin gələcək inkişafı üçün bütün imkanlar vardır. Bu gün birgə icra etdiyimiz layihələr bizi daha da möhkəmləndirir. Enerji sahəsində, qeyd etdiyiniz kimi, TANAP layihəsinin icrası artıq reallaşıb və əminəm ki, vaxtında icra ediləcək. Biz TANAP layihəsinə sizinlə bərabər 2012-ci ildə İstanbulda start verdik. Ondan sonra TANAP layihəsi əsasında «Cənub Qaz Dəhlizi» layihəsi də yarandı.

* * *

*İclasda ölkələrimiz arasında həyata keçirilən enerji, nəqliyyat layihələrinin icrası, qarşılıqlı investisiya, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Ankara*

*15 mart 2016-cı il*

*Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası başa çatdıqdan sonra martın 15-də prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan–Türkiyə sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının Protokolu»nu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi/mülki heyətin sosial və mədəni məqsədli mübadiləsinə dair Protokol»u Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının şəxsi heyət üzrə rəisi, korpus generalı İlhan Talu imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında diplomatik nümayəndəlik və konsulluqların əməkdaşlarının ailə üzvlərinin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu imzaladılar.*

*«Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və Türkiyənin Daxili İşlər naziri Əfkan Ala imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş»i Azərbaycan Respublikası Baş*

*nazirinin müavini Abid Şərifov və Türkiyənin Daxili İşlər naziri Əfkan Ala imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında texniki əməkdaşlıq haqqında Protokol»u Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və Türkiyə Respublikası Baş nazirinin müavini Yalçın Akdoğan imzaladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Ankara*

*15 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan martın 15-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli prezident, əziz qardaşım İlham Əliyev!

Azərbaycan nümayəndə heyətinin hörmətli üzvləri!

Hörmətli nazirlər, mətbuat nümayəndələri!

Sizi ən səmimi hisslərimlə, sevgi və ehtiramla salamlayıram!

Əziz qardaşım İlham Əliyevə və çox hörmətli nümayəndə heyətinin üzvlərinə şəxsən öz adımdan və millətim adından ölkəmizə, paytaxtımıza «Xoş gəlmisiniz!» – deyirəm.

Çıxışımın əvvəlində azərbaycanlı qardaşlarımıza terror hücumundan sonra Ankaraya gələrək, göstərdikləri güclü həmrəyliyə görə təşəkkürümü çatdırıram. Biz bu gün Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasını əslində Bakıda keçirməli idik. Ancaq sağ olsun, qardaşım Əliyev bu hadisə ilə əlaqədar dedi ki, biz gələk və Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını Bakıda deyil, təkrar olsa da Ankarada keçirək.

Mən bu səfəri, bu gün burada Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını həm bu hadisə ilə bağlı birlikdə gücümüzü, həmrəyliyimizi, həm də bütün terror hücumlarına qarşı birlikdə olduğumuzu milli və beynəlxalq miqyasda göstərmək baxımından çox yüksək qiymətləndirirəm. Mən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının bu iclasının Ankaramızda keçirilməsini çox

təqdirəlayiq hesab edirəm və mərhum Heydər Əliyevin dediyi kimi, «bir millət – iki dövlət» anlayışının daha bir təzahürü olduğunu bildirirəm. Qardaşım İlham Əliyev Azərbaycanın millətimizin dar günündə dostu olduğunu bir daha göstərdi. Buna görə ona dərindən təşəkkürümü bildirirəm.

Mən burada verilən mesajın əslində hamı tərəfindən diqqətlə oxunmasını arzu edirəm. Terrora dəstək verməyi, terrorçuya pərdə olmağı azadlıq deyə təqdim edənlər, cənazələrimiz dəfn olunmamış siyasi maraq güdənlər bu qardaşlıq mesajından lazımi dərs çıxarmalıdırlar. Belə hadisələr və bildirilən etirazlar məsələnin əsl mahiyyətinin məkan birliyi deyil, bir ruh və könül birliyi olduğunu açıq-aşkar ortaya qoyur. Burada bir məqamı bir daha xüsusi qeyd etmək istəyirəm. Bazar günü törədilən terror aktı bütün Türkiyəyə, 79 milyon insana qarşı törədilmiş bir hücumdur.

Bu hücumla terror təşkilatı cani və mənfur üzünü bir daha göstərdi. Hücumun hədəfi millətimizin arasına qorxu toxumu səpmək, Türkiyəni hədəfindən, müqəddəs addımlarından, məqsədlərindən çəkindirməkdir. Amma bunu əsla bacara bilməyəcəklər, bu, mümkün deyil.

Terrordan alət kimi istifadə edənlər, məsum insanların qanını axıdanlar Türkiyəni əsla diz çökdürə bilməyəcəklər. Tam əksinə, özləri diz çökəcəklər. İnşallah, millət olaraq dost və qardaş ölkələrin dəstəyi ilə bu sıxıntıları da geridə qoyacağıq. Yeni Türkiyəni hamımız birlikdə inşa edirik və edəcəyik.

Mən başda əziz qardaşım Əliyev olmaqla, bütün azərbaycanlı qardaşlarıma millətimiz adından təşəkkür edirəm. Biz də Türkiyə olaraq, işğal altında saxlanılan Dağlıq Qarabağ başda olmaqla, bütün sahələrdə azərbaycanlı qardaşlarımızın yanında olmağı qətiyyətlə davam etdiririk və etdirəcəyik.

Hörmətli mətbuat nümayəndələri, Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının bu gün beşinci iclasını keçirdik. Bu iclasımızda enerji, nəqliyyat məsələlərini birlikdə müzakirə etdik. Bununla yanaşı, müdafiə, hərbi və bütün bu istiqamətlərdə əməkdaşlığı müzakirə etdik. Bir az əvvəl də gördüyünüz kimi, 6 müqaviləni imzaladıq. Bunlardan biri «Azərbaycan

Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi/mülki heyətin sosial və mədəni məqsədli mübadiləsinə dair Protokol»dur. İkincisi, «Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında diplomatik nümayəndəlik və konsulluqların əməkdaşlarının ailə üzvlərinin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları haqqında Saziş», üçüncüsü «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş», dördüncüsü, «Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş», beşincisi, «Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında texniki əməkdaşlıq haqqında Protokol», altıncısı da «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının Protokolu» idi.

Bütün bu fəaliyyətlə bərabər, 25 il ərzində Azərbaycanın çatdığı səviyyəni, nail olduğu uğurları türkiyəli qardaşları olaraq, daim təqdir etdik və təqdir edirik. Burada Azərbaycanın müstəqilliyinin həqiqi memarı mərhum Heydər Əliyevi bir daha rəhmətlə yad edirəm. Onun qoyub getdiyi mirasa əziz qardaşım İlham Əliyev böyük müvəffəqiyyətlə sahib çıxdı və sahib çıxır. Bugünkü iclasımızın, keçirdiyimiz görüşlərin, qəbul etdiyimiz qərarların Azərbaycanın bu sürətli inkişafına dəstək olacağına inanıram.

Bir az əvvəl əziz qardaşımla təkbətək görüşdə ətraflı müzakirələr apardıq. Ondan sonra nümayəndə heyətləri arasında görüş keçirdik. Nazirlərimiz öz aralarında gələcəkdə görüləcək işlərlə bağlı müzakirələr apardılar. Bildiyiniz kimi, ilboyu nazirlərimizin görüşləri keçirilir və prezidentlərin də iştirakı ilə bir il Azərbaycanda, bir il Türkiyədə olmaqla, bu iclaslar davam etdirilir.

İclasımızda təbii ki, terrorla mübarizə istiqamətində nə iş görə biləcəyimizi də müzakirə etmək imkanımız oldu. Dünya iqtisadiyyatında və bölgəmizdə geosiyasi proseslər, əlbəttə ki, hamımıza təsir edir. Buna qarşı ortaq tədbirlərimiz nələr olar bilər – bunu da müzakirə etmək imkanımız oldu.

Qarşıdakı günlərdə cənab Əliyev ilə mühüm tədbirlərlə əlaqədar yenidən görüşlərimiz olacaq. Bilirsiniz ki, qarşıda İslam Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı keçiriləcək. Bu Zirvə toplantısında onu yenə İstanbulda, inşallah, qəbul edəcəyik. Bildiyiniz kimi, bizim cənab Zapatero ilə başlatdığımız mədəniyyətlərarası dialoq məsələsi var. Bunun üçün də aprelin 25–26-da, inşallah, Bakıda olacağam. Orada həmin tədbirlərdə birlikdə olacağıq. Ondan sonra digər beynəlxalq tədbirlərdə, o cümlədən bu ayın sonunda Vaşinqtonda keçiriləcək Nüvə Təhlükəsizliyi Sammitində birlikdə iştirak edəcəyik və orada baxışlarımızı beynəlxalq ictimaiyyətlə bölüşəcəyik.

İslamofobiyanın, ksenofobiyanın və irqçiliyin gücləndiyi bir dövrdə inanıram ki, Sivilizasiyalar Alyansının VII Qlobal Forumu dünyaya mühüm mesajı Bakıdan verəcəkdir. Prezident İlham Əliyevi 2016-cı ili «Multikulturalizm ili» elan etməsi ilə əlaqədar təbrik edirəm. Bununla yanaşı, qardaşım Əliyevi may ayında İstanbulda ev sahibliyi edəcəyimiz, ilk dəfə keçiriləcək Dünya Humanitar Zirvə toplantısına da dəvət etdim. Ümid edirəm ki, iş qrafiki imkan versə, orada birlikdə olarıq.

Hörmətli mətbuat nümayəndələri, Azərbaycan ilə birlikdə həyata keçirdiyimiz ən mühüm layihə, bildiyiniz kimi, TANAP-dır. TANAP-da işlər əvvəlcədən nəzərdə tutulan plana uyğun olaraq sürətlə irəliləyir. Hətta layihənin nəzərdə tutulan müddətdən əvvəl tamamlanması üçün çalışırıq. TANAP-ın onurğa sütununu təşkil edən «Cənub Qaz Dəhlizi» məsələsində də bütün tərəfdaşlarla sıx əlaqədə çalışırıq. Bu münasibətlə fevralın 29-da Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısını keçirdiyi üçün Azərbaycanı təbrik edirəm.

Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi də nəqliyyat sahəsindəki mühüm layihəmizdir. Londondan Pekinə qədər dəmir yolu nəqliyyatını mümkün edəcək layihənin, inşallah, dekabrda birlikdə açılışını edəcəyik. Beləliklə də bu nəhəng layihə açılışı ilə dünyaya önəmli bir mesaj olacaqdır.

Ticari əlaqələrimizə gəldikdə, qlobal iqtisadi böhran və neftin qiymətinin aşağı düşməsi 2015-ci ildə inkişaf tempinə təsir etdi. Buna baxmayaraq, 2023-cü il üçün 15 milyard dollarlıq hədəfimizi

qüvvədə saxlayırıq və bunu həyata keçirmək üçün, inşallah, lazım olan tədbirləri görəcəyik.

Qarşılıqlı sərmayə qoyuluşu hazırda 13 milyard dollar səviyyəsindədir. Bunu da artıraraq, inşallah, 5 ildə 20 milyard dollar səviyyəsinə çatdırmağı planlaşdırırıq. İclasımızda xüsusilə Naxçıvanın artan ixracat potensialını dəyərləndirərək, müştərək fəaliyyətə qərar verdik. İstər Naxçıvanın məhsullarını ölkəmizdə görmək, istərsə də onun turizm imkanlarından yararlanmaq mühüm istiqamətdir. Bilirsiniz ki, Naxçıvanda turizm baxımından çox önəmli məkanlar var. Vətəndaşlarımıza Naxçıvanı bu baxımdan öz səfər proqramlarına daxil edərək gəzmələrini, xüsusilə duz mağaralarında müalicə olunmaları ilə bağlı təklifimi də buradan xüsusi xatırladıram. Əziz qardaşımla həmin duz mağaralarını birlikdə gəzdim, gördüm. Ona görə də eşidərək deyil, görərək söyləyirəm. Bu baxımdan müəyyən bir təcrübə vardır.

Görüşlərimizdə hərbi sənaye və təhlükəsizlik məsələlərini bir daha müzakirə etdik. Müdafiə sənayesi sahəsində bəzi konkret addımların atılmasını qərarlaşdırdıq. Qarşıdakı aylarda keçiriləcək üçüncü Türkiyə–Azərbaycan Müdafiə Sənayesi Əməkdaşlığı Toplantısının bu baxımdan mühüm fürsət olacağına inanıram.

Bu düşüncələrlə çıxışımı yekunlaşdıraraq əziz qardaşım, cənab prezident Əliyevə göstərdikləri alicənablığa və qədirbilənliyə görə şəxsən öz adımdan, millətim adından bir daha təşəkkürümü ifadə edirəm və sözü ona verirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Əziz qardaşım, hörmətli Cümhurbaşqanı!

Əziz dostlar!

İlk növbədə, 2 gün bundan öncə Ankarada törədilmiş amansız terror aktı ilə əlaqədar Azərbaycan xalqı və dövləti adından qardaş türk xalqına başsağlığı vermək istəyirəm. Allah ölənlərə rəhmət eləsin, yaralananlara şəfa versin. Qurbanların yaxınlarına, qohum-əqrəbalarına Allah səbir versin.

Bu dəhşətli terror aktını qətiyyətlə pisləyirik, qınayırıq və bir daha deyirik ki, biz bu gün türk xalqının yanındayıq. Bizim birliyimiz

əbədidir, sarsılmazdır. Yaxşı günlərdə də, ağır günlərdə də biz daim bir-birimizin yanındayıq. Biz Azərbaycanda tam əminik ki, Türkiyə xalqına və dövlətinə qarşı törədilmiş terror aktlarının heç bir nəticəsi olmayacaq. Bu, Türkiyə dövlətini sarsıda, türk xalqının iradəsinə təsir edə və Türkiyəni haqq yolundan döndərə bilməz.

25 ildir ki, Türkiyə və Azərbaycan birlik, həmrəylik göstərir. 25 il bundan əvvəl Azərbaycan dövlət müstəqilliyini bərpa etdi və bizi ilk tanıyan dövlət Türkiyə oldu. Biz bunu heç vaxt unutmayacağıq. Bu əslində başqa ölkələrə də bir tövsiyə idi və ondan sonra Azərbaycanı müstəqil dövlət kimi tanıma prosesi sürətlə getməyə başladı. Bu illər ərzində biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik. Bu gün Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, qardaşlığıdır. Bu, əsas məsələdir və biz dostluğumuzun, qardaşlığımızın möhtəşəm binasını bu təməl üzərində inşa edirik.

Əziz qardaşım qeyd etdiyi kimi, biz bütün sahələrdə uğurla əməkdaşlıq edirik. Bu gün burada imzalanan sənədlər, apardığımız danışıqlar bir daha bizim birliyimizi nümayiş etdirir. Biz beynəlxalq müstəvidə bir-birimizi daim dəstəkləyirik. Biz çox şadıq ki, Türkiyə dünya çapında güc mərkəzinə çevrilibdir. Əziz qardaşımın yorulmaz fəaliyyəti nəticəsində Türkiyə son illər ərzində böyük zirvələrə qalxa bilib. Türkiyənin dünyadakı rolu artır, mövqeləri möhkəmlənir. Türkiyəyə dünya birliyi tərəfindən bəslənilən inam və rəğbət bizi sevindirir.

Təsadüfi deyil ki, keçən ilin noyabr ayında Türkiyə «Böyük İyirmilik»ə ev sahibliyi etmişdi. Bizi fərəhləndirən məsələ ondan ibarətdir ki, Türkiyə bu mötəbər tədbirə Azərbaycanı dəvət etdi. Türkiyə bir ölkəni dəvət edə bilərdi, o ölkə də Azərbaycan oldu. Bu qardaşlığa görə, əziz qardaşım, şəxsən Sizə və bütün türk xalqına bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Türkiyə nə qədər güclü olarsa, bir o qədər də biz güclü olacağıq. Bizim gücümüz birliyimizdədir və bütün beynəlxalq məsələlərdə biz bir yerdəyik, bir-birimizin yanındayıq. Türkiyə hər zaman Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli,

beynəlxalq hüquq normalarına uyğun həllinin tərəfdarı olub və bu dəstək bu gün də göstərilir. Azərbaycanın ərazi bütövlüyü pozulub, bərpa edilməlidir, beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələr icra edilməlidir. Biz bu məsələ ilə bağlı ikili standartlarla üzləşmişik və Türkiyə kimi böyük dövlətin göstərdiyi dəstək bizim üçün çox önəmlidir.

Bizi hərbi əməkdaşlıq birləşdirir. Bizim hərbçilərimiz bu yaxınlarda birgə təlimlər keçirib. Bu da gözəl ənənəyə çevrilib. Hərbi-texniki sahədə əməkdaşlıq dərinləşir. Biz artıq Türkiyədən müxtəlif hərbi texnika, silahlar alırıq. Türkiyənin bu sahədəki uğurları, əlbəttə ki, Azərbaycanın da müdafiə potensialını gücləndirir.

Əziz qardaşım qeyd etdiyi kimi, enerji layihələri bizi birləşdirir. 2012-ci ildə məhz Türkiyə və Azərbaycan TANAP layihəsinə start verdi. Əgər o vaxt biz TANAP layihəsinə start verməsəydik, bu gün «Cənub Qaz Dəhlizi» layihəsi reallaşa bilməzdi. Bu gün bu dəhlizin icrasında Türkiyə və Azərbaycan aparıcı rol oynayır. Biz çalışacağıq ki, bu transmilli, böyük maliyyə vəsaiti tələb edən layihəni vaxtında icra edək. Əminəm ki, 2 ildən sonra biz TANAP layihəsinin açılışını qeyd edəcəyik. Zatən, bu layihənin təməl daşını da Qars şəhərində bərabər qoymuşuq.

Nəqliyyat sahəsində bizim birgə icra etdiyimiz layihə qitələri birləşdirir. Bu gün bu məsələ geniş şəkildə müzakirə olundu və artıq nəqliyyat sahəsində yeni imkanlar mövcuddur. Bu imkanlar araşdırılır. Biz çox istərdik ki, Türkiyədən gələn yüklərin sayı artsın və Azərbaycan ərazisindən müxtəlif istiqamətlərə yönəlsin. Buna nail olmaq üçün artıq praktiki addımlar atılmaqdadır.

Mədəniyyətlərarası dialoqun dərinləşməsi işində Türkiyənin xüsusi rolu vardır. Hörmətli Prezident qeyd etdiyi kimi, gələn ay Bakıda Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Bu forumun təşəbbüskarı da hörmətli prezident Rəcəb Tayyib Ərdoğandır. Türkiyənin, Azərbaycanın dünya mədəniyyətinə verdikləri töhfə beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Biz islamofobiyaya qarşı bərabər, birgə səylərlə mübarizə aparırıq. Bu gün islamofobiya bəzi ölkələrdə dövlət siyasətinə çevrilibdir. Əfsuslar olsun ki, bir çox media qurumları islama, islam mədəniyyətinə,

bizim adət-ənənələrimizə qarşı məqsədyönlü şəkildə kampaniya aparır. İslamı ləkələmək, qaralamaq, terrorla eyniləşdirmək cəhdləri gözümüzün önündədir. Bu dözülməzdir. Bu, dünyada sivilizasiyalararası problemlərə gətirib çıxara bilər və artıq çıxarır. Biz bu gün qaçqınlar böhranını görürük. Yenə də burada əsas yük Türkiyənin üzərinə düşür. Türkiyə artıq aylardır ki, milyonlarla köçkünü-qaçqını təmənnasız olaraq öz ərazisində yerləşdirir, böyük vəsait xərcləyir. Biz də humanitar fəlakətdən əziyyət çəkmiş ölkə kimi, bilirik ki, bu nə qədər ağır məsələdir. Azərbaycan  keçən əsrin 90-cı illərinin əvvəllərində erməni işğalı nəticəsində yaranmış humanitar fəlakətlə üz-üzə qalmışdı.

Bu gün bu köçkünlər nicat tapmaq, canlarını qurtarmaq üçün Avropaya üz tutduqda, görün onları orada nələr gözləyir – onların ləyaqəti alçaldılır, onlar təhqir edilir, qəfəslərə salınır. Onlar haqqında olmazın yalanlar yayılır. Bəs ümumbəşəri dəyərlər, demokratiya, insan haqları, mərhəmət haradadır?! Biz bunu görmürük. Ona görə Türkiyə və Azərbaycan o ölkələrdəndir ki, öz səsini ucaldır. Biz bu insanların acı taleyinə biganə qala bilmərik. Mən bir daha Azərbaycan xalqı adından Türkiyə rəhbərliyinə minnətdarlığımı bildirmək istəyirəm ki, ağır yükü öz üzərinə götürüb. Türkiyə bir daha bütün dünyaya nümayiş etdirib ki, qaçqın böhranından necə şərəflə çıxmaq olar.

Bir sözlə, bizim aramızdakı əlaqələr, demək olar ki, bütün sahələri əhatə edir. Bir daha qeyd etmək istəyirəm – mən hesab edirəm və əminəm ki, həm Türkiyədə, həm Azərbaycanda bu fikirlə hər kəs razı olar – bu gün dünya çapında Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olan ölkələr yoxdur. Bu birlik bizim milli sərvətimizdir. Biz bu birliyi qoruyuruq, qoruyacağıq. Əminəm ki, gələcək illərdə biz bundan da böyük qələbələr əldə edəcəyik.

Mən bir daha mənə və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Qardaş türk xalqına səadət, sülh, əmin-amanlıq, yeni qələbələr arzulayıram.

Sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*Ankara*

*15 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə martın 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından ziyafət verilmişdir. Ziyafətdə hər iki dövlət başçısı iştirak etmişdir.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan torpağında çox qədim kökləri olan, uzaq keçmiş-lərdən xalqımızın mənəvi həyatının ən dərin qatlarına nüfuz edən və zamanın sınaqlarından günümüzədək uğurla çıxan Novruz bayramı ənənəvi dəyərlər sistemimizin təşəkkülündə müstəsna əhəmiyyətə malikdir. Əcdadlarımızın müqəddəs yadigarı kimi, bu bayram təbiətin ilahi nizamına ehtiramın aydın ifadəsidir. Zəngin mənəviyyatımız və düşüncə dünyamız, yüksək əxlaqi keyfiyyətlərimiz və həyata nikbin baxışımız Novruz mə-rasimlərimizdə bütün rəngarəngliyi ilə dolğun təcəssümünü tap-mışdır. İctimai-siyasi və ədəbi-mədəni fikir tariximizin görkəmli şəxsiyyətləri milli varlığımızın ayrılmaz parçası saydıqları bu bayrama həmişə xüsusi münasibət bəsləmişlər.

Yaz bayramı tükənməz yeniləşdirici gücü sayəsində ən çətin vaxtlarımızda belə, gələcəyə inamımızı zəifləməyə qoymamışdır. O, Azərbaycan xalqının özünüdərk məfkurəsini qorumaqla, ötən əsrin sonlarına doğru milli dövlətçilik idealımıza yenidən qovuşmağımızda mühüm rol oynamışdır. Novruzun rəsmi bayram statusu alması və artıq 25-ci baharını yaşayan odlar diyarında ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir. Sivilizasiyaların qovuşuğundakı multikultural mühitli ölkəmizin müxtəlif mə-dəniyyətlərə mənsub insanlarını daim ünsiyyətə çağıraraq xoş münasibətlər bərqərar etmiş və dostluq, qardaşlıq əlaqələrini daha da gücləndirmiş Novruz bayramında tolerantlığın həqiqi təntənəsi vardır.

Bahar bayramının ali bəşəri duyğuların daşıyıcısı olaraq YUNESKO tərəfindən ümumdünya qeyri-maddi mədəni irsinin inciləri sırasına daxil edilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur. Mən azərbaycançılıq məfkurəsi işığında sıx birləşməklə, bayramı ölkəmizin hüdudlarından kənarda bizimlə bərabər qarşılayan soydaşlarımıza firavanlıq, əmin-amanlıq və ruh yüksəkliyi arzu edirəm.

Həmrəyliyimizin rəmzi olan bu bayram qoy hər evə xoş ovqat gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 mart 2016-cı il*

## ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizi və bütün həmməzhəblərinizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Zəngin tolerantlıq ənənələri olan Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlərin bugünkü səviyyəsi xüsusi məmnunluq doğurur. Bu yaxınlarda Heydər Əliyev Fondunun təşəbbüsü ilə Vatikanda bərpa edilən Müqəddəs Marçellinio və Pietro katakombalarının açılışı sivilizasiyalararası və dinlərarası dialoqun, multikulturalizm dəyərlərinin qorunub saxlanılması və möhkəmləndirilməsi yolunda fəal əməkdaşlığımızın bariz nümunəsidir.

Ümidvaram ki, dünyada sülhün, sabitliyin qorunub saxlanılması, insanlar arasında qarşılıqlı anlaşma, dəstək və həmrəyliyin bərqərar olmasına yönəlmiş səmimi dialoqumuzu bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ali mənəvi missiyanızda uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 mart 2016-cı il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BEJİ KAİD ƏS-SEBSİYƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Tunis dostluğu və əməkdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tunis xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 mart 2016-cı il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Pakistan Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Pakistanı ənənəvi dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri birləşdirir. Ölkələrimiz arasındakı əlaqələrin genişlənməsi və dərinləşməsi möhkəm siyasi iradəyə, qarşılıqlı inam və etimada əsaslanır.

İnanıram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq münasibətlərinin daim möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, qardaş Pakistan xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 mart 2016-cı il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PROKOPİS PAVLOPULOSA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Yunanıstan münasibətlərinin inkişafı, əməkdaşlığımızın genişlənməsi bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 mart 2016-cı il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL HƏMİDƏ**

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Banqladeş arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 mart 2016-cı il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salber Avropa Komissiyasının vitse-prezidenti, Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Federika Moqerininin Azərbaycana səfərindən bir neçə həftə sonra ölkəmizə səfərə gəlmək imkanı əldə etdiyinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Herbert Salber Federika Moqerininin ölkəmizə səfərindən sonra əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların açıldığını dedi. O bildirdi ki, Avropa İttifaqı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması işinə öz töhfəsini verə bilər.*

*Dövlətimizin başçısı Avropa Komissiyasının vitse-prezidenti, Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerininin Azərbaycana səfərinin uğurlu və məhsuldar olduğunu vurğuladı. Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıqdan məmnunluğunu ifadə edən prezident İlham Əliyev gələcək tərəfdaşlığımızın yaxşı perspektivlərə malik olduğunu dedi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında geniş fikir mübadiləsi aparıldı, eyni zamanda, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olundu.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rostov-Don aeroportunda «Boeing 737-800» sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan təlafatı barədə xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 mart 2016-cı il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*İçərişəhər*

*19 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 19-da Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə keçirilən ümumxalq şənliyində iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər. Milli geyimli oğlanlar və qızlar Azərbaycan Prezidentinə bayram xonçası təqdim etdilər, dövlətimizin başçısına və xanımına Novruz bayramı münasibətilə təbriklərini çatdırdılar.*

*İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.*

*Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.*

*Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.*

*Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.*

*Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni uğurlar arzulayıram.

Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə həmişə sadiq olub. Bu gün Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır.

Novruz bayramı bizim milli sərvətimizdir. Müstəqil Azərbaycan dövləti də milli-mənəvi dəyərlər üzərində qurulubdur. Bu il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd edəcəyik. Bu illər ərzində Azərbaycan sürətlə inkişaf edib.

Müstəqilliyimizin ilk illərində ölkəmizdə gedən proseslər bütün Azərbaycan xalqını çox narahat edirdi. Vətəndaş müharibəsi, iqtisadi və siyasi böhran, torpaqlarımızın işğal altına düşməsi nəticəsində Azərbaycanın gələcəyi sual altında idi. Xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət dəyişdi, sabitlik, asayiş bərpa edildi və Azərbaycan inkişaf yoluna qədəm qoydu. O vaxtdan bu günə qədər biz bu inkişaf yolundan dönməmişik.

Son illər sürətli inkişaf dövrüdür. Azərbaycan bütün sahələrdə böyük uğurlara imza atıb və bu gün, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir.

Azərbaycanda təhlükəsizlik yüksək səviyyədə təmin edilir. Bu gün Azərbaycan xalqı yaxşı görür ki, müxtəlif regionlarda, bölgələrdə vəziyyət gərginləşir, yeni münaqişə, müharibə ocaqları yaranır. Keçən il burada, Novruz şənliyində çıxış edərkən, əlbəttə, biz təsəvvür edə bilməzdik ki, 1 il ərzində bu qədər dəyişikliklər olacaq. Bu dəyişikliklər müsbətə doğru dəyişikliklər deyil, yeni münaqişə, qarşıdurma ocaqları, yeni müharibələr, miqrant böhranıdır. Azərbaycan isə sabitlik, təhlükəsizlik məkanıdır. Biz çalışırıq və çalışacağıq ki, ölkəmizi bütün mümkün risklərdən qoruyaq, xalqımızın rahat yaşamasını, təhlükəsiz həyatını təmin edək və ölkəmizi inkişaf yolu ilə irəliyə aparaq.

Bugünkü dünyada bir çox ölkələr üçün təhlükəsizlik məsələləri ön plana çıxır. Azərbaycan bu sahədə nümunəvi ölkədir. Azərbaycan xalqı rahat, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayır. Azərbaycanda kriminogen durum çox yaxşıdır. Bu göstəriciyə görə biz dünya miqyasında liderlər sırasındayıq. Bir sözlə, hər bir ölkənin inkişafı üçün ictimai-siyasi sabitlik, iqtisadi inkişaf, təhlükəsizlik əsas şərtlərdir. Biz qürur hissi ilə deyə bilərik ki, müstəqillik illərində, xüsusilə son illər ərzində Azərbaycanda təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə təmin edilir. Biz heç bir ölkənin

daxili işinə qarışmırıq, heç bir avantüraya qoşulmuruq, öz işimizlə məşğuluq, öz ölkəmizi inkişaf etdiririk, xalqımızın rifahını təmin edirik. Əlbəttə, heç vaxt imkan verməmişik və verməyəcəyik ki, kimsə bizim daxili işimizə qarışsın. Çünki Azərbaycan xalqı öz taleyinin sahibidir. Biz ölkəmizin inkişafı, çiçəklənməsi üçün əlimizdən gələni edirik. Bütün Azərbaycan cəmiyyəti vahid ideya, amal uğrunda birləşibdir – ölkəmizi gücləndirək, iqtisadiyyatı inkişaf etdirək, xalqımızın rifah halını daha da yüksəklərə qaldıraq.

Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan bir ölkədir. Bu ilin ilk ayları bunu bir daha göstərir. Bütün beynəlxalq məsələlərlə bağlı bizim prinsipial mövqemiz var və bu mövqeyə heç bir kənar qüvvə təsir edə bilməz. Biz ədalətin, beynəlxalq hüququn, əməkdaşlığın tərəfdarıyıq. Biz heç vaxt imkan verməmişik, vermirik və verməyəcəyik ki, Azərbaycan başqa dövlətlərin maraqlarını təmin etmək üçün qarşıdurma məkanına çevrilsin. Əksinə, Azərbaycan əməkdaşlıq məkanıdır. Biz bölgədə sabitləşdirici, barışdırıcı rol oynayırıq. Bizə olan hörmət getdikcə artır. Çünki bizim sözümüzlə əməlimiz birdir. Biz prinsipial mövqe nümayiş etdiririk. Bəzi ölkələrin bu mövqedən xoşu gəlməyə bilər, ancaq bu bizim problemimiz deyil. Belə olan halda, əlbəttə ki, təzyiqlər də olacaq, bizi müxtəlif səmtlərə çəkmək üçün səylər göstəriləcək. Amma eyni zamanda, bizə olan hörmət daha da artacaq. Biz öz siyasətimizlə dünya miqyasında böyük hörmət qazanmışıq və bu hörmət getdikcə artır.

Son 2 ay ərzində – yanvarın sonlarından bu günə qədər 8 dövlət və hökumət başçısı Azərbaycana səfər edib. Mən son 2 ay ərzində bir çox beynəlxalq tədbirlərdə iştirak etmişəm, həmçinin Davos Dünya İqtisadi Forumunda. Bu Forum dünya miqyasında 1 nömrəli iqtisadi və siyasi Forumdur. Azərbaycan bu Forumda fəal iştirak edir, öz sözünü deyir. Azərbaycana olan maraq getdikcə artır. Münhen Təhlükəsizlik Konfransı, hesab edirəm ki, dünya miqyasında əhəmiyyət baxımından Davosdan sonra ikinci beynəlxalq tədbirdir. Orada da Azərbaycan hər il iştirak edir, öz sözünü deyir. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın

işğalçı siyasəti ilə bağlı öz sözünü deyir və bütün arqumentlərlə erməni təbliğatını darmadağın edir.

Bu il mən London Konfransında iştirak etmişəm. Bu konfrans da çox önəmli idi. O konfransda iştirak Azərbaycanın önəmini, dünyada oynadığı rolu və əlbəttə ki, bizə olan rəğbəti göstərir.

Mənim Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə rəsmi və işgüzar səfərlərim olub. Yəni yanvar ayının sonundan bu günə qədər Azərbaycan çox fəal xarici siyasət aparıb. Sadaladıqlarım ancaq mənim iştirak etdiyim tədbirlərdir. Bundan başqa, digər böyük tədbirlər də keçirilib. Bakıda IV Qlobal Forum keçirilib. Bu forumda 50-dən çox fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçısı iştirak edib. Bütün bu amillər onu göstərir ki, Azərbaycan dünya miqyasında çox böyük rol oynayır və bu rol xüsusilə indiki zamanədə daha da artır. Dünya ictimaiyyəti görür ki, bizim bölgədə sabit olan, prinsipial siyasət aparan ölkələrin sayı o qədər də çox deyil.

Beynəlxalq əlaqələr daha da genişlənəcək. İl ərzində bir çox başqa tədbirlər də gözlənilir, xüsusilə gələn ay Bakıda BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcəkdir. Bu forumun Bakıda keçirilməsi Azərbaycana olan hörmətin təzahürüdür.

Beynəlxalq məsələlərə gəldikdə, bizim üçün əsas məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, bu istiqamətdə heç bir irəliləyiş yoxdur. Bunun başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi, bu məsələ ilə bilavasitə məşğul olanların biganəliyi və bəzi hallarda təxribatıdır. Mən bunu açıq deməliyəm. Azərbaycan xalqı bunu bilir və bilməlidir. Onsuz da Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə Azərbaycan xalqının o qədər də böyük inamı yox idi. Amma yanvar ayında onların törətdikləri əməllər bu inamı tamamilə dağıtdı. Bildiyiniz kimi, Avropa Şurası Parlament Assambleyasında 2 qətnamə irəli sürülmüşdür. Bu qətnamələr çox dərin təhlil üzərində tərtib edilmişdir. Böyük iş görülmüşdür və 1 qətnamə səs çoxluğu ilə qəbul edildi. Orada erməni işğalı pislənildi, erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklərlə bağlı Avropa deputatları öz səslərini ucaltdılar. Əfsuslar olsun ki, digər qətnamə

qəbul edilmədi. Lehimizə cəmi 4 səs çatmadı. Bizim bütün təhlillərimiz göstərirdi ki, hər 2 qətnamə rahatlıqla keçəcək. Çünki bizdə bununla bağlı kifayət qədər məlumatlar var idi. Avropa Şurası Parlament Assambleyasının deputatları, bir çox ölkələrin Xarici İşlər nazirlikləri bu əminliyi bizdə yaratmışdılar. Ancaq Minsk qrupunun həmsədrlərinin Avropa Şurasının işinə kobudcasına müdaxiləsi bu xoşagəlməz vəziyyətə gətirib çıxartdı. Onlar Avropa Şurasına səfər etmişlər. Orada Avropa Şurasının rəhbərliyinə bu qətnamənin qəbul olunmaması üçün təzyiq göstərmişlər ki, guya bu qətnamə münaqişənin həllinə problem yaradır. Biz bunu təxribat kimi qəbul edirik. Onu da qeyd etməliyəm ki, nəinki Strasburqda, eyni zamanda, bir çox Avropa ölkələrinin Xarici İşlər nazirliklərinə də onlar oxşar siqnalları, mesajları vermişlər ki, bu qətnamə qəbul edilməsin. Bunun nəticəsində, bir daha demək istəyirəm ki, bizə cəmi 4 səs çatmadı. Əlbəttə, bu qətnamə qəbul olunsaydı daha yaxşı olardı. Nəzərə alsaq ki, birinci qətnamə qəbul edildi və orada bizə lazım olan bütün müddəalar öz əksini tapdı, ikinci qətnamənin qəbul edilməməsi böyük faciə deyil. Mən bunu sadəcə, ona görə deyirəm ki, Azərbaycan xalqı bir daha bilsin, münaqişənin həll olunmaması təkcə Ermənistanın mövqeyi ilə bağlı deyil. Bu məsələ ilə bilavasitə məşğul olmağa mandat alan Minsk qrupunun həmsədrləri pozucu fəaliyyətləri ilə münaqişənin dondurulmasına xidmət edirlər. Onlar öz səlahiyyətlərini aşaraq, beynəlxalq təşkilatların işinə müdaxilə edirlər. Ermənistana təzyiq etmək əvəzinə, ermənilərə himayədarlıq edirlər, onları qoruyurlar. Münaqişənin həlli əvəzinə, qəribə təkliflər verirlər ki, təmas xəttində təhlükəsizlik tədbirləri möhkəmləndirilsin. Yəni bu nə deməkdir? O deməkdir ki, işğalçı dövlət özünü daha rahat hiss etsin və işğalı, status-kvonu daha da möhkəmləndirsin. Biz burada, əlbəttə, həm Azərbaycana qeyri-dost, qeyri-səmimi münasibət, eyni zamanda, riyakarlıq görürük və bunu açıq deyirik, onların üzünə deyirik. Mən burada artıq ictimaiyyətə də bunu deyirəm, bir tərəfdən, onların dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Digər tərəfdən, Minsk qrupunun həmsədrlərinin pozucu fəaliyyəti status-kvonun möhkəmlənməsinə xidmət edir. Bax, budur münaqişənin

uzadılmasının əsas səbəbi və hesab edirəm ki, bu siyasətin arxasında hansı amillərin dayandığını Azərbaycan xalqı çoxdan bilir. Bu ədalətsizlikdir. Bu, ikili standartlar siyasətidir. Biz bu siyasəti rədd edirik və bundan sonra bütün kürsülərdə öz sözümüzü deyəcəyik. Ancaq istəyirəm Azərbaycan ictimaiyyəti onu da bilsin ki, bu reallıqdır, real siyasətdir. Bunu etiraf etmək nə qədər acı olsa da bu, real siyasətdir və biz bu siyasəti qəbul etmirik. Azərbaycan dövlətinin siyasəti beynəlxalq hüquqa, ədalətə, əməkdaşlığa əsaslanır. Ancaq bizə qarşı belə təxribatçı addımların atılması, əlbəttə ki, cavabsız qalmır və qalmayacaqdır.

Münaqişənin həlli üçün ilk növbədə, ölkəmiz, ordumuz daha da güclü olmalıdır. Bu istiqamətdə böyük işlər görülür. Bu gün biz təmas xəttində tam üstünlüyü əldə etmişik. Düşmənə sarsıdıcı zərbələr vurulur, qarşı tərəf panikaya qapılır və anlayır ki, xaricdən siyasi, iqtisadi və hərbi dəstək olmasa, işğal edilmiş torpaqları 1 həftə belə, işğal altında saxlaya bilməyəcək. Biz isə güclənirik, güclənməliyik. Bu məsələni Azərbaycan xalqı həll edəcək. Mən buna əminəm.

2016-cı ildə siyasi və iqtisadi islahatlar daha da dərinləşir. Azərbaycan demokratiya yolu ilə gedir. Azərbaycanda bütün azadlıqlar təmin edilir, insan haqları yüksək səviyyədə qorunur. Səmimi deyə bilərəm ki, Azərbaycan demokratik inkişafa görə bu gün bir çox ölkələr üçün nümunə ola bilər.

İqtisadi sahədə aparılan dərin islahatlar əminəm ki, neft amilindən asılılığımızı tamamilə aradan götürəcək. Bu bizim məqsədimizdir. Biz bu məqsədə doğru gedirik. Keçən ilin sonlarından başlayaraq, bu il də davam edən islahatlar siyasəti artıq gözəl nəticələr verir. Qanunvericilikdə dəyişikliklər edilibdir. Mənim tərəfimdən müvafiq sərəncamlar imzalanıbdır. Azərbaycanın uzunmüddətli, dayanıqlı iqtisadi inkişafının təmin edilməsi üçün konkret addımlar atılır. Əminəm, ilin sonuna qədər davam edən əsas islahatlar, yəni qəbul ediləcək qərarlar ondan sonra elə şərait yaradacaq ki, Azərbaycan iqtisadiyyatı neft amilindən asılılığını azaldacaq və dediyim kimi, tam aradan götürəcəkdir. Dayanıqlı inkişaf bizim hədəfimizdir. Onu da qeyd etmək istəyirəm ki, biz ancaq öz

resurslarımıza əsaslanırıq. Düzdür, bəzi kütləvi informasiya vasitələrində yazılıb ki, Azərbaycan xarici dəstək, xarici maliyyə yardımı istəyib. Bu tamamilə yalan və mötəbər mətbu orqanlara yaraşmayan təxribatdır. Biz öz hesabımıza yaşamışıq, yaşayacağıq da. İndi bizim nə qədər imkanımız varsa, iqtisadi inkişafı o qədər də təmin edəcəyik. Ancaq qeyd etməliyəm ki, mötəbər beynəlxalq qurumlar, xüsusilə Beynəlxalq Valyuta Fondu bizim siyasətimizi, iqtisadi islahatlarımızı dəstəkləyir və bu siyasətimizə çox yüksək qiymət verir. Onu da qeyd etməliyəm ki, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə dünya miqyasında 40-cı yerə layiq görübdür. Bu da çox böyük göstəricidir. İslahatlar dərinləşəcək, bütün sahələrdə şəffaflıq tam təmin ediləcək. Biz gələcək iqtisadi fəaliyyətimizi, siyasətimizi yeni iqtisadi model üzərində aparacağıq və əminəm ki, yaxın zamanlarda daha da böyük nəticələrə nail olacağıq.

Onu da qeyd etmək istəyirəm ki, dövlət tərəfindən qəbul edilmiş təcili tədbirlər nəticəsində təkcə ilin birinci rübündə – hələ ki rüb başa çatmayıb – dövlət sektorunda 30 minə yaxın yeni iş yeri açılıb. Bu mənim göstərişimlə həyata keçirilən tədbirlərdir. Əlbəttə, biz yaxşı başa düşürük, hər bir ölkə çalışmalıdır ki, özəl sektorda iş yerləri açılsın. Bu istiqamətdə də işlər gedir. Biznes qurumlarına müvafiq tövsiyələr verilib. Onlara maliyyə dəstəyi də veriləcək. Xüsusilə bu il icrası nəzərdə tutulan layihələrin həcmi təxminən 1,5–2 milyard manat ətrafındadır. Yəni bu, on minlərlə yeni iş yerinin yaradılmasına gətirib çıxaracaq. Ancaq təcili tədbirlərin görülməsi də labüd idi. Yenə də deyirəm, dövlət sektorunda dövlət şirkətləri və dövlət qurumları tərəfindən 30 minə yaxın iş yeri açılıb. Bax, budur bizim sosial siyasətimiz. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Baxmayaraq ki, gəlirlərimiz azalıb, neftin qiyməti kəskin şəkildə aşağı düşüb, biz maaşların, pensiyaların artırılması ilə bağlı qərar qəbul etdik, 10 faiz artıbdır. Hələlik bizim buna imkanımız çatır. Ancaq onu da qeyd etmək istəyirəm ki, əgər ətrafa baxsaq görərik ki, bu da nadir bir haldır, çünki xüsusilə dünya böhranı zamanı maaşlar artırılmır, kəsilir,

verilmir. Biz isə sosial siyasətimizi bir daha göstəririk. Göstəririk ki, Azərbaycan inamla inkişaf edəcək. Bu əminlik var. Heç bir böhran, neftin qiymətinin ucuzlaşması bizim siyasətimizə təsir etməyəcək. Bizim kifayət qədər resurslarımız, valyuta ehtiyatlarımız var, iqtisadi göstəricilərimiz çox müsbətdir. Əlbəttə ki, aparılan islahatlar bizi daha da gücləndirəcəkdir.

Biz yeni sahələri işə salırıq ki, o sahələr ölkəmizə böyük siyasi və iqtisadi mənfəət gətirəcək. Nəqliyyat sektorunu xüsusilə qeyd etmək istərdim. Biz indi Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin yaradılması üzərində işləyirik, ilkin nəticələr var. Apardığımız siyasət, irəli sürdüyümüz təşəbbüslər nəticə verir. Biz Şərq–Qərb nəqliyyat dəhlizinin cəlbediciliyini artırmaq üçün qonşu ölkələr olan Gürcüstan və Türkiyə ilə vahid tarif siyasəti aparmaq barədə təşəbbüs irəli sürmüşük. Bu təşəbbüs müsbət qarşılanıb. Artıq işlər görülür. Keçən ilin sonlarında mənim Gürcüstana, Çinə və bu yaxınlarda Türkiyəyə səfərlərim çərçivəsində həmin məsələlər müzakirə edilib. Biz yeni dəhliz yaradırıq. Asiyadan Avropaya ən qısa yol Azərbaycan ərazisindən keçəcək. Buna nail olmaq üçün biz lazımi infrastrukturu yaratmışıq və yaradırıq, eyni zamanda, qonşu ölkələrlə vahid tarif siyasəti aparılmalıdır ki, burada xərclər daha da azalsın.

Şimal–Cənub nəqliyyat dəhlizinin bu yaxınlarda icrasının sürətlənməsi yenə də bizim təşəbbüsümüzlə bağlıdır. İndi həm İran, həm Rusiya ilə danışıqlar aparılır və yenə də Azərbaycan burada öz önəmli rolunu oynayır. Əminəm ki, bu dəhlizi də biz yaradacağıq. Beləliklə, bu dəhlizlər yaranandan sonra onilliklər ərzində Azərbaycan böyük siyasi və iqtisadi mənfəət götürəcək. Nəqliyyat sektorunun gəlirləri neftdən fərqli olaraq, tükənən sərvət deyil.

Neft-qaz sektoru ilə bağlı bu ilin fevral ayında Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının ikinci toplantısı çox böyük uğurla keçirildi. Azərbaycan bir daha öz liderlik rolunu göstərdi. Məşvərət Şurası toplantısının yekunları ilə bağlı Birgə Bəyannamə imzalandı. Bu Bəyannaməni 11 ölkə – Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, Xorvatiya, Monteneqro, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Avropa Komissiyası imzaladı. Yəni bu Bəyannaməni 12 tərəf imzalayıb. Bəyannamənin

əsas mahiyyəti ondan ibarətdir ki, əlaqələndirmə işləri bundan sonra da davam etdiriləcək. Sənəddə Azərbaycanın bu işlərdə aparıcı, strateji liderlik rolu qeyd edilib. Yəni bu, artıq bütün beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilir və bilinir, tanınır ki, əgər biz təşəbbüs göstərməsəydik, əgər biz maliyyə vəsaiti ayırmasaydıq, «Cənub Qaz Dəhlizi» gözəl ideya kimi, hələ qalacaqdı, bunu onilliklər bundan sonra da müzakirə edəcəkdik. Biz bu ideyanı reallığa çeviririk. «Cənub Qaz Dəhlizi» bizim üçün çox böyük əhəmiyyətə malik olan bir layihədir və imkan verəcək ki, zəngin qaz resurslarımızı ixrac edək. Əgər bu layihə icra edilməsəydi, bu ehtiyatlar dənizin dibində qalacaqdı. Biz onları çıxarırıq, minlərlə, on minlərlə iş yeri yaradılmaqdadır. Azərbaycanın ixrac potensialı güclənəcək. Bizim önəmimiz daha da artacaq. Azərbaycan Avropa üçün əvəzolunmaz ölkəyə çevrilir. Bizim maraqlarımız təmin ediləcək, gücümüz daha da artacaq.

Bildiyiniz kimi, bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilib. Təkcə ona görə yox ki, bu il Azərbaycanda Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcəkdir. Ona görə ki, indiki şəraitdə dünyada gedən toqquşmalar, o cümlədən milli, dini zəmində toqquşmalar bizi çox narahat edir. Biz yol göstəririk, nümunə göstəririk. Göstəririk ki, multikulturalizm yaşayır. Multikulturalizmin iflasa uğradığını deyənlər elə multikulturalizmin məhv edilməsinə çalışanlardır. Onlar bəlkə də başa düşmürlər ki, necə böyük səhv edirlər. Biz göstəririk ki, bu mümkündür. Biz göstəririk ki, belə olmalıdır. Biz göstəririk ki, bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, yaşayacaqlar. Azərbaycan dövləti onları, onların maraqlarını, milli duyğularını, ləyaqətini qoruyur. Onlar bizim qardaşlarımızdır. Bizim gücümüz birliyimizdədir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu bizim sərvətimizdir. Biz bunu qorumalıyıq, qoruyacağıq və bir daha demək istəyirəm ki, dünyaya yol göstəririk. Bir çox məsələlərlə bağlı yol göstəririk – inkişaf, müstəqillik, ləyaqət, prinsipial siyasət, xalqlararası, millətlərarası münasibətlər, dövlət–din münasibətləri, energetika siyasəti, nəqliyyat siyasəti. Budur bugünkü Azərbaycanın reallıqları!

Əminəm ki, biz 2016-cı ili də uğurla başa vuracağıq. Azərbaycanın uğurlu inkişafı təmin ediləcəkdir.

Bir daha sizi və bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik edirəm. Sağ olun.

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəldilər.*

*Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar. Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bayram konsertinə baxdılar. Kənd Təsərrüfatı Nazirliyinin bayram münasibətilə təşkil etdiyi «Novruz» yarmarkası ilə tanış oldular. Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilir. Yarmarkada ölkəmizin 10 iqtisadi rayonundan 42 şirkət məhsullarını təqdim edir. Son dövrlərdə Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mühüm nailiyyətlər əldə olunub. Bu gün Azərbaycan özünü keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Azərbaycanın ekoloji cəhətdən təmizliyi ilə seçilən kənd təsərrüfatı məhsullarına dünyada da tələbat artır.*

*Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində qoyulan qadağalar digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi. Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasında Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də var. Çünki məhz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi, milli bayramımız olan Novruz ötən əsrin 70–80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başlandı. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün prezident İlham Əliyev də mədəni-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlət başçımızın hər il*

*xalqa ünvanladığı təbriklər də onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.*

*Qeyd edək ki, 2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürü idi. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, mühüm insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlərboyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.*

*Prezident İlham Əliyev və Mehriban Əliyeva «Natiq» ritm qrupunun və aşıqların ifalarını dinlədilər, Azərbaycan xalçalarının nümunələri ilə tanış oldular.*

*Milli Parkda təşkil edilən «Şərq bazarı» bayram şənliyinin iştirakçılarında xüsusi maraq doğururdu. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər.*

*Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə baxdılar.*

*Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu mərasimdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri təqdim edilirdi. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri şənlik iştirakçılarında maraq doğurdu.*

*Prezident və xanımı mayın 5-dən 21-dək Bakıda keçiriləcək 17 yaşadək futbolçular arasında Avropa çempionatının final mərhələsi ilə bağlı yaradılan guşəyə baxdılar. Burada dövlətimizin başçısına və xanımına çempionatın açılışı mərasiminin biletləri təqdim olundu.*

Qeyd edək ki, çempionatın ölkəmizdə keçirilməsi ilə bağlı qərar 2012-ci ilin martında İstanbulda UEFA İcraiyyə Komitəsinin iclasında qəbul edilib. Çempionatın 16 komandanın qatılacağı final mərhələsinin bütün oyunları Bakıda keçiriləcək. Bu mötəbər yarışların təşkilinə 800 könüllünün cəlb edilməsi nəzərdə tutulub. Könüllülərin fəaliyyət sahələrinə biletlərin yoxlanılması, media, protokol, marketinq, qeydiyyat, qonaqpərvərlik, tibb, nəqliyyat və digər məsələlər daxildir.

İyunun 19-da Bakıda keçiriləcək «Formula-1» üzrə Avropa Qran-prisinin başlanmasına bu gün düz 3 ay vaxt qalır. Bununla bağlı «Bakı Şəhər Halqası» Əməliyyat Şirkəti Novruz bayramı günlərində dənizkənarı bulvarda «Formula-1» əyləncə zonası yaradıb. Simulyasiya oyunlarına, azyaşlı uşaqlar üçün əyləncə məkanına, könüllülərin və marşalların fəaliyyətini işıqlandıran xüsusi guşələrə yer veriləcək bu zonada konsert proqramlarının təşkili də nəzərdə tutulub.

Burada prezident İlham Əliyevə və Mehriban Əliyevaya yarışları izləmək üçün biletlər təqdim olundu.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.

Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.

**BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞARL MİŞELƏ**

Hörmətli cənab Baş nazir!

Brüssel şəhərində törədilmiş partlayışlar nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorun bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Belçika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 mart 2016-cı il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Lahor şəhərindəki parkda törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca kədərləndirdi.

Biz dəhşətli bəlaya çevrilmiş terrorizmi qətiyyətlə pisləyir, bu amansız terror aktından son dərəcə hiddətlənir, terrorizmə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 mart 2016-cı il*

## XALQ YAZIÇISI MAQSUD İBRAHİMBƏYOVUN MƏZARINI ZİYARƏT

*28 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 28-də Xalq yazıçısı Maqsud İbrahimbəyovun məzarını ziyarət etmişlər.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Fəxri xiyabanda Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi, Xalq yazıçısı Maqsud İbrahimbəyovun məzarını ziyarət edərək, xatirəsinə dərin ehtiramlarını bildirdilər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Maqsud İbrahimbəyovun həyat yoldaşı Anna İbrahimbəyovaya bir daha başsağlığı verdilər.*

*Anna İbrahimbəyova həyat yoldaşının xatirəsinə göstərilən ehtirama görə dövlətimizin başçısına və xanımına minnətdarlıq etdi.*

## MİSİR ƏRƏB RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ SƏRHƏD QOŞUNLARININ KOMANDANI ƏHMƏD İBRAHİM MƏHƏMMƏD İBRAHİMİ İLƏ GÖRÜŞ

*29 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Misir Ərəb Respublikası Müdafiə Nazirliyi Sərhəd Qoşunlarının Komandanı Əhməd İbrahim Məhəmməd İbrahimini qəbul etmişdir.*

*Əhməd İbrahim Məhəmməd İbrahimi Misir prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycanın Misirə dost ölkə olduğunu vurğuladı. Misirin ölkələrimiz arasında əməkdaşlığı daha da inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi.*

*İki ölkənin sərhəd xidmətlərinin əməkdaşlığına toxunan Əhməd İbrahim Məhəmməd İbrahimi Azərbaycanın Dövlət Sərhəd Xidməti rəisinin Misirə, özünün isə Azərbaycana bu səfərinin ölkələrimizin sərhəd xidmətləri arasında əlaqələrin inkişafına töhfə verəcəyini söylədi. Ölkələrimizin müvafiq qurumlarının uğurlu əməkdaşlıq həyata keçirdiklərini deyən qonaq bu əməkdaşlığın təhlükəsizlik, hərbi-texniki və digər sahələri əhatə etdiyini dedi. Azərbaycanın hərbi-texniki sahədə və təlimlərin keçirilməsində yaxşı təcrübəyə malik olduğunu vurğulayan Əhməd İbrahim Məhəmməd İbrahimi sərhəd xidmətləri arasında təcrübə mübadiləsinin önəmini də qeyd etdi. O, ölkəmizə sabitlik, firavanlıq və bütün sahələrdə inkişaf arzularını çatdırdı.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Misir arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanın ölkələrimiz arasında dostluq əlaqələrinin daha da inkişaf etdirilməsinə böyük önəm verdiyini dedi. Dövlətimizin başçısı iki ölkənin sərhəd xidmətləri arasında uğurlu əməkdaşlığa toxunaraq, ölkələrimizin hərbi, sərhəd xidməti, təhlükəsizlik sahələrində əla-*

*qələrinin inkişaf etdirilməsinin əhəmiyyətini vurğuladı. Azərbaycan Prezidenti yüksək səviyyəli qarşılıqlı səfərlərin bu əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyini dedi.*

*Prezident İlham Əliyev Misir prezidenti Əbdülfəttah əs-Sisinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Misir Prezidentinə çatdırmağı xahiş etdi.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA SƏFƏR

*30 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına səfərə gəlmişdir.*

## ABŞ-ın DÖVLƏT KATİBİ CON KERRİ İLƏ GÖRÜŞ

*Vaşinqton*

*30 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Con Kerri ilə görüşmüşdür.*

*Görüşdən əvvəl Dövlət katibi Con Kerri və prezident İlham Əliyev mətbuata bəyanatlarla çıxış etmişlər.*

**C o n  K e r r i**: Günortanız xeyir. Başqa yerlərdə bir neçə dəfə görüşdüyüm bir çoxlarınızı burada salamlamaq məndə həqiqətən, məmnunluq hissi doğurur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi də burada salamlamaqdan şadam.

Bizim hazırda üzərində işlədiyimiz bir çox qarşılıqlı maraqlarımız var. Biz sülhməramlı əməliyyatlara verdiyi töhfəsinə, Əfqanıstandakı səylərinə görə Azərbaycana çox minnətdarıq. Məlumdur ki, Azərbaycan indi mürəkkəb bir regionda yerləşir. Hesab edirəm ki, prezident Əliyev xüsusilə «Cənub Qaz Dəhlizi» layihəsinə etdiyi rəhbərliyi ilə bu ehtiyacların bəzilərinin necə qarşılanması üçün çox ciddi səylər göstərmiş və bu məsələni diqqət mərkəzində saxlamışdır. Bu, Avropanın uzunmüddətli strateji maraqları naminə və səmimi söyləsəm, vacib olan enerji mənbələrinin şaxələndirilməsinə cəhd göstərmək üçün atılmış çox ciddi bir addımdır.

Əlbəttə ki, digər maraqlarımız da var – terrorizmlə mübarizə. Biz donmuş münaqişə olan Dağlıq Qarabağ probleminin, nəhayət, öz həllini tapmasını görmək istəyirik. Bu münaqişənin həlli üçün danışıqlar aparılmalıdır. Bu məsələ öz həllini tapmalıdır.

İndi isə cənab Prezidentə Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün buraya təşrif buyurduğuna və Azərbaycan üçün iqtisadi imkanların, eləcə də regional təhlükəsizlik münasibətlərinin

uyğunlaşdırılması üzərində işlədiyi müddətdə və bu yaxınlarda göstərdiyi bir çox səylərinə görə təşəkkürümü ifadə etmək istəyirəm. Sizi öz aramızda görməkdən şadam.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, Cənab katib. Əvvəla, məni Nüvə Təhlükəsizliyi Sammitinə dəvət etdiyinə görə prezident Obamaya təşəkkürümü bildirmək istəyirəm. Biz bunu dostluq və tərəfdaşlıq əlaməti kimi qəbul edirik. Biz ikitərəfli münasibətlərimizə yüksək dəyər veririk.

ABŞ–Azərbaycan münasibətlərinin artıq 25 illik uzun tarixi var. Bu münasibətlər həmişə sıx, səmimi olub, indi isə strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə çatıb. Aramızda fəal siyasi dialoq mövcuddur. Cənab katibin qeyd etdiyi kimi, biz əvvəllər dəfələrlə görüşmüşük, lakin Vaşinqtonda ilk dəfədir görüşürük.

Aramızda inkişaf etməkdə olan iqtisadi əməkdaşlıq aparılır. ABŞ şirkətləri iqtisadiyyatımıza 10 milyard dollardan artıq sərmayə yatırıb. Bu da iqtisadi əməkdaşlığın, həmçinin ölkəmizin inkişafının yaxşı göstəricisidir. Biz ilk dəfə Xəzər və Aralıq dənizlərini bir-biri ilə birləşdirən neft kəmərlərinin tikintisi kimi əhəmiyyətli layihələri Amerika Birləşmiş Ştatlarının güclü dəstəyi ilə birlikdə icra etmişik. İndi isə cənab katibin qeyd etdiyi kimi, biz «Cənub Qaz Dəhlizi» layihəsi üzərində birlikdə işləyirik. Bu, enerji təhlükəsizliyinə, mənbələrin şaxələndirilməsinə və həmin layihəyə cəlb olunmuş bütün tərəflərə – istehsalçı, tranzit və istehlakçı ölkələrə uzunmüddətli fayda verən bir layihədir. Biz bu layihənin icrasına ciddi dəstək göstərdiyinə görə Amerika Birləşmiş Ştatlarının Hökumətinə çox minnətdarıq. Səmimi desəm, bu dəstək olmasaydı, həmin layihənin həyata keçirilməsi üçün daha çox müddət və səylərin göstərilməsi tələb oluna bilərdi. İşlər vaxt cədvəlinə uyğun gedir, işlər vaxtında icra olunacaq və 2-3 il ərzində «Cənub Qaz Dəhlizi» layihəsi işlək olacaqdır.

Ermənistan və Azərbaycan arasında uzun müddət davam edən münaqişənin həlli yollarının tapılması istiqamətində göstərdiyi səylərinə görə ABŞ Hökumətinə minnətdarıq. Hesab edirik ki, münaqişə Ermənistan ordusunun işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik

Şurasının qəbul etdiyi qətnamələr əsasında həllini tapmalıdır. Ermənistan və Azərbaycan arasındakı münaqişə, postsovet məkanında olan və ümumiyyətlə, dünyada baş verən bütün münaqişələr öz həllini ölkələrin ərazi bütövlüyü əsasında tapmalıdır.

Biz həmçinin regional təhlükəsizlik məsələləri üzrə tərəfdaşıq. Azərbaycan Əfqanıstandakı əməliyyatlara öz logistika dəstəyini təmin edir, ərazimiz üzərindən aparılan uçuşlara və yerüstü daşımalara şərait yaradır. Həmçinin bizim NATO hərbçiləri ilə çiyin-çiyinə Əfqanıstanda xidmət göstərən 100-ə yaxın hərbçimiz var. Beləliklə, münasibətlərimizin gündəliyi çox genişdir. Bu gün, əlbəttə ki, biz bu məsələləri və regiondakı problemləri müzakirə edəcəyik. Mən əminəm ki, bu görüş bizim dostluq münasibətlərimizin daha da inkişaf etdirilməsində öz rolunu oynayacaqdır. Sağ olun.

**C o n K e r r i:** Təşəkkür edirəm, cənab Prezident. Hamınıza təşəkkürümü bildirirəm.

* * *

*Görüşdə ABŞ-ın Dövlət katibi Con Kerri Birləşmiş Ştatların Azərbaycan ilə güclü və uzunmüddətli əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi. O, Azərbaycanda gedən iqtisadi islahatların, iqtisadiyyatın şaxələndirilməsi proseslərinin ABŞ-da maraqla izlənildiyini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycanda iqtisadi sahədə görülən işlərdən, əsas iqtisadi prioritetlər – kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, vergi və gömrük, infrastruktur sahələrində həyata keçirilən islahatlardan danışdı. Dövlətimizin başçısı iqtisadi inkişafın qanunvericilik proseslərində Azərbaycanın beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırdı.*

*Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminində rolu qeyd edildi, ABŞ-ın bu işdə ölkəmizə verdiyi dəstək yüksək qiymətləndirildi, «Cənub Qaz Dəhlizi» layihəsinin önəmi vurğulandı.*

*Prezident İlham Əliyev dünyada neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, Azərbaycanda əsas iqtisadi parametrlərin qorunub saxlanıldığını və iqtisadiyyatın yaxşı vəziyyətdə olduğunu bildirdi. Dövlətimizin başçısı neftin qiymətinin düşməsi fonunda*

*Azərbaycanda büdcə* sisteminin *möhkəmləndirilməsi* istiqa*mətində mühüm addımların atıldığını diqqətə çatdırdı.*

*Görüşdə ABŞ şirkətlərinin Azərbaycanda* daha *fəal iştir*a*kının və onların ölkəmizə* investisiya *qoymasında qarşılıqlı* marağın *olduğu vurğulandı.*

## ABŞ-ın TİCARƏT NAZİRİ PENNİ PRİTZKER İLƏ GÖRÜŞ

*Vaşinqton*

*30 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Ticarət naziri xanım Penni Pritzker ilə görüşmüşdür.*

*Görüşdə son vaxtlar ölkəmizdə gedən iqtisadi proseslər, işsizliyin aradan qaldırılması və qarşısının alınması ilə bağlı görülən tədbirlər, iqtisadiyyatın daha da inkişafı baxımından gömrük və vergi sahələrində aparılan islahatlar, kənd təsərrüfatı sahəsində əməkdaşlıq imkanları, ticarət əlaqələrinin daha da genişləndirilməsi məsələləri müzakirə olundu, «Cənub Qaz Dəhlizi» layihəsinin əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə ABŞ arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi, Amerika şirkətlərinin ölkəmizdəki fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın BİR SIRA KONQRESMENLƏRİ İLƏ GÖRÜŞ

*Vaşinqton*

*30 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının bir sıra konqresmenləri ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında münasibətlərin uğurlu inkişafı haqqında danışıldı, bir çox sahələrdə, xüsusilə siyasi, iqtisadi, enerji, müdafiə, təhlükəsizlik sahələrində əlaqələrin çox yaxşı səviyyədə olduğu bildirildi. ABŞ Konqresinin üzvlərinin bu əlaqələrin inkişafına töhfə verə biləcəkləri qeyd edildi.*

*Prezident İlham Əliyev son illərdə Azərbaycanın uğurlu inkişafı haqqında danışdı.*

*Söhbət zamanı «Cənub Qaz Dəhlizi» layihəsi ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

*Sonra dövlətimizin başçısı konqresmenlərin suallarını cavablandırdı.*

# ABŞ-dakı YƏHUDİ TƏŞKİLATLARININ RƏHBƏRLİYİ İLƏ GÖRÜŞ

*Vaşinqton*

*30 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Vaşinqtonda Amerika–İsrail İctimaiyyətlə Əlaqələr Komitəsinin (AIPAC), Avrasiya Yəhudilərinə Dəstək Milli Koalisiyasının və Əsas Amerika Yəhudi Təşkilatlarının prezidentləri Konfransının (CPMAJO) rəhbərliyi ilə görüşmüşdür.*

*Belə görüşlərin artıq ənənə halı aldığının, qarşılıqlı fikir mübadiləsi aparmaq üçün yaxşı fürsət yaratdığının qeyd olunduğu söhbət zamanı bildirildi ki, bu görüşlər gələcək əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edir.*

*ABŞ-da fəaliyyət göstərən yəhudi təşkilatlarının rəhbərləri ölkəmizin uğurlarının getdikcə artdığını, Azərbaycana səfərləri zamanı bunun şahidi olduqlarını, Bakının gözəlliyinin onlarda dərin təəssürat yaratdığını bildirdilər. Belə görüşlərin həm Azərbaycan–ABŞ, həm də Azərbaycan–İsrail əməkdaşlığının inkişafına töhfə verdiyini vurğuladılar. Bildirildi ki, Azərbaycan–ABŞ əlaqələri yüksək səviyyədədir və yəhudi təşkilatları da bu prosesə töhfə verirlər.*

*Görüşdə əməkdaşlıq əlaqələrinin gələcəkdə daha da inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı maraq ifadə olundu.*

## ABŞ-ın VİTSE-PREZİDENTİ CO BAYDEN İLƏ GÖRÜŞ

*Vaşinqton*

*31 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Co Bayden ilə görüşmüşdür.*

*Co Bayden prezident İlham Əliyev ilə görüşlərə böyük əhəmiyyət verdiklərini və bu görüşlərin Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın daha da genişlənməsinə, əlaqələrin yeni səviyyəyə qaldırılmasına xidmət etdiyini bildirdi. O, ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəklədiyini, bunun Birləşmiş Ştatlar üçün böyük əhəmiyyət daşıdığını vurğuladı.*

*ABŞ-ın vitse-prezidenti bütün sahələrdə, o cümlədən iqtisadi sahədə ikitərəfli əlaqələrin daha da genişlənməsi üçün yaxşı imkanların olduğunu bildirdi. O, təhlükəsizlik sahəsində, sülhyaratma əməliyyatlarında ölkələrimizin yaxşı əməkdaşlıq qurduqlarını dedi, Azərbaycanın Əfqanıstandakı beynəlxalq antiterror koalisiyasında fəal iştirakını və töhfəsini yüksək qiymətləndirdi. Co Bayden ABŞ-ın Azərbaycan ilə müdafiə sahəsində də əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi istiqamətində atılan addımların əhəmiyyətini vurğuladı. Vitse-prezident ABŞ-ın Azərbaycanın «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsi ilə bağlı fəaliyyətini tam dəstəklədiyini və bu sahədə lazımi addımlar atacaqlarını bildirdi.*

*Prezident İlham Əliyev ölkəmizdə bütün sahələrdə islahatların aparıldığını, fikir, mətbuat, sərbəst toplaşma, internet azadlıqlarının təmin olunduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi*

*ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat verdi. Prezident İlham Əliyev münaqişənin həlli ilə əlaqədar Birləşmiş Ştatların qətiyyətli mövqeyinə görə minnətdarlığını bildirdi, bu münaqişənin həll olunmasının vacibliyini vurğuladı.*

*Dövlətimizin başçısı həmsədr ölkə kimi, ABŞ prezidenti Barak Obamanın mövcud status-kvonun yolverilməzliyi ilə bağlı mövqeyinin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı. Prezident İlham Əliyev münaqişənin sülh yolu və danışıqlar vasitəsilə həll olunmasında ABŞ-ın rolunun mühüm önəm kəsb etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycanın ABŞ ilə siyasi, iqtisadi və enerji sahələrində əməkdaşlığın daha da gücləndirilməsində maraqlı olduğunu vurğuladı.*

*Söhbət zamanı tərəflər ölkələrimiz arasında güclü və uzunmüddətli əməkdaşlığın həyata keçirilməsində maraqlı olduqlarını bildirdilər.*

*Görüşdə ABŞ-ın Dövlət katibi Con Kerri iştirak edirdi.*

## ABŞ-ın BİR SIRA İCTİMAİ XADİMLƏRİ İLƏ GÖRÜŞ

*Vaşinqton*

*31 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının ictimai xadimləri – «Armitage International» şirkətinin prezidenti Riçard Armitac və Karnegi Fondunun prezidenti Uilyam Börns ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında əlaqələrin daha da genişlənməsi və möhkəmlənməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Ötən dövrdə Azərbaycan ilə ABŞ-ın enerji, təhlükəsizlik, sülhyaratma və digər sahələrdə yaxşı əməkdaşlığının olduğu vurğulandı. Ölkələrimiz arasında münasibətlərin güclü təməl üzərində qurulduğu, hazırda əlaqələrin yeni mərhələyə daxil olduğu qeyd edildi. Azərbaycan–ABŞ əməkdaşlığının bundan sonra da bütün sahələrdə genişlənəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın «EXPORT-IMPORT» BANKININ SƏDRİ VƏ PREZİDENTİ FRED HOKBERQ İLƏ GÖRÜŞ

*Vaşinqton*

*31 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının «Export-Import» Bankının sədri və prezidenti Fred Hokberq ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Export-Import» Bankı arasında əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı, müxtəlif sahələrdə əməkdaşlıq imkanlarının öyrənilməsinin vacibliyi vurğulandı. Azərbaycanda həyata keçiriləcək bir sıra layihələr üzrə, həmçinin elektrik enerjisi, qaz, suvarma, pambıqçılıq və s. sahələrdə «Export-Import» Bankı ilə əməkdaşlıq imkanları müzakirə edildi.*

*Söhbət zamanı Azərbaycanda yeni islahatlar proqramının həyata keçirildiyi, bunun biznes sahəsində fəaliyyət üçün yaxşı imkan yaratdığı bildirildi. Azərbaycan iqtisadiyyatının neftdən asılılığının aradan qaldırılması istiqamətində mühüm işlər görüldüyü diqqətə çatdırıldı.*

*Görüşdə, həmçinin Şərq–Qərb nəqliyyat dəhlizi, daşımalar və digər sahələrdə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın NYU-HEMPŞİR ŞTATININ SABİQ QUBERNATORU CON SUNUNU İLƏ GÖRÜŞ

*Vaşinqton*

*31 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Nyu-Hempşir ştatının sabiq qubernatoru, ABŞ-ın sabiq prezidenti Corc Buşun aparatının rəhbəri Con Sununu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında əlaqələrin indiki vəziyyəti və gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın «GENERAL ELECTRİC» ŞİRKƏTİNİN VİTSE-SƏDRİ CON RAYS İLƏ GÖRÜŞ

*Vaşinqton*

*31 mart 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının «General Electric» şirkətinin vitse-sədri Con Rays ilə görüşmüşdür.*

*Con Rays Azərbaycan prezidenti İlham Əliyevin ABŞ-a səfəri zamanı keçirdiyi məhsuldar görüşlərin maraqla izlənildiyini dedi. O, «General Electric»in fəaliyyəti, Azərbaycanda gördüyü işlər barədə məlumat verdi, təmsil etdiyi şirkətin ölkəmizdə bir sıra layihələrdə iştirakından məmnunluğunu bildirdi. Con Rays «General Electric» şirkətinin ölkəmizin neft-qaz kəmərləri sistemində iştirak etdiyini, həmçinin dənizdə neft hasilatı sahəsində əməkdaşlıq qurduqlarını vurğuladı. O, şirkətin dünyada neftin nəqli, qaz turbinlərinin və elektrik enerjisi istehsal edən avadanlıqların quraşdırılması, həmçinin aviasiya və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərdiyini, müasir texnologiyaların tətbiqinə sərmayələr qoyduğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev «General Electric» şirkətinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyətinin məmnunluq doğurduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının daha da müasirləşdirilməsi, infrastruktur layihələrinin həyata keçirilməsi, biznes mühitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışdı.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

# AĞ EVDƏ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*Vaşinqton*

*31 mart 2016-cı il*

*Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə martın 31-də Ağ evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamanın adından nahar verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nahar-da iştirak etmişdir.*

## IV NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ İŞTİRAK

*Vaşinqton*

*1 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda IV Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmişdir.*

*Nüvə Təhlükəsizliyi Sammiti XXI əsrdə beynəlxalq birlik üçün ciddi təhlükə yaradan nüvə terrorçuluğunun qarşısını almağa həsr olunan yüksək səviyyəli zirvə görüşüdür. 50-dən çox ölkənin dövlət və hökumət başçılarının, müxtəlif beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri Sammitdə nüvə təhlükəsizliyinin əsas məsələləri, o cümlədən dünyada təhlükəli nüvə materiallarının sayının azaldılması, radioaktiv mənbələrin təhlükəsizliyinin, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və digər məsələlər müzakirə olundu.*

*Zirvə görüşünün «Nüvə təhlükəsizliyini gücləndirmək üçün milli fəaliyyətlər» mövzusunda açılış sessiyasında çıxış edən ABŞ Prezidenti Barak Obama Sammit iştirakçılarını salamladı. İlk Sammitin 6 il bundan əvvəl Vaşinqtonda keçirildiyini xatırladan Barak Obama həmin vaxtdan dünyada nüvə təhlükəsizliyinin təmin olunması sahəsində bir çox işlərin görüldüyünü diqqətə çatdırdı.*

*ABŞ Prezidenti dövlətlərin dünyanın nüvə materiallarının qorunması istiqamətində konkret addımlar atılmasını üzərlərinə öhdəlik götürdüklərini bildirdi. Prezident Barak Obama ötən dövrdə nüvə təhlükəsizliyi məsələsi ilə bağlı yeni düşüncə tərzinin formalaşdığını və fəaliyyətlərin qəbul edildiyini dedi. Bildirdi ki, bu, XXI əsrin heç bir ölkənin təkbaşına öhdəsindən gələ*

*bilmədiyi təhlükəsizlik çağırışlarına qarşı birgə mübarizənin gözəl nümunəsidir.*

*Prezident Barak Obama nüvə təhlükəsizliyinin ən yüksək prioritet olduğunu, bununla bağlı dövlətlərin öz üzərlərinə 250 öhdəlik götürdüyünü və indiyədək bu öhdəliklərin dörddə üçünün yerinə yetirildiyini diqqətə çatdırdı. O, nüvə materiallarının qaçaqmalçılığının qarşısının alınması üçün hazırda daha çox ölkənin əməkdaşlıq qurduğunu, 100-dən artıq dövlətin «Nüvə materialının fiziki mühafizəsi haqqında» Konvensiyanı ratifikasiya etdiyini bildirdi.*

*Niderland Krallığının Baş naziri Mark Rütte çıxışında 2010-cu ildə ABŞ prezidenti Barak Obamanın irəli sürdüyü təşəbbüsün nüvə təhlükəsinə qarşı müdafiənin gücləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Baş nazir 2014-cü ildə Haaqada keçirilən Sammitdən sonra nüvə təhlükəsizliyi sahəsində bir sıra irəliləyişlərin olduğunu söylədi. Nüvə təhlükəsizliyinin təmin olunmasının bəşəriyyətin gələcəyi üçün bizim üzərimizə yüksək öhdəlik qoyduğunu deyən Mark Rütte bu sahədə dövlətlər arasında daha sıx əməkdaşlığın əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı Sammitdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əvvəla, Azərbaycanı Sammitdə iştirak etməyə dəvət etdiyiniz üçün Sizə minnətdarlığımı bildirmək istəyirəm. Biz bu dəvəti dostluq, tərəfdaşlıq və Azərbaycanın regionda oynadığı rolun təzahürü kimi qəbul edirik. Belə bir mötəbər beynəlxalq toplantıda iştirak etmək bizim üçün böyük şərəfdir. Biz prezident Obamanın dünya miqyasında nüvə təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi fəaliyyətini və səylərini tam dəstəkləyirik.

Öz növbəsində, Azərbaycan nüvə materiallarının yayılmamasına böyük əhəmiyyət verir. Nüvə materiallarının yayılması ilə bağlı meydana çıxan təhdidləri və ölkəmizin yerləşdiyi coğrafi mövqeyi nəzərə alaraq, biz nüvə materiallarının qanunsuz trafiki üçün ölkəmizin ərazisindən mümkün istifadənin qarşısının alınmasına

böyük əhəmiyyət veririk. Biz beynəlxalq tərəfdaşlarımızla sıx əməkdaşlıq edərək, dünya standartlarına uyğun güclü qanunvericilik bazasına əsaslanan hərtərəfli milli ixrac nəzarəti sistemini yaratmışıq. Bu günə kimi milli ixrac nəzarəti sistemimiz nüvə materiallarının qanunsuz daşınmasının qarşısının alınmasında etibarlı bir mexanizm kimi özünü doğrultmuşdur. Lakin ərazimizin 100 faizinə nəzarət etmək imkanımız olmadığına görə proqramları tam şəkildə icra edə bilmirik. Bu gün ərazilərimizin 20 faizi Ermənistanın işğalı altındadır. Bu işğal 20 ildən çoxdur ki, davam edir. Həmçinin beynəlxalq səviyyədə tanınan sərhədlərimizin bir hissəsi işğal altındadır. BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Amma bu qətnamələr kağız üzərində qalmaqdadır. Bir daha təkrar edirəm, bu qətnamələr Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Lakin torpaqlarımızın işğalı 20 ildən çoxdur ki, davam edir. Əfsuslar olsun ki, Ermənistan işğal edilmiş əraziləri boşaltmaq üçün həmişə şərtlər irəli sürür. Biz münaqişənin sülh yolu ilə nizamlanması üçün səylərimizi davam etdirəcəyik. Lakin münaqişə Azərbaycanın ərazi bütövlüyü əsasında həllini tapmalıdır.

Diqqətinizi yönəltmək istədiyim digər bir məsələ isə Ermənistanın 1976-cı ildə inşa edilmiş, köhnəlmiş atom elektrik stansiyasının istismarı ilə bağlıdır. Bu stansiya köhnələn reaktorunu soyutmaq üçün su qıtlığı yaşanan çox seysmik bir zonada yerləşir və region üçün birbaşa təhlükə doğurur. Elektrik stansiyasını istismardan çıxarmaq əvəzinə, Ermənistan onu 2026-cı ilə qədər istismar etməyi planlaşdırır. Bu isə o deməkdir ki, bütöv region, o cümlədən Ermənistanın özü də növbəti 10 il ərzində təhlükə içində yaşayacaqdır. Mən beynəlxalq birliyin diqqətini bu məsələyə yönəltmək istəyirəm ki, elektrik stansiyasının fəaliyyətinin dayandırılması və beynəlxalq ictimaiyyətin gözlədiyi qayda və prosedurlara əməl edilməsi üçün Ermənistana təzyiq göstərilsin. Çox sağ olun.

* * *

*Sonra dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*Daha sonra «Nüvə təhlükəsizliyini gücləndirmək üçün beynəlxalq və institusional fəaliyyətlər» adlı işçi naharı oldu.*

*Prezident İlham Əliyev naharda iştirak etdi.*

## ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ TOMAS ŞENNON İLƏ GÖRÜŞ

*Vaşinqton*

*1 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Vaşinqtonda ABŞ Dövlət katibinin müavini Tomas Şennon ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycan Prezidenti ABŞ-a səfərinin yekunları ilə bağlı fikirlərini bölüşərək, məmnunluğunu ifadə etdi, bu səfərin uğurla keçdiyini vurğuladı. Prezident İlham Əliyev səfərin və səfər zamanı keçirilən görüşlərin strateji əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlərimizin artıq yeni mərhələyə qalxması işinə töhfə verdiyini dedi.*

*ABŞ Dövlət katibinin müavini Tomas Şennon dövlət başçımızın Vaşinqtondakı uğurlu görüşlərinin maraqla izlənildiyini diqqətə çatdırdı. O, ABŞ-ın Azərbaycan ilə münasibətlərin inkişafına mühüm əhəmiyyət verdiyini qeyd etdi və əlaqələrimizin müxtəlif sahələrdə bundan sonra da uğurla genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, energetika, iqtisadiyyat, ticarət sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## ÇEX RESPUBLİKASININ BAŞ NAZİRİ BOHUSLAV SOBOTKA İLƏ GÖRÜŞ

*Vaşinqton*

*1 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Vaşinqtonda Çex Respublikasının Baş naziri Bohuslav Sobotka ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–Çexiya münasibətlərinin indiki səviyyəsindən məmnunluğunu ifadə edən prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın əlaqələrin daha da inkişafına töhfə verdiyini qeyd etdi. Azərbaycan ilə Çexiya arasında yaxşı dostluq münasibətlərinin mövcud olduğunu deyən dövlətimizin başçısı siyasi sahədə də əlaqələrin yüksək səviyyəsinin məmnunluq doğurduğunu vurğuladı. Prezident İlham Əliyev siyasi və iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini bildirdi. Dövlətimizin başçısı Avropa İttifaqı ilə strateji əməkdaşlıq sənədi üzərində iş aparıldığını da dedi.*

*Çexiyanın Baş naziri Bohuslav Sobotka belə səfərlərin və görüşlərin mühüm əhəmiyyət daşıdığını qeyd etdi. Cənubi Qafqazda Azərbaycanı Çexiyanın əsas tərəfdaşı hesab etdiyini bildirən Bohuslav Sobotka ölkəsinin enerji və enerjinin şaxələndirilməsi sahələrində əməkdaşlığa böyük önəm verdiyini dedi. O, həmin istiqamətdə Azərbaycan ilə əməkdaşlığı genişləndirməkdə maraqlı olduqlarını vurğuladı. Bohuslav Sobotka Çexiyanın hərbi-texniki, müdafiə sənayesi sahəsində, həmçinin «Cənub Qaz Dəhlizi» layihəsinin icrası ilə bağlı Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiklərini, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını bildirdi.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri aprelin 1-də başa çatdı.*

## AZƏRBAYCAN PREZİDENTİ YANINDA TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASINDA İŞTİRAK

*2 aprel 2016-cı il*

*Azərbaycan Respublikası Prezidenti yanında aprelin 2-də Təhlükəsizlik Şurasının iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclasda çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törədib. Təmas xəttində yerləşən mövqelərimizə hücum çəkib. Təmas xəttinə yaxın yerləşən yaşayış məntəqələrini atəşə tutub.

Bu silahlı təxribat nəticəsində itkilərimiz var. Hərbiçilərimiz və mülki şəxslər həlak olublar. Xahiş edirəm, həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad edək.

*Həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

Allah rəhmət eləsin. Allah onların qohumlarına, yaxınlarına səbir versin. Yaralananlara Allahdan şəfa diləyirəm.

Göstəriş verirəm ki, Nazirlər Kabineti həlak olanların ailələrinə maddi yardım göstərmək üçün təkliflər irəli sürsün və Müdafiə Nazirliyi döyüş əməliyyatlarında fərqlənmiş, Vətən uğrunda qəhrəmancasına döyüşmüş insanları təltif etmək üçün mənə təkliflər təqdim etsin.

Bu, Ermənistanın ölkəmizə qarşı növbəti silahlı təxribatıdır. Birinci dəfə deyil ki, Ermənistan bu cür təxribatlara əl atır. Bir neçə gün bundan əvvəl Azərbaycan–Ermənistan sərhədində, Qazax istiqamətində də oxşar təxribat törədilmişdir. Bizim mövqelərimizə Ermənistanın təxribatçı qrupları hücum çəkmişlər. Bu hücum nəticəsində 2 hərbçimiz həlak olmuşdur. Düşmənə layiqli cavab verildi. Düşmən yerinə oturduldu.

Bunu demək istəyirəm ki, bugünkü təxribat da Ermənistanın Azərbaycana qarşı məkrli siyasətinin təzahürüdür. Bu gün erməni təxribatı Azərbaycan Ordusu tərəfindən layiqincə cavablandırıldı. Düşmənə çox böyük zərbələr endirildi. Düşmən böyük itkilər verdi. Müdafiə naziri bu gün bu məsələ ilə bağlı daha ətraflı məlumat verəcək. Deyə bilərəm ki, düşmənə sarsıdıcı zərbə vuruldu.

Bununla bərabər, bizim qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər, eyni zamanda, daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində – onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır – biz böyük hərbi qələbəni qazandıq. Bu münasibətlə Ordumuzu, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Əminəm ki, bundan sonra da düşmənin bütün təxribatları cavabsız qalmayacaq. Düşmənə bundan sonra da layiqli cavab veriləcək. Azərbaycan Ordusu buna qadirdir. Azərbaycan övladları öz doğma torpaqlarını müdafiə edirlər, Vətən uğrunda vuruşurlar, şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaqdır.

Ermənistanın bu hərəkətlərinin də səbəbi mənim üçün sirr deyil. Mən dəfələrlə həm Azərbaycan ictimaiyyətinə, həm bu məsələ ilə bağlı olan vasitəçilərə, vasitəçilik edən ölkələrin başçılarına öz fikirlərimi bildirmişəm. Ermənistan sülh istəmir. Ermənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin. Bu sözlərin kifayət qədər çox sübutları var. Danışıqlar prosesi 20 ildən artıqdır ki, aparılır. Bu 20 il ərzində həlledici məqamlarda Ermənistan həmişə təxribatlara əl atıb. Təmas xəttində Ermənistan tərəfindən daim gərginlik yaradılır. Eyni zamanda, keçən əsrin sonlarında Ermənistan parlamentində terror aktının törədilməsi də məhz bu məqsədi güdürdü ki, münaqişə ilə bağlı mümkün olan razılaşmanı əngəlləsinlər və beləliklə, status-kvonu saxlaya bilsinlər.

Xatırlayırsınız, 2014-cü ildə Fransa prezidenti cənab Olland Parisdə Ermənistan və Azərbaycan prezidentlərinin görüşünü təşkil etmişdi. Görüş çox konstruktiv şəraitdə keçmişdi və görüşün nəticəsi ümidlər

verirdi. Orada biz təmas xəttində təhlükəsizlik, etimad tədbirlərinin gücləndirilməsi haqqında danışırdıq. Ancaq o görüşdən 2 həftə keçməmiş Ermənistan işğal edilmiş torpaqlarda – Ağdam rayonunun ərazisində özlərinin dediyi kimi, 47 min şəxsi heyətin iştirakı ilə hərbi təlimlər keçirməyə başladı. Bu, sırf təxribat xarakterli bir addım idi. Bunun nə mənası var idi? Xüsusilə Parisdə keçirilmiş uğurlu sayılan görüşdən sonra.

Bir neçə gün Azərbaycan Ordusu özünü çox təmkinlə apardı. Mən də göstəriş vermişdim ki, biz təxribatlara uymayaq. Ancaq ondan sonra düşmən daha da azğınlaşdı, bizim mövqelərimizə hücum çəkdi, hərbi helikopterləri işə saldı. Azərbaycan Ordusu helikopterin birini məhv etdi. Bu, Ermənistana lazım idi. Onların təxribatı idi. Lazım idi desinlər ki, Azərbaycan atəşkəsi pozur. Azərbaycan burada özünü aqressiv aparır və sair.

Bugünkü təxribat da, bax, bu mənbədən gələn təxribatdır. Yenə də bizim mövqelərimizə hücum çəkirlər. Bizim əsgərlərimiz, zabitlərimiz həlak olur. Ondan sonra Azərbaycan Ordusu onların başını əzir və indi dünyaya hay-haray çəkirlər ki, Azərbaycan atəşkəsi pozur. Biz atəşkəsi pozmamışıq, biz sadəcə olaraq, təxribata layiqli cavab vermişik. Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq.

Ermənistanın əsas məqsədi status-kvonun dəyişməz qalmasıdır. Əfsuslar olsun ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının çoxsaylı bəyanatları Ermənistan rəhbərliyinə heç bir təsir göstərmir. Bu bəyanatlar ondan ibarətdir ki, ABŞ, Rusiya və Fransa dövlətlərinin başçıları dəfələrlə bildirmişlər: status-kvo qəbuledilməzdir, dəyişməlidir və məsələ tezliklə öz həllini tapmalıdır.

Status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğalçılar işğal edilmiş torpaqlardan çıxmalıdır. Ermənistan rəhbərliyi bunu istəmir. Əsas məsələ bundan ibarətdir. Onlar istəyirlər ki, bu, sonu olmayan prosesə çevrilsin. İstəyirlər ki, danışıqlar bundan sonra da 20 il davam etsin. Onlar özlərini danışıqlar masası arxasında qeyri-səmimi aparırlar. Bu yaxınlarda Rusiya Prezidenti və Rusiyanın

Xarici İşlər naziri digər həmsədrlərlə birlikdə müəyyən təkliflər irəli sürmüşlər. Biz bunu alqışlayırıq. Həm görüş əsnasında, həm rəsmi bəyanatlarda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı öz fikirlərini bildirmişlər.

Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək göstərilib. Görüşlər onu göstərir ki, Amerika tərəfi münaqişənin tezliklə həll olunması üçün çox maraqlıdır. Bilirəm ki, Ermənistan rəhbərinə də müəyyən siqnallar, mesajlar verilib. Yəni son vaxtlar həmsədrlər, onların dövlətlərinin başçıları çalışırlar ki, məsələ həll olunsun. Nüvə Sammiti hələ başa çatmamış, Ermənistan bu çirkin təxribatı törədir, sülh prosesinə çox böyük zərbə vurur. Bundan istifadə etməyə çalışır ki, Azərbaycanı günahlandırsın.

Onların sərəncamında olan satqın kütləvi informasiya vasitələri, satqın siyasətçilər, korrupsiyaya uğramış politoloqlar, şərhçilər indi sıraya düzülüblər ki, Azərbaycanı ittiham etsinlər. Əgər indi bəzi ölkələrin mətbuatına nəzər salsanız görərsiniz ki, birtərəfli məlumat gedir. Azərbaycan ittiham olunur. Döyüşlərlə bağlı təhrif edilmiş məlumatlar verilir.

Ermənistan ordusu bu gün çox böyük zərbə alıb. Atəşkəs rejimindən sonra ilk dəfədir ki, onlara belə sarsıdıcı zərbə vurulub. Bunun günahkarı onlar özləridir. Ancaq çalışırlar ki, ictimai rəyi çaşdırsınlar, itkiləri gizlətsinlər. Eşitdiyimə görə, Ermənistan rəhbəri ictimaiyyətə itkilərlə bağlı qeyri-dəqiq məlumat ötürməyə çalışır. Bu, açıq-aydın onu göstərir ki, onlar sadəcə olaraq, öz xalqını aldatmaq istəyirlər. Bu gün Ermənistan tərəfi bütün imkanlardan – diaspor təşkilatlarından, müxtəlif ölkələrdə onların agentlərindən, korrupsiyaya uğramış siyasətçilərdən istifadə edir ki, bütün günahı Azərbaycanın boynuna qoysun.

Bizim heç bir günahımız yoxdur. Biz sadəcə olaraq, bu təxribata cavab vermişik. Düz də etmişik. Bizə qarşı yenə təxribat törədilərsə, onlar yenə də öz cəzalarını alacaqlar. Bu, bir. İkincisi, biz öz torpağımızda vuruşuruq, Ermənistan torpağını işğal etməmişik. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm.

Ermənistan bütün beynəlxalq normaları pozubdur. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur, digər təşkilatların qərar və qətnamələrini saymır. İşğal edilmiş torpaqlarda bütün binaları, tarixi, dini abidələrimizi vəhşi kimi dağıdıb. ATƏT-in faktaraşdırıcı missiyası işğal edilmiş torpaqlarda 2 dəfə olub. Onların məlumatları bizdə var. Bizim məscidlərimiz, qəbirlərimiz, tarixi abidələrimiz, binalarımız, muzeylərimiz dağıdılıb. Bütün qiymətli əşyalar talan edilib. Bu, misli görünməmiş vəhşilikdir. Bu gün İrəvanda ən yüksək kabinetlərdə oturan cəlladlar vəhşicəsinə Xocalı soyqırımını törətmişlər. Onlar bunun cavabını verməlidirlər, yoxsa yox?!

Biz səbir, dözümlülük, konstruktivlik göstəririk. Baxmayaraq ki, biz 20 ildən artıqdır atəşkəs rejimində yaşayırıq. Yenə də çalışırıq ki, məsələ sülh yolu ilə öz həllini tapsın. Mən bunu dəfələrlə bəyan etmişəm, bu gün də deyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz müharibə istəmirik. Biz istəmirik ki, qan tökülsün. İstəmirik ki, gənc insanlar həlak olsunlar. Biz istəmirik ki, anaların göz yaşları tökülsün. Azərbaycan, Ermənistan analarının göz yaşları tökülməsin! Ancaq biz öz haqqımızı tələb edirik.

Bir daha demək istəyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq həll etmək istəyirik. Biz bundan sonra da sonu bəlli olmayan prosesdə sadəcə olaraq, görüntü naminə iştirak etmək fikrində deyilik. Bunu vasitəçilərə də demişik, bunu Ermənistan tərəfi də bilir. Ona görə də məsələnin sülh yolu ilə həlli üçün Ermənistan işğal edilmiş torpaqlardan çıxmalıdır. Bunun başqa yolu yoxdur. Əgər Ermənistan rəhbərliyi öz xalqının gələcəyini düşünürsə, bu addımı atmalıdır. Ermənistanda hökm sürən kriminal diktatura rejimi öz ölkəsini uçuruma aparır. Ermənistanda demoqrafik vəziyyət kritik həddə çatıbdır. İqtisadiyyat dağılıb, bütün azadlıqlar tapdalanır, diktatura hökm sürür. Kriminal rejim ilk növbədə, erməni xalqının qənimidir. Ona görə onların gələcəyi yalnız qonşu ölkələrlə normal münasibətlərdən keçir. Ancaq hansı normal münasibətlərdən söhbət gedə bilər ki, XXI əsrdə qonşu ölkənin torpaqlarının 20 faizini işğal edəsən, soyqırımı törədəsən,

sonra isə soyqırımına məruz qalan xalqı günahlandırasan ki, atəşkəsi pozur?!

Mən bir daha demək istəyirəm ki, Azərbaycanın prinsipial mövqeyi var. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. O ki qaldı Dağlıq Qarabağda yaşayan erməni əhalisinə, onlar gələcəkdə Azərbaycan vətəndaşları kimi, Azərbaycanda rahat yaşaya bilərlər. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Azərbaycan bir çox ölkələr üçün nümunədir, multikulturalizm məkanıdır, tolerantlıq diyarıdır.

Bütün münaqişələr öz həllini bir prinsip əsasında tapmalıdır. Xalqların öz müqəddəratını təyinetmə prinsipi ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktı məhz bunu diktə edir. Ona görə bir daha demək istəyirəm ki, biz münaqişənin həlli ilə bağlı öz prinsipial mövqemizdən dönməyəcəyik. Bununla bərabər, biz danışıqlara sadiqik, bundan sonra da çalışacağıq ki, bu münaqişə sülh yolu ilə öz həllini tapsın. Bununla bərabər, biz ordumuzun gücünü daha da artıracağıq. Ona görə artıracağıq ki, bax, bu təxribatlar, erməni təxribatları cavabsız qalmasın. Hesab edirəm ki, bu gün – aprelin 2-si onlar üçün yaxşı dərs olacaqdır.

* * *

*Sonra Müdafiə naziri Zakir Həsənov məruzə etdi.*

*Bildirildi ki, aprelin 1-dən 2-nə keçən gecə erməni silahlı qüvvələri müxtəlif istiqamətlərdən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücuma keçmiş və yaşayış məntəqələrimizi atəşə tutmuşlar. Bu təxribat xarakterli hücumların nəticəsində hərbi qulluqçularımız qəhrəmancasına həlak olmuşlar. Cavab olaraq Azərbaycan Silahlı Qüvvələri bütün istiqamətlərdən əks hücuma keçərək, düşmənin mövqelərinə sarsıdıcı zərbələr vurmuşlar.*

**Zakir Həsənov** (*Müdafiə naziri*): Möhtərəm Prezident, cənab Ali Baş Komandan, məruzə edirəm ki, son zamanlar erməni silahlı qüvvələri cəbhəboyu yerləşən ərazilərdə, kəndlərdə təxribatları artırıbdır, əhaliyə qarşı iriçaplı silahlardan və artilleriya qurğularından

istifadə edir. Son hadisələr göstərir ki, əhali arasında itkilər çoxalıb. Bu təxribatların qarşısını almaq üçün əməliyyat şəraitini qiymətləndirərək, qərar qəbul olundu ki, erməni silahlı qüvvələrinin atəş nöqtələrinə və artilleriya qurğularına zərbələr endirilsin və onların hərbi birləşmələri bizim kəndlərdən daha uzaq yerə çəkilməyə məcbur edilsin. Bununla yanaşı, ehtimal olunan istiqamətdə erməni silahlı qüvvələrinin ehtiyatlarının hərəkətini də nəzərə alaraq, aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan Silahlı Qüvvələrinin kəşfiyyat qrupları 3 istiqamətdə planlı şəkildə tədbirlər həyata keçirdi. Əməliyyat şəraitini nəzərə alaraq, Talış və Seysulan kəndləri, bir də Horadiz istiqamətində olan təpələr aparılan döyüş əməliyyatları ilə ələ keçirildi. Bu əməliyyatın əsas məqsədi təxribatların qarşısının alınması və bizim yaşayış məntəqələrinə atəş nöqtələrinin təsirinin azaldılması idi.

Məruzə edirəm ki, əməliyyat vaxtı erməni silahlı qüvvələri Madagiz, Ağdərə və digər yaşayış məntəqələrindən ehtiyatları hərəkətə gətirərək, döyüş bölgəsinə yerləşdirmək məqsədilə əməliyyat keçiriblər. Bunun da qarşısının alınması məqsədilə Silahlı Qüvvələrimiz həmin istiqamətlərdə döyüş tədbirləri həyata keçirib və zərbələr endirib. Erməni silahlı qüvvələri bu zərbələr nəticəsində həm canlı qüvvə, həm də texnika sarıdan çox böyük itkilər verib. Məruzə edirəm ki, Silahlı Qüvvələrimiz əməliyyat şəraitini nəzərə alaraq, həmin istiqamətlərdə və yüksəkliklərdə öz mövqelərini möhkəmləndiribdir. Gün ərzində erməni silahlı qüvvələrinin təxribatlarının qarşısı uğurla alınıb, erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qalıbdır. Bizdə olan məlumata görə, 100-ə yaxın düşmən məhv edilib və bir neçə yüz düşmən yaralanıb. Çoxlu sayda zirehli texnika, artilleriya qurğuları sıradan çıxarılıb. Əməliyyat şəraitini və erməni silahlı qüvvələrinin əsas hərbi hissələrinin Madagiz yaşayış məntəqəsində yerləşməsini nəzərə alaraq, oraya da zərbələr endirilib. Onu da məruzə edirəm ki, bir neçə hərbi top hissəsi Madagiz yaşayış məntəqəsindən bizim mövqelərə, bir də yaşayış məntəqələrinə birbaşa zərbələr endirirdilər.

Bütün əməliyyat şəraiti nəzərə alınmaqla, Silahlı Qüvvələrimiz tədbirləri davam etdirir, cəbhəboyu əməliyyat şəraitini tam nəzarət

altında saxlayır və gözlənilən bütün təxribatların qarşısını almağa hazırdır.

**İ l h a m Ə l i y e v:** Bildirmək istəyirəm ki, bu gün Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Türkiyənin Baş naziri Əhməd Davudoğlu mənə telefonla zəng edib, həlak olanlarla bağlı başsağlığı verib, öz dəstəklərini ifadə ediblər. Bununla bərabər, Belarus prezidenti Aleksandr Lukaşenko da mənə zəng edib, vəziyyətlə maraqlanıb və öz narahatlığını ifadə edib.

İndi biz məsələləri daha geniş şəkildə müzakirə edəcəyik, gələcək planlarımız haqqında danışacağıq. Bir daha demək istəyirəm ki, bu gün – aprelin 2-si Azərbaycan Ordusunun tarixində parlaq qələbə günü kimi qalacaqdır. Azərbaycan Ordusunu, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini bu böyük qələbə münasibətilə təbrik edirəm.

**MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB THİN CJOYA**

Hörmətli cənab Prezident!

Myanma İttifaqı Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Myanma xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 aprel 2016-cı il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DAY KUANQA**

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Vyetnam xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 aprel 2016-cı il*

## MÜDAFİƏ NAZİRLİYİNİN MƏRKƏZİ HƏRBİ KLİNİK HOSPİTALINDA MÜALİCƏ OLUNAN YARALI HƏRBÇİLƏRİ ZİYARƏT

*5 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 5-də Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkmişdir.*

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Zakir Həsənov bildirdi ki, cəbhənin təmas xəttində ermənilərin təxribatının qarşısını alarkən qəhrəmanlıqla döyüşən və yaralanan hərbçilərin bir hissəsi müalicə olunmaq üçün bu hərbi hospitala gətirilib. Hazırda onların müalicəsi istiqamətində zəruri tədbirlər görülür. Hospitalın tibb heyəti onların tezliklə sağlamlıqlarına qovuşmaları üçün gecə-gündüz əllərindən gələni edirlər.*

*Dövlətimizin başçısı cəbhənin təmas xəttində gedən döyüşlərdə yaralanan hərbçilərlə görüşdü.*

**İlham Əliyev:** Salam uşaqlar, necəsiniz? Vəziyyət necədir?

**Əsgərlər:** Yaxşıdır, cənab Prezident.

**İlham Əliyev:** Sən necəsən?

**Əsgər:** Yaxşıyam, sağ olun.

**İlham Əliyev:** Həkimlər sizə necə baxırlar?

**Əsgərlər:** Yaxşı baxırlar.

**İlham Əliyev:** Nə vaxt yaralanmısan?

**Əsgər:** Aprelin 1-də.

**İlham Əliyev:** Ayaqdan yaralanmısan?

**Əsgər:** Bəli, iki ayağımdan da.

**İlham Əliyev:** Böyük qəhrəmanlıq göstərmisən. Təşəkkürümü bildirirəm.

**Ə s g ə r:** Çox sağ olun, cənab Prezident. Bu dəqiqədə də vuruşmağa hazıram.

**İ l h a m Ə l i y e v:** Amma gərək sağalasan. Sağalın, sağlamlığınızı bərpa edin. Həkimlər sizə yaxşı baxırlar. Burada bütün şərait yaradılıb. Siz Vətən uğrunda vuruşmusunuz, xəsarət almısınız, yaralanmısınız. Vətən bunu yüksək qiymətləndirir. Azərbaycan xalqı sizinlə fəxr edir. Ali Baş Komandan kimi, sizə minnətdarlığımı bildirirəm. Sağ olun.

**Ə s g ə r l ə r:** Sağ olun.

* * *

*Ali Baş komandan digər palatada da yaralı əsgərlərlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sizi salamlayıram. Sizə minnətdarlığımı bildirmək istəyirəm. Vətən uğrunda, torpaq uğrunda qəhrəmancasına vuruşmusunuz. Vətəni, ərazi bütövlüyümüzü qorumusunuz. Azərbaycan xalqı sizinlə fəxr edir. Döyüşlərdə yaralanmısınız, ancaq qələbə qazanmısınız.

**Ə s g ə r:** Cənab Prezident, arzumuz budur ki, torpaqlarımızı azad edək. Bu gün burada yaralı olsaq da, qəlbimiz cəbhə xəttindədir. Döyüşlərdə iştirak etmək, torpaqlarımızı azad etmək istəyirik.

**İ l h a m Ə l i y e v:** Siz torpaqların azad edilməsi üçün artıq nə lazımdırsa etmisiniz. Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi, düşmən təxribatının qarşısını aldı. Təmas xəttində yaranmış vəziyyət onu göstərir ki, doğrudan da Azərbaycan Ordusu, Azərbaycan əsgəri, zabiti böyük işlərə qadirdir, qəhrəmandır. Ərazi bütövlüyümüzün bərpası hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Sizin kimi övladlar Vətənin şöhrətini ucaldırlar.

Sən harandan yaralanmısan?

**Ə s g ə r:** Ayağımdan, bir də qəlpə yarası var.

**İ l h a m Ə l i y e v:** Əməliyyat olunmusan?

**Ə s g ə r:** Bu gün olunmuşam.

**İ l h a m Ə l i y e v:** Bəs sən?

**Ə s g ə r:** Məndə qəlpə yarasıdır.

**İ l h a m Ə l i y e v:** Sən harandan yaralanmısan?

**Ə s g ə r:** Çiynimdən güllə yarası almışam.

**İ l h a m Ə l i y e v:** Özünü necə hiss edirsən?

**Ə s g ə r:** Əla.

**İ l h a m Ə l i y e v:** Görürəm sənin vəziyyətin bir qədər ağırdır. Necəsən?

**Ə s g ə r:** Yaxşı hiss edirəm özümü, cənab Prezident. Hər şey yaxşıdır.

**İ l h a m Ə l i y e v:** Böyük qəhrəmanlıq göstərmisiniz. Sizin apardığınız hərbi əməliyyatlar gələcəkdə hərbi kitablarda öz əksini tapacaq. Sən necəsən?

**Ə s g ə r :** Yaxşıyam.

**İ l h a m Ə l i y e v:** Qolundan yaralanmısan?

**Ə s g ə r:** Bəli.

**İ l h a m Ə l i y e v:** Tezliklə sağalın, uşaqlar. Allah şəfa versin. Tezliklə sağalın, normal həyata qayıdın. Sağ olun.

**Ə s g ə r l ə r:** Sağ olun.

* * *

*Digər palatada da prezident İlham Əliyev yaralı əsgərlərlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Necədir vəziyyət? Özünüzü necə hiss edirsiniz?

**Ə s g ə r:** Əla hiss edirəm. İnşallah, ayağa qalxıb Vətənimizin torpaqlarını geri qaytarmaq üçün yenidən döyüşəcəyəm. Bizim qardaşlarımız orada yolumuzu, köməyimizi gözləyirlər.

**İ l h a m Ə l i y e v:** İnşallah. Sən nə lazımdırsa etmisən. Qəhrəmancasına vuruşmusan, yaralanmısan.

**Ə s g ə r:** Sona kimi də nə lazımdırsa edəcəyəm.

**İ l h a m Ə l i y e v:** Böyük qəhrəmanlıq göstərmisiniz. Biz sizinlə fəxr edirik ki, Azərbaycanın belə gözəl gənc nəsli var.

**Ə s g ə r:** Bizim torpaqlarımızın bir qarışı da düşmən tapdağında qalmamalıdır. Öldü var, döndü yoxdur!

**İ l h a m Ə l i y e v:** Qalmayacaq. Əməliyyat olunacaq?

**H ə r b i h ə k i m:** Bəli, əməliyyat olunacaq. İlkin əməliyyat olunub. Yekun əməliyyat olunacaq.

**İ l h a m Ə l i y e v:** Tam bərpa olunacaq?

**H ə r b i h ə k i m:** Bəli, tam bərpa olunacaq. Sümük, əzələ defekti yoxdur.

**İ l h a m Ə l i y e v:** Səndə nə yarasıdır? Necədir vəziyyətin?

**Ə s g ə r:** Qəlpə yarasıdır. Yaxşıdır.

**İ l h a m Ə l i y e v:** Allah şəfa versin. Tez sağalın və normal həyata qayıdın. Sizinlə fəxr edirik. Sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı şəhid ailələrinin və yaralıların yaxınlarının bir qrupu ilə görüşdü.*

**İ l h a m Ə l i y e v**: Bildiyiniz kimi, aprelin 2-də erməni işğalçıları dövlətimizə qarşı növbəti silahlı təxribat törədiblər. Hərbi mövqelərimizə hücum çəkiblər. Mülki əhalini, kəndlərimizi atəşə tutublar. Qəhrəman Azərbaycan Ordusu, qəhrəman əsgərlərimiz, zabitlərimiz düşmənin təxribatının qarşısını aldılar, düşmənə layiqli cavab verdilər və təmas xəttində öz üstünlüklərini daha da möhkəmləndirdilər. Birinci dəfə deyil ki, erməni işğalçıları bu təxribatlara əl atırlar. Mən dəfələrlə demişəm ki, onlar işğal edilmiş torpaqları daim öz nəzarətində saxlamaq istəyirlər, sülh istəmirlər. Danışıqlar prosesində özlərini qeyri-səmimi aparırlar. Beynəlxalq hüququn bütün normalarını, əxlaqi normaları pozurlar. Mülki əhaliyə atəş açırlar. Bu hadisələrdən bir neçə gün əvvəl Azərbaycan–Ermənistan sərhədində – Qazax istiqamətində təxribat törətmişlər. Orada hərbiçilərimiz həlak olmuşlar. Kəndlərimizi daim atəşə tutublar. Mülki əhalidən həlak olanlar var. 300-ə yaxın evə ziyan vurulub. Yəni budur onların hərəkətləri. Azərbaycan əsgəri, Azərbaycan zabiti heç vaxt mülki əhaliyə qarşı vuruşmayıb, vuruşmur və vuruşmayacaqdır. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq. Bizim işimiz haqq işidir.

Azərbaycan Ordusu bu dəfə də düşmənə yerini göstərdi, onu yerinə oturtdu. Bu gün də biz tam üstünlüyü əldə etmişik. Buna baxmayaraq, biz bəyan etmişdik ki, birtərəfli qaydada atəşkəsi bərpa etməyə hazırıq, bir şərtlə – qarşı tərəf də atəşkəsə əməl etsin. Biz müharibə istəmirik. Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun. Düzdür, bu, çətin prosesdir. Ancaq bilin ki, bütün əsas bey-

nəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir. BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası –bunlar həqiqəti əks etdirən, bizim mövqemizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər. Düzdür, hələ ki, bu qərarlar nəticəyə gətirib çıxarmayıb. Ancaq bu, məsələnin həlli üçün hüquqi əsasdır. Digər tərəfdən, Azərbaycan siyasi, iqtisadi cəhətdən bölgədə Ermənistan ilə müqayisədə xeyli irəlidədir.

Bir daha demək istəyirəm, baxmayaraq ki, danışıqlar nəticə vermir, biz yenə də bu danışıqlar prosesinə hazırıq. Bu təxribatı erməni tərəfi ona görə törədib ki, onlara beynəlxalq ictimaiyyət, bu məsələ ilə məşğul olan vasitəçilər tərəfindən təzyiqlər artır. Artıq heç kimə sirr deyil ki, vəziyyət nədən ibarətdir. Kim işğalçıdır, kim işğalın qurbanıdır. Ona görə danışıqlar prosesini pozmaq üçün onlar bu təxribata əl atdılar. Bu təxribat nəticəsində biz şəhidlər verdik. Şəhidlərimiz olubdur, yaralılar var. Ancaq Azərbaycan xalqı bilir ki, düşmənə çox böyük sarsıdıcı zərbə vurulub. Bunun günahkarı onlar özləridir.

Bu gün mən döyüşlərdə qəhrəmancasına vuruşmuş hərbçilərlə, yaralı uşaqlarımızla görüşdüm, onları təbrik etdim. Bir vətəndaş, Ali Baş Komandan, prezident kimi, onlara Azərbaycan xalqı, dövləti adından təşəkkürümü bildirdim. Biz onlarla fəxr edirik.

Sizə də öz minnətdarlığımı bildirmək istəyirəm ki, belə gözəl, vətənpərvər, bacarıqlı, cəsarətli övladlar böyütmüsünüz. Bax, onlar indi yaralı vəziyyətdə uzanıblar, yenə də deyirlər ki, istəyirik tezliklə buradan çıxıb gedək döyüş bölgələrinə. Bu, Azərbaycan xalqının ucalığıdır. Bu göstərir ki, bizim xalqımız nə qədər dəyərlidir, mətindir, vətənpərvərdir.

Uşaqlar müstəqillik dövründə formalaşıblar. Onlar müstəqil Azərbaycan bayrağı altında böyüyüblər. Onlarda milli qürur hissi, milli ləyaqət hissi çox yüksəkdir. Mən həmişə demişəm ki, bizim bütün gənclərimiz vətənpərvər, Vətənə bağlı olmalıdırlar. Bax, sizin övladlarınız, yaxınlarınız o gənclərdəndir, onlar nümunədir.

Mən bir daha sizə təşəkkürümü bildirmək istəyirəm ki, Vətən üçün belə övladlar böyütmüsünüz. Onların çox gözəl gələcəyi olacaqdır. Onlar artıq sübut ediblər ki, dövlətimizin dəyərli vətəndaş-

larıdırlar. Onlar gələcəkdə müxtəlif sahələrdə işləyəcəklər – kimi hərbi sahədə, kimi mülki sahədə. Ancaq onlar artıq sübut ediblər ki, doğrudan da layiqli vətəndaş kimi, gələcəkdə Azərbaycanda özləri üçün yaxşı həyat quracaqlar. Biz onlarla, onları böyüdən valideynlərlə fəxr edirik. Həkimlər mənə deyirlər ki, yaralananların hamısı sağalacaq. Onların sağlamlığı tam bərpa olunmalıdır və tam bərpa olunacaqdır. Həkimlər əllərindən gələni edirlər və edəcəklər. Mən gəlmişəm ki, onlara və sizə təşəkkürümü bildirim. Bir daha deyim ki, ölkəmizin ərazi bütövlüyü Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Ölkəmizin ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Əgər bu gün yenə də Ermənistan rəhbərliyi öz səhvlərini başa düşüb danışıqlar masasında özünü səmimi apararsa, əminəm ki, məsələnin sülh yolu ilə həlli üçün imkanlar var. Hər halda, biz bunu istəyirik.

Bir daha demək istəyirəm, Azərbaycan bu gün də bəyan edir ki, birtərəfli qaydada bütün döyüş əməliyyatlarını dayandırır, amma bir şərtlə ki, qarşı tərəf bundan istifadə etməsin. Onlar da dayandırsınlar, oturduğu yerlərdə də qalsınlar, tərpənməsinlər. Biz öz torpağımızdayıq. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Heç bir başqa ölkənin torpağını işğal etməmişik. Amma heç kimə imkan verməyəcəyik ki, bizim torpağımızda hökmranlıq etsin. Artıq Azərbaycan dövləti də güclü dövlətdir, ordusu da güclü ordudur. Bax, bizim burada müalicə alan qəhrəman uşaqlarımız bunun ən gözəl sübutudur, təzahürüdür.

Bir daha sizə minnətdarlığımı bildirirəm. Allah sizə səbir versin. Yaxınlarınız, uşaqlarınız tezliklə sağalsınlar.

**Şəhid ailələrinin və yaralıların yaxınları:** Cənab Prezident, lazım gəlsə biz övladlarımızla bərabər özümüz də Vətənimizin müdafiəsi uğrunda döyüşməyə hazırıq. Biz həmişə Sizinləyik, Sizi dəstəkləyirik. Fəxr edirik ki, Sizin kimi prezidentimiz var. Hamımız bir nəfər kimi, Sizin arxanızda dayanmışıq. Qələbə bizimdir. Biz övladlarımızı Vətən üçün böyütmüşük.

**İlham Əliyev:** Sağ olun.

## ABŞ-ın NEVADA ŞTATI ASSAMBLEYASININ SƏDRİ CON HEMBRİK İLƏ GÖRÜŞ

*5 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də ABŞ-ın Nevada Ştatı Assambleyasının sədri Con Hembriki qəbul etmişdir.*

Prezident İlham Əliyev Birləşmiş Ştatlara son səfərini məmnunluqla xatırladaraq ABŞ rəhbərliyi ilə çox səmərəli görüşlər keçirdiyini dedi və bu görüşləri ölkələrimiz arasında olan strateji əməkdaşlığın bir daha təsdiqi kimi dəyərləndirdi. Dövlətimizin başçısı ABŞ Prezidenti Barak Obamanın təşəbbüsü ilə təşkil olunan Nüvə Təhlükəsizliyi Sammitinin önəminə toxunaraq hazırda dünyada terror təşkilatları tərəfindən nüvə materiallarının əldə olunması təhdidinin meydana gəldiyi bir zamanda bu tədbirin xüsusi əhəmiyyət daşıdığını dedi. Prezident İlham Əliyev IV Nüvə Təhlükəsizliyi Sammitinin uğurla təşkil olunması münasibətilə ABŞ Hökumətinə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimiz çərçivəsində Azərbaycanın ABŞ-ın ayrı-ayrı ştatları, o cümlədən Nevada ştatı ilə əlaqələrinin inkişafından məmnunluğunu ifadə etdi və Nevada ştatı ilə artıq dostluq münasibətlərinin qurulduğunu qeyd etdi.

Nevada Ştatı Assambleyasının sədri Con Hembrik dedi: «Mən sizin gözəl ölkənizə səfərimdən və bizə göstərilən qonaqpərvərlikdən çox məmnunam». O, prezident İlham Əliyevə Milli Məclisdə keçirdiyi görüşlər barədə məlumat verdi.

Con Hembrik Nevada ştatının parlamentinin Azərbaycana dəstək ifadə edən qətnamə qəbul etdiyini məmnunluqla xatırlatdı.

## BEYNƏLXALQ AĞIR ATLETİKA FEDERASİYASININ PREZİDENTİ TOMAŞ AYAN İLƏ GÖRÜŞ

*5 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Beynəlxalq Ağır Atletika Federasiyasının prezidenti Tomaş Ayanı qəbul etmişdir.*

*Ölkəmizdə və paytaxt Bakıda gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını deyən Beynəlxalq Ağır Atletika Federasiyasının prezidenti Tomaş Ayan ötən səfərindən keçən 2 il müddətində şəhərimizin daha da gözəlləşdiyinin şahidi olduğunu bildirdi. Azərbaycanın artıq mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edən bir məkana çevrildiyini qeyd edən qonaq bu münasibətlə təbriklərini çatdırdı. Tomaş Ayan ötən il Bakıda I Avropa oyunlarının ən yüksək səviyyədə keçirildiyini vurğuladı. Bu ilin iyun ayında isə Bakının «Formula-1» yarışlarına ev sahibliyi etməsinin əhəmiyyətinə toxunan Tomaş Ayan bu yarışın bütün dünyada böyük maraqla izlənildiyini dedi, yarışları izləmək üçün Bakıya Avropa ölkələrindən çoxlu sayda turistlərin gələcəyini qeyd etdi.*

*Dövlətimizin başçısı «Formula-1» yarışlarının böyük marağa səbəb olacağına əminliyini ifadə etdi, bu məqsədlə ölkəmizə çoxlu sayda turistlərin gələcəyinə ümidvar olduğunu dedi.*

*Görüşdə Azərbaycanda idmanın ayrı-ayrı növlərinin, o cümlədən ağır atletikanın inkişafına dövlət səviyyəsində diqqət göstərilməsinin əhəmiyyəti vurğulandı, ölkəmizin idman sahəsində beynəlxalq əməkdaşlıq işinə böyük töhfələr verdiyi qeyd olundu.*

## AŞPA MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİSİ STEFAN ŞENNAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Avropa Şurası Parlament Assambleyası (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*AŞPA Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennak prezident İlham Əliyevi ABŞ-a uğurlu səfəri münasibətilə təbrik etdi.*

*Stefan Şennak Azərbaycana həssas bir məqamda səfər etdiyini, cəbhə xəttindəki son hadisələrin çox narahatlıq doğurduğunu dedi.*

*Ermənistan–Azərbaycan qoşunlarının təmas xəttində son hadisələrlə bağlı vəziyyətə toxunan dövlətimizin başçısı münaqişə ilə əlaqədar irəliyə doğru addım atılması imkanı yaranan zaman Ermənistan tərəfindən bu cür təxribatların törədildiyini vurğuladı.*

*ABŞ-a səfərinin uğurla keçdiyini qeyd edən prezident İlham Əliyev Azərbaycan–ABŞ əlaqələrinin yüksək səviyyədə olduğunu dedi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Avropa təşkilatları arasında əlaqələrin yaxşı səviyyədə olduğunu məmnunluqla qeyd edərək, ölkəmizin bu əlaqələrin konstruktiv ruhda davam etdirilməsində maraqlı olduğunu bildirdi, Avropa Şurası Parlament Assambleyasının prezidenti Pedro Aqramuntun və Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerininin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafına öz töhfəsini verdiyini dedi.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi.*

## RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*6 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Sergey Viktoroviç, Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz! Sabah Bakıda Rusiya, İran və Azərbaycanın Xarici İşlər nazirlərinin görüşü keçiriləcək. Birinci belə görüşün bizim ölkəmizdə keçirilməsindən məmnunuq. Hesab edirəm ki, bu, ölkələrimiz arasında çox ciddi regional əməkdaşlıq prosesinin başlanğıcıdır.

Azərbaycan dünyada yeganə ölkədir ki, həm Rusiya, həm də İranla həmsərhəddir. Bu, 3 ölkə xalqlarının həm coğrafiyası, həm də qarşılıqlı əlaqələrinin tarixidir. Ölkələrimiz arasında bugünkü qarşılıqlı fəaliyyət də, əlbəttə ki, əməkdaşlığın həm də çoxtərəfli formatda dərinləşməsini tələb edir. Sabah beynəlxalq terrorizmlə və narkotrafiklə mübarizə, qarşılıqlı siyasi fəaliyyət, nəqliyyat problemləri, energetika və digər bir çox məsələlər qarşılıqlı anlaşma və konstruktivlik ruhunda müzakirə ediləcək. Sözsüz ki, həmçinin Sizin səfəriniz ikitərəfli problemləri müzakirə etmək üçün yaxşı imkandır. Biz ölkələrimiz arasında münasibətlərin gedişatından, yüksək səviyyəsindən, demək olar ki, bütün sahələri əhatə edən strateji tərəfdaşlıqdan çox məmnunuq. Rusiya və Azərbaycan iki dost, iki qonşudur. Biz bu münasibətləri yüksək dəyərləndiririk, bu münasibətləri möhkəmləndirməyə və inkişaf etdirməyə səy göstəririk. Bu həm qarşılıqlı siyasi fəaliyyətə, həm humanitar, iqtisadi və energetika sahələrində əməkdaşlığa, həm də, əlbəttə ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsinə aiddir. Hamıya bəlli olduğu kimi, son günlər qoşunların təmas xəttində insan tələfatı ilə müşahidə olunan gərgin vəziyyət yaranmışdır. Bu da həm dünyada, həm regionda, həm də ictimaiyyət arasında narahatlıq doğurur. Rusiya bu halda yenidən təşəbbüs göstərdi və

Rusiya tərəfinin vasitəçiliyi ilə atəşkəs haqqında razılaşma əldə olundu. Biz hesab edirik ki, bu, regionda vəziyyətin gərginləşməsinə imkan verməməyin yeganə yoludur. Atəşkəs rejiminə riayət olunurdu. Təəssüf ki, bu gün axşam Ermənistan tərəfi atəşkəsi pozdu.

Biz danışıqlar prosesinin davam etdirilməsinə köklənmişik. Bu gün mən ATƏT-in Minsk qrupunun həmsədrlərini, səfirləri qəbul etdim. Onlara da dedim və indi mətbuat qarşısında da demək istəyirəm ki, Azərbaycan danışıqlar prosesinə sadiqdir. Biz bu münaqişəni sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında tənzimləmək istəyirik. Düşünürəm ki, atəşkəsin elan olunmasından sonra ötən 20 ildən çox müddət bizim məhz siyasi nizamlanmaya köklədiyimizi sübut edir. Əlbəttə ki, biz bu gün bütün bu məsələləri, həmçinin Sizinlə müzakirə edəcəyik. Əminəm ki, səfəriniz bizim münasibətlərimizin möhkəmlənməsi istiqamətində daha bir mühüm addım olacaq. Bir daha xoş gəlmisiniz!

**S e r g e y L a v r o v**: Sağ olun, hörmətli İlham Heydər oğlu.

Həqiqətən, səfər Sizin Rusiya və İran prezidentləri ilə razılaşmanızın nəticəsidir. Sizin təşəbbüsünüz bu cür üçtərəfli formatı qurmaqdan ibarət idi. Bu format Sizin haqlı olaraq dediyiniz kimi, bir çox nöqteyi-nəzərdən daha sıx üçtərəfli siyasi, təhlükəsizlik, terrorizmlə mübarizə sahələrində əməkdaşlıq baxımından əhəmiyyətlidir. Nəzərə almaq lazımdır ki, üç ölkənin, həmçinin bizim digər qonşularımızın ərazilərindən terrorçuların təchizatı marşrutları, yaraqlıların trafiki keçir. Bu təzahürlərin qarşısının kollektiv əsaslarla alınması üçün qarşılıqlı fəaliyyətin qurulması zəruridir.

Bundan başqa, nəqliyyat marşrutları, iqtisadi əlaqələrin inkişafı, energetika sahəsində qarşılıqlı fəaliyyət baxımından bizim geostrateji, geosiyasi vəziyyətimizdən istifadə etməkdə ümumi maraqlarımız var. Bu məsələlər müxtəlif formatlarda, lakin pərakəndə şəkildə müzakirə olunmuşdu. Ümidvaram ki, Sizin prezident Putin və prezident Ruhani ilə razılaşmanızı rəhbər tutaraq, biz sabah nazirliklərə bölmələr üzrə daha dəqiq müvafiq nəqliyyat və energetika layihələrinin gerçəkləşməsi üzərində işləməyə imkan verən siyasi çərçivə yarada biləcəyik. Sözsüz ki, bizim ikitərəfli münasibətlərimiz, strateji tərəfdaşlığımız da nəzərdən keçiriləcək. Mənim sabah öz həmkarımla ayrıca görüşüm nəzərdə

tutulub. Biz ötən ilin iyun ayında Rusiya prezidenti Vladimir Putinin Bakıya səfəri zamanı Sizin onunla əldə etdiyiniz prinsipial razılaşmaları rəhbər tutacağıq. Yeri gəlmişkən, o Sizə ən səmimi salamlarını göndərir və xatırladır ki, Siz Rusiyaya səfərə dəvət olunmusunuz. Sözsüz ki, bu bizim xarici siyasətin ən dəyərli istiqamətidir. Həmçinin elə gətirdi ki, həm Ermənistan, həm Azərbaycan üçün yaxın, həm də ATƏT-in Minsk qrupunun həmsədri olan ölkə kimi, əvvəllər də, indi də məşğul olduğumuz Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi Sizin qeyd etdiyiniz şəraitə görə ciddi çağırışla qarşılaşdı. Uzun illər ərzində yəqin ki, bu, ən irimiqyaslı döyüş əməliyyatlarıdır.

Rusiya Federasiyasının ünvanına dediyiniz xoş sözlərə görə sağ olun. Həqiqətən biz – həm Prezident, həm Baş nazir, həm bizim nazirlik, əlbəttə ki, Müdafiə Nazirliyi və Baş Qərargah səviyyəsində tərəflərə atəşkəs barədə razılıq əldə edilməsi üçün zəruri olan bütün addımları atdıq. Bu razılaşmanın pozulmamasına dəstək verməyə hazır olacağıq.

Əlbəttə ki, İlham Heydər oğlu, Sizin dediyiniz kimi, bu konkret məsələdə vəziyyəti sabitləşdirmək vacibdir. Ümid edirəm ki, son günlərin hadisələri bizi siyasi tənzimlənmə ilə daha fəal məşğul olmağa sövq edəcək. Bizim təkliflərimiz var. Biz bu təklifləri həmsədrlərlə birlikdə Azərbaycan ilə Ermənistan arasında razılaşmanın əldə olunması naminə daha fəal işə salmağa çalışırıq. Hesab edirəm ki, biz bu məsələlərə ortamüddətli və uzunmüddətli perspektivdə də diqqət yetirə biləcəyik. Bu barədə həm bu gün, həm də sabah söhbət edəcəyik. Biz indi həmsədrlərin göstərdikləri təşəbbüsləri tamamilə dəstəkləyirik. Onlar Bakıya səfər etdilər, sabah təmas xəttində, birigün isə İrəvanda olacaqlar. ATƏT-in, əlbəttə ki, təkcə ATƏT-in yox, həm də Beynəlxalq Qırmızı Xaç Komitəsinin köməyi ilə ən yaxın vaxtlarda hansısa etimad tədbirləri görmək və siyasi prosesin bərpası üçün zəruri şərait yaratmaq vacibdir. Bu qəbula görə çox sağ olun. Bir daha bu səfərin gedişində məhsuldar danışıqlara ümid bəsləyirəm.

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*6 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorliki, İqor Popovu, Pyer Andreni və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrlə bağlı vəziyyət müzakirə olundu.*

*Həmsədrlər cəbhə xəttində atəşkəs razılaşmasının əldə olunmasını alqışladılar. Onlar belə bir fikri diqqətə çatdırdılar ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hazırda aparılan danışıqlar daha intensiv xarakter almalı və bu danışıqlar nəticəsində münaqişə tezliklə öz həllini tapmalıdır.*

# «AZƏRBAYCAN VƏ ŞƏRQİ ANADOLUNUN TÜRK-MÜSƏLMAN ƏHALİSİNİN SOYQIRIMI» MÖVZUSUNDA KEÇİRİLƏN III BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və mötəbər elmi toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

Müasir dövrdə dinc birgəyaşayış normalarının təmin edilməsi, multikulturalizm ideyalarının bərqərar olması bütün bəşəriyyət üçün öz aktuallığını saxlayır. Təəssüf ki, hələ də dünyada milli, irqi, dini və digər əlamətlərinə görə insanların terrora məruz qalması, kütləvi şəkildə qırılması və deportasiya edilməsi kimi hadisələr baş verir. Yalnız zorakılığa, qanlı cinayətlərə və soyqırımlarına yol açan bütün hallara qarşı hamılıqla mübarizə aparılacağı təqdirdə, indiki və gələcək nəsilləri ağır bəlalardan qorumaq mümkündür.

Tarixin müxtəlif mərhələlərində çətin sınaqlardan keçmiş Azərbaycan və digər türk-müsəlman xalqlarının üzləşdikləri soyqırımı hadisələrinə də obyektiv hüquqi-siyasi qiymətin verilməsi mühüm vəzifə kimi qarşımızda durur.

Soyqırımı aktı təkcə onun qurbanlarına qarşı deyil, həm də bütün bəşəriyyət əleyhinə törədilmiş ağır cinayət hesab edilir. Cinayətkarların beynəlxalq hüquq normalarına uyğun olaraq layiqli cəzalarına çatması və gələcəkdə belə halların qarşısının alınması üçün ilk növbədə, tarixin qanlı səhifələrinin dərindən öyrənilməsi, proseslərin adekvat elmi dəyərləndirilməsi zəruridir. Ona görə də müxtəlif ölkələrin elm adamlarının səylərinin bu istiqamətdə birləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Əminəm ki, Azərbaycan xalqının başına gətirilən amansız soyqırımlarının izlərinin hələ də itmədiyi Şamaxı şəhərində keçirilən III Beynəlxalq elmi konfrans da əvvəlki toplantılar kimi faydalı olacaq, tarixi gerçəkliyin üzə çıxarılmasına, haqq və ədalətin zəfər çalmasına xidmət edəcəkdir.

Sizə bu şərəfli işinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 aprel 2016-cı il*

# İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİF İLƏ GÖRÜŞ

*7 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifi qəbul etmişdir.*

*İran, Rusiya və Azərbaycan Xarici İşlər nazirləri arasında ilk görüşün Bakıda keçirilməsinin önəmini qeyd edən dövlətimizin başçısı üçtərəfli görüşün regional əməkdaşlığımızın tarixində yeni səhifə açacağına, bölgədə sülhün və sabitliyin möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin ölkəmizə səfəri zamanı Azərbaycan ilə İran arasında siyasi, iqtisadi, təhlükəsizlik, enerji, nəqliyyat, terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlıq məsələlərinin bir daha nəzərdən keçiriləcəyinə toxunan prezident İlham Əliyev hər iki tərəfin bu sahələrdə fikirlərinin üst-üstə düşdüyünü vurğuladı, səfərin ikitərəfli əlaqələrimizi əhatə edən bir sıra mövzular ətrafında fikir mübadiləsi aparılması üçün yaxşı fürsət yaratdığını bildirdi. Dövlətimizin başçısı İrana son səfərini məmnunluqla xatırladaraq, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə dünən baş tutmuş telefon söhbətində də bir daha səfər zamanı göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdiyini qeyd etdi. Səfəri çərçivəsində bir sıra məsələlərlə bağlı razılıq əldə olunduğunu, çoxlu sayda sənədlərin imzalandığını qeyd edən prezident İlham Əliyev bunun ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün yeni imkanlar yaratdığını vurğuladı və bu səfəri tarixi səfər kimi dəyərləndirdi. Azərbaycan ilə İran arasında əməkdaşlıq əlaqələrinin ən yüksək səviyyədə olmasından məmnunluğunu bildirən dövlətimizin başçısı ölkəmizin mövcud əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduğunu vurğuladı, qarşıya qoyulan məqsədlərə nail olunacağına əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev hər iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəklədiyini qeyd etdi.*

*İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərif prezident Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyevin İrana səfərini xatırladan Məhəmməd Cavad Zərif bu səfərin ölkələrimiz arasında mövcud olan əlaqələrin daha da inkişaf etdirilməsinə tarixi töhfə verdiyini vurğuladı. İranın Xarici İşlər naziri Azərbaycanın təşəbbüsü ilə, Azərbaycan, İran və Rusiya prezidentlərinin razılığı əsasında həyata keçirilən üçtərəfli əməkdaşlıq formatının önəmini qeyd etdi. Azərbaycan və Rusiyadan olan həmkarları ilə əməkdaşlığın müxtəlif sahələri ətrafında müzakirələrə artıq başladıqlarını bildirən Məhəmməd Cavad Zərif ölkələrimiz arasında tranzit, gömrük məsələləri, ekstremizmə qarşı mübarizə, həmçinin turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı. Məhəmməd Cavad Zərif qeyd etdi ki, bu üçtərəfli format İranın həm Azərbaycan, həm də Rusiya ilə ikitərəfli münasibətlərinin genişləndirilməsi, həmçinin ölkələr arasında üçtərəfli əməkdaşlığın inkişafı üçün tarixi fürsət yaradır.*

*Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCANA SƏFƏRƏ GƏLƏN RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ DMİTRİ MEDVEDEV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*8 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 8-də ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedev ilə təkbətək görüşü olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev Rusiya hökumətinin Sədri Dmitri Medvedevi qarşıladı.*

*Azərbaycan Prezidenti və Rusiya hökumətinin Sədri birgə foto çəkdirdilər.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Dmitri Anatolyeviç, Sizi Azərbaycanda ürəkdən salamlayıram. Xoş gəlmisiniz!

Sizin səfəriniz Rusiya ilə Azərbaycan arasında dostluq, mehriban qonşuluq münasibətlərinin daha da möhkəmlənməsi işinə xidmət edəcək. Bizim dinamik, intensiv inkişaf edən münasibətlərimizin çox geniş gündəliyi strateji tərəfdaşlıq səviyyəsinə çatıb.

Sizin səfəriniz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zonasında vəziyyətin kəskinləşməsi dövrünə düşüb. Təəssüf ki, bu münaqişə illər boyu öz həllini tapmayıb və biz erməni tərəfin silahlı provokasiyaları ilə vaxtaşırı üzləşirik. Bu ayın əvvəlində ermənilər tərəfindən növbəti belə cəhd göstərilib. Azərbaycanın yaşayış məntəqələri atəşə tutulub, 400-dən çox ev zədələnib, insan tələfatı olub, o cümlədən dinc sakinlər arasında da ölənlər var. Hərbi provokasiyaların qarşısını almaq, atəşkəs rejimini bərpa etmək üçün Azərbaycan tərəfi cavab tədbirləri görməyə məcbur olub.

Vəziyyətin gərginliyinin səngidilməsi üçün vaxtında həyata keçirilmiş çox fəal tədbirlərə görə Rusiya rəhbərliyinə təşəkkürümü bildirmək istərdim. Rusiya prezidenti Vladimir Vladimiroviç Putin

mənə və Ermənistan prezidentinə zəng vurub. Rusiya Federasiyası Baş Qərargahının rəisi də iki ölkənin qərargah rəisləri ilə əlaqə saxlayıb. Onların vasitəçilik səyləri sayəsində atəşkəs bərpa olunub, hərçənd qarşı tərəf buna heç də həmişə riayət etmir. Bütövlükdə, son günlərdə gərginliyin səngidiyini görürük və hesab edirik ki, bu, müsbət dinamikadır. Qeyd etməliyəm ki, Azərbaycan bu münaqişənin sülh və siyasət yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qərarlarına uyğun olaraq tənzimlənməsinin tərəfdarıdır.

Sizin səfəriniz, həmçinin digər məsələləri də müzakirə etmək üçün yaxşı imkandır. Münasibətlərimizin gündəliyinə ticari-iqtisadi, energetika, nəqliyyat və humanitar sahələr daxildir. Demək istəyirəm ki, ölkələrimiz arasında münasibətlər çox yaxşı dinamika nümayiş etdirir, dostluq, səmimiyyət və qarşılıqlı hörmətlə fərqlənir. Bir daha xoş gəlmisiniz!

**Dmitri Medvedev:** Hörmətli İlham Heydər oğlu. İlk növbədə, görüşüb söhbət etmək imkanına görə təşəkkür edirəm.

Mən çoxdandır ki, Sizin ölkənizdə olmamışam. Aydındır ki, belə səfərin vaxtı çatmışdı. Sizin haqlı olaraq dediyiniz kimi, ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur. İqtisadi, humanitar sahələrdə xeyli birgə layihələr, müzakirə etdiyimiz çoxsaylı siyasi məsələlər var. Buna görə aydındır ki, bu səfərdən həmin məqsədlər üçün maksimum dərəcədə faydalanmaq lazımdır. Əlbəttə ki, indi vəziyyət o qədər də sadə deyil. Siz Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin kəskinləşməsini xatırlatdınız. Gizlətmirəm ki, əlbəttə, bu məsələ bizi ciddi narahat edir. Ona görə ki, bizim üçün hər iki dövlətlə münasibətlər son dərəcə vacibdir. Bütün bu müddətdə biz Minsk qrupunun iştirakçısı, cavabdeh dövlət, Təhlükəsizlik Şurasının daimi üzvü kimi, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində formalaşdırılmış prosedurlara, digər yanaşmalara tərəfdarıq. Ümid edirik ki, hazırda yaranmış sülh uzunmüddətli olacaq və tərəflər tənzimlənmə məsələlərinin müzakirəsini danışıqlar masası arxasında davam etdirə biləcəklər.

Mən özüm vaxtilə buna müəyyən səylər göstərmişəm. Siz bunu yaxşı xatırlayırsınız. İstərdim ki, bütün bunlar puç olmasın. Hər halda, şübhə etməyə bilərsiniz ki, Rusiya Federasiyası özündən asılı olan hər şeyi edəcək. Sizə Vladimir Vladimiroviç Putinin salamlarını və ən xoş arzularını çatdırıram. Həqiqətən, məsləhətləşmələr olub və davam edir. Biz Sizinlə digər məsələlər kimi, bu mövzuda da danışacağıq. Çünki ölkələrimiz arasında münasibətlər həqiqətən, çoxtərəflidir və müzakirə etməyə həmişə mövzu var. Görüşə görə çox sağ olun.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*8 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedevin aprelin 8-də təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Dmitri Anatolyeviç, hörmətli qonaqlar! Sizi bir daha ürəkdən salamlayıram.

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlığın möhkəmlənməsi işinə xidmət edəcək. İndicə Sizinlə təkbətək söhbətdə əsasən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi problemlərini müzakirə etdik. Vəziyyətin gərginliyinin azaldılması işində fəal vasitəçilik səylərinə görə Rusiya Federasiyasına bir daha təşəkkürümü bildirmək istəyirəm. İndi isə biz yəqin ki, qarşılıqlı əlaqələrimizin başqa aspektləri barədə söhbət edəcəyik. Bizim əlaqələrimizin bir sıra istiqamətləri üzrə çox yaxşı dinamika mövcuddur. Obyektiv səbəblər üzündən əmtəə dövriyyəsi bir qədər azalıb, lakin ticari-iqtisadi, energetika və nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi üçün çox böyük potensial var. Şübhəsiz ki, humanitar sahədə ənənəvi əməkdaşlığın çox yaxşı perspektivləri və yaxşı nəticələri var. Ümumiyyətlə, deyərdim ki, bu, münasibətlərimizin əsasıdır. Buna görə də ümid edirəm ki, bizim ticari-iqtisadi və əlbəttə, siyasi münasibətlərimizə aid konkret məsələləri ətraflı müzakirə edəcəyik. Bir daha xoş gəlmisiniz!

**D m i t r i M e d v e d e v:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Həqiqətən, biz indicə ən mürəkkəb problem barədə danışdıq, regionlararası digər mövzulara da toxunduq. Allaha şükür, bizim münasibətlərimizin, əlaqələrimizin palitrası təkcə problemlərdən ibarət deyil, münasibətlərin çox geniş sahəsində əməkdaşlıq, həqiqi strateji tərəfdaşlıq xeyli inkişaf edib. İqtisadiy-

yatlarımızın daha sinxron işləməsi, yaxşı səmərə verməsi üçün əlavə səy göstərməyə imkan var. Keçən il əmtəə dövriyyəsi doğrudan da azalıb. Hərçənd həqiqi azalma cəmi bir neçə faiz olub. Ona görə ki, azalma əsasən bizim bir-birimizə göndərdiyimiz malların məzənnəsinin, satdığımız malların qiymətlərinin dəyişməsi ilə əlaqədar dəyər göstəricilərində baş verib. Hər halda, bu onu göstərir ki, bir sıra layihələri canlandırmaq lazımdır. Gəlin indi bu barədə və humanitar məsələlər haqqında danışaq.

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ DMİTRİ MEDVEDEV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*8 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedev aprelin 8-də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Dmitri Anatolyeviç, hörmətli qonaqlar, xanımlar və cənablar!

Dmitri Anatolyeviçi Azərbaycanda bir daha ürəkdən salamlamaq istəyirəm, xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Bu gün Sizinlə təkbətək və geniş tərkibdə danışıqlar çərçivəsində ikitərəfli qarşılıqlı əlaqələrə, regional problemlərə aid mühüm məsələləri müzakirə etdik. Əlbəttə ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələləri, xüsusən yaxın vaxtlarda münaqişə zonasında gərginliyin artması nəzərə alınmaqla, ətraflı müzakirə etdik.

Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Anatolyeviç Medvedevin bu gün Bakıda rəsmi səfərdə olmasını çox yüksək qiymətləndiririk. Mən Dmitri Anatolyeviçi Azərbaycana səfərə dəvət etmişdim. Bilirəm ki, bu səfər onun planlarına daxil idi. Lakin biz həmin səfərin bu gün baş tutmasını Azərbaycana dostluq, tərəfdaşlıq münasibətinin daha bir göstəricisi hesab edirik. Hamımız bilirik ki, aprelin 7-də Dmitri Anatolyeviçin Ermənistana rəsmi səfəri planlaşdırılmışdı və münaqişə zonasında yaranmış vəziyyət nəzərə alınmaqla, onun aprelin 8-də Azərbaycana gəlməyi qərara almasını biz çox yüksək qiymətləndiririk. Bu bir daha ona dəlalət edir ki, həm Ermənistanla, həm də Azərbaycanla münasibətlər

Rusiya üçün böyük əhəmiyyət kəsb edir. Bizim üçün də Rusiya ilə münasibətlər böyük əhəmiyyətə malikdir. Biz bu münasibətləri çox yüksək qiymətləndiririk, genişləndirməyə və möhkəmləndirməyə çalışırıq.

Ermənistan ilə Azərbaycan arasında münaqişənin tənzimlənməsinə gəldikdə isə, təəssüf ki, bu məsələ uzun illər boyu öz həllini tapmır. Azərbaycan torpaqları uzun illərdir ki, işğal altındadır. 20 ildən çoxdur ki, Azərbaycanın həm Dağlıq Qarabağ bölgəsi, həm də onun ətrafındakı 7 rayonu işğal altındadır. Oradan bütün azərbaycanlı əhali qovulub, bütün evlər, tarixi abidələr dağıdılıb. Təkcə münaqişə zonasından 700 mindən çox daxili köçkünümüz var. Ermənistandan olan 250 mindən çox qaçqını da buraya əlavə etsək, 1994-cü ildə atəşkəs barədə razılaşma əldə ediləndə bizdə qaçqınların və daxili köçkünlərin adambaşına sayı ən yüksək göstəricilərdən birini təşkil edirdi.

Münaqişənin tənzimlənməsi mexanizmləri, BMT Təhlükəsizlik Şurasının işğalçı erməni qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən 4 qətnaməsi var, təəssüf ki, onlar yerinə yetirilmir. Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi, bu münaqişənin tənzimlənməsi işində mühüm rol oynayır. Biz bu rolu çox yüksək qiymətləndiririk. Ermənistan bundan sui-istifadə edərək növbəti silahlı provokasiya fonunda özünü xüsusilə göstərdi. Bizim mövqelərimiz hücumlara məruz qaldı, o cümlədən yaşayış məntəqələrinə zərər vuruldu. Qoşunların təmas xəttinin yaxınlığında yerləşən 400-dən çox ev zədələndi. Onlarla ev tamamilə dağıdıldı. Bizdə insan tələfatı da olub, o cümlədən dinc sakinlər arasında.

Bu şəraitdə Rusiya tərəfi vəziyyətin gərginliyini azaltmağa təşəbbüs göstərdi. Rusiya prezidenti Vladimir Vladimiroviç Putin mənə və Ermənistan prezidentinə zəng vurdu, öz narahatlığını, həmçinin vəziyyətin gərginliyinin azaldılmasında tərəflərə kömək etmək istədiyini bildirdi. Biz bu siqnalları müsbət qəbul etdik. Bundan əlavə, Moskvada Rusiya Federasiyası Baş Qərargah rəhbərliyinin iştirakı ilə 3 ölkənin baş qərargah rəhbərləri arasında görüş keçirildi. Həmin görüşdə hərbi əməliyyatların dayandırılması

barədə qərar qəbul edildi. Biz bu qərarı dönmədən yerinə yetiririk və ümid edirik ki, erməni tərəfi də buna əməl edəcək.

Bir daha demək istərdim ki, Azərbaycan danışıqlar prosesinin tərəfdarıdır. Danışıqlar 20 ildən çoxdur ki, aparılır. Vəziyyətin gərginləşməsinə guya Azərbaycanın təqsirkar olması barədə Ermənistan tərəfindən irəli sürülən bütün ittihamlar tamamilə əsassızdır. Aprelin əvvəlində baş vermiş silahlı toqquşmanın xarakteri onu göstərir ki, bizim genişmiqyaslı hərbi əməliyyatlara başlamaq niyyətimiz yox idi və indi də yoxdur. Biz sadəcə, öz mövqelərimizi, öz vətəndaşlarımızın dinc həyatını müdafiə edirdik. Buna görə də münaqişənin tənzimlənməsi Azərbaycanın maraqlarına uyğundur. Əminəm ki, bu, Ermənistanın da, Rusiyanın da maraqlarına uyğundur. Hər iki ölkənin qonşusu və dostu kimi, Rusiya özü də münaqişənin tezliklə tənzimlənməsində maraqlıdır. Biz danışıqlar prosesini davam etdirəcəyik. Biz bu yaxınlarda regionda səfərdə olmuş Minsk qrupunun həmsədrlərinin təşəbbüsünü alqışlayırıq. Ümidvarıq ki, Minsk qrupunun həmsədrlərinin status-kvonun dəyişdirilməli olması barədə çağırışlarını Ermənistanda da eşidəcəklər.

Status-kvonun dəyişdirilməsi, Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanması münaqişənin tammiqyaslı tənzimlənməsi üçün əsas şərtdir. Bu, baş verən kimi regionda sülh, əmin-amanlıq, əməkdaşlıq bərqərar olacaq. Bu, regionun bütün ölkələrinin xeyrinə olacaq.

Gündəlikdəki digər məsələyə gəlincə, bu gün biz iqtisadi problemləri, ticari-iqtisadi münasibətləri, energetika, nəqliyyat, humanitar əməkdaşlıq sahəsində münasibətləri ətraflı müzakirə etdik. Bütün istiqamətlər üzrə yaxşı dinamika, müsbət irəliləyiş var. Hökumətlərarası Komissiya fəal çalışır, bütün istiqamətlər üzrə yüksək səmərə ilə konkret iş aparır.

Biz Rusiya ilə münasibətləri strateji xarakterli münasibətlər hesab edirik. Rusiya tərəfindən də eyni münasibəti görürük. Dmitri Anatolyeviçin səfəri bu münasibətlərin xarakterini bir daha təsdiq edir və bizim əməkdaşlığımızın möhkəmlənməsinə böyük töhfə verir.

Dmitri Anatolyeviç, bir daha sağ olun ki, bu gün bizə gəlmisiniz, Sizə ən xoş arzularımı bildirirəm. Rusiya xalqına dərin hörmətimi bildirmək, Rusiya dövlətinə uğurlar və firavanlıq diləmək istəyirəm. Sağ olun.

## Rusiya hökumətinin Sədri Dmitri Medvedevin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

İlk növbədə, Azərbaycanda bizi həmişə müşayiət edən səmimi qəbula, belə xoş ab-havaya görə İlham Heydər oğlu Əliyevə təşəkkürümü bildirmək istəyirəm. Biz bir-birimizi çoxdan tanıyırıq və həqiqətən, çox mehriban tərəfdaşlarıq. Bu tərəfdaşlıq strateji, qarşılıqlı faydalı xarakter daşıyır və müxtəlif məsələləri etimad şəraitində müzakirə etmək həmişə daha asan olur. Bu gün də belə oldu. Nəyə görə? Ona görə ki, biz Azərbaycan ilə qarşılıqlı münasibətlərin bu səviyyəsini həqiqətən, qiymətləndiririk. Bu dostluq, qarşılıqlı anlaşma ənənələri əsrlər- boyu formalaşıb və indiki məqamda xalqlarımıza yaxşı bəhrələrini verir.

Biz gündəlikdəki bütün məsələləri gözdən keçirdik. İndi mən əvvəlcə iqtisadi problemlər barədə bir-iki kəlmə demək istəyirəm. Hazırda biz, belə deyək, iqtisadi inkişafın o qədər də sadə mərhələsində deyilik. «Biz» deyəndə mən həm Rusiyanı, həm də Azərbaycanı nəzərdə tuturam. Makroiqtisadi vəziyyət, xarici bazarların, ilk növbədə, neft-qaz bazarının təsiri, valyuta məzənnələrinin dəyişməsi iqtisadi məsələlərin gündəliyinə bu və ya digər şəkildə düzəlişlər edir. Buna görə də bizdə, ümumiyyətlə, həmişə yüksək və yetərincə əhəmiyyətli olan əmtəə dövriyyəsi son vaxtlar bir qədər azalıb. İlham Heydər oğlu ilə bu barədə fikir mübadiləsi etdik. Natural ölçülərlə ifadə olunan əmtəə dövriyyəsini götürsək, bu azalma dramatik səviyyədə deyil, cüzidir, cəmi bir neçə faiz təşkil edir. Dəyər ölçüləri ilə ifadə olunan azalma daha böyükdür, lakin ticari-iqtisadi və investisiya əməkdaşlığını artırmağa səy göstərsək, bu azalmanı kompensasiya edə bilərik. Bunun üçün hər cür ilkin

şərait var. Yeni layihələr axtarmaq, hökumətlərarası komissiyaların fəaliyyətini fəallaşdırmaq lazımdır, hərçənd həmkarlarımız pis işləmirlər. Görülən işlərə görə Rusiya hökuməti adından təşəkkürümü bildirirəm. Biz indicə razılığa gəldik ki, Rusiya–Azərbaycan İşgüzar Şurasının işini fəallaşdıracağıq, ona görə ki, tərəfdaşlıq təkcə hökumət xətti üzrə deyil, həm də bilavasitə biznes xətti üzrə həyata keçirilməlidir.

Bizim bir sıra çox iri layihələrimiz var – energetika, nəqliyyat layihələri. Əlbəttə, iqtisadiyyatlarımızın inkişafını sürətləndirmək üçün bütün bu istiqamətlər üzrə işi intensivləşdirmək lazımdır. Bizim xarici layihələrimiz də var. Məsələn, İran istiqaməti indi çox perspektivlidir. Prezidentlər bu barədə danışıblar. İlham Heydər oğlu ilə bu mövzunu indicə müzakirə etdik. Mənim fikrimcə, bu, Xəzərətrafı və bizim region çərçivəsində əməkdaşlıq üçün çox mühüm istiqamətlərdən biri ola bilər. Ölkələrimizin inkişafına töhfə verə biləcək başqa enerji layihələri, məsələn, elektroenergetika sahəsində və bəzi başqa sahələrdə layihələr də var. Humanitar əməkdaşlıq da, xüsusən turizm əlaqələrinin tarixi, bu əlaqələri intensivləşdirmək imkanları, ona qarşılıqlı maraq nəzərə alınmaqla, bizim qarşılıqlı fəaliyyətimizin belə mühüm, vacib amillərindən biri kimi qalır. Yeri gəlmişkən, indiki şəraitdə bütün bu məsələlər gündəlikdədir.

Əlbəttə, burada haqlı olaraq deyildiyi kimi, Rusiya hökumətinin nümayəndə heyətinin səfəri əvvəlcədən planlaşdırılmışdı. Lakin indiki məqamda münaqişə zonasında baş vermiş hadisələr üzündən həmin səfər bir qədər tez baş tutdu. Hesab edirəm ki, həm Ermənistana, həm də Azərbaycana bu cür səfər etmək bizim tərəfimizdən tamamilə düzgün qərar idi. Şadam ki, tərəfdaşlarımız da bunu belə qiymətləndirirlər. Ona görə ki, biz qonşularımızla münasibətləri yüksək qiymətləndiririk və bu mənada bütün əlaqələrin simmetrik inkişaf etdirilməsi zəruridir.

Hadisələrə bizim münasibətimiz məsələsinə gəldikdə isə, onlara ölkə prezidenti qiymət verib. Mən bu mövzuda çıxış etmişəm. Xarici İşlər naziri dünən Bakıda olub, o da İlham Heydər oğlu Əliyevlə və öz həmkarı ilə müvafiq danışıqlar aparıb. Buna görə də biz

münaqişənin dinc yolla tənzimlənməsi ideyasına maksimum tərəfdarıq. Bu nəticəyə nail olmaq üçün çox ciddi qüvvələr cəlb edilib. Biz hamımız bu məsələdə iştirak etmişik. Müəyyən dövrdə mən özüm də bu məsələ ilə çox fəal məşğul olmuşam. Hesab edirəm ki, danışıqların, sülh yolu ilə nizamlamanın heç bir alternativi yoxdur. Buna görə biz, əlbəttə, atəşin dayandırılmasını alqışlayırıq. Ümid edirik ki, bu atəşkəs davamlı, uzunmüddətli xarakter daşıyacaq, danışıqların yenidən başlanması və son illərdə formalaşmış yanaşmalar çərçivəsində irəliləmək, tərəflərin mövqelərini yaxınlaşdırmaq, kompromislər axtarmaq üçün etibarlı təməl olacaq. Çünki heç bir münaqişə heç vaxt tərəflərdən birinin qələbəsi ilə başa çatmır. Münaqişəni aradan qaldırmaq və yer üzündə möhkəm sülh yaratmaq üçün həmişə mürəkkəb kompromislər toplusunu qəbul etmək lazım gəlir. Təbii ki, biz Minsk qrupunun iştirakçısı və həmsədri kimi, bundan sonra da bütün bu işləri davam etdirməyə hazırıq. Azərbaycan Prezidentinin indicə haqlı olaraq dediyi kimi, biz bu prosesə fəal qoşulmuşuq, o cümlədən hökumət nümayəndə heyətinin indiki səfəri həm də bu amillərlə bağlıdır. Ümidvaram ki, bütün bunlar etimadın möhkəmlənməsinə və maksimum əlverişli nəticə qazanmağa xidmət edəcək. Bu regionda, bizim regionda sülhün bərqərar olmasında Rusiyanın marağı Azərbaycanın və Ermənistanın marağından az deyil və istərdim ki, bunu hamı başa düşsün.

Bizim əməkdaşlıq məsələlərini müzakirə etmək üçün burada yaradılmış bu imkana, gözəl şəraitə görə İlham Heydər oğluna bir daha təşəkkür etmək, dost Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

## «AITF–2016» XV AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*8 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 8-də Bakı Ekspo Mərkəzində «AITF–2016» XV Azərbaycan Beynəlxalq turizm və səyahətlər və «HOREX Caucasus–2016» X Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olmuşlar.*

*Regionda turizm sənayesi üzrə aparıcı tədbirlərdən biri olan «AITF–2016» sərgisi bu il 15 illik, «HOREX Caucasus–2016» sərgisi isə 10 illik yubileyini qeyd edir. «AITF–2016» sərgisi keçirildiyi illər ərzində bütövlükdə Xəzəryanı regionda mühüm tədbirlərin təşkil olunduğu, tərəfdaşlıq müqavilələrinin imzalandığı, habelə yeni proqram və istiqamətlərin elan edildiyi əsas turizm tədbirinə çevrilib, bu sənaye sahəsinin qovşağı statusunu qazanıb.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına və xanımına məlumat verdi ki, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Turizm Assosiasiyası, Dünya Turizm Təşkilatı və Asiya–Sakit Okean Turizm Assosiasiyası sərgiyə fəal dəstək verib. Turizm ölkəmizin qeyri-neft sektorunun perspektivli sahələrindən biri olduğu üçün bu sahənin inkişafına xüsusi diqqət göstərilməsi və onun dəstəklənməsi hazırda dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi də bu prosesə töhfə verir. Təsadüfi deyil ki, 2002-ci ildə keçirilən ilk sərgidə 5 ölkədən 26 şirkət iştirak edirdisə, sonrakı illərdə müsbət dinamika əldə olunub. Builki sərgidə 40 ölkədən 200-dən artıq şirkət iştirak edir. Müstəqil auditin məlumatlarına əsasən, bu sərgi regionda ölkə, şirkət və turizm marşrutlarının sayı üzrə bütün digər turizm sərgiləri arasında birinci yeri tutur.*

Azərbaycanın 20-dən artıq turizm şirkətini, eləcə də hotel və sanatoriyalarını öz stendində bir araya gətirən Azərbaycan Turizm Assosiasiyası da ölkədə turizmin inkişafına güclü dəstək verir. 2009-cu ildən fəaliyyətdə olan Assosiasiya hazırda ölkəmizdə turizm və hotel sahəsində təlim və inkişaf məsələlərinin həllini təmin edən ən böyük qeyri-hökumət təşkilatlarından biridir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ölkəmizin turizm regionlarını əks etdirən ekspozisiyalara baxdılar.

Qeyd edək ki, daxili turizm Azərbaycanda əsas təmayül olaraq qalır. Hazırda diqqət paytaxtla yanaşı, bölgələrdə də geniş turizm şəbəkəsinin yaradılmasına yönəldilib. Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, ölkəmizin malik olduğu təbii gözəllikləri, ecazkar təbiəti və digər istiqamətləri nümayiş etdirmək baxımından sərgi bir çox özəllikləri ilə seçilir. Qax, Qəbələ, Gəncə, Zaqatala, İsmayıllı, Lənkəran, Mingəçevir, Masallı, Sumqayıt və digər regionların ənənəvi ekspozisiyalarında Azərbaycanın daxili turizm potensialı təqdim edilir, milli mədəniyyətimizin zəngin nümunələri qonaqlara nümayiş olunur. Qarabağ regionunun gözəlliyini və turizm imkanlarını nümayiş etdirən ənənəvi stend də sərgidə yer alıb. Bakıda keçiriləcək «Formula-1» Avropa Qran-prisinin təşkilatçısı «Bakı Şəhər Halqası» Əməliyyat Şirkəti sərgidə ayrıca stendlə təmsil olunur. Burada yarışların proqramı, eləcə də hamının səbirsizliklə gözlədiyi Qran-priyə biletləri harada və necə əldə etməklə bağlı ətraflı məlumat verilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgidə xarici ölkələrin milli pavilyonları ilə də tanış oldular.

Bildirildi ki, keçirildiyi illər ərzində Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgilərində dünyanın 40-dan çox ölkəsindən təxminən 2200 şirkət iştirak edib. Bu il də sərgidə çoxlu xarici şirkətin iştirakı diqqət çəkir. İndoneziya milli pavilyonunda bu ölkə ecazkar təbiəti, zəngin mədəniyyəti və qonaqpərvər insanlara malik olan dünyanın möhtəşəm səyahət məkanlarından biri kimi təqdim olunur. Bu ölkənin turizm obyektləri tarixi məkanlar da daxil olmaqla, təbiət və mədəniyyət mənzərələrini əhatə edir.

Rusiyanın şəhərlərinin, xüsusilə Stavropol vilayətinin təqdim etdiyi imkanlar da sərgidə böyük maraqla qarşılanır.

Bu il tibbi və sağlamlıq turizmi istiqamətlərini təmsil edən iştirakçıların sayı əhəmiyyətli dərəcədə artıb. Belə ki, sərgidə Azərbaycan, Belarus, Gürcüstan, İtaliya, Latviya, Xorvatiya, Çexiya, Rusiya, Türkiyə, Ukrayna və digər ölkələri təmsil edən şirkətlər, o cümlədən tibb mərkəzi, sağlamlıq ocağı və sanatoriyalar müalicə-sağlamlıq və SPA turizmi üzrə ən son nailiyyətləri təqdim edirlər.

Hindistan da builki sərgidə fəal iştirak edir. Ümumiyyətlə, bu ölkə din, dil və adət-ənənələrin heyrətamiz rəngarəngliyinə malik olmaqla, bütün mədəniyyətlərin fərqli ənənələrinin sintezini təqdim edir. Hindistan hər zaman tarixi abidələri, dağ kurortları, vəhşi təbiəti və maraqlı ekoloji sistemi ilə turistlərin diqqətini çəkir.

İran İslam Respublikasının milli pavilyonunda bu ölkənin müxtəlif turizm istiqamətləri barədə geniş məlumat verilir. Burada İranın turizm şəbəkəsinin malik olduğu potensial qonaqlara əhatəli şəkildə təqdim edilir.

Belarus, Bolqarıstan, Gürcüstan, Dominikan, İspaniya, Tailand, Monteneqro, Çexiya və Ukrayna şirkətləri öz ölkələrinin turizm potensialını və milli koloritini parlaq şəkildə nümayiş etdirmək məqsədilə sərgidə özəl pavilyonlar quraşdırıblar.

ABŞ, İordaniya, İsveçrə, Latviya, Maldiv adaları, Sloveniya, Yunanıstan və digər ölkələrin turizm şirkətləri və hotelləri də sərgiyə qatılıbdır.

Qonşu Gürcüstan da builki sərginin iştirakçıları sırasındadır. Bu ölkənin Milli Turizm Assosiasiyasının qatıldığı sərgidə Gürcüstanın malik olduğu turizm potensialı barədə geniş informasiya çatdırılır. Məqsəd Gürcüstana gəlmək istəyən turistlərin təəssüratlarını zənginləşdirmək və ölkədə turizmin davamlı inkişafını təmin etməkdir.

Sərgidə Türkiyə də geniş təmsil olunur. Mütəxəssislər deyirlər ki, dünyanın ən məşhur və tanınmış turizm məkanlarından olan Türkiyənin potensialının təqdim olunması baxımından bu sərgi əla fürsətdir. Bu həm də turizm sahəsində yeni marketinq strategiyalarının müəyyən olunmasına və təşviqinə geniş imkanlar açır.

Hər bir sərgi yeni aviareys və hava xətlərinin elan edildiyi, memorandum və beynəlxalq müqavilələrin imzalandığı, sənayedəki yeni məhsul və nailiyyətlər barədə hesabatların səsləndirildiyi

platformadır. Odur ki, bu sərgi Azərbaycanın zəngin turizm potensialını xarici iştirakçılara təqdim edir. Bu da ölkəmizin turizm məkanı kimi məşhurlaşmasına şərait yaradır. Bakı Ekspo Mərkəzində İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunun xüsusi pavilyonunun yaradılması, milli əl işlərindən ibarət ekspozisiyanın quraşdırılması da ölkəmizin turizm potensialının kompleks təbliğinə xidmət edir.

Sərgi ilə tanışlıqdan sonra dövlətimizin başçısı və xanımı turistlər üçün şəhər turlarında istifadə ediləcək avtobusa və mikroavtobusa baxdılar, onlarda yaradılan şəraitlə tanış oldular.

Prezident İlham Əliyev sərgilərin işinə uğurlar arzuladı.

## NAZİRLƏR KABİNETİNİN 2016-cı İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* İŞTİRAK

*9 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 9-da Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

İlk növbədə, xahiş edirəm ki, Ermənistanın silahlı təxribatının qarşısını alaraq, qəhrəmancasına şəhid olmuş Azərbaycan hərbçilərinin əziz xatirəsini bir daha sükutla yad edək.

Allah şəhidlərimizə rəhmət eləsin. Əyləşin. Allah onların yaxınlarına səbir, yaralı hərbçilərimizə şəfa versin.

Bildiyiniz kimi, bu ayın əvvəlində Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törədib. Təxribatın qarşısı alındı, düşmənə layiqli cavab verildi. Azərbaycan öz torpaqlarını qoruya, öz hərbi mövqelərini daha da möhkəmləndirə bildi. Bu qanlı toqquşma bir daha onu göstərir ki, Ermənistan işğalçı siyasətini davam etdirir, sülh istəmir və çalışır ki, danışıqlar prosesi pozulsun.

---

* Назирляр Кабинетинин 2016-ъы илин бириньи рцбцнцн сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунмуш иъласında Енерэетика назири Натиг Ялийев, Ямяк вя Ящалинин Сосиал Мцдафияси назири Сялим Мцслцмов və Дювлят Эюмрцк Комитясинин сядри Айдын Ялийев çıxış etdilər.

Bunu deməyə bizdə kifayət qədər əsas var, ilk növbədə, danışıqların 20 ildən çox müddət ərzində aparılması onu göstərir ki, Ermənistan sadəcə olaraq, danışıqları sonsuz proses kimi görmək istəyir.

Digər tərəfdən, danışıqlarda müəyyən irəliləyiş olan zaman Ermənistan müxtəlif yollarla danışıqları pozmağa cəhd göstərir. Son tarixin nümunələri bunu göstərir. 2014-cü ilin sonlarında Fransa Prezidentinin təşəbbüsü ilə Parisdə Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirildi. Hər iki tərəf görüşü müsbət qiymətləndirdi. Görüşdən sonra biz danışıqlarda daha da müsbət dinamikanı gözləyirdik. Ancaq o danışıqlardan 2 həftə keçməmiş Ermənistan işğal edilmiş torpaqlarda – Ağdam rayonunun ərazisində genişmiqyaslı hərbi təlimlərə başladı. Bu, sırf təxribat xarakterli bir addım idi. Azərbaycan Silahlı Qüvvələri bu təxribata bir neçə gün cavab vermədi, ancaq ondan sonra Ermənistan silahlı qüvvələri bizim mövqelərimizə hərbi helikopterlərlə hücum çəkdi. Azərbaycan Ordusu məcbur olub helikopterin birini vurdu. Bu da Ermənistana bir bəhanə kimi lazım idi ki, yenə də Azərbaycanı təcavüzdə günahlandırsın. Ondan sonra, demək olar ki, 1 ildən çox müddət ərzində danışıqlar, ümumiyyətlə, aparılmadı. Minsk qrupunun xahişi ilə keçən ilin dekabrında Azərbaycan və Ermənistan prezidentləri görüşdülər, amma o görüşün heç bir nəticəsi olmadı. Vasitəçilər çalışırlar ki, məsələ öz həllini tapsın. Bilirsiniz ki, Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa rəhbərliyi səylər göstərir, bəyanatlar verirlər. O cümlədən status-kvo haqqında çox dəyərli bəyanatlar verilir ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Ancaq Ermənistan buna məhəl qoymur.

Bilirəm ki, həmsədr dövlətlər bu il danışıqların davam etdirilməsi istiqamətində yeni təkliflər irəli sürüblər. Amerika Birləşmiş Ştatlarında olarkən, Amerikanın siyasi rəhbərliyi ilə o cümlədən Dağlıq Qarabağ münaqişəsi geniş şəkildə müzakirə edildi. Qeyd etdilər ki, onlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Bütün həmsədr ölkələr – ABŞ, Rusiya, Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Dünyada Ermənistandan başqa, elə bir ölkə yoxdur ki, bizim ərazi bütövlüyümüzü dəstəkləməsin. Görünür ki, danışıqlarda mümkün ola biləcək müsbət dinamika Ermənistanın

bu təxribata getməsini şərtləndirdi. Bir daha qeyd etmək istəyirəm, Azərbaycan öz torpaqlarını müdafiə edir, bizim başqa dövlətin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verəsi deyilik. Heç vaxt imkan verməyəcəyik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın.

Bildiyiniz kimi, qanlı toqquşmalardan sonra beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı narahatlığını ifadə etdi. Həmsədr ölkələrin rəhbərliyi sülh danışıqlarına sadiqlik göstərilməsi, məsələnin sülh yolu ilə həlli haqqında bəyanatlar verdi və biz də bunu istəyirik. Biz məsələnin sülh yolu ilə, siyasi yollarla öz həllini tapması istəyimizi dəfələrlə bəyan etmişik. İstəyimiz odur ki, məsələ həllini tapsın. Bu gün də biz bəyan edirik ki, danışıqlar prosesinə sadiqik. Ümid edirik ki, bu danışıqlar məsələnin həllinə gətirib çıxaracaq. Məsələnin həlli çox sadədir – erməni silahlı birləşmələri işğal edilmiş torpaqlardan çıxmalıdır, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdır, yalnız ondan sonra regionda sülh və təhlükəsizlik yarana bilər. O ki qaldı xalqların öz müqəddəratını təyin etməsi prinsipinə, bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktında məhz bu ifadələr öz əksini tapır. Bütün münaqişələr ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim əsas vəzifəmizdir. Azərbaycan həm siyasi, həm iqtisadi və bütün başqa sahələrdə gücləndikcə, əlbəttə ki, bu münaqişənin həlli daha da yaxın olacaqdır. Biz inkişaf dinamikamızı daha da sürətləndirməliyik və Azərbaycanda dayanıqlı inkişaf davam etməlidir. Son illər ərzində iqtisadi və siyasi sahələrdə əldə edilən uğurlar onu göstərir ki, biz düzgün yoldayıq. Hər zaman olduğu kimi, birinci rübdə də bizim çox fəal xarici siyasətimiz olub. Ancaq hesab edirəm ki, biz birinci rübdə daha da fəal işləmişik. Mən birinci rübdə bir çox xarici səfərlərdə olmuşam – həm rəsmi, həm işgüzar səfərlərdə. Davos İqtisadi Forumunda, Münhen Təhlükəsizlik Konfransında, Londonda Suriyaya dəstək konfransında iştirak etmişəm. Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə, Amerika Birləşmiş Ştatlarına səfərlərim olubdur. Bütün

bu səfərlərin coğrafiyası özlüyündə bir göstəricidir. Onu göstərir ki, Azərbaycan çox fəal və çoxşaxəli xarici siyasət aparır, bizim dostlarımızın sayı artır. Hətta bir-biri ilə o qədər də yaxın münasibətlərdə olmayan ölkələrlə Azərbaycan çox səmərəli, qarşılıqlı hörmət və maraqlar üzərində iş qurubdur.

Beləliklə, bizə beynəlxalq ictimaiyyət tərəfindən olan inam artır. Azərbaycan çox etibarlı tərəfdaş kimi tanınır və bölgədə sabitləşdirici rol oynayır. Onu da qeyd etməliyəm ki, birinci rübdə Azərbaycana 10 xarici dövlət və hökumət başçısı səfər edib. Onların arasında rəsmi səfərlər olubdur və IV Qlobal Bakı Forumunda iştirak etmək üçün dövlət və hökumət başçıları gəliblər.

Bir daha demək istəyirəm ki, bu bizim uğurlu xarici siyasətimizi göstərir. Bu siyasət davam etdiriləcək. Bir daha qeyd etmək istəyirəm ki, dünya birliyi Azərbaycana böyük hörmətlə və rəğbətlə yanaşır. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl biz BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq. Bu o vaxt da bizim üçün təsadüfi deyildi və bu gün də əldə edilən uğurlar bunu bir daha göstərir.

Bununla bərabər, yeni regional əməkdaşlıq formatı yaranır, formalaşır. Azərbaycan–İran–Rusiya regional formatı, Xarici İşlər nazirləri görüşüblər. Ondan bir-iki gün əvvəl İranda Azərbaycan–İran–Türkiyə Xarici İşlər nazirləri görüşüblər. Digər üçtərəfli formatlar var. Azərbaycan–Gürcüstan–Türkiyə formatı var. Yəni bütün bu üçtərəfli təşəbbüslər regionda təhlükəsizliyin təmin edilməsi və əməkdaşlığın dərinləşməsi üçün çox vacibdir. Gördüyünüz kimi, Azərbaycan hər bir formatda iştirak edir.

Birinci rübdə iqtisadi islahatlar daha da sürətlə aparılıb. Ümumiyyətlə, mən bildirməliyəm ki, 2016-cı il dərin iqtisadi islahatlar ili olacaqdır. İlin əvvəlindən biz bu istiqamətdə çox fəal işləyirik. Bir çox sərəncamlar, qanunlar imzalanıb və qəbul edilib. Biznes mühitinin yaxşılaşdırılması, ixrac potensialımızın artırılması, xarici sərmayənin Azərbaycana cəlb edilməsi, yerli istehsalın artırılması – bütün bu istiqamətlər üzrə çox ciddi qərarlar qəbul edilibdir. Maliyyə nizam-intizamı, şəffaflıq – demək istəyirəm ki, bundan sonra da bu istiqamətdə əlavə tədbirlər görüləcəkdir.

Azərbaycanda bütün iqtisadi-maliyyə sektoru aparıcı dövlətlərin təcrübəsinə əsaslanaraq, ən mütərəqqi prinsiplər əsasında inkişaf etməlidir. İlk növbədə, idarəetmə mexanizmləri təkmilləşdirilməlidir, şəffaflıq tam şəkildə təmin edilməlidir. Beləliklə, bizim gəlirlərimiz artacaq və artmalıdır, baxmayaraq ki, neftin qiyməti kəskin şəkildə aşağı düşüb və hələ də çox aşağı səviyyədədir. Bu, təbii ki, bizim gəlirlərimizə çox ciddi təsir göstərir. Ancaq hesab edirəm ki, biz qeyri-neft sektorunun inkişafı sayəsində bu vəziyyətdən uğurla çıxa biləcəyik.

Birinci rübün iqtisadi göstəriciləri o qədər də müsbət deyil. Ümumi daxili məhsul aşağı düşübdür. Bu da təbiidir. Biz bunu gözləyirdik. Ancaq hesab edirəm ki, il ərzində ümumi daxili məhsul artmalıdır. Hər halda, biz buna çalışırıq və çalışacağıq. Bunu deməyə əsas verən odur ki, ilin birinci rübündə Azərbaycanda qeyri-neft sənayesi 5 faizdən çox artıb. Bu onu göstərir ki, ümumi daxili məhsulun azalması ilk növbədə, neftin qiymətinin aşağı düşməsi və ondan yaranan vəziyyət ilə bağlıdır. Əlbəttə ki, bizim gəlirlərimiz azalıbdır, dövlət tərəfindən yatırılan investisiyalar azalıbdır. Biz bu vəziyyəti nəzərə alırıq.

Ancaq qeyri-neft sənayesinin 5 faizdən çox artması, əlbəttə, həm göstəricidir, həm də yaxşı ümidlər verir ki, Azərbaycanda qeyri-neft sektoru daha da sürətlə inkişaf edəcək. Qeyri-neft sektoru bu gün Azərbaycan iqtisadiyyatının əsas hissəsini təşkil edir. Biz buna nail olmuşuq və gələcəkdə, əlbəttə, çalışmalıyıq ki, qeyri-neft sektoru bizim ixrac strukturumuzda da daha böyük çəkiyə malik olsun.

Birinci rübdə 37 min yeni iş yeri yaradılıb. Onlardan 31 mini daimi iş yeridir, 13 min iş yeri isə bağlanıbdır. Biz burada da müsbət balans görürük. Onu da qeyd etməliyəm ki, yeni iş yerlərinin yaradılması daha çox dövlət sektorunda baş verib. Bu da mənim göstərişimlə öz həllini tapan məsələdir. Çünki tikinti sektorunda, digər sektorlarda bəzi işlər ixtisara düşüb. Belə olan halda işsizlik səviyyəsini aşağı səviyyədə saxlamaq üçün mən qərar qəbul etdim ki, dövlət şirkətləri, dövlət qurumları yeni iş yerləri açsınlar. İctimai işlər açılır və birinci rüb ərzində bu qədər iş yerlərinin açılması, əlbəttə ki, insanların sosial müdafiəsinə hesablanıb.

Sosial siyasət həmişə prioritet olmuşdur və olacaq. Birinci rübdə atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Bütün iqtisadi islahatlar, bizim uğurlu neft-qaz siyasətimiz də bu məqsədi güdür ki, insanlar daha da yaxşı yaşasınlar.

İndi dünyada böhran yaşanır. İqtisadi və maliyyə böhranı hələ ki, başa çatmayıb. Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır, ancaq bu böhrandan ən az itkilərlə çıxan ölkələrdən biridir. Bir misal da gətirə bilərəm ki, neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq, bu il Azərbaycanda maaşlar və pensiyalar artırılıb – 10 faiz artım var. Bu da nadir hadisələrdən biridir. Adətən, hətta neft və qazla zəngin olmayan ölkələr ya maaşları dondururlar, ya kəsirlər, ya maaşların verilməsində problemlər yaşanır. Ancaq biz dünyada hökm sürən böhrana baxmayaraq, maaşları və pensiyaları artırmışıq. Digər sosialyönümlü addımlar atılır, o cümlədən yeni təşəbbüslər, iş yerlərinin yaradılmasının yeni formaları artıq işə düşür. Əminəm ki, Azərbaycanda işsizliyin səviyyəsi həmişə olduğu kimi, çox aşağı olacaqdır.

Beləliklə, ciddi dərin iqtisadi islahatlar aparılır və bu islahatlar dərinləşməlidir. Çox güclü sosial siyasət aparılır ki, iqtisadi islahatlar həyata keçirilərkən insanlar bundan əziyyət çəkməsinlər. İnsanların rifah halının yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılacaqdır.

Bu il regional inkişaf istiqamətində də çox böyük layihələr icra edilməlidir. Nəzərdə tutduğumuz layihələrin icrası üçün təqribən 2 milyard manata qədər vəsait lazım olacaqdır. Onun bir hissəsi dövlətin güzəştli kreditləri, bir hissəsi isə sahibkarların hesabına təmin edilməlidir. Hər halda, biz qarşıya bu hədəfi qoymuşuq. Çalışmalıyıq ki, bu hədəfə çata bilək. Beləliklə, ölkə iqtisadiyyatına, qeyri-neft sektoruna qoyulacaq investisiyalar özlüyündə daha da böyük canlanmaya, yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq və yeni ixrac məhsullarımız da olacaqdır.

Biz birinci rübdə digər sahələrdə də çox fəal işləmişik. Nəqliyyat sektorunda. Qeyd etdiyim kimi, Şimal–Cənub nəqliyyat dəhlizinin

yaradılması üçün çox fəal işləmişik. Bu dəhlizin yaradılması üçün Azərbaycan–İran–Rusiya üçtərəfli əməkdaşlığı əsas şərtdir. Bildiyiniz kimi, həm İran Prezidenti, həm Rusiya Prezidenti ilə görüşlərdə bu məsələlər mənim tərəfimdən qaldırılıb, müzakirə edilib və deyə bilərəm ki, burada ümumi razılıq var. Bu nəqliyyat dəhlizi həm iqtisadi cəhətdən, həm təhlükəsizlik, həm turizm baxımından bizə çox lazımdır. Beləliklə, biz digər böyük ölkələr üçün öz tranzit imkanlarımızı təqdim edəcəyik və Azərbaycan xəzinəsi, büdcəsi bundan çox böyük iqtisadi mənfəət götürəcək. Çünki bu, nəinki 3 ölkə arasında olan və ola biləcək ticarəti sürətləndirəcək, eyni zamanda, Pakistan, Hindistan, Şimali Avropa ölkələri bu dəhliz vasitəsilə birləşəcək və bizim ərazimizdən keçən yüklərin həcmi xeyli artacaq.

Əlbəttə ki, Şərq–Qərb nəqliyyat dəhlizinin yaradılması üçün bütün işlər görülür. Biz burada yenə də üçtərəfli, amma digər formatda işləyirik – Azərbaycan–Gürcüstan–Türkiyə formatında. Mənim keçən ilin sonunda Gürcüstana, bu il Türkiyəyə səfərlərim bu dəhlizin yaradılması üçün çox faydalı oldu. Baxın, Azərbaycan yenə də 2 dəhlizin ortasındadır. Əgər bizim qonşu ölkələrlə çox müsbət dostluq, tərəfdaşlıq əsasında qurulmuş münasibətlərimiz olmasaydı, bu layihələrin heç biri reallaşmazdı. Mən həmişə demişəm ki, qonşularla münasibətlərimiz bizim üçün çox önəmlidir. Bizim Ermənistandan başqa, heç bir qonşu ölkə ilə problemimiz yoxdur. Əksinə, bizim qonşularla əlaqələrimiz gündən-günə artır, güclənir və bu həm təhlükəsizlik, həm sabitlik, həm də iqtisadi inkişaf, əməkdaşlıq üçün əsas şərtdir. Bir daha demək istəyirəm ki, Azərbaycanın bu sahədə oynadığı rol yüksək qiymətləndirilir və artıq gözəl nəticələr var.

Bununla bərabər, bizim bütün ölkələrlə, beynəlxalq qurumlarla əlaqələrimiz inkişaf edir. Bilirsiniz ki, birinci rübdə Avropa Komissiyasının yüksəkvəzifəli şəxsləri, 2 vitse-prezident Azərbaycana gəlmişlər. Burada həm energetika, həm siyasi, həm iqtisadi və digər təhlükəsizlik məsələləri müzakirə edildi. Keçən il Avropa Komissiyasının prezidenti Azərbaycana səfər etmişdi. Biz indi yeni əməkdaşlıq formatı üzərində işləyirik. Mənim Vaşinqtonda keçirilən

Nüvə Təhlükəsizliyi Sammitində iştirakım özlüyündə bir göstəricidir. Orada 50-dən çox ölkə, o cümlədən Azərbaycan iştirak edirdi. Nəzərə alsaq ki, Azərbaycan nüvə dövləti deyil, Azərbaycanda atom elektrik stansiyası yoxdur, demək olar ki, nüvə sənayesi hələ inkişaf etməyib, Azərbaycanın bu mötəbər tədbirə dəvət edilməsi ABŞ Hökuməti, Prezidenti tərəfindən bizə olan hörmətin təzahürüdür və bizim bu bölgədə oynadığımız rolu əks etdirir. Çünki bu da qeyd edilir ki, Azərbaycan nüvə materiallarının qanunsuz trafikinin qarşısının alınması məsələlərində çox etibarlı tərəfdaşdır.

Səfər zamanı ABŞ-ın siyasi rəhbərliyi ilə çox yaxşı, səmərəli və səmimi söhbətlərim, danışıqlarım oldu. Bu danışıqlar bir daha onu göstərir ki, bizim aramızdakı əlaqələr hər iki tərəf üçün çox önəmlidir. Biz bir çox sahələrdə birgə işləyirik və bu əlaqələr hər iki tərəf üçün yeni imkanlar açır. Burada həm siyasi əlaqələr, həm də energetika sahəsində əməkdaşlıq, təhlükəsizlik və ticarət, iqtisadi məsələlər də gündəliyin əsas məsələləridir.

O ki qaldı enerji siyasətimizə, birinci rübdə Bakıda «Cənub Qaz Dəhlizi»nin ikinci Məşvərət Şurası keçirilib. Artıq ikinci dəfədir ki, bu tədbir Bakıda keçirilir. Bu da bizim təşəbbüsümüzlə mümkün olmuşdur. Biz 2 il bundan əvvəl təşəbbüs göstərmişdik ki, belə bir toplantı keçirilsin və indi bu, artıq ənənəvi xarakter daşıyır. İkinci Məşvərət Şurasının toplantısı çox böyük uğurla keçirildi, çox vacib qərarlar qəbul edildi. Qəbul edilmiş Bəyannamədə Azərbaycanın bu sahədəki liderlik rolu bir daha qeyd olundu. «Cənub Qaz Dəhlizi»nin icrası cədvəl üzrə gedir, lazımi investisiyalar qoyulur. Burada ölkələr və şirkətlər arasındakı əlaqələndirmə yüksək səviyyədədir. Əminəm ki, bu strateji layihə vaxtında icra ediləcək.

Birinci rübdə IV Qlobal Bakı Forumu keçirilib. Forumda 50-dən çox ölkənin təmsilçisi, fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçıları iştirak ediblər. Bu forum artıq dünyanın aparıcı beynəlxalq forumları arasında yer alan gözəl bir müzakirə meydançasıdır. Bu forumların Bakıda keçirilməsi, əlbəttə ki, bizim önəmimizi daha da artırır. Bu ayın sonunda isə Bakıda Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcəkdir. Hesab edirəm ki, bu da Azərbaycanda

multikulturalizm, sivilizasiyalararası dialoqun aparılmasında əldə edilmiş uğurların nəticəsidir. Bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilib. Bu sahədə əldə olunmuş uğurlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir.

Birinci rübdə, əlbəttə ki, digər önəmli hadisələr də baş verib. İndi onların hamısı haqqında danışmağa vaxt yoxdur. Bir sözlə, baxmayaraq ki, bu gün dünyada iqtisadi-maliyyə böhranı davam edir, gəlirlərimiz azalıb, ancaq çox operativ addımlar, dərin iqtisadi islahatlar və düşünülmüş müdrik xarici siyasət nəticəsində biz bütün riskləri minimum səviyyəyə endirdik. Mən ümid edirəm ki, müsbət dinamika 2016-cı ildə davam edəcək. İkinci rübdə iqtisadiyyat daha da sürətlə inkişaf edəcək və biz ilin əvvəlində qarşımıza qoyduğumuz bütün məsələləri həll edəcəyik.

## YEKUN NİTQİ

Bir daha qeyd etmək istəyirəm və şübhə etmirəm ki, ilin sonuna qədər ölkə qarşısında duran bütün vəzifələr icra ediləcək. Azərbaycan uğurlu inkişaf yoluna davam edəcək.

O ki qaldı qarşıda duran növbəti vəzifələrə, ilk növbədə, əlbəttə ki, biz ordu quruculuğuna daha da böyük diqqət göstərməliyik. Son illər ərzində bu istiqamətdə çox böyük addımlar atılıb, böyük işlər görülübdür. Ordumuzun maddi-texniki bazası möhkəmlənibdir. Bu gün Azərbaycan Ordusu həm maddi-texniki təchizat, həm də döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasındadır. Biz müharibə şəraitində yaşayırıq. Bizim torpaqlarımız işğal altındadır. Əlbəttə, belə olan halda, ilk növbədə, ordu quruculuğuna daha da böyük diqqət göstərilməlidir, göstərilir və göstəriləcəkdir.

Əlbəttə ki, buna nail olmaq üçün iqtisadiyyat daha da sürətlə inkişaf etməlidir. Ona görə dediyim kimi, iqtisadi islahatlar, iqtisadi inkişaf bizim ümumi inkişafımızı müəyyən edir. İqtisadi müstəqillik ölkəmizin siyasi müstəqilliyini şərtləndirir. Biz bu gün müstəqil xarici siyasət aparırıq. Qeyd etdiyim kimi, bu siyasət xoşməramlıdır. Biz istəyirik ki, dünyada münaqişələr aradan götürülsün, qarşıdurma ocaqları olmasın, sabitlik yaransın, xüsusilə bizim bölgəmizdə.

Azərbaycan dünya miqyasında uğurlu, müstəqil xarici siyasət aparan ölkələrdən biridir. Əlbəttə ki, bunun da təməli, əsası həm iqtisadi müstəqillik, həm də xalq–iqtidar birliyidir. Bundan sonra da iqtisadi sahədə lazım olan bütün tədbirlər görüləcək və beləliklə, ölkəmizin dayanıqlı inkişafı təmin ediləcəkdir.

Qeyd etməliyəm ki, biznes mühitinin yaxşılaşdırılması üçün sahibkarlara daha da böyük dəstək vermək istiqamətində çox önəmli addımlar atılıb. Xüsusilə qeyd etmək istəyirəm ki, yoxlamalarla bağlı mənim göstərişlərim yerinə yetirilir. Qeyd etməliyəm ki, 2016-cı ilin birinci rübü ərzində sahibkarlıq subyektlərində vergi istisna olmaqla, cəmi 34 yoxlama keçirilib. Müqayisə üçün deyim ki, 2015-ci ilin birinci rübündə 19300 yoxlama keçirilmişdir. Bu il isə 34. Bu rəqəmləri şərh etməyə ehtiyac yoxdur. Beləliklə, Azərbaycanda azad sahibkarlığın, azad rəqabətin inkişafı sürətlə gedir. Biz hələ bu yolun başlanğıcındayıq. Əminəm ki, görülən tədbirlər və gələcəkdə iqtisadi sahədə şəffaflığın təmin edilməsi nəticəsində Azərbaycanda sahibkarlıq daha da sürətlə inkişaf edəcək, xarici sərmayə daha da böyük həcmdə gətiriləcəkdir. Çünki xarici sərmayələri cəlb etmək üçün hüquqi baza, şəffaf iqtisadi və maliyyə sistemi olmalıdır və qanunun aliliyi təmin edilməlidir. Əgər biz başqa ölkələrin təcrübəsinə baxsaq görərik ki, sürətli inkişaf yoluna qədəm qoymuş ölkələr bu yolla gediblər və beləliklə, öz ölkələrini xarici sərmayə üçün çox cəlbedici ölkələrə çevirə biliblər. Bu gün istənilən ölkə, hətta böyük maliyyə resurslarına malik olan ölkələr xarici sərmayəni cəlb etməyə çalışır. Çünki bu həm əlavə vəsaitdir, maliyyə resursudur, həm də əlavə imkanların yaradılmasıdır və biz də bu yolla getməliyik.

İnvestisiyaların təşviqi üçün addımlar atılıb. Bu ilin yanvar ayında müvafiq fərman imzalanıb. İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında fərman yanvar ayında imzalanıbdır. Əminəm ki, bu fərman əsasında Azərbaycana qoyulacaq sərmayələrin həcmi xeyli artacaq.

Bank sektorunun möhkəmlənməsi və sağlamlaşdırılması prosesi gedir. Bu istiqamətdə də çox önəmli addımlar atılıb. Maliyyə nəzarəti haqqında, digər istiqamətlər üzrə önəmli addımlar atılıb. Hesab edirəm ki, bu, bank sektorunun inkişafına xidmət göstərəcək.

Əmanətlərin tam sığortalanması haqqında qərar qəbul edilib. Bu həm sosial xarakter daşıyır, həm də, əlbəttə ki, bank sektoruna əhali tərəfindən inamı artırır. İndi bütün əmanətlər sığortalanıb. Hesab edirəm ki, gələcəkdə dollarlaşma meyillərinin qarşısı da alınacaq. Əfsuslar olsun ki, indi əmanətlərin böyük hissəsi dollarla saxlanılır. Bu da ölkə iqtisadiyyatı üçün müsbət hal deyil.

Manatın məzənnəsi sabitləşib. Hesab edirəm ki, tədricən bu istiqamətdə də vəziyyət müsbətə doğru inkişaf edəcək. Bu, təbii prosesdir, yerli valyutaya inam artdıqca, insanlar özləri öz qərarlarını verəcəklər. Burada heç kim heç kimi məcbur edə bilməz. Sadəcə olaraq, dövlət və hökumət elə addımlar atmalıdır ki, insanlar öz əmanətlərini manatla saxlamaqda daha maraqlı olsunlar.

Qeyri-neft sektorunun sürətli inkişafı bundan sonra da təmin edilməlidir. Mən giriş sözümdə qeyd etdim. 2 milyard manata yaxın dəyəri olan layihələr tərtib edilib. İndi iş adamları bu layihələri icra etməlidirlər. Burada özəl bankların rolu da kifayət qədər böyükdür. Ümumiyyətlə, bank sektorunun sağlamlaşdırılması konkret olaraq bu məsələyə də xidmət göstərəcəkdir. Banklar indi kreditlər vermək üçün layihələr axtarırlar ki, o layihələr özlüyündə gəlir gətirsin. Burada dövlət və özəl sektor tərəfdaşlıq şəraitində işləyir. Biz bir məqsədi güdürük ki, ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf etsin.

Yerlərdə sahibkarlara tam şərait yaradılmalıdır. Mən dəfələrlə bu barədə fikirlərimi bildirmişəm. Yerli icra orqanları bu şəraiti yaratmalıdır. Yerli icra orqanları rəhbərlərinin fəaliyyətini ilk növbədə, o bölgələrdə, o rayonlarda iqtisadi inkişafın templəri müəyyən edəcəkdir. Çünki indi əsas vəzifə hər bir rayonun sosial-iqtisadi inkişafıdır. Yeni iş yerləri, yeni istehsal sahələri, ixracyönümlü istehsal sahələri yaradılmalıdır. Hər bir rayonda sənaye zonaları yaradılacaq.

Mənə verilən məlumata görə, rayonlarda kifayət qədər istifadəsiz torpaq sahələri var. Biz bu məsələ ilə də ciddi məşğul olmalıyıq. Burada həm inzibati tədbirlər, eyni zamanda, stimullaşdırıcı tədbirlər görülə bilər. Torpaqları əldə edən, ancaq uzun müddətdir ki, ondan istifadə etməyən şirkətlər, insanlar özlərini daha da məsuliyyətlə aparmalıdırlar. Əgər o torpaqlardan istifadə etmirlərsə, onda müəyyən mexanizmlər tətbiq edilməlidir. Biz imkan verə bilmərik – hələ ki, özümüzü ərzaq

məhsulları ilə tam təmin etməmişik – bu torpaqlar uzun illər istifadəsiz qalsın. Mən bu vəzifəni də qarşıya qoyuram. Burada həm yerli, həm mərkəzi icra orqanları birgə işləməlidirlər.

Sosial mənzillərin tikintisi proqramı yaxın zamanlarda ictimaiyyətə təqdim ediləcəkdir. Bu, yeni təşəbbüsdür. Bəzi ölkələrdə bu praktika var. Biz müsbət praktikanı öyrənmişik və öyrənirik. Buna böyük ehtiyac və tələbat var. Sosial mənzillərin tikintisi prosesi yaxın zamanlarda başlanacaqdır.

Regionlarda işsizliyin azaldılması və maddi imkanları aşağı olan aztəminatlı əhalinin mənzil probleminin həlli üçün bütün şəhərlərdə, rayon mərkəzlərində sosial mənzillərin tikintisinə başlanılacaqdır. Xüsusilə qeyd etmək istəyirəm ki, nəinki Bakıda və böyük şəhərlərdə, bütün şəhərlərdə, bütün rayon mərkəzlərində tikiləcəkdir. Dünya təcrübəsindən istifadə etməklə, vətəndaşların belə evlərə sahib olma qaydaları və həmin mənzillərdə yerləşdirilən insanlara mülkiyyət hüququnun verilmə prosedurları müəyyən ediləcəkdir. Sosial Mənzil Fondunun yaradılmasında əsas məqsəd belə mənzilləri aztəminatlı əhaliyə aşağı qiymətlərlə və uzun müddətə kreditlə təqdim etməklə, onların mənzil problemlərinin həllindən və sosial rifah hallarının yaxşılaşdırılmasından ibarətdir. Bu tipli mənzillərin tikintisi həm Bakı şəhərində, həm də bütün digər rayon və şəhərlərdə geniş şəkildə aparılacaqdır. Sosial mənzillərin tikintisi əlavə iş yerlərinin yaradılması, mənzilə ehtiyacı olan əhali qrupunun belə ehtiyaclarının ödənilməsi ilə yanaşı, bu mənzillərin əhaliyə təqdim edilməsi nəticəsində yeni zəruri istehlak ehtiyaclarının yaranacağı nəzərə alınmaqla, paralel şəkildə iqtisadiyyatın 20-dək digər sahələrinin də inkişafına səbəb olacaqdır. Təbii ki, bu, inşaat sektoruna çox böyük təkan verəcək. İnşaat sektorunda vaxtilə işləmiş, ancaq indi işlərini itirmiş insanlar yenə də işlə təmin ediləcək və bunun çox geniş multiplikativ səmərəsi olacaqdır.

İş yerlərinin yaradılması üçün əlavə tədbirlər görüləcək. Mən giriş sözümdə qeyd etdim ki, biz operativ tədbirlər görməklə, qısa müddət ərzində daha çox dövlət sektorunda olmaqla, 31000 daimi iş yeri yaratmışıq. Özəl qurumlara da tövsiyə olundu ki, çalışsınlar

ixtisarlara yol verməsinlər. Burada biznesin sosial məsuliyyəti ön plana çıxır. Əlavə tədbirlərin görülməsi nəticəsində, xüsusilə özəl sektorda minlərlə, on minlərlə yeni iş yeri yaradılmalıdır, qeyd etdiyim kimi, inşaat və kənd təsərrüfatı sektorlarında. Kənd təsərrüfatı ilə bağlı planlarımızı mən bir qədər sonra bildirəcəyəm.

Burada qeyd olundu, ünvanlı dövlət sosial yardımı ilə bağlı məsələlər öz həllini tapır. Ancaq biz elə şərait yaratmalıyıq ki, insanlar işlə təmin olunsunlar. Düzdür, ünvanlı dövlət sosial yardımı çox mühüm sosial təşəbbüsdür və biz bunu icra edirik. Ancaq bəzi hallarda bu, ələbaxımlıq meyillərini gücləndirir. Ona görə də biz burada çox ciddi və düşünülmüş siyasət aparmalıyıq ki, insanlar işləyib pul qazansınlar. Bu məqsədlə biz rayonlarda, Bakı şəhərində, böyük şəhərlərdə ictimai işlər açırıq. Bu məqsədlə dövlət şirkətlərinə göstəriş verilib ki, minlərlə yeni iş yeri açsınlar. Ancaq bəzi hallarda biz görürük ki, vətəndaşlar o iş yerlərindən istifadə etmək istəmirlər, daha çox dövlətdən ünvanlı yardım almaq istəyirlər. Ona görə burada çox dəqiq siyasət aparılmalıdır. Kimin doğrudan da ehtiyacı varsa, ona dövlət daim diqqət göstərəcəkdir. Amma əmək qabiliyyətli vətəndaşlar, gənc vətəndaşlar əgər iş varsa, işləsinlər, maaş alsınlar və beləliklə, gələcəkdə öz həyatlarını qursunlar. Çünki ələbaxımlıq, ümumiyyətlə, yaxşı hal deyil. Azərbaycan artıq yoxsulluğa qarşı mübarizədə böyük uğurlar əldə edibdir. Azərbaycanda yoxsulluq aşağı səviyyədədir. Əlbəttə ki, işləmək üçün iş yerləri olmalıdır, bunlar da yaradılır. Həm dövlət, həm özəl sektorlarda məşğulluğun təmin olunması üçün vəsait ayrılıb. Bu çox ciddi məsələdir və öz həllini tapmalıdır.

Dövlət xətti ilə infrastruktur layihələrinin icrası davam etdirilir – qazlaşdırma, elektrik təchizatı, su təminatı, kənd yollarının tikintisi. Bu il 40-dan çox kənd yolu layihəsi icra ediləcəkdir. Bu məqsədlə təqribən 250 milyon manat vəsait nəzərdə tutulur. Bütün bölgələrdə kənd yollarının tikintisi bu il daha da geniş vüsət alacaq. Bu həm sosial layihədir, iqtisadi layihədir, eyni zamanda, o layihələrin icrasında minlərlə, on

minlərlə yeni iş yeri açılır ki, vətəndaşlar da iş yerləri ilə təmin olunsunlar. Ümumiyyətlə, inşaat sektorunun canlandırılması üçün biz çox ciddi işləməliyik. Bakı şəhərində qəzalı vəziyyətdə binalar kifayət qədər çoxdur. İndi pilot layihələri icra edilir. Birinci layihə Sabunçu rayonunda icra edilməyə başlanıb. Vətəndaşlar da bundan çox razıdırlar. Onlar müvəqqəti olaraq başqa yerlərə yerləşdirilirlər. O evlər sökülür, onların yerində gözəl, müasir binalar tikilir. Onlara köhnəlmiş, qəza vəziyyətində olan mənzillərdən canlarını qurtarmaq üçün imkan verilir. Onlar yeni evlərdə, mənzillərdə yaşayacaqlar. Orada onların yaşayış sahəsi daha da geniş olacaq və iqtisadi cəhətdən bu çox əhəmiyyətlidir. Amma ilk növbədə, biz bunu sosial layihə kimi icra etməyə başlamışıq. İndi bu proses digər rayonlarda, Qaradağ rayonunda, hər bir rayonda başlanıbdır. Bakının hər bir rayonunda qəzalı vəziyyətdə olan binalar var. Onlar, əlbəttə ki, sökülməlidir və orada yaşayan insanlar ya dövlət, ya da özəl sektor tərəfindən daha yaxşı evlərlə təmin edilməlidirlər. Burada həm dövlət, həm özəl sektor birgə işləyə bilər. Buna nail olmaq üçün sadəcə, şərait yaradılmalıdır və yaradılır. Hesab edirəm ki, bu il bu proses çox kütləvi xarakter alacaq. Sosial mənzillərin tikintisi, eyni zamanda, qəzalı vəziyyətdə olan evlərin yerində gözəl, çoxmərtəbəli binaların tikintisi inşaat sektoruna çox böyük təkan verəcəkdir.

Mən giriş sözümdə qeyd etdim ki, nəqliyyat sektorunda Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin yaradılması istiqamətində işlər gedir. Şərq–Qərb dəhlizinin yaradılması üçün Azərbaycan qonşu ölkələrə bir təklif də irəli sürdü ki, biz burada daha da böyük həcmdə yükləri cəlb etmək üçün vahid tarif siyasəti aparaq. Həm gürcüstanlı, həm də türkiyəli həmkarlarımızla bu məsələ müzakirə olundu. Mənim keçən ilin sonlarında Çinə dövlət səfərim çərçivəsində bu məsələ geniş müzakirə edildi. Qədim İpək yolunun bərpası layihəsi çox böyük önəm daşıyır. Biz sadəcə olaraq, dəmir yollarının tikintisi, yaxud da ki, birləşdirilməsi ilə öz işimizi bitmiş hesab etməməliyik. Biz elə bir düzgün və razılaşdırılmış tarif siyasəti

aparmalıyıq ki, bütün yüklər bizim ərazimizdən keçsin. Bunu biz təkbaşına edə bilmərik. Halbuki biz bunu edirik və bilirsiniz ki, biz yükləri operativ qaydada, bəzi hallarda 40 faiz güzəştlə daşıyırıq. Ancaq bunu bu dəhlizdə iştirak edən bütün ölkələr etməlidir. Əgər biz tarifləri endirsək, digər ölkələr endirməsə, qaldırsa, onda sadəcə olaraq, biz itirəcəyik. Ona görə biz Əlaqələndirmə Şurasının yaradılması, vahid tarif siyasətinin aparılması təşəbbüsünü irəli sürdük ki, yük göndərən bilsin bu yolun haqqı, qiyməti nə qədərdir. Artıq yenə də Azərbaycanın təşəbbüsü əsasında bu prosesə də təkan verildi.

Bu il Ələt Beynəlxalq Dəniz Limanının yaradılması istiqamətində əlavə işlər görülməlidir. Bilirsiniz ki, biz bunu mərhələ-mərhələ edirik. İndi birinci mərhələnin birinci hissəsi başa çatıb, amma tezliklə birinci mərhələ tam şəkildə icra edilməlidir. Əlavə vəsait ayrılmalıdır ki, bizim burada infrastruktur və logistika imkanlarımız artan tələbatla uzlaşsın. Çünki bütün bu yolların, dəhlizlərin yaradılması bunu diktə edir. Çox yaxşı ki, vaxtilə biz bu layihəyə start verdik. Ələt limanı Xəzər dənizinin ən böyük ticarət limanı olacaqdır. Bildiyiniz kimi, Xəzəryanı qonşu ölkələrdə də limanların tikintisi gedir və burada da əlaqələndirmə çox vacibdir. Biz bu istiqamətdə lazımi tədbirlər görürük.

Ekoloji tədbirlərin davam etdirilməsi çox önəmlidir. Son illər ərzində həm Bakı şəhərində, həm bölgələrdə bu istiqamətdə çox böyük işlər görülüb. Hesab edirəm ki, Bakı şəhərinin sakinləri bunu hər gün hiss edirlər. Bakının havası təmizlənib. Bakıda indi havanın meyarları yüksək səviyyədədir. Bunu hər bir vətəndaş hiss edir. Bəziləri unudurlar ki, əvvəlki vəziyyət necə idi. Ancaq biz bunu xatırlayırıq. Bir neçə strateji layihə öz həllini tapıb. Onların içərisində mən, əlbəttə ki, Balaxanı zibilxanasının ləğvini və burada böyük Zibilyandırma zavodunun tikintisini xüsusilə qeyd etmək istəyirəm. Vaxtilə şəhərimizin havasını ən çox zəhərləyən elə Balaxanı zibilxanası idi. Yanırdı, şəhərimizi tüstü bürüyürdü və o zonada havanın çirklənməsi həddindən artıq yüksək idi. Bu çox böyük ekoloji

və sağlamlıq layihəsi oldu. Şadam ki, bu öz həllini tapdı, orada bütün yerlər təmizləndi. Sahə abadlaşdı və gözəlləşdi. İndi orada Balaxanı Texnologiya Parkı yaradılır.

Böyükşor gölünün təmizlənməsi layihəsinin birinci mərhələsi keçən il başa çatıb. O da Balaxanı zibilxanasına yaxın olan bir ərazidə yerləşir. Onilliklər ərzində buraya lay suları, neftlə çirklənmiş sular, kanalizasiya suları axıdılırdı. Ora ekoloji fəlakət zonası idi. İndi köçəri quşlar o gölə qonur. Ətrafında gözəl bulvar yaradılıbdır. Abadlıq işləri aparılır, insanların sağlamlığı, istirahəti üçün çox gözəl bir məkana çevrilir. İndi Böyükşor gölünün təmizlənməsinin ikinci mərhələsi gündəlikdədir.

Bibiheybət buxtasının təmizlənməsi də uğurla başa çatdı. Vaxtilə bu da bir ekoloji fəlakət mənzərəsi idi. Bu gün orada gözəl parklar salınıb. I Avropa oyunlarında yarışların bir hissəsi orada keçirilibdir. Böyük Su İdmanı Sarayı, digər idman qurğuları tikilibdir. Bayraq Meydanından Bibiheybət buxtasınadək yaşıllıq zonaları, bulvar salınıbdır. Balaxanı bu tərəfdən, Qara şəhər başqa tərəfdən. Bu da, əlbəttə ki, şəhərimizi çirkləndirirdi. Orada da böyük təmizləmə işləri aparılıb, torpaq qatları götürülüb Orada vaxtilə Neftayırma zavodunun bütün tullantıları yığışırdı. İndi biz Qara şəhəri Ağ şəhərə çeviririk. Bunlar doğrudan da nəhəng layihələrdir. İndi biz Bakıda möcüzələr yaradırıq ki, şəhərimiz gözəlləşsin, ekoloji vəziyyət yaxşılaşsın, insanlar sağlam olsunlar. İçməli su layihəsi həyata keçirilibdir. Dünyanın ən böyük ultrasüzgəcli sutəmizləmə qurğusu Azərbaycanda tikilib və istifadəyə verilibdir. İndi əhalimizin böyük hissəsi Ümumdünya Səhiyyə Təşkilatının normalarına uyğun su ilə təmin olunur. Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyan layihələrdir.

Bakıda yerləşən Yod zavodunun bütün qalıqları çıxarılıb. O da bir tərəfdən ekologiyanı zəhərləyirdi. Baxın, bunlar insanların sağlamlığına nə qədər ziyan vururdu. İndi bunların heç biri yoxdur. Hamısını qısa müddət ərzində biz etmişik. Böyük vəsait xərcləmişik, nəyə görə? Çünki insanlar sağlam olsunlar,

hava təmiz olsun, ekoloji vəziyyət yaxşılaşsın. Həm Bakıda, həm regionlarda milyonlarla ağac əkilib və bu proses davam etdirilir.

Kənd təsərrüfatının inkişafı bizim üçün həmişə prioritet olub, indiki şəraitdə bunun önəmi daha da artır. Mən şadam ki, ümumi dünya iqtisadi böhranına baxmayaraq, birinci rübdə Azərbaycanda kənd təsərrüfatının istehsalı artıb – 2,7 faiz. Ərzaq təhlükəsizliyi məsələsi əsas prioritetdir və ümid edirəm ki, yaxın zamanlarda biz özümüzü ərzaqla tam şəkildə təmin edəcəyik. Bu məqsədlə son illər ərzində böyük işlər görülür və daha da böyük işlər görülməlidir. Fermerlərə dəstək verilir, subsidiyalarda yeni yanaşmalar təklif olunur. Əminəm ki, hər bölgə, rayon üzrə xüsusi bir subsidiya siyasəti aparılacaqdır. Çünki Azərbaycan çoxiqlimli bir ölkədir. 9 iqlim zonamız var. Məxsusi olaraq hər bir zona üçün xüsusi kənd təsərrüfatı məhsulları yetişdirilməlidir və hər bir rayonun, hər bir iqtisadi zonanın öz subsidiya paketi olmalıdır. Belə olan halda, kənd təsərrüfatı ixtisaslaşmış şəkildə və daha böyük səmərə ilə inkişaf edəcək.

Biz kənd təsərrüfatı məhsullarının ixracını daha da sürətləndirməliyik. Bu məqsədlə təşviq sistemi işə salınır. Bu bizim üçün birinci təcrübədir. Xaricə öz məhsulunu çıxaran qurumlara, şirkətlərə dövlət kompensasiya verəcəkdir. Baxaq bu sistem necə işləyəcək. Bir çox ölkələrdə bu özünü doğrultdu və hesab edirəm ki, bizdə də özünü doğrultmalıdır. Ancaq yenə də bu bizim üçün bir sınaqdır. Biz bu təşəbbüsü etdik ki, ixracı stimullaşdıraq və ümid edirəm, buna nail olacağıq.

Ərzaq təhlükəsizliyi bizim üçün həmişə prioritet olubdur, bu gün də prioritetdir. Bu, imkan verir ki, biz özümüzü öz məhsullarımızla, keyfiyyətli və təmiz məhsullarla təmin edək, idxaldan asılılığı azaldaq, valyuta xaricə getməsin. Bu, birinci mərhələdir. İndi nəzərə alsaq ki, bizim valyuta gəlirlərimiz xeyli azalıb – əgər neftin qiyməti 3-4 dəfə düşübsə, bu o deməkdir ki, bizim valyuta gəlirlərimiz 3-4 dəfə azalıbdır – ona görə biz bunu kənd təsərrüfatı məhsullarının ixracı ilə müəyyən dərəcədə

kompensasiya etməliyik. Biz vaxtilə Azərbaycanda çox inkişaf etmiş sahələri bərpa etməliyik. Ulu öndər Heydər Əliyevin zamanında – keçən əsrin 70-ci illərində Azərbaycanın ümumi daxili məhsulunda neft amili çox aşağı faiz təşkil edirdi. İndi mənə məlumat verilir: məsələn, yüngül sənaye 23 faiz təşkil edirdi, kənd təsərrüfatı, maşınqayırma bəlkə ondan da çox təşkil edirdi.

Biz kənd təsərrüfatının sürətlə inkişaf edən sektorlarını, ilk növbədə, pambıqçılığı inkişaf etdirməliyik. Çünki pambıq elə məhsuldur ki, onun üçün bazar axtarmağa ehtiyac yoxdur. İndi dünyada bazarlar uğrunda mübarizə gedir. Xüsusilə son vaxtlar sanksiyalarla əlaqədar müəyyən bazarlar bəzi məhsullar üçün bağlanıb. Əlbəttə ki, bunun bizə aidiyyəti yoxdur. İndi biz öz kənd təsərrüfatı məhsullarımızı başqa bazarlara çıxarmaq üçün gərək səylər göstərək. Ancaq pambıq məhsulunu birjalarda satmaq üçün heç bir problem yoxdur. Vaxtilə yenə də ulu öndər Heydər Əliyevin zəhməti, səyləri nəticəsində pambığın istehsalı Azərbaycanda 1 milyon tona qalxmışdı. O, 1969-cu ildə hakimiyyətə gələndə, indi mənim dəqiq yadımda deyil, təqribən 100 min, 200 min ton pambıq istehsal olunurdu. Sonralar isə 1 milyon, ildə orta hesabla 800 min, 900 min ton pambıq istehsal edilirdi.

Keçən il Azərbaycanda cəmi 35 min ton pambıq yığılıb. 1 milyon hara, 35 min hara?! Özəl qurumlar bunu təkbaşına edə bilməyəcəklər. Pambıqçılığı inkişaf etdirmək üçün dövlət birinci rol oynayır, ikinci, yerli icra orqanları və ondan sonra özəl qurumlar. Ona görə göstəriş verilib ki, vəziyyət təhlil edilsin və təhlil edilib. Mənə artıq təkliflər verilibdir. Biz pambıqçılığı bərpa etməliyik. Keçən il 18 min hektar əkilibdir. Bu il mən qarşıya vəzifə qoymuşam ki, 50 min hektar əkilsin və əkin yəqin ki, yaxın zamanlarda başlanacaqdır. Əgər keçən il biz 35 min ton pambıq yığa bilmişiksə, bu il 50 min hektar əkilərsə və məhsuldarlığı lap aşağı səviyyədə, 20 sentnerdən götürsək, bu, 100 min ton pambıq edəcək – keçən ildəkindən 3 dəfə çox. Ancaq indi yeni texnologiyalar, o cümlədən suvarma texnologiyaları mövcuddur və biz məhsuldarlığı artırmaqla,

daha da böyük nəticəyə çata bilərik. Keçən əsrin 70–80-ci illərində 200–250 min hektar pambıq əkilirdi, keçən il 18 min hektar. Ona görə məhsuldarlığın artırılması və əkin sahələrinin dövriyyəyə buraxılması, normal suvarmanın təmin edilməsi, toxumla təminat məsələləri öz həllini tapmalıdır və biz bu il 100 min ton pambıq gözləyirik. Ancaq 1 il ərzində, gələn ilin əkininə qədər bütün lazımi tədbirlər görülməlidir ki, 2017-ci ildə – mən indi rəqəm demək istəmirəm – Azərbaycanda 100 min tondan bir neçə dəfə çox pambıq yığılsın. Pambıq satılacaq, ölkəmizə lazım olan valyuta gələcəkdir.

Bununla bərabər, baramaçılıq kimi çox vacib olan kənd təsərrüfatı sahəsini də itirmişik. Əlbəttə, burada qiymətlər çox önəmli rol oynayır, bu, zəhmətkeşlərdən hansı qiymətə alınacaq! Pambıqçılıqda da biz bunu artırmışıq, lazım olarsa bir daha artıracağıq və şərait yaratmalıyıq. Həmçinin baramaçılıq sektoru da inkişaf etməlidir. Sovet vaxtında bir sıra rayonlarda bu sahə çox uğurla inkişaf edirdi, bol məhsul əldə olunurdu və insanlar yaxşı pul qazanırdılar. Mən digər sahələr üzrə konkret tapşırıqlar vermişəm, o cümlədən tütünçülük, çayçılıq sürətlə inkişaf etməlidir.

Üzümçülük. Son illər ərzində dövlətin dəstəyi hesabına bu sahə inkişaf edir, üzüm bağları salınır, genişləndirilir. İri fermer təsərrüfatlarının fəaliyyəti xüsusilə taxılçılıq sahəsində dönüşə gətirib çıxaracaq ki, biz taxıl idxalından asılı olmayaq. Mən hesab edirəm ki, buna nail olmaq mümkündür. Bununla bərabər, aqroparklar salınır, yeni emal müəssisələri yaradılır. Azərbaycan dünya bazarlarına keyfiyyətli və bol kənd təsərrüfatı məhsulu çıxaran, ixrac edən ölkə kimi tanınmalıdır. Qarşıya bu vəzifə qoyulub və əminəm ki, biz bu məqsədə çatacağıq.

Bir sözlə, bu il biz gərgin işləməliyik ki, bütün vəzifələr icra edilsin, Azərbaycan iqtisadiyyatı inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar. Sağ olun.

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ**

Hörmətli cənab Prezident!

Paravur şəhərindəki Puttinqal məbədində baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Hindistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *11 aprel 2016-cı il*

## BMT-nin AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ QULAM İSAKZAİ İLƏ GÖRÜŞ

*11 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Qulam İsakzaini qəbul etmişdir.*

*BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai etimadnamə məktubunu prezident İlham Əliyevə təqdim etdi.*

*Prezident İlham Əliyev Azərbaycanın BMT-nin bir çox təsisatları ilə sıx əlaqələr qurduğunu, ölkəmizin təşkilat ilə çox fəal əməkdaşlıq etdiyini dedi. Bakının BMT-nin bir neçə mühüm tədbirinə ev sahibi olduğunu bildirən dövlətimizin başçısı Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının təsisatlarında iştirakını uğurla davam etdirəcəyini vurğuladı.*

*Son 20 il ərzində təmsil etdiyi qurum ilə Azərbaycan arasında səmərəli əməkdaşlıq həyata keçirildiyini bildirən Qulam İsakzai BMT-nin Azərbaycan hökuməti ilə mövcud olan tərəfdaşlıq əlaqələrini gücləndirmək niyyətində olduğunu nəzərə çatdırdı. O, ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirdi, yoxsulluğun azaldılması, infrastrukturun yenidən qurulması istiqamətində əldə olunan nailiyyətlərin önəmini vurğuladı. Ötən səfərindən keçən dövr ərzində ölkəmizdə mühüm dəyişikliklərin şahidi olduğunu qeyd edən Qulam İsakzai bu inkişafa ulu öndər Heydər Əliyev və prezident İlham Əliyevin rəhbərliyi altında nail olunduğunu vurğuladı. Təşkilatın ölkəmiz ilə əməkdaşlığı davam etdirməkdə maraqlı olduğunu qeyd edən Qulam İsakzai BMT-nin Azərbaycanın dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi işinə dəstək verə biləcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev ölkəmiz ilə BMT arasında çox fəal əməkdaşlıq əlaqələrinin olduğunu məmnunluqla qeyd etdi. Yoxsul-*

*luğun azaldılmasının ən böyük nailiyyətlərimizdən biri olduğunu deyən dövlətimizin başçısı bütün ölkə miqyasında yoxsulluğun tamamilə aradan qaldırılması istiqamətində iş aparıldığını, məşğulluğun yeni mexanizmlərinin təqdim olunduğunu, sosial proqramların həyata keçirildiyini, görülən tədbirlərin yoxsulluğun aradan qaldırılması işinə böyük töhfə verəcəyini qeyd etdi. Qarşıya qoyulmuş məqsədlərə qısa müddət ərzində nail olunması üçün təşkilatın ölkəmizin müvafiq qurumları ilə birgə fəaliyyət göstərməsinin, Azərbaycanın bu istiqamətdə irəli sürdüyü təşəbbüslərin dəstəklənməsinin vacibliyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmasının ölkəmiz üçün yaxşı təcrübə olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı BMT-nin Sivilizasiyalar Alyansının bu yaxınlarda Bakıda keçiriləcək VII Qlobal Forumunun əhəmiyyətinə toxunaraq, Azərbaycanın dünyaya təqdim olunması, eyni zamanda, ölkəmizin inkişaf sahəsində qazandığı təcrübəni bölüşməsi baxımından tədbirin önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev Qulam İsakzaiyə fəaliyyətində uğurlar arzuladı.*

# MALAYZİYA PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDR MÜAVİNİ SERİ RONALD KİANDEE İLƏ GÖRÜŞ

*12 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Malayziya parlamenti Nümayəndələr Palatasının sədr müavini Seri Ronald Kiandeeni qəbul etmişdir.*

*Malayziya parlamentində yaradılmış Azərbaycan ilə dostluq qrupu haqqında məlumat verən Seri Ronald Kiandee Bakıya ilk dəfədir ki, səfər etdiklərini bildirdi, 8 deputatdan ibarət Malayziya–Azərbaycan parlamentlərarası dostluq qrupunun fəaliyyətinin ölkələrimizin qanunverici orqanları arasında mövcud əlaqələrin inkişafındakı rolundan danışdı. Qonaq azərbaycanlı həmkarları ilə qarşılıqlı səfərlərinin önəmini qeyd etdi. Azərbaycanın ölkəsi üçün vacib tərəfdaş olduğunu deyən Seri Ronald Kiandee Malayziyanın PETRONAS şirkətinin ölkəmizdəki fəaliyyətini əlaqələrimizin yaxşı nümunəsi kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev Malayziyanın Baş naziri Məhəmməd Najib Tun Abdul Razakın Azərbaycana rəsmi səfərini və keçirdikləri görüşlər zamanı aparılan səmərəli müzakirələri məmnunluqla xatırlatdı. Azərbaycan ilə Malayziya arasında əlaqələrin hər 2 ölkə üçün mühüm əhəmiyyət daşıdığını deyən dövlətimizin başçısı bu əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın sərmayə qoyuluşu, yüksək texnologiyalar, turizm və digər sahələrdə inkişafı üçün yaxşı imkanların olduğunu bildirdi. Malayziyanın PETRONAS şirkətinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı şirkətin ölkəmizdə mühüm layihələrdən birində böyük paya sahib olduğunu qeyd etdi. Azərbaycan və Malayziyanın dost ölkələr olduğunu bildirən prezident*

*İlham Əliyev hər iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində* daim bir-birini *dəstəklədiyini vurğuladı. Parlamentlərarası əlaqələrin əhəmiyyətinə* toxunan *dövlətimizin başçısı Malayziya parlamenti Nümayəndələr Palatasının sədr müavininin Bakıya səfərinin iki ölkənin parlament nümayəndələri arasında* daha *fəal* qarşılıqlı *əməkdaşlıq üçün yaxşı* imkan *yaradacağına ümidvar* olduğunu bildirdi.

## AMERİKA TİCARƏT PALATASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Azərbaycandakı Amerika Ticarət Palatasının nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı qəbulda giriş nitqi söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Amerika Ticarət Palatasının nümayəndələri ilə görüşməkdən çox məmnunam. Bilirəm ki, Palataya daxil olan şirkətlər və üzvlər uzun illərdir Azərbaycanda işləyirlər, ölkəmizin müsbət istiqamətdə iqtisadi inkişafına böyük töhfə verirlər. Əvvəlcə, mən belə mühüm töhfələrinə və uzunmüddətli tərəfdaşlığına görə şirkətlərə minnətdarlığımı bildirmək istəyirəm.

Mənə verilən məlumata görə, Palata 20 il öncə təsis edilib. Bu məhz Azərbaycanın sürətli iqtisadi inkişafının başladığı dövrə təsadüf edir. Çünki həmin vaxtdan əvvəl vəziyyət çox mürəkkəb idi. Ciddi iqtisadi çətinliklər, iqtisadi tənəzzül, durğunluq müşahidə olunurdu. 1996-cı il iqtisadiyyatımızın inkişafa başladığı il oldu və bu artım 20 ildir ki, davam edir.

Bilirəm ki, nəinki Amerika şirkətləri, o cümlədən yerli şirkətlər və digər ölkələrin şirkətləri Palatanın üzvləridir. Lakin, əlbəttə ki, Palata məhz ABŞ şirkətləri tərəfindən təsis edilib. Buna görə o, Amerika Ticarət Palatası adlanır.

Bildiyiniz kimi, bu yaxınlarda mənim Birləşmiş Ştatlara olduqca uğurlu səfərim baş tutub. Mən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etdim və ABŞ-ın siyasi rəhbərliyi, vitse-prezidenti, Dövlət katibi ilə görüşlərim oldu. Biz ikitərəfli gündəliyimizə aid mühüm məsələləri, siyasi, təhlükəsizlik, enerji təhlükəsizliyi və iqtisadi əmək-

daşlığı müzakirə etdik. İqtisadi əməkdaşlığımız əsasən Ticarət naziri ilə görüşüm zamanı müzakirə olundu. Əslində biz sizin də Azərbaycanda fəaliyyətinizi müzakirə etdik və razılığa gəldik ki, ölkələrimiz arasında iqtisadi işbirliyi respublikamızın, regionumuzun inkişafına, ABŞ-ın Azərbaycandakı maraqlarına və ölkəni inkişaf etdirmək, Azərbaycanda davamlı inkişafı yaratmaq planlarımıza uyğun olan eyni ölçüyə malik olmalıdır.

Siz ölkəmizdə uzun illərdir ki, çalışırsınız. Reallığı, vəziyyəti və nailiyyətləri bilirsiniz. Ona görə də bu barədə çox danışmaq istəməzdim. Planlarımız haqqında bir neçə söz söyləsəm daha yaxşı olar. Bu planlarımız ictimaiyyətə, həmçinin biznes dairələrinə yaxşı məlumdur. Çünki bildiyiniz kimi, mən Azərbaycanın işgüzar dairələri ilə tez-tez görüşlər keçirirəm. İldə bir dəfə geniş konfransımız olur. Həmin tədbirdə il ərzində əldə olunmuş nailiyyətlər, o cümlədən rayonların inkişafı müzakirə edilir, bütün mühüm məsələlər nəzərdən keçirilir. Həmçinin Nazirlər Kabinetinin toplantılarında görülmüş işlərə, nailiyyətlərə, çatışmazlıqlara və gələn rüb üçün planlara nəzər salırıq.

Bu səbəbdən indi söyləyəcəyim bəlkə də sizin üçün sirr deyil. Lakin hesab edirəm ki, sizin özünüz bunu birbaşa eşitsəniz daha yaxşı olar. Bu gün dünyadakı iqtisadi vəziyyəti və regiondakı siyasi durumu nəzərə alsaq aydın olur ki, heç bir ölkə uzun perspektivdə yalnız öz resurslarına əsaslana bilməz. Müxtəlif ölkələrdə fərqli resurslar var. Keçmiş sovet məkanındakı ölkələrə gəldikdə, onlar əsasən, resurslara əsaslanır. Bəzi hallarda, söhbət neft və qazdan, digər hallarda başqa resurslardan gedir. Lakin ola bilər ki, başlanğıcda bu, təbii hal idi, çünki həmin vaxt biz iqtisadiyyatı dəyişməli, ilkin kapitalı yaratmalı və əsas iqtisadiyyatlara hansı şəkildə inteqrasiya haqqında düşünməli idik.

Hazırda həmin dövr artıq sona çatıb. Bu əsasən neft qiymətlərinin sürətlə, 3-4 dəfə aşağı düşməsi ilə bağlıdır. Bu bir növ siqnal oldu ki, biz islahatlar sahəsində daha çox işlər görək. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onların təxminən hamısı neft və qazla zəngin olmayan ölkələrdir. Lakin innovasiya, biznes mühiti, texnologiya – bunlar inkişafa səbəb oldu və bu gün onlar dünya iqtisadiyyatının aparıcı qüvvəsidir.

Bunun qarşımızda yaxşı nümunələri var və biz olduqca dərin, ciddi islahatlara sadiqik.

Bizim üçün bir nömrəli məsələ neft və qazdan asılılığı azaltmaqdır. Baxmayaraq ki, neft və qaz iqtisadiyyatımız, region, enerji təhlükəsizliyi üçün mühüm rolunu davam etdirəcək. Bildiyiniz kimi, Azərbaycan tərəfdaşlarımızın enerji təhlükəsizliyində çox önəmli rol oynayır. Neft və qaz sahəsinə yatırılan sərmayələr ölkəmizin, eləcə də digər ölkələrin gələcəyinə yönələn sərmayələrdir. Lakin iqtisadiyyatımız üçün bu, artıq prioritet deyil. Mən Nazirlər Kabinetinə nefti yaddan çıxarmağı tövsiyə etmişəm. Hasilat, nəql etmək, geniş həcmdə qaz hasilatına başlamaq yalnız Neft Fondumuzda daha çox vəsaitlərin toplanması üçün zəruridir. Ümid edirəm ki, vaxt gələcək, biz Neft Fondundan büdcəyə vəsaitlərin köçürülməsini kəskin şəkildə azaldacağıq. Bu köçürmələr hazırda baş verir və bu, neftin qiymətləri ilə bağlıdır. Lakin hesab edirəm ki, bu vəziyyət də iqtisadiyyatımızı şaxələndirmək üçün yaxşı fürsətdir. Bir nömrəli vəzifə neftdən, qazdan asılılığı azaltmaq və şaxələndirmədir. Biz bunun üzərində çalışırıq və son 10 ildən artıq dövrdə 1 milyondan çox daimi iş yeri açmağa, regional infrastrukturun, xidmətlərin inkişafına müvəffəq olduq.

Həmçinin sənaye potensialı yaradılıb. Lakin bu, kifayət deyil, çünki bizə iqtisadiyyatımızın qeyri-neft sektorunda daha sürətli artım lazımdır. Bu səbəbdən, şaxələndirmə bir nömrəli məsələdir. Bununla yanaşı, yeni iş yerləri açılmalıdır. Çünki Azərbaycanın müsbət demoqrafik vəziyyəti ilə əlaqədar, biz hər il minlərlə, hətta on minlərlə iş yeri yaratmalıyıq, belə ki, əhali iş yerlərinin açılmasına nisbətdə daha sürətlə artır. Əhali artımı isə birmənalı olaraq, iqtisadi inkişafla bağlıdır. Əgər siz əhali artımının dinamikasına baxsanız görərsiniz ki, o, Azərbaycanın iqtisadi vəziyyətinə tam uyğundur. Əlbəttə ki, gələcəkdə daha sürətli iqtisadi inkişafı planlaşdırırıq. Bu səbəbdən, iş yerlərinin açılması da təhsil islahatları ilə əlaqələndirilməlidir. Çünki hökumətin daha çox iqtisadi fəaliyyəti planlaşdırdığı sahələrdə bizə mütəxəssislər lazım olacaq. Bu vaxta qədər bizdə həmin

əlaqələndirmə olmayıb. Bu səbəbdən müəyyən qeyri-tarazlıq müşahidə olunur. Bəzi sektorlarda mütəxəssislərimizin sayı lazım olmayan dərəcədə çoxdur və bizə lazım olan sahələrdə isə onlar çatışmır.

İdxaldan asılılığın azaldılması, həmçinin prioritetlərdən biridir. Biz əsas istehlak sahələri üzrə asılılığı azaltmağa nail olmuşuq. Lakin yenə də asılı vəziyyətdəyik. Bu səbəbdən milli valyutamızın neftin qiymətləri və qonşuluqda baş verənlər baxımından qaçılmaz olan devalvasiyası inflyasiyaya, əlbəttə ki, təsir göstərdi. Əgər biz bütün istehlak sahələri üzrə özümüzü 100 faiz təmin etsəydik, devalvasiyanın mənfi təsiri daha az olardı. Bu daha rəqabətcil olan yerli istehsalı stimullaşdırmaq üçün də fürsətdir.

İxrac təmayüllü istehsal hazırda əsas prioritetlərdən biridir. Bu, əvvəlcə prioritet deyildi, çünki açıq desək, neftdən əldə edilən nağd vəsaitlərin həcmi büdcə profisitini və gözəçarpan valyuta ehtiyatlarını təmin etmək üçün kifayət idi. Hazırda neftin qiyməti aşağı düşdükdən sonra biz onu digər ixrac təmayüllü məhsullarla kompensasiya etməliyik. Bunu etmək üçün biz düzgün marketinq, fəal diplomatiya aparmalıyıq. Beynəlxalq bazarlara yeni məhsullarla daxil olmaq asan deyil. Xüsusən də indiki dövrdə, cari geosiyasi vəziyyətdə. Bu halda ənənəvi istehsalçılar ənənəvi bazarlara daxil olmaqda çətinlik çəkirlər.

Bir sözlə, biz xarici bazarlara nəyi təqdim edə bilərik? Söhbət əsasən asan satıla bilən məhsullardan gedir. Bu səbəbdən iqtisadiyyatın həmin sektorlarına diqqətin yönəldilməsi, xüsusən də infrastruktur sahəsinə diqqət hazırda bir nömrəli məsələ olmalıdır. Biz ixracın stimullaşdırılması, sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atmışıq. Odur ki, ixraca yönəlmiş iqtisadiyyatı yaratmaq üçün bu sahədə hansı işlərin görülməsini sizdən eşitsək yaxşı olar. Biznes mühitinin yaxşılaşdırılması, əlbəttə ki, əsas prioritetlərdən biridir. Sərmayə mühitinin də təkmilləşdirilməsi bu məqsədlə bağlıdır. Enerji sektorunda çox münbit investisiya mühiti var, çünki bütün pay bölgüsü sazişləri parlament tərəfindən təsdiqlənir və

qanun formasını alır. Eyni vəziyyəti iqtisadiyyatımızın bütün digər sektorlarında da təmin etməliyik ki, investorlar sərmayələrinin qorunmasına tam əmin olsunlar, şərtlərin dəyişdirilməsi, müdaxilələr olmasın. Proqnozlaşdırılan investisiya mühiti mövcud olmalıdır. Biz yalnız bu halda hazırkı şəraitlər əsasında investisiyaları cəlb edə bilərik. Bu bizə lazımdır. Lakin bunu etmək üçün – siz daha yaxşı bilirsiniz – müvafiq şərait olmalıdır. Qanunverici əsaslar, qanunun aliliyi, sərmayələrin qorunması, bürokratik maneələrin, istər yerli, istərsə də xarici şirkətlərin fəaliyyətinə hər hansı qeyri-qanuni müdaxilələrin aradan qaldırılması vacibdir. Fikrimcə, xarici şirkətlər daha yaxşı şəraitdədirlər, çünki bəzən qeyri-qanuni müdaxilə olan halda, onlar birbaşa və ya hökumətləri vasitəsilə məlumat verə bilir və həmin məsələlər öz həllini tapır.

Lakin bəzən yerli şirkətlər ümidsiz, köməksiz qalır. Bu, davamlı iqtisadi inkişafa ən böyük maneələrdən biridir. Bir sözlə, biz islahatlara, yaxşı idarəçiliyə, biznes üçün daha çox imkanların yaradılmasına, o cümlədən investisiya mühitinə, ixrac potensialının stimullaşdırılmasına və sərmayələrin cəlb edilməsinə olduqca bağlıyıq. Görüləcək iş çoxdur. Fikrimcə, biz məqsədlərimizə nail olacağıq. İqtisadiyyatın elə sektorları var ki, bizim üçün prioritet təşkil edir. Əlbəttə, investisiyaların həmin sektorlara cəlb edilməsi yaxşı olar. Onlardan biri əlavə potensialı, o cümlədən ixrac məhsullarını yarada biləcək kənd təsərrüfatıdır. O həmçinin məşğulluq məsələlərinə də yardım edə bilər, çünki əhalimizin, demək olar ki, yarısı kənddə yaşayır. Biz kəndlərdə artıq müvafiq infrastrukturu yaratmışıq. Qaz, elektrik enerjisi və su ilə təchizatı təmin etmişik. Yollar çəkmişik. Bütün bu layihələr ya tam reallaşıb, yaxud da başa çatmaq üzrədir.

Həmçinin yüksək texnologiyalar sektoru bizim üçün prioritetdir. Bu sahədə də Azərbaycan və ABŞ şirkətləri arasında yaxşı əməkdaşlıq var. Kənd təsərrüfatı sahəsində, həmçinin sizin texnologiyadan istifadə edərək, biz eyni torpaq sahəsində daha çox məhsul becərə bilərik.

Turizmə gəldikdə, biz bu sahəyə fəal şəkildə sərmayələr yatırırıq. Hazırda əlavə addımlar atılır ki, xarici turistlər Azərbaycana daha asan səfər etsinlər. Xüsusən coğrafi möv-

qeyi, xalqımızın qonaqpərvərliyini, təhlükəsizliyi, dostluq mühitini və istər Bakıda, istərsə də rayonlarda artıq mövcud infrastrukturu, o cümlədən müxtəlif iqlim şəraitlərini nəzərə alsaq, turistləri daha çox cəlb edə bilərik. Əfsuslar olsun ki, hazırkı vəziyyət bizi qane etmir. Biz turizm sənayesini yaratmalıyıq. Bu bizdə yoxdur. Turizmin, əgər belə demək olarsa, əlavə həcmini təmin etmək üçün müəyyən addımlar atılıb, lakin turizm sənayesi mövcud deyil. Biz bunu etməliyik. Hazırda dünyada tanınan hotellər ölkəmizdə var. Fikrimcə, şirkətlər bu işdə bizə yardım edə bilərlər.

Əlbəttə, əvvəldə qeyd etdiyim kimi, məşğulluq hər zaman gündəliyimizdə olacaq. Bu sahədə heç vaxt işimizi bitirmiş kimi hesab etmirik. Bu səbəbdən iqtisadiyyatın sənaye sektorlarının, ağır sənayenin, toxuculuq sənayesinin yaradılması da resurslarımızla bağlıdır. Böyük dəmir filizi ehtiyatlarını nəzərə alsaq, poladəritmə sənayesinin böyük potensialı var. Pambığın yetişdirilməsi üçün müvafiq olan iqlim şəraitini nəzərə alsaq, toxuculuq sənayesinin imkanları da mövcuddur və sair.

Bu haqda çox danışa bilərəm və bütün vaxtımızı şərhlər üçün istifadə etmək istəməzdim. Sizə planlaşdırdığımız işlər barədə məlumat vermək istədim və nəyin edilməsi ilə əlaqədar fikir söyləyə bilərsiniz. Daha fəal sərmayələr, yerli və xarici şirkətlərin fəaliyyəti üçün maneələr nədən ibarətdir? Fikrinizcə, hökumət çalışdığımız vəziyyəti yaratmaq üçün hansı əlavə işləri görməlidir? Bunları nəzərə alaraq, sizi çıxış etməyə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

* * *

**R o b e r t S e k u t a** (*Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri)*: Çox sağ olun, cənab Prezident. Amerika Ticarət Palatasının nümayəndələrinə söz verməzdən əvvəl, icazənizlə, bir neçə açılış qeydi etmək istərdim. Vaşinqtondakı müzakirələrinizi bizimlə paylaşdığınız üçün Sizə təşəkkürümü bildirirəm. Sizin də qeyd etdiyiniz kimi, bu görüşlər çox müsbət olmuşdur. Mənim hökumətim də Sizin kimi düşünür. Zən-

nimcə, görüşlər özlüyündə son məqsəd deyil, onlar uzun prosesin bir mərhələsi idi. ABŞ və Azərbaycan uzun illərdir ki, dostluq edirlər. Biz çətin məqamlarda Sizin yanınızda olmuşuq və indi də Sizə yardım etmək istəyirik.

Cənab Prezident, Sizin burada söylədikləriniz mənim üçün və eləcə də vəziyyətin aydınlaşdırılmasında çox faydalıdır. Amerika Ticarət Palatasının nümayəndələrinə söz verməzdən əvvəl bir neçə məsələni qeyd etmək istəyirəm. Bizim prezidentlərimiz – prezident Obama, prezident Corc Buş, prezident Klinton, prezident Reyqan uzun illərdir ki, belə bir biznes icmaları ilə dialoq aparırlar. Bəzi hallarda ümumi məsələlər, digər hallarda isə biznes icmasının qarşılaşdığı xüsusi problemlər müzakirə olunur.

Cənab Prezident, öz mövqenizi ifadə etdiyiniz və prioritet sahələri qeyd etdiyiniz üçün Sizə təşəkkürümü bildirirəm. Əlbəttə ki, energetika sektoru hər iki tərəf üçün və ümumiyyətlə, dünya miqyasında vacib sahədir. ABŞ şirkətləri Azərbaycanda təkcə istehsalat sahəsində yox, həmçinin xidmət və digər sahələrdə daha güclü rola yiyələnmək üçün başqa ölkələrdəki şirkətlərlə işləyirlər. Hesab edirəm ki, kənd təsərrüfatı, yüksək texnologiyalar və turizm sahələrində, habelə Sizin qeyd etdiyiniz yeni sahələrin inkişafında biz Sizə yardımçı ola bilərik.

Bizim çoxlu diqqət yetirdiyimiz və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin missiyası ilə işləməyə çalışdığımız sahə. Yəqin ki, bilirsiniz, 1992-ci ildən bəri ABŞ Azərbaycana müxtəlif xətlərlə 1,2 milyard dollardan çox yardım edib. Beləliklə, bizim diqqət yetirdiyimiz sahələrdən biri də sahibkarlığın və kənd təsərrüfatının inkişafıdır. Biz bu işin davam etdirilməsini səbirsizliklə gözləyirik. Hesab edirəm, bizim aşkar etdiyimiz əsas məsələ odur ki, özəl sektor bəzən bizə harada daha yaxşı fəaliyyət göstərdiyimizi, hansı sahələrə isə daha çox diqqət yetirilməsinə zərurət yarandığını əks etdirir.

Bununla da, cənab Prezident, sözü Ticarət Palatasının nümayəndələrinə vermək istəyirəm. Yenə də bu görüş üçün açıq olduğunuz və bu məsələlərə diqqət yetirdiyiniz üçün Sizə bir daha

«çox sağ olun» – demək istəyirəm. Vurğulamaq istəyirəm ki, Amerika tərəfindən biz Azərbaycanın güclü, çiçəklənən və sabit ölkə olmasına kömək etmək istəyirik. Hesab edirəm ki, bu bizim, Sizin və bütün Azərbaycanın istəyidir.

**İ l q a r  V ə l i y e v** *(«Ernst and Young» şirkətinin nümayəndəsi)*: Zati-aliləri cənab Prezident!

Mənim adım İlqar Vəliyevdir. Mən Amerika Ticarət Palatasının Azərbaycandakı prezidentiyəm və «Ernst and Young» şirkətinin ölkə üzrə meneceriyəm.

Cənab Prezident, Amerika Ticarət Palatasının üzvlərinin köməyi ilə bu gün bizimlə görüşdüyünüz və bizə Azərbaycanın biznes iqliminin gələcək inkişafı ilə bağlı Sizinlə bəzi fikirlərimizi bölüşmək imkanı yaratdığınız üçün mən Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Amerika Ticarət Palatası müxtəlif coğrafi məkanlar arasında yerləşən genişdiapazonlu şirkətləri təmsil etdiyi üçün biz Azərbaycanda biznes icmasının bir hissəsi olmaqdan qürur hissi duyuruq.

Cənab Prezident, Sizin də doğru qeyd etdiyiniz kimi, son vaxtlar dünya miqyasında baş verən iqtisadi proseslər bəzən bizim nəzarətimizdən kənar olur. Neftin qiymətinin kəskin düşməsi, bir çox maliyyə bazarlarındakı maliyyə çətinliyi və siyasi sabitsizlik, əlbəttə ki, dünya iqtisadiyyatına inteqrasiya olunmuş Azərbaycana da öz təsirini göstərib. Amerika Ticarət Palatasının üzvləri kimi, biz çətin vaxtları dərk edirik, lakin eyni zamanda, biz kompleks və ciddi iqtisadi islahatları həyata keçirmək, iqtisadiyyatı şaxələndirmək və qeyri-neft sektorunu inkişaf etdirmək üçün Azərbaycanın və onun rəhbərliyinin indiki vəziyyətdə düzgün yolu tapmaq üçün çalışdığını görməyə çox şadıq. Biz bu işləri yüksək qiymətləndiririk və dəstəkləyirik.

Cənab Prezident, Amerika Ticarət Palatasının biznes icması həmişə Sizi dəstəkləyənlər arasında ön sırada olub. Biz hazırda icra olunan iqtisadi islahatları alqışlayırıq və iqtisadiyyatın özəlləşdirilməsi, gömrük rejiminin sadələşdirilməsi, ən yaxşı beynəlxalq təcrübələrin təşviqi, şəffaflığa daha çox diqqətin

yetirilməsi, maliyyə hesabatçılığı, korrupsiya ilə mübarizə və əlbəttə ki, müsbət nəticə verəcək bir çox digər yaxşı təşəbbüslər üzrə tədbirlərin həyata keçirilməsini görmək bizim üçün çox sevindiricidir. Biz hamımız Azərbaycanı sevirik. Ümid edirik ki, şübhəsiz, bu tədbirlər nəticədə Azərbaycanın uğuruna öz təsirini göstərəcək.

Cənab Prezident, Amerika Ticarət Palatasının biznes icması bizə və bu icmaya davamlı dəstək göstərdiyinizə görə Sizə çox minnətdardır. Sizin birbaşa müdaxilənizdən sonra hətta bəzi mübahisəli məsələlərin öz həllini tapmasına dair misallar gətirmək olar və biznes icması bunu çox yüksək dəyərləndirir. Hətta böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, biz iqtisadi islahatlar üzrə köməkçinizlə çox yaxından işləyirik. Bu sahədə əməkdaşlıq bizi çox qane edir və bu əməkdaşlıq davam etməkdədir. Biz həmçinin Azərbaycanın orta və uzunmüddətli inkişafı üzrə yol xəritəsinin yaradılması təşəbbüsünü alqışlayırıq. Bu çox sevindirici haldır və qeyd etmək istəyirəm ki, Amerika Ticarət Palatası bu yol xəritəsinin yaradılması üzrə işçi qrupunun fəaliyyətinə bacarıqları, bilikləri və ən yaxşı beynəlxalq təcrübəsi ilə töhfə vermək öhdəliyini üzərinə götürüb.

Amerika Ticarət Palatasının həyata keçirdiyi vacib təşəbbüslərdən biri də «Ağ Kitab» adlanan sənədin hazırlanmasıdır. Bu sənəddə biz Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması üzrə biznes icmasının tövsiyələrini vurğulayırıq. Hesab edirik ki, ölkədə həyata keçirilən iqtisadi islahatları nəzərə alaraq, bu ərəfədə bu sənəd çox böyük önəm daşıyacaq. Beləliklə, hazırda biz bu sənəd üzərində işləyirik. Biz bu sənədin hazırlanması üçün çox geniş auditoriyanı, geniş ekspertlər qrupunu cəlb edirik. Bu sənəd hazır olan kimi, onu Sizə şəxsən təqdim etmək imkanına görə Sizə çox minnətdar olardıq.

Cənab Prezident, bu gün mənim qısa qeydlərimdən sonra Amerika Ticarət Palatasının üzvü olan həmkarlarım biznes mühitinin yaxşılaşdırılması ilə bağlı Sizinlə bəzi fikir və təkliflərimizi paylaşacaqlar. Əlbəttə, bütün təklifləri bir görüşə

sığışdırmaq çox çətindir. Lakin bizim güclü ilham mənbəyimiz var və bu dialoq bizim üçün çox vacibdir. Biz ümid edirik ki, bu sadəcə, yaxşı ənənənin başlanğıcıdır və gələcəkdə də bizim belə görüşlərimiz olacaq.

Yekunda icazə verin, təkcə Amerika Ticarət Palatası icması tərəfindən deyil, həmçinin ümumi biznes icmasının paylaşdığı bir fikri bildirim. Biz islahatları ciddi şəkildə dəstəkləyirik. Biz islahatların vacib olduğuna ciddi şəkildə inanırıq və bu islahatların həyata keçirilməsində Sizin rəhbərliyinizi çox yüksək dəyərləndiririk. Biz inanırıq ki, bu islahatlar nəticəsində Azərbaycan daha da güclü, daha da rəqabətədavamlı bir ölkə olacaq və yüksək artım tempinə nail olan iqtisadiyyatlar arasında öz yerini saxlamağa davam edəcək. Həm yerli – çünki Amerika Ticarət Palatasında həm də yerli şirkətlər təmsil olunur – həm də xarici şirkətlər Sizin yanınızdadır. Biz Sizi tam dəstəkləyirik və Sizi bu islahatlardan geri çəkilməməyin qarantı kimi görürük. Cənab Prezident, mən bu ali və vacib işinizdə Sizə səmimi-qəlbdən uğurlar arzu edirəm. Sizə dəstək olmaq bizim hamımız üçün böyük şərəfdir. Sağ olun.

**T e y b ə Q u l i y e v a** (*Azərbaycandakı Amerika Ticarət Palatasının birinci vitse-prezidenti və «Societe Generale» şirkətinin ölkəmizdəki nümayəndəsi*): Artıq qeyd olunduğu kimi, biznes ictimaiyyəti hökumətin həyata keçirdiyi bir sıra islahatlar və göstərdiyi səylərdən çox məmnundur. Mən Palatanın adından Sizə qısa məlumat vermək və biznes mühitinin daha da təkmilləşdirilməsi ilə bağlı öz tövsiyələrimizi bildirmək istərdim.

İlk növbədə, islahatların sürəti çox əhəmiyyətlidir, ölkənin mövcud biznes mühitinin dəyişdirilməsi istiqamətində ciddi addımlar atmaqla, eyni fəaliyyət səviyyəsini saxlamaq çox vacibdir. Hesab edirik ki, bu səviyyə saxlanılmalıdır və iqtisadiyyatı gücləndirməlidir. Bu təkcə böyük şirkətlər üçün deyil, orta və kiçik sahibkarlıq müəssisələri üçün daha vacibdir. Apellyasiya şuralarının yaradılması şübhəsiz ki, mübahisələrin daha sürətli həllində şəffaflığa xidmət edəcək. Biz bu Apellyasiya şuralarının üzvləri kimi, orada sənaye mütəxəssislərinin, daha çox sənaye

və sektor biliklərinə malik mütəxəssislərin təmsil olunmasını təklif edərdik.

Gömrük sisteminin liberallaşdırılması və lisenziyalaşdırılmalı fəaliyyət növlərinin azaldılması, «ASAN xidmət» mərkəzlərinin genişləndirilməsi kimi mühüm addımlar biznes ictimaiyyəti tərəfindən müsbət qarşılanır. Əlbəttə ki, biznes ictimaiyyəti səbirsizliklə tənzimləyici sistemdə daha çox sadələşdirmə gözləyir. Lakin biz başa düşürük ki, bu öz növbəsində, daha yaxşı fəaliyyət göstərmək, daha şəffaf və daha fəal olmaq üçün şirkətlərin üzərinə böyük məsuliyyət qoyur.

Azərbaycandakı Amerika Ticarət Palatası bu fikirlərin yayılması və bu məsuliyyətlərin şirkətlərə ötürülməsi üçün həqiqətən, yaxşı platformadır. Biz bu islahatların və səylərin ikitərəfli olmasını təmin etmək üçün hökumət və biznes, o cümlədən real sektor arasında körpü rolunu oynayırıq.

Mən Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması ilə bağlı fikirlərimi bildirmək istəyirəm. Bu, aparıcı beynəlxalq təcrübələrin qəbul olunmasının ən yaxşı nümunəsidir və əlbəttə ki, Azərbaycanın maliyyə sektorunda, milli valyutada sabitlik və etimadın artırılmasını görmək üçün bütün biznes ictimaiyyəti Palatanın ilk addımlarını səbirsizliklə gözləyir. İnanırıq ki, Palatanın fəaliyyəti şirkətlər və sektor üçün maliyyə mənbələrinin açılması üzrə müsbət nəticələr verəcək və əlbəttə, digər tərəfdən, Azərbaycanın fond birjası, uzunmüddətli kredit bazarında inkişafı stimullaşdıracaq.

Həmkarlarım daha konkret məsələlərlə bağlı fikir bildirəcəklər. Bir məqamı da vurğulamaq istəyirəm ki, Azərbaycan yerli və xarici investorları cəlb etmək baxımından regional mərkəz kimi çox gözəl imkana sahibdir. Əgər ona xarici investorların nöqteyi-nəzərindən baxsaq, biznes mühitinin sadələşdirilməsindəki son dəyişikliklər çox gözəldir və nikbinliklə qarşılanır. Lakin hesab edirik ki, iş icazəsi rejiminin daha da yaxşılaşdırılması daha çox sənaye mütəxəssislərinin Azərbaycana gəlməsi, öz biliklərini yerli şirkətlərlə paylaşması baxımından da çox əhəmiyyətlidir.

Sonda, cənab Prezident, mən Azərbaycandakı Amerika Ticarət Palatasının adından demək istərdim ki, xarici investorlar islahatlar

barədə daha çox məlumat almalıdırlar. Bunun üçün də rabitə kanalları daim açıq olmalı, ölkədə baş verənlər barədə maliyyə və qeyri-maliyyə bazarlarına, geniş ictimaiyyətə məlumat ötürülməlidir. Atılan bütün addımların işıqlandırılması isə həm daxili iqtisadiyyat, həm də investorların maraqları baxımından çox müsbət nəticələr doğuracaq. Buna nail olmaq üçün əsas alətlər «Doing Business hesabatı», «Dünya rəqabətliliyi hesabatı»dır və əlbəttə ki, əsas məqsəd ölkənin kredit reytinqini artırmaqdır. Bilirsiniz ki, bu hər bir investorun təhlilində əsas yer tutur və ölkənin bu yolda olduğunu sübut etmək üçün artıq bir sıra addımlar atılıb. Beynəlxalq ictimaiyyət bunu qiymətləndirməlidir.

Mən daha çox danışa bilərəm, lakin əfsuslar olsun ki, vaxt məhduddur. Təşəkkür edirəm, cənab Prezident.

**R o s e n P a p a z o v** *(«Holcim» şirkətinin icraçı direktoru və Amerika Ticarət Palatasının üzvü*): Əvvəlcə Sizə və hökumətinizə biznes ictimaiyyəti adından iqtisadiyyata dəstək naminə atdığınız addımlar və ilin əvvəlində həyata keçirilən islahatlar üçün təşəkkür edirəm. Həmçinin ixracın təşviq edilməsi barədə fikirlərimizi bildirmək istəyirəm. Bu istiqamətdə ilk sual yerli istehsalçıların rəqabətliliyinin necə artırılacağı haqqındadır. Bunlar iqtisadiyyatın təməlini təşkil edir, amma eyni zamanda, gələcək sərmayədarlara ölkədə biznesin gəlirli olmasını və uğurunu göstərmək baxımından da vacibdir. Ölkənin əsas sərhədləri, coğrafi mövqeyi, sadəcə, Qafqaz deyil, həm də Mərkəzi Asiya ölkələri üçün mərkəzi qovşaq olması əhəmiyyətlidir. Enerji resurslarının mövcudluğu sadəcə, ölkənin gəlirləri baxımından deyil, həm də istehsal üçün resurs təşkil etməsi baxımından vacibdir. Ölkədə istehsal xərclərinin aşağı olması, habelə Azərbaycanda fəaliyyətimiz ərzindəki təcrübəmizə əsaslanaraq, ölkədə yüksək insan resurslarının olması da mühüm amillərdir. Bütün bunlar idxalın əvəzlənməsi yolu ilə yerli istehsalın inkişafını təşviq etməklə, daha da inkişaf etdirilə bilər. İdxalın əvəzlənməsi ilk növbədə, yekunda istehlakçının idxal mallarından asılılığını və onun xarici valyuta tərəddüdlərinə məruz qalmasını azaldacaq, həmçinin təchizat zəncirinin aşağı hissəsində olan yerli istehsalçılara istehsal xərclərinin optimallaşdırılması vasitəsilə də kömək edəcək.

Giriş nitqinizdə qeyd etdiyiniz kimi, milli valyutanın devalvasiyası bir qədər gərginlik yaradır. Lakin bildirmək istəyirəm ki, bu, müəyyən mənada yerli istehsalçılara uzun illərdən sonra ixrac bazarında rəqabətliliyi artırmaq üçün bir imkandır. İxrac bazarlarını stimullaşdırmaq üçün nələr edilə bilər? İlk növbədə, infrastrukturun, yolların, dəmir yollarının daha da inkişaf etdirilməsi, mühüm nöqtə olaraq limanımızın tamamlanması və işə başlamasıdır. İkincisi, ixracı ağırlaşdırmaq əvəzinə yüngülləşdirmək üçün logistik xərclərin optimallaşdırılması, nəqliyyat tariflərinin dəyişdirilməsi vacibdir. Az əhəmiyyət daşımayan daha bir məqam ixracın asanlaşdırılmasının maliyyələşdirilmə və sığortalanma kimi alətlərinin təqdim olunmasıdır. Ölkənin xarici sərmayədarlar üçün cəlbediciliyini artırmaqdan ötrü daha nə etmək olar? Sizin nitqinizdə qeyd etdiyiniz məsələni mən də bir daha vurğulamaq istəyirəm ki, xarici investorları cəlb edən əsas amil sabit balansın yaradılması və ölkəyə sabit axının təmin edilməsidir. Ölkədə biznesin uğurunu məhz bu təmin edir.

Mən həmçinin yerli istehsalçıların idxalçılar qarşısında rəqabətlilik baxımından ziyanının olmamasını təmin etmək üçün keyfiyyət standartları ilə uyğunluq nəzərə alınaraq, ölkəyə idxalın nəzarətdə saxlanılmasının vacibliyini bildirirəm. Ziyanlardan danışarkən bəzi hallarda xarici ölkələrdən olan ixracatçıların müxtəlif ixrac subsidiyalarından yararlandığını nəzərdə tuturam. Təklif verərdim ki, Azərbaycanda yerli istehsalçıları qorumaq üçün bu cür halların qarşısı alınsın. Mən vurğulamaq istərdim ki, müxtəlif sertifikatlaşdırma proseslərinin sadələşdirilməsi sahəsində atdığınız bir sıra addımları yüksək qiymətləndiririk.

Bizim «ASAN xidmət» Mərkəzi kimi uğurlu nümunəmiz var və mərkəzin təqdim etdiyi xidmətlər spektrinin genişləndirilməsini və qarşıdakı illərdə tamhüquqlu «Elektron hökumət»ə çevrilməsini səbirsizliklə gözləyirik.

Nəhayət, vurğulamaq istərdim ki, son illər ərzində şirkətimiz Azərbaycana milyonlarla dollar və avro investisiya yatırıb. Sizi əmin edirəm ki, çətin zamanların olması heç bir halda bizi

Azərbaycana sərmayə yatırmaqdan çəkindirə bilməz, əksinə, biz ölkənin gələcəyinə inanırıq. Görürük ki, çoxlu islahatlar həyata keçirilir və biz qarşıdakı illərdə Sizinlə və hökumətinizlə Azərbaycanda uğur əldə etmək üçün yollar axtarmaqda əməkdaşlıq etməyə hazırıq. Bu nöqteyi-nəzərdən biz bu açıq mübadiləni yüksək qiymətləndiririk və gələcəkdə də bu cür mübadilələrin davamlı olmasına ümid edirik. Çox sağ olun.

**N u r l a n  K ə r i m o v** *(«Deloitte and Touche» MMC-nin Azərbaycan ofisinin nümayəndəsi*): Cənab Prezident, mən «Deloitte and Touche» MMC-nin idarəedici tərəfdaşıyam. Vergi sahəsində mütəxəssis kimi, üzvlərimizin mənə verdiyi vergi və gömrüklə əlaqəli məlumatları Sizinlə paylaşmaq mənim üçün şərəfdir.

Əvvəlcə gömrük məsələlərinə diqqət yetirmək istəyirəm. Məndən əvvəl çıxış edənlərin vurğuladıqları kimi, Azərbaycandakı Amerika Ticarət Palatası idxal-ixrac əməliyyatlarının aparılma tərzindəki müsbət dəyişiklikləri, xüsusilə gömrük sahəsindəki şəffaflığı alqışlayır. Düşünürük ki, bu mənada yerli istehsalı stimullaşdıran ünvanlı gömrük siyasəti qeyri-neft sektorunun daha da inkişafına təkan verəcək. Biz biznes ictimaiyyəti olaraq, şəffaflıq sahəsindəki islahatları alqışlayırıq. Nə qədər çox şəffaflıq olarsa, dövlət büdcəsinə bir o qədər çox vergi daxil olar. Vergi sistemi daha çox təkmilləşdirilməlidir ki, vergi ödəyicisi olan investorlar cəlb edilsin. İnanırıq ki, vaxtında vergilərini ödəyən şirkətlər və digər vergi ödəyiciləri hökumət tərəfindən daha az yoxlamalara məruz qalmalıdırlar. Aydındır ki, burada vergilərin yığılması və biznesin inkişafının dəstəklənməsi arasında bir balans tapılmalıdır. Vergi ölkənin iqtisadi rəqabətliliyinin artırılmasında və investorların cəlb edilməsində çox güclü alətdir.

Həmkarlarımın da qeyd etdiyi kimi, Azərbaycanın coğrafi mövqeyi sayəsində ölkə regional mərkəz kimi çıxış edə bilər, investorlar üçün də əlverişli vergi rejimi çox faydalı ola bilər. Qeyd olunduğu kimi, dövlət qurumları tərəfindən həyata keçirilən auditləri dayandırmaq qərarınız sahibkarlarda etimadı artırıb. Bununla bağlı növbəti addım olaraq, hazırda Vergilər Nazirliyi tərəfindən və sosial müdafiə ilə bağlı aparılan yoxlamaların birləşdirilməsini təklif edirik.

Şirkət vergilərini və sosial təminat ödənişlərini tam ödəyirmi? Daha az yoxlama bizneslər üçün daha az maneə deməkdir.

Cənab Prezident, Sizin göstərişləriniz nağdsız ödənişlərin artırılmasına, iqtisadiyyatda nağd dövriyyənin azaldılmasına yönəlib. Son 4-5 ildir bunu izləyirəm. Üzvlərimiz adından demək istəyirəm ki, biz bu təşəbbüsü dəstəkləyirik. İnanırıq ki, nağd ödəniş nə qədər az olsa, vergidən yayınma və digər qanun pozuntuları da bir o qədər azalmış olar. Azərbaycan hökuməti ikiqat vergiqoyma hallarından yayınma istiqamətində çox iş görüb. İndi əhəmiyyətli olan bu razılaşmaların yerli və xarici investorlara təmin etdiyi faydadır. İcazə verin, bütün üzvlər tərəfindən bəhs olunan mühüm bir məqamı qeyd edim. Cinayət Məcəlləsinin hazırkı oxunuşunda vergidən yayınma halı kimi xarakterizə olunan fəaliyyətdə 2000 manat məbləği əsas rol oynayır və bunun üçün cinayət məsuliyyəti yaranır. Biz vergidən yayınma və digər qanunsuzluqlarla mübarizəni tam dəstəkləyərək, təklif edirik ki, bu məbləğ artırılsın. Çünki bir çox hallarda vergidən yayınma niyyəti olmasa da, şəxsi mülahizəyə görə bu məbləği aşan sahibkar vergidən yayınan kimi, cinayət məsuliyyətinə cəlb oluna bilər. Diqqətiniz üçün çox təşəkkür edirəm. Vergi və gömrük sahəsində bütün təkliflər siyahısını təqdim edə bilməsəm də, bu imkan üçün çox minnətdaram. Çox sağ olun.

**Mövlan Paşayev** *(«Price Waterhouse Coopers» şirkətinin nümayəndəsi)*: Cənab Prezident, qısaca olaraq demək istəyirəm ki, çıxışınızda Siz etimad və yaxşı idarəetməni qeyd etdiniz. Bu vacibdir. Bu, əlbəttə ki, Azərbaycan iqtisadiyyatının bütöv biznes mühiti üçün vacibdir. Mən qeyd etməliyəm ki, Sizin səyləriniz ictimaiyyət və özəl sektor arasında, hökumət və cəmiyyət arasında etimadı gücləndirir. Bu çox vacib və faydalıdır.

Azərbaycan dünya bazarına çıxdığı üçün istənilən xarici investor bizneslər və ya birgə müəssisə daxilində tərəfdaş kimi fəaliyyət göstərmək istəyən şirkətlər barədə etibarlı və dürüst informasiyanın axtarışında olacaq. Bu, ictimai və özəl sektora aiddir. Buna görə də aydın və anlayışlı maliyyə hesabatçılığı ilə səmərəli və şəffaf korporativ idarəetmə mexanizminin yaradılması

iqtisadiyyatda dayanıqlı artımın təmin edilməsi üçün əsas amildir. Hesab edirik ki, iqtisadiyyatın artımının əsasında əslində dövlət mülkiyyətindəki müəssisələr durur. Fikrimizcə, dövlət mülkiyyətində olan müəssisələr və kommersiya təşkilatları arasında yalnız idarəetmə və kommersiyalaşdırma nöqteyi-nəzərdən azacıq fərqlər olmalıdır. Bu isə o deməkdir ki, səmərəli və şəffaf dövlət sektoru şirkətlərinin yaradılması xarici birgə müəssisələr, şirkətlərin alışı və özəlləşdirmə formasında xarici maliyyələşmə üçün imkan yaradacaq. Beləliklə, rəhbərliyin münasibəti sadəcə, istehsalat hədəflərini qarşılamaqdan gəlirlərin artırılmasına və marketinqə yönəlməlidir. Çünki bunlar avtomatik olaraq qiymət, xərc və keyfiyyət üçün fəaliyyət hədəflərini təyin edəcək. Bütün bunlar dövlət mülkiyyətində olan və özəl şirkətlərə bu innovasiyaları qəbul etməyə kömək göstərir. İnnovasiyaları qəbul etməklə, bazarda iş yerləri yaratmaq üçün onların qarşısında yeni fürsətlər açılır.

Qeyd etməliyəm ki, dövlət mülkiyyətində olan müəssisələrin və bir çox böyük özəl şirkətlərin transformasiya prosesinə müəyyən vaxt bundan öncə başlanılıb və biz bu şirkətlərlə çox yaxşı uğur əldə etmişik. Beləliklə, etimadın və yaxşı idarəetmənin gücləndirilməsini davam etdirmək üçün biz korporativ idarəetmə və şəffaflıq üzrə 3 əsas elementi görürük. Birincisi, korporativ idarəetmə prinsiplərinin gələcək inkişafıdır. Buraya səmərəlilik məqsədlərinə nail olmaq üçün rəhbərlik qarşısında əsas fəaliyyət göstəricilərinin müəyyən olunması daxildir. Burada bütün bu şirkətlərin aktivlər və xərclərini dövlət və ya özəl sektordan əldə etməsindən asılı olmayaraq sanasiyası və rasionallaşdırılması üçün böyük səylər tələb olunacaq. İkincisi, etibarlı, aydın hesabatvermə standartlarının tətbiq edilməsi, dövlət və özəl şirkətlər üçün tələblərdir. Üçüncüsü, müasir mühasibatlıq sisteminin gələcək inkişafı və icrası, yerli şirkətlərdən daha şəffaf maliyyə məlumatının əldə edilməsi üçün standartlardır.

Bütün bunlarla yanaşı, həmin təşkilatlarda icbari auditlər də aparılacaq. Fikrimizcə bu, həmin dövlət və özəl sektorda real məhsuldarlıq məqsədlərinə çatmaq üçün şirkətlərin bacarığını,

qərar qəbuletmə prosesini təkmilləşdirmək üçün uzunmüddətli inkişaf məqsədləri və səylərinin uğurunu, hətta korporativ sektorumuzun qlobal bazarda nüfuzunu artıracaq. Cənab Prezident, diqqətiniz üçün çox sağ olun.

**Q o r d o n  B i r r e l** (*bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti*): Cənab Prezident, mənə *bp* adından danışmaq fürsəti verdiyiniz üçün çox sağ olun. Mən həmkarlarım tərəfindən qeyd olunan fikirləri təkrarlamamağa çalışacağam. Bu fikirlər inanılmaz dərəcədə yaxşı vurğulanmışdır. Biz neft və qaz sənayesini tam dəstəkləyirik. Söhbətimizin davamında mən bir giriş qeydini və 4 məqamı diqqətinizə çatdırmaq istəyirəm. Mənim giriş qeydim odur ki, Xəzər dənizində çoxlu neft və qaz resursları var. Biz inanırıq ki, sadəcə, texnologiyalara sərmayə yatırmaq tələb olunur və lazım olacaq kapitalı formalaşdırmaq üçün davamlı müsbət mühit var. 20 ildən çox müddət öncə burada fəaliyyətimizə başlayandan bəri biz özümüz və tərəfdaşlarımız 58 milyard dollardan çox sərmayə yatırmışıq. Onun 16 milyard dolları yerli şirkətlərə yatırılıb və uğurlu olub. Bu əsasən hasilatın pay bölgüsü razılaşmasının yaratdığı müsbət mühit sayəsində mümkün olub.

Mənim danışmaq və vurğulamaq istədiyim bir neçə məqam var. Yəqin ki, onlar tətbiq olunacaq islahatlara daxil edilə və digər sahələr, neft-qaz sahəsi üçün əlverişli biznes mühiti yarada bilər. Çünki hər zaman görüləcək daha çox iş var.

Vurğulamaq istədiyim ilk məqam sabitliklə bağlıdır. Uzunmüddətli sabitlik investorlar üçün olduqca vacibdir – hüquq və gömrük sistemlərində, məşğulluq qaydalarında, işçi vizalarında, iş icazələrində sabitlik və gələcək gəlirləri proqnozlaşdırmağımız üçün sabitlik. Əlbəttə, neftin və qazın qiymətləri və ya qiymətlər kimi digər amillərin üzərində nəzarətimiz yoxdur, lakin davamlılıq və proqnozlaşdırmaq bizim üçün əsasdır.

Əlbəttə ki, hər ölkə inkişaf etdikcə dəyişikliklər tələb olunur. Bu dəyişikliklərlə bağlı əvvəlcədən məlumat verilə və onlar biznes ictimaiyyəti ilə müzakirə edilə bilər. Bir daha

vurğulayıram ki, qaydaların şəffaflığı əsasdır. Biz böyük investisiyalara qərar verərkən, yenidən nəticələri proqnozlaşdıra bilməliyik. Vurğulamaq istədiyim üçüncü məsələ hökumətdəki mədəniyyətdir – mən və həmkarlarım nazirliklərdə bir çox görüşlər keçirmişik. İndiyə qədər gördüyümüz əməkdaşlıq və həlyönümlü mədəniyyət, bu davranış tərzi bizim etimadımızı artırır. Əlbəttə, nazirliklər dövlət maraqlarını qorumalıdırlar. Dövlət və özəl sektor problemləri həll etmək üçün birgə işləyə bilər, biznesdə hər zaman problemlər olur. Həlyönümlü mədəniyyət olmalıdır və bu, Azərbaycanda mövcuddur. Vurğulamaq istədiyim dördüncü məqam kadr hazırlığı və potensialın artırılması məsələsidir. Bilirəm və inanıram ki, Azərbaycanda bu var. Hazırda işçilərimizin 87 faizi azərbaycanlıdır və buna yüksəkvəzifəlilər də daxildir. Dövlət və müxtəlif şirkətlər vasitəsilə xaricdə təhsil almış bir çox əməkdaşımız var. Biz onları geri gətirib yüksək vəzifələrə yerləşdirməyə nail olmuşuq. Məncə hökumət də bunu etməlidir. Londona, Hyustona getdikdə onların çoxunu görürəm. Onlar dünya səviyyəli təhsil ocaqlarında oxumuş beynəlxalq səviyyəli mütəxəssislərdir və bu ölkənin çağırışlarının öhdəsindən gələ bilərlər.

Digər bir məsələ peşə hazırlığıdır. Biz SOCAR ilə birlikdə bir çox peşə hazırlığı kursları keçiririk. Bunu sadəcə, layihə əsaslı deyil, davamlı etməliyik, çünki layihələr dəyişir. Bu əməkdaşların davamlı ixtisas hazırlığı olmalıdır ki, sənaye də bu kadrlardan istifadə etsin. Bizim də, hökumətin də bu işdə rolu olmalıdır.

Son olaraq deyim ki, buradakı universitetlər çox yaxşıdır. Tez-tez onlara baş çəkirəm. Düşünürəm ki, son 5–10 ildə universitetlərdə imkanların gücləndirilməsi yaxşı nəticələr verib, elm, texnologiya, mühəndislik, riyaziyyat sahələrində yüksək səviyyəli kadrlar yetişib. Eyni diqqət gələcəyin işçilərini yetişdirmək üçün iqtisadiyyat sahəsinə də yetirilə bilər. Ölkədə məhsuldarlığı artırmaq üçün bu çox vacibdir.

Cənab Prezident, sonda əminliyimi bildirmək istəyirəm ki, bu, ilk və son görüş olmayacaq. Belə görüşlərin davam etməsini diləyirəm.

Ölkənin inkişafı haqqında planlarınızı bilmək çox faydalı olar. Çox sağ olun.

*Sonda prezident İlham Əliyev yekun nitqi söylədi.*

## YEKUN NİTQİ

Dəyərli fikirlərinizə görə sizə təşəkkür edirəm. Onların hamısı ümumiləşdiriləcək və islahatlarımızın davam etdirilməsində bir istiqamət rolunu oynayacaq. Bildiyimə görə, Palatanın bəzi üzvləri artıq mənim iqtisadi islahatlar üzrə köməkçimlə bir yerdə çalışır və buna görə öz minnətdarlığımı bildirmək istərdim. Son zamanlar tətbiq edilmiş islahatların bir hissəsi sizin dəyərli fikirləriniz sayəsində ərsəyə gəlmişdir.

Burada səsləndirilən bəzi fikirlərə münasibət bildirmək istərdim. Sizin təklif etdiyiniz bütün məsələlərlə razılaşıram və arzu edirəm ki, bütün bu təkliflər ən qısa zamanda həyata keçirilsin. Tamamilə razıyam ki, kiçik və orta müəssisələr hər bir iqtisadiyyatın aparıcı qüvvəsidir. Böyük iqtisadiyyata malik olan ölkələrin təcrübəsindən də məlumdur ki, bu belədir.

Bizim də məhz buna ehtiyacımız var. 25 il öncə bu belə deyildi, çünki biz siyasi sistemimizi transformasiya etməli, dövlət qurmalı və eyni zamanda, iqtisadi sistemimizi də transformasiya etməli idik. Bu səbəbdən biz hələ də həmin prosesin başlanğıcındayıq. Lakin hesab edirəm ki, kiçik və orta müəssisələrin dəstəklənməsinə diqqətin yönəldilməsi burada üstünlük təşkil edən amil olacaqdır.

Biz bu istiqamətdə müəyyən addımlar atır, daxili istehsalı təşviq edir, daha çox iqtisadi artıma ehtiyac duyulan sahələrdə özəl sektora kreditlər ayırırıq. Ancaq düşünürəm ki, bu sahədə diqqət vergi rejimi ilə bağlı qanunvericilik və sərmayə mühitinə yönəldilməlidir. Müvafiq sərmayə mühiti, kiçik və orta müəssisələr üçün imkanlar yarandığı halda, onların özləri inkişaf edəcəkdir. Dövlət qurumları isə onların gündəlik fəaliyyətinə müdaxilə deyil, yalnız lazımi şərait yaratmalıdır.

Burada kiçik və orta şirkətlər ən həssas vəziyyətdədir. Çünki böyük şirkətlər özlərini müdafiə edə, öz mövqelərini ortaya qoya

bilirlər. Təəssüf ki, kiçik şirkətlər bəzən müdaxilə ilə üzləşir və hesab edirəm ki, bu sahədə onlar üçün şəraitin yaradılması məqsədilə inzibati və institusional tədbirlər görülməlidir.

Sizin də qeyd etdiyiniz kimi, lisenziyaların azaldılması daha bir vacib addım olmuşdur. Nazirlər Kabinetinin sonuncu iclasında dediyim kimi, biz yoxlama və təftişlərin sayının kəskin şəkildə azalmasına nail olmuşuq. Bu, yalnız başlanğıcdır. Düşünürəm ki, özəl sektor da yeni vəziyyətə uyğunlaşacaqdır. Biz işimizi davam etdirməliyik. Bu hər hansı bir kampaniya deyil. Bu bizim siya-sətimizdir və o, davam etməlidir.

Ancaq bu o qədər də asan məsələ deyildir və siz də bundan xəbərdarsınız. Burada çoxsaylı əks-arqumentlər mövcud idi və mən hələ də onları eşidirəm. Lakin hesab edirəm ki, nəticələri gözləmək lazımdır. Ola bilsin ki, nəzarəti daha da gücləndirmək lazım gələcək. Gəlin ilin sonunadək gözləyək və görək hansı nəticələr əldə olunur. Əminəm ki, nəticələr bugünkülərdən də yaxşı olacaqdır.

Maliyyə və bank sektorunda nəzarət sizin də qeyd etdiyiniz kimi, çox vacibdir. Yaxın keçmişdə şahidi olduğumuz kimi, bu sektorda nəzarətin lazımi səviyyədə olmaması bizim maliyyə sistemimiz üçün çoxsaylı problemlər yaratmışdır. Bank və maliyyə sektorunun daha da güclü nəzarətə ehtiyacı var. Bildiyiniz kimi, milli valyutaya etimadın artırılması üçün addımlar atılmışdır. Əmanətlərin 100 faiz sığortalanması təmin edilmişdir. Bütün bu addımlar maliyyə sisteminin sabitləşməsi üçün atılmışdır. Bank sektoru üzərində lazımi nəzarət olsa idi, bəlkə də biz bu gün daha münasib mövqeyə malik olardıq.

Bununla belə, tərəfimizdən atılmış və sizin də yüksək qiymətlən-dirdiyiniz addımlar hesab edirəm ki, bizə inkişaf etmiş dövlətlərə məxsus sistemin yaradılmasında yardım edəcək.

İş icazəsi kimi məsələlər həll olunandır. Biz bürokratiyanı azaltmalı və mövcud qayda-qanunlarımızda yeni elementlər tətbiq etməliyik. Bunlar Palatanın vitse-prezidenti tərəfindən səsləndirilən fikirlər idi. «Holcim» şirkətinin nümayəndəsi də vacib fikir bildirdi. Sizin şirkətə gəldikdə, istərdim bir nümunəni diqqətinizə çatdırım. «Holcim» şirkəti Azərbaycana gələndə İsveçrə hökuməti müraciət

etmişdi ki, bu şirkət Azərbaycanda fəaliyyət göstərmək və sərmayə yatırmaq arzusundadır. Xatırlayıram ki, bu, ilk iqtisadi böhran dönəminə, 2008-ci ilə təsadüf etmişdir.

Mən dərhal bu fikri dəstəklədim və daha sonra «Holcim» ölkəmizə sərmayə yatırdı. Yanılmıramsa, bu, təqribən 300 milyon ABŞ dollarına bərabər sərmayə olmuşdur. Dünyanın hər yerində sərmayə qıtlığı yaşanan bir vaxtda həmin yatırım yaxşı siqnal idi. Bu digər şirkətlər üçün də imkan yaratmış oldu və onlar da sement sektoruna sərmayə qoymaq qərarına gəldilər.

Bu gün biz bu sahədə özümüzü tam təmin etmişik, ixrac potensialımız var və əlbəttə, yerli istehsalın, istehsalçıların müdafiəsi çox vacib məsələdir. Mən hər zaman bunu əsas prioritet hesab etmişəm. Bununla yanaşı, biz yaxşı balans yaratmalıyıq ki, yerli istehsalçılar nəticədə inhisarçılara çevrilməsin. Təbii ki, rəqabətin gücləndirilməsi baxımından idxal vacibdir. Lakin diqqət yetirməli olacağımız məsələ yerli istehsalın qorunması ilə yanaşı, digərləri üçün imkanların yaradılmasından ibarət olacaqdır.

Demək istədiyim budur, biz Azərbaycanda elə bir şərait yaratmalıyıq ki, heç bir hökumətin, hər hansı şirkətin Azərbaycana sərmayə qoyuluşu ilə bağlı zəruri şəraitin yaradılması üçün ölkə Prezidentinə müraciət etməsinə ehtiyac olmasın. Bizim hədəfimiz budur – «Holcim» və digərləri bunu özləri edə bilsin. Qayda, qanun və prosedurlar olsun ki, onlar gəlib asan şəkildə, bürokratiyasız sərmayə qoya bilsinlər. Arada bir çox şəxsin razılığa gəlib-gəlməməsinə, Prezidentə zəng etməyə ehtiyac qalmasın.

Mənim arzum belə bir şəraiti görməkdir və düşünürəm ki, sizin köməyinizlə bu, baş verəcək. Bu, baş verən kimi, biznes inkişaf edəcək və sərmayə qoyulacaqdır. Bu da yaxşı mexanizmdir, səmərəlidir. Əks təqdirdə, həmişə Prezident, Baş nazir və ya nazirlərdən kömək göstərmək xahiş ediləcək. Ancaq mən ümid edirəm ki, gələcəkdə bu daha da avtonom şəkildə həyata keçiriləcəkdir.

Siz həm də infrastruktur və nəqliyyat infrastrukturu ilə bağlı məsələlərə toxundunuz. Biz bununla məşğul oluruq, qovşaq

yaratmağa çalışırıq. Coğrafi yerləşməmizi və regional əlaqə istiqamətlərini nəzərə alsaq, artıq Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizləri layihələri həyata keçirilməkdədir.

Bununla yanaşı, artıq elan edilmişdir ki, bizdə dəniz limanımızın yaxınlığında, Ələtdə azad ticarət zonasının yaradılmasına ehtiyac var. Beləliklə, Yaxın Şərq və Şərqi Asiya dövlətlərinin müsbət təcrübəsindən istifadə olunacaq.

Gömrük və vergi sistemlərində müsbət dəyişikliklərlə bağlı fikirlərinizə görə minnətdaram. Burada hər şey çox sadədir. Biz beynəlxalq standartlara uyğun vergi və gömrük idarəetməsinə malik olmalıyıq – biznes üçün şəffaf, açıq, proqnozlaşdırılan və dost yanaşması ilə fərqlənən sistemə. Müdaxiləsiz, qeyri-qanuni tələblərsiz, gecikməsiz, inhisarçılıqsız, azad rəqabətə malik şəffaf şəraitə. Biz bu istiqamətdə irəliləyirik. Hesab edirəm ki, ilkin nailiyyətlərimiz var və bu, uzunmüddətli siyasət olacaqdır.

Vergi auditi və Sosial Müdafiə Fondu tərəfindən aparılan yoxlamalar və işlərin asanlaşdırılması baxımından onların birləşdirilməsinin nəzərdən keçirilməsi məsələsinə toxundunuz. Bununla yanaşı, Cinayət Məcəlləsinə dair məsələlər də qeyd edilmişdir. Ümumiyyətlə, mən hesab edirəm ki, biz Cinayət Məcəlləsinin dekriminalizasiyası üzərində çalışmalıyıq. Kiçik qanun pozuntularına, məsələn, 2000 manat həcmində olan pozuntulara görə cəzaları nəzərdə tutan maddələr aradan qaldırılmalıdır. Hətta devalvasiyadan öncə 2000 manat o qədər də böyük pul deyildi. Düşünürəm ki, biz mütləq qaydada bunun üzərində çalışacağıq. Sizə bu təkliflərə görə təşəkkür edirəm.

Dövlətə məxsus müəssisələr məsələsi. Razıyam ki, burada korporativ idarəetmə özəl şirkətlərdəki kimi olmalıdır. Mən bununla bağlı artıq belə müəssisələrin rəhbərlərinə göstərişlər vermişəm və bəzilərində artıq transformasiya prosesi başlamışdır. SOCAR-da, Xəzər Dəniz Gəmiçiliyi şirkətində müsbət dəyişikliklər var və ümid edirəm ki, digər şirkətlər də bu istiqamətdə işləyəcək. Onlar ilə özəl şirkətlər arasında yeganə fərq sadəcə, səhmlərinin dövlətə məxsusluğu olacaqdır.

Bu başadüşüləndir, çünki həmin müəssisələr strateji əhəmiyyətlidir. Bəlkə vaxt gələcək ki, onların səhmləri satışa çıxarılacaq və mən bunu ehtimal edirəm. Ancaq keçmişi və deyərdim, təfəkkürü nəzərə alsaq, onlar hazırda dövlətə məxsus olaraq qalmalıdır. Hansısa bir kənddə qaz olmayanda insanlar dövlət müəssisəsinin qapısını döyürlər. Yəni vaxt gələcək və həmin şirkətlərin bir hissəsi satışa çıxarılacaq, ancaq hazırda korporativ idarəetmə çox vacib məsələdir. Eyni zamanda, hesab edirəm ki, sistemin daha səmərəli olması ilə bağlı sizin tərəfinizdən də müəyyən istiqamət təqdim edilməlidir. O zaman onlar daha səmərəli, şəffaf və açıq fəaliyyət göstərəcək, maliyyələşdirmə, yaxud digər formada daha fəal işləyəcəklər.

Şəffaflıq məsələsinə gəldikdə, mən dəfələrlə bununla bağlı fikirlərimi bildirmişəm. Bu, hər bir ölkə və şirkət üçün vacibdir. Biz bu sahədə işləri davam etdirəcəyik.

Cənab Qordon, fikirlərinizə görə təşəkkür edirəm. Digər iştirakçılardan fərqli olaraq, biz sizinlə tez-tez görüşürük. Bu isə bizim strateji əməkdaşlığımızdan irəli gəlir. Şadam ki, 20 ildən artıq müddət ərzində *bp* Azərbaycanda fəal çalışır və sərmayə, xüsusilə yerli şirkətlər üçün imkanların yaradılması sahəsində, təhsil sahəsində gözəl işləyirsiniz. Dediyiniz kimi, əməkdaşlarınızın təqribən 90 faizi azərbaycanlılardır. Bu, yaxşı haldır və bizim yaxşı tərəfdaş olmağımızın göstəricisidir.

Ancaq *bp*-nin Azərbaycan iqtisadiyyatında xüsusi mövqeyə malik olmasına baxmayaraq, bizim gündəlik fəaliyyətimizdə problemlərimiz də olur və onların hamısı nəzərə alınmalıdır. Bildiyimə görə, sizin SOCAR ilə çox yaxşı işgüzar əlaqələriniz, digər dövlət təsisatları ilə də təmaslarınız var.

Problemlərin həll edilməsi siyasi mədəniyyəti çox vacib məsələdir. Ümumiyyətlə, siyasi mədəniyyət olduqca vacibdir. Biz gənc dövlətik. Hüquqi və siyasi sistemin sabitliyi, proqnozlaşdırılma istənilən sərmayəni şərtləndirən amillərdir. Sərmayələr yalnız sabit, proqnozlaşdırılan və sabit təsisatlara malik ölkəyə yatırıla bilər. Hesab edirəm ki, siyasi sabitlik Azərbaycanın üstün cəhətlərindəndir. İqtisadi və maliyyə

sabitliyi də təmin olunur. Cəmiyyətimizdə xarici siyasət prioritetləri, iqtisadi və daxili siyasət, habelə ölkəmizin inkişaf istiqamətləri ilə bağlı yekdillik vardır.

Düşünürəm ki, sizin, demək olar, bütün fikirlərinizə münasibət bildirdim. Bir neçə məsələni əlavə etmək istərdim. Burada «Elektron hökumət» məsələsi qeyd edildi. Biz bu sahədə çalışırıq. «ASAN xidmət» yaxşı nümunədir. 2 il ərzində oraya 7 milyon müraciət olunmuşdur və bu rəqəm böyük ehtimalla artmışdır. Bu, dövlət qulluğunda bir inqilab oldu. Bu nəinki dövlət qulluğunda, zənnimcə, xalqımız üçün böyük yenilik oldu. Əvvəllər onlar bunun mümkün olmasına inanmırdılar. Yəni adamlar üçün almaq istədiklərini hər hansı tələb olmadan əldə etmələri mümkün oldu. Bir sözlə, həmin iş bunun mümkünlüyünü göstərdi. Göstərdi ki, biz buna nail ola bilərik. Hazırda isə məqsəd həmin fəaliyyəti genişləndirməkdir. Söhbət onun təkcə coğrafi baxımdan genişləndirilməsindən getmir. Hazırda rayonlarda iki mərkəz tikilmək üzrədir. Həmçinin orada göstərilən xidmətlərin sayı da artacaq. Biz daha çox xidmət növlərini əlavə edəcəyik.

Öncə söylədiyim kimi, «ASAN» hər yerdə olacaq. «ASAN» şəffaflıq, mədəniyyət, xidmət, sıfır korrupsiya və sıfır bürokratiya deməkdir. Ölkəmizdə biz məhz bunlara nail olmalıyıq ki, insanlar rahat həyat sürsünlər. İnsanlar nə istəyirlər? Onlar öz hüquqlarının təmin edilməsini arzulayırlar. Onlar hər hansı qeyri-qanuni yanaşmaya məruz qalmalı deyillər. Buna görə «ASAN» genişlənəcək və ola bilsin, siz daha hansı xidmətlərin oraya əlavə edilməsi ilə bağlı məsləhətlər verə bilərsiniz. Bu, artıq bizim brendimizdir – Made in Azerbaijan. Şadam ki, artıq əqli məhsullarla da fəxr edə bilərik.

Korrupsiya üzləşdiyimiz ciddi problemlərdən biridir. İslahatlar korrupsiyanın nəzərəçarpan dərəcədə azaldılmasına yönəldilib. Əfsuslar olsun ki, inzibati tədbirlər, eləcə də cəza tədbirləri istədiyimiz effekti vermir. Onların müvəqqəti təsiri var, çünki vaxt keçir və digər insanlar gəlir. Bu, yenə də təkrarlanır. Biz nə etməliyik? Bunun üçün təsisati tədbirlərlə şəraiti daraltmalıyıq ki, bu, mümkün olmasın.

«ASAN xidmət»dəki kimi, digər sektorlarda da etməliyik. Buna görə, korrupsiyaya qarşı mübarizə davam edəcək və biz imkanları daraldacağıq. Bu bəlaya qarşı uğurlu mübarizə aparacağıq. Həmçinin bunun bir hissəsi olan bürokratiyaya da qarşı gedəcəyik. Bürokratiya korrupsiyaya bağlıdır, çünki bəzi dövlət məmurları nəyisə əldə etmək üçün bürokratik əngəllərdən istifadə edir və sahibkarların, insanların işini çətinliyə salırlar. Onlar bunu öz maraqlarını təmin etmək üçün edirlər.

Bildirmək istəyirəm ki, biz genişmiqyaslı özəlləşdirmə proqramına başlamaq fikrindəyik. Bu, artıq elan edilib. Hazırda hökumət bir sıra sektorlar üzərində çalışır. Ümid edirəm ki, biz Azərbaycanı yeni yanaşma və islahatlarla xarici şirkətlər üçün çox cəlbedici edəcəyik. Bütün bunlar, fikrimcə, qaldırılmış əsas məsələlərdir.

Şərhlərinizə görə çox minnətdaram. Əminəm ki, yenidən görüşəcəyik və bunu bir növ, dövri iclas formasına salacağıq. Sizdən heç kim hökumətimizi tənqid etmədi və bu, məni təəccübləndirdi. Siz çox nəzakətli oldunuz. Sağ olun buna görə. Lakin mən bu görüşü tənqidsiz tərk edə bilmərəm. Bu səbəbdən, mən sizi tənqid etmək istərdim. Bu isə gender bərabərsizliyi ilə bağlıdır. Palata üzvləri arasında yalnız iki qadın var. Ümid edirəm ki, növbəti görüşdə işgüzar qadınları daha çox görəcəyik. Çox sağ olun, sizə böyük uğurlar arzulayıram.

## TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏR

*13 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 13-də İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitində iştirak etmək üçün Türkiyə Respublikasına işgüzar səfərə gəlmişlər.*

*İstanbulun Atatürk Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Türkiyənin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İstanbul*

*13 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafı məmnunluqla vurğulandı. Strateji əməkdaşlığın bundan sonra da bütün sahələrdə genişlənəcəyinə əminlik ifadə olundu. İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin münasibətlərimizin dərinləşdirilməsi baxımından önəmi diqqətə çatdırıldı. Yüksək səviyyəli görüşlərin əlaqələrimizin möhkəmləndirilməsində rolu, ölkələrimizin energetika və digər sahələrdə qlobal layihələrdə əməkdaşlığının önəmi qeyd edildi.*

*Söhbət zamanı Dağlıq Qarabağda cəbhə xəttində baş verən son hadisələr və hazırkı vəziyyət müzakirə olundu. İkitərəfli və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ BAKİR İZZETBEKOVİÇ İLƏ GÖRÜŞ

*İstanbul*

*13 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də İstanbulda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviç ilə görüşmüşdür.*

*Görüşdə münasibətlərimizin dinamik inkişafından məmnunluq ifadə edildi, qarşılıqlı əlaqələri bundan sonra daha da genişləndirmək üçün yaxşı imkanların olduğu bildirildi. Söhbət zamanı enerji sahəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» layihəsi çərçivəsində görülən işlərlə bağlı məlumat verdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, xüsusilə son vaxtlar qoşunların təmas xəttində baş verən gərginliklə bağlı fikir mübadiləsi aparıldı.*

*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviç prezident İlham Əliyevi ölkəsinə səfərə dəvət etdi.*

*Dövlətimizin başçısı dəvətə görə minnətdarlığını bildirdi, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrini Azərbaycana səfərə dəvət etdi.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XIII SAMMİTİNDƏ İŞTİRAK

*İstanbul*

*14 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 14-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) XIII Sammitində iştirak etmişlər.*

*Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.*

*İƏT-in qurucu üzvlərindən olan Türkiyənin ev sahibliyi etdiyi XIII Sammit «Ədalət və sülh üçün birlik və həmrəylik» devizi altında keçirilir. Bu Sammit islam dünyasının layiq olduğu ədalətə və sülhə təhlükə yaradan mövcud problemlərin həll edilməsi, risklərin və təhdidlərin qarşısının alınması yollarının tapılması ilə bağlı islam aləmində birlik və həmrəyliyə ehtiyac yarandığı bir dövrdə təşkil olunub.*

*Sammit müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlandı.*

*İslam Əməkdaşlıq Təşkilatının XII Sammitinə sədrlik edən Misirin Xarici İşlər naziri Sameh Şukri çıxışında müsəlmanların və islam ölkələrinin maraqlarının qorunması baxımından İƏT-in fəaliyyətini yüksək qiymətləndirdi. O, Misirin sədrliyi dövründə üzv ölkələrlə əməkdaşlıq şəraitində islam dünyasında mövcud problemlərin həlli istiqamətində fəal səy göstərdiyini vurğuladı. Hazırda islam dünyasında, ərəb ölkələrində, ümumilikdə Yaxın Şərq regionunda ciddi böhranların yaşandığını vurğulayan sədr dedi ki, bu münaqişələrin, terrorun arxasında xarici qüvvələrlə yanaşı, daxili narazılıqlar da var.*

*Sameh Şukri son aylarda bölgədə silahlı münaqişələrin, terror hadisələrinin daha da şiddətləndiyini vurğulayaq, bunun ciddi bir*

*təhdid olduğunu bildirdi. O, islam dünyasında mövcud problemlərin, o cümlədən Fələstin məsələsinin, Suriya böhranının, həmçinin son illər artmaqda olan islamofobiyanın və digər problemlərin həlli üçün səylərin birləşdirilməsinin vacibliyini bildirdi. Misirin Xarici İşlər naziri İslam Əməkdaşlıq Təşkilatına sədrliyin Türkiyə Respublikasına keçdiyini elan etdi.*

*İƏT-ə sədrliyi qəbul edən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Sammitdə çıxış edərək, bu tədbirin bütün islam dünyası üçün uğurlu olmasını arzuladı.*

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni Sammitə yüksək səviyyədə ev sahibliyinə, eləcə də dünyada islam ölkələrinin mənafeyini fəal müdafiə etməsinə görə Türkiyəyə minnətdarlığını bildirdi. İƏT-in baş katibi təcavüzkar Ermənistanın Azərbaycana qarşı davam etdirdiyi işğalçılıq siyasətini pislədi.*

**İ y a d b i n A m i n M ə d ə n i:** Ermənistanın Dağlıq Qarabağda işğalı davam etməkdədir. Biz problemin Birləşmiş Millətlər Təşkilatının münaqişə ilə bağlı qərarlarına uyğun olaraq həllini istəyirik. Azərbaycan dövlətinin beynəlxalq aləmdə tanınan sərhədlərinin və suverenliyinin bərpasının, bölgədə sülhün və təhlükəsizliyin bərqərar edilməsinin vacibliyini düşünürük.

*Müsəlman ölkələrindəki qarşıdurmaların tezliklə həll olunmasını müasir dünyanın qarşısında duran əsas vəzifə olduğunu deyən baş katib diqqətə çatdırdı ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr əsasında həll olunmalıdır. O qeyd etdi ki, İƏT problemin həllində Azərbaycana dəstəyini davam etdirəcəkdir. Baş katib əminliklə vurğuladı ki, İƏT-in İstanbul Sammiti digər müsəlman ölkələrindəki münaqişələr kimi, Dağlıq Qarabağ problemi barədə də ədalətli və qətiyyətli mövqe nümayiş etdirəcək.*

*Baş katib, həmçinin üzv ölkələri arasında iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi, elm, təhsil sahəsində əlaqələrin, ən müasir texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi və sair sahələr üzrə görülən işlər barədə məlumat verdi.*

*Sonra Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan nitq söyləyərək, Sammitin əsas mövzusu olan prinsiplərin dünyada baş verən böh-*

ranların, xüsusən də islam aləmində yaşanan gərginliklərin həll edilməsi baxımından qısa zamanda bərqərar olunmasının əhəmiyyətini diqqətə çatdırdı. Rəcəb Tayyib Ərdoğan bu problemlərin əsas səbəbinin dünyada irqçilik, məzhəbçilik, etnik və dini ayrı-seçkiliyin olduğunu qeyd edərək, həmin münaqişələr, böhranlar nəticəsində milyonlarla insanın əziyyət çəkdiyini dedi. «Dünyada yaşanan problemlərdən, münaqişələrdən, böhranlardan daha çox əziyyət çəkən sadəcə, islam dünyası və müsəlman ölkələridir» – deyən Rəcəb Tayyib Ərdoğan bu Sammitin müsəlman ölkələrinin səylərini birləşdirməsi, əməkdaşlığı inkişaf etdirməsi yolunda dönüş nöqtəsi olacağına əminliyini bildirdi.

Son illərdə Türkiyədə baş verən terror hadisələrinə diqqət çəkən prezident Rəcəb Tayyib Ərdoğan bəzi Qərb ölkələrinin terror təşkilatlarına və onların qanlı aksiyalarına ikili standartlarla yanaşdığını, Parisdə, Brüsseldə baş verən terror hadisələri anıldığı halda, Ankara, İstanbul və Lahorda baş verənlərin yad olunmadığını dedi. İslam ölkələrinin qarşıdakı dövrdə sülh, inkişaf və təhlükəsizlik məsələlərinə daha çox diqqət göstərmələrinin əhəmiyyətini vurğulayan Rəcəb Tayyib Ərdoğan qardaşlığı sadəcə, sözdə yox, siyasi, iqtisadi, mədəniyyət və bir çox istiqamətlərdə qurulan əməkdaşlıqla da göstərməyin vacib olduğunu bildirdi, gənclərin fəaliyyətinin təşkilatlanmasının, qadın hüquqlarının qorunmasının zəruriliyinə diqqət çəkdi. İƏT-in qadınlarla bağlı konfransının keçirilməsi, bu sahədə qadın təşkilatının yaradılması təşəbbüsü ilə çıxış edən Rəcəb Tayyib Ərdoğan ortaq Qızıl Aypara Cəmiyyətinin yaradılmasının mümkünlüyünü bildirdi, İslam İnkişaf Bankını bu təşəbbüslərə fəal dəstək verməyə çağırdı.

Sonra müsəlman ölkələrində baş verən proseslərlə bağlı qısa film nümayiş etdirildi.

Daha sonra Asiya, ərəb və Afrika ölkələri qrupları adından çıxışlar dinlənildi.

Bəhreyn, Bruney, Küveyt, Qətər, Səudiyyə Ərəbistanı, Türkiyə, İran, Qazaxıstan, Pakistan, Fələstin, Əfqanıstan, İndoneziya, Malayziya, Banqladeş, İordaniya, Livan, Oman, Özbəkistan, Tacikistan, Qırğızıstan, Maldiv adaları, Birləşmiş Ərəb Əmirlikləri, Yəmən,

*Türkmənistan, Suriya, İraqın daxil olduğu Asiya qrupu adından Azərbaycan prezidenti İlham Əliyev çıxış etdi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Baş katib, zati-aliləri, Zirvə iştirakçıları!

Asiya qrupu adından əziz qardaşım prezident Rəcəb Tayyib Ərdoğana və Türkiyə Respublikasının Hökumətinə İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinə ev sahibliyi etməsinə və bütün nümayəndə heyətlərinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm. İslam Əməkdaşlıq Təşkilatına sədrliyi qəbul etmiş Türkiyə Respublikasını təbrik edir və bu önəmli vəzifələri yerinə yetirməkdə ona uğurlar arzulayıram.

Türkiyənin sədrliyinin islam dünyasında davamlı inkişafa, tərəqqiyə və əmin-amanlığa əhəmiyyətli töhfə verəcəyinə inanırıq və təşkilatın məqsədlərinə nail olmaq istiqamətində İslam Əməkdaşlıq Təşkilatının yeni sədri ilə əməkdaşlıq etməyə tam hazır olduğumuzu bildiririk. Sağ olun.

*Sonra ərəb ölkələri qrupu adından Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Tani, Afrika ölkələri qrupu adından Qambiya prezidenti Yəhya Camme və Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz əl-Səud çıxış etdilər.*

*Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışlara görə dövlət başçılarına minnətdarlığını bildirdi.*

# BMT BAŞ KATİBİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ CEFRİ FELTMAN İLƏ GÖRÜŞ

*İstanbul*

*14 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də İstanbulda BMT Baş katibinin siyasi məsələlər üzrə müavini Cefri Feltman ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanın BMT və onun qurumları ilə sıx əməkdaşlıq etdiyi bildirildi. Azərbaycanın BMT ilə birgə bu il Bakıda təşkil edəcəyi Sivilizasiyalar Alyansının VII Qlobal Forumu bu əməkdaşlığın yaxşı göstəricisi kimi səciyyələndirildi. Foruma hazırlıq prosesinin başa çatmaqda olduğu vurğulandı, tədbirlə bağlı bir sıra təşkilati məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı BMT Baş katibi Pan Gi Munun VII Qlobal Forumda iştirakının mühüm əhəmiyyət daşıyacağı, bunun Azərbaycan və region üçün önəmli hadisə olacağı qeyd edildi. BMT Baş katibinin Azərbaycana səfərinin sülh, sabitlik, təhlükəsizlik məsələləri ilə bağlı dünyaya mühüm mesaj olacağı da vurğulandı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı. Pan Gi Munun Bakıda bu münaqişənin həlli, habelə Ermənistanın təxribatçı əməllərinin qarşısının alınması ilə bağlı verəcəyi mesajın mühüm əhəmiyyət kəsb edəcəyi diqqətə çatdırıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*İstanbul*

*14 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də İstanbulda Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–Türkiyə ikitərəfli əlaqələrinin yüksək səviyyədə olması bildirildi, ölkələrimiz arasında dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə edildi.*

*Söhbət zamanı 30-dan çox dövlət başçısının iştirak etdiyi İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin əhəmiyyəti vurğulandı.*

*Azərbaycan prezidenti İlham Əliyev Sammitin yüksək səviyyədə təşkil olunduğunu qeyd etdi və İslam Əməkdaşlıq Təşkilatına sədrliyi dövründə Türkiyəyə uğurlar arzuladı.*

*Görüşdə son vaxtlar Dağlıq Qarabağda cəbhə bölgəsində baş verən hadisələrlə bağlı fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*İstanbul*

*14 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 14-də İstanbulda İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərin, əməkdaşlıq əlaqələrinin müxtəlif sahələrdə dinamik inkişaf edərək, yüksək səviyyəyə qalxması məmnunluqla vurğulandı. Əməkdaşlıq əlaqələrinin daha da inkişafı üçün geniş imkanların olduğu qeyd edildi. Bu baxımdan belə görüşlərin və qarşılıqlı səfərlərin intensivləşdirilməsinin mühüm rol oynadığı bildirildi.*

*Söhbət zamanı aprelin əvvəlində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş hadisələrlə bağlı geniş fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev qeyd etdi ki, biz müharibə istəmirik. Ancaq Ermənistan hərbi birləşmələrinin təxribatçı əməllərinə cavab verməli olduq. Dövlətimizin başçısı hadisələr zamanı telefonla zəng etdiyinə və narahatlığını ifadə etdiyinə görə İran Prezidentinə təşəkkürünü bildirdi.*

*Görüşdə neft-qaz sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu. Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı danışıqlar prosesinin davam etdirilməsinin əhəmiyyəti vurğulandı. Bildirildi ki, bütün bunlar ölkələrimiz arasında siyasi, təhlükəsizlik və digər sahələrdə əlaqələrin daha yüksək səviyyəyə çatmasına xidmət edəcək. Azərbaycan və İran prezidentləri müxtəlif sahələrdə, o cümlədən viza rejimi, turizm, maliyyə–bank sahələrində əlaqələrin inkişaf etdirilməsi, eyni zamanda, ekstremizmə, terrorizmə və radikalizmə qarşı mübarizədə əməkdaşlıq və digər istiqamətlərdə münasibətlərin genişləndirilməsi ilə bağlı geniş fikir mübadiləsi apardılar.*

# İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XIII SAMMİTİNİN I SESSİYASINDA ÇIXIŞ

*İstanbul*

*14 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin I sessiyasında çıxış etmişdir.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Sədr!

Hörmətli cənab Baş katib!

Hörmətli Sammit iştirakçıları!

İlk növbədə, əziz qardaşım, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana İslam Əməkdaşlıq Təşkilatının Sammitinə dəvətə və tədbirin əla təşkilinə görə təşəkkür edirəm.

Son illərdə qardaş Türkiyə beynəlxalq aləmdə artan nüfuzu sayəsində «Böyük İyirmilik»in üzvü kimi, qlobal inkişafa mühüm töhfə verir. İslam Əməkdaşlıq Təşkilatına sədrliyi dövründə Türkiyəyə uğurlar arzulayıram. İslam Əməkdaşlıq Təşkilatının baş katibi cənab Mədəniyə təşkilatımızın inkişafı üçün göstərdiyi səylərə görə təşəkkür edirəm.

Azərbaycan islam ölkələri ilə əməkdaşlığı prioritet hesab edir. Son illər ərzində Bakıda İƏT-ə üzv ölkələrin Xarici İşlər, Mədəniyyət, Turizm, Təhsil, Əmək və digər nazirlərinin 10-a yaxın görüşü olub. Mən İƏT-in qarşılıqlı dəstək və həmrəylik yolunda fəaliyyətini yüksək qiymətləndirirəm. Bu gün dünyada islamofobiya ciddi təhlükələrdən biridir. Biz bu tendensiyanı qətiyyətlə pisləyirik. Əslində islam sülh, mərhəmət, dözümlülük, ədalət dinidir. İslamı

terrorla eyniləşdirmək isə səhv və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir.

Hörmətli Sammit iştirakçıları, mən sizin diqqətinizi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək istəyirəm. Ermənistan 20 ildən artıqdır ki, Azərbaycana qarşı işğalçılıq siyasəti aparır. Bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizi – Dağlıq Qarabağ və ətrafındakı 7 rayon Ermənistan tərəfindən işğal edilib, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb və 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Ermənistan Xocalı soyqırımını törədibdir. Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, «Qoşulmama Hərəkatı», ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. Mən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyən ədalətli qətnamələrə görə İƏT-ə səmimi minnətdarlığımı bir daha ifadə edirəm. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır. Onlardan biri də aprelin əvvəllərində törədildi. Silahlı hücum nəticəsində Azərbaycan hərbçiləri və mülki şəxslər həlak oldular. Azərbaycan Ordusu Ermənistanın təxribatının qarşısını aldı. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar İƏT qərar qəbul edib ki, Xarici İşlər nazirləri səviyyəsində kontakt qrupu yaradılsın. Bu qərara görə təşəkkür edirəm.

Hörmətli Sammit iştirakçıları, Azərbaycan mütəmadi olaraq mədəniyyətlər və dinlərarası dialoqa öz töhfəsini verir. Aprelin sonunda biz BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu keçirəcəyik. Azərbaycan islam ölkələri arasında həmrəyliyə böyük əhəmiyyət verir. 2017-ci ildə IV İslam Həmrəyliyi oyunları Bakıda keçiriləcəkdir. Bu münasibətlə mən sizin hamınızı bu oyunları seyr

etmək üçün Bakıya dəvət edirəm. İnanıram ki, bu tədbir islam aləmində sülhün və həmrəyliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Sonda mən bir daha prezident Rəcəb Tayyib Ərdoğana səmimi qonaqpərvərliyə görə təşəkkür edir, zirvə görüşünün işinə uğurlar arzulayıram. Diqqətinizə görə minnətdaram.

## TÜRKİYƏ RESPUBLİKASI BAŞ NAZİRİNİN ADINDAN İƏT-in XIII SAMMİTİNİN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*İstanbul*

*14 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də İstanbulda Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlunun adından İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin iştirakçılarının şərəfinə verilmiş naharda iştirak etmişdir.*

*Mərasimdə çıxış edən Türkiyənin Baş naziri Əhməd Davudoğlu İslam Əməkdaşlıq Təşkilatının bu zirvə görüşünün səmərəli olacağına əminliyini ifadə etdi. Bu Sammitin dünyanın çox mürəkkəb vaxtında keçirildiyini deyən Türkiyə hökumətinin başçısı islam dünyasının İstanbuldan beynəlxalq aləmə sülh və əməkdaşlıq mesajı verdiyini diqqətə çatdırdı.*

*«İslam dünyası tarixdə bütün mədəniyyətlərin mərkəzi olub, ən güclü dövlətlər bu məkanda yaranıb» – deyən Əhməd Davudoğlu İslam Əməkdaşlıq Təşkilatının bu coğrafiyada sülh və sabitliyin bərqərar olmasına yardım edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Türkiyənin Baş naziri islamı terrorla eyniləşdirməyə çalışan qüvvələrə qarşı birgə mübarizənin əhəmiyyətini vurğuladı, islamla bağlı formalaşdırılan mənfi rəylərin aradan qaldırılması, Suriya, İraq və Liviyadan olan qaçqınlara yardımın göstərilməsi, islam ölkələri arasında yüksək səviyyəli dialoqun baş tutması, iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi, islam dünyasını parçalamaq təşəbbüslərinə qarşı birgə mübarizə aparılması, islam dünyasına məxsus bütün işğal edilmiş ərazilərin, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ*

*bölgəsinin tezliklə işğaldan azad olunması ilə bağlı ortaq mövqedən çıxış edilməsinin vacibliyini bildirdi.*

*Qeyd edək ki, İslam Əməkdaşlıq Təşkilatı 1969-cu ildə yaradılıb və özündə 60-a yaxın islam dövlətini birləşdirir. BMT ilə sıx əməkdaşlıq edən təşkilatda bəzi ölkələrin müsəlman icmaları birləşib. Bir sıra beynəlxalq təşkilatların nümayəndələri də İslam Əməkdaşlıq Təşkilatı yanında müşahidəçi statusuna malikdirlər.*

## DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*İstanbul*

*14 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 14-də İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın adından İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə verilmiş ziyafətdə iştirak etmişlər.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Türkiyə Respublikasına işgüzar səfəri aprelin 15-də başa çatdı.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Cənubi Qafqaz üzrə xüsusi nümayəndə Herbert Salber ötən səfərindən keçən az müddət sonra Avropa İttifaqı rəhbərliyinin tapşırığı ilə ölkəmizə yenidən səfər etməsinin aprelin əvvəlində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş hadisələrin daha yaxından öyrənilməsi ilə bağlı olduğunu dedi. Herbert Salber Avropa Komissiyasının vitse-prezidenti, Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Federika Moqerininin Azərbaycana son səfərini xatırlatdı.*

*Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində yaranmış gərginliyin narahatlıq doğurduğunu qeyd edən Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Avropa Parlamentinin bu günlərdə keçirilən plenar iclasında təmsil etdiyi qurumun baş vermiş hadisələrə öz münasibətini bildirdiyini, bu istiqamətdə müzakirələrin aparıldığını vurğuladı, məsələnin Avropa İttifaqının gələn həftə Lüksemburqda keçiriləcək Xarici Məsələlər Şurasında da müzakirəyə çıxarılacağını dedi.*

*Söhbət zamanı qeyd olundu ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların tarixinə nəzər saldıqda, Ermənistan ordusunun qoşunların təmas xəttində vaxtaşırı silahlı təxribatlar törətməsi müşahidə olunur. Azərbaycanın cəbhə xəttinə yaxın yerləşən yaşayış məntəqələri mütəmadi surətdə Ermənistan tərəfindən atəşə tutulur, uşaqlar, qadınlar,*

qocalar da daxil olmaqla, mülki əhali həlak olur. Bildirildi ki, məqsəd münaqişə ilə bağlı mövcud vəziyyəti olduğu kimi saxlamaqdır.

Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən proseslər, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

Əlahəzrət!

Ölkənizdə baş vermiş zəlzələlər nəticəsində çoxsaylı insan tələfatı və irimiqyaslı dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Yaponiya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2016-cı il*

# TÜRKİYƏ RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN SƏDRİ İSMAİL RÜŞTÜ CİRİTİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmail Rüştü Ciritin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin İstanbulda keçirilən XIII Sammitində iştirakını məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı bu tədbirdə islam ölkələrinin yüksək səviyyədə təmsil olunmasını Türkiyəyə münasibətin təzahürü kimi qiymətləndirdi. Prezident İlham Əliyev Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Baş nazir Əhməd Davudoğlu ilə görüşlərinin də səmərəli olduğunu diqqətə çatdırdı.*

*Türkiyə Ali Məhkəməsinin sədri İsmail Rüştü Cirit qardaş və dost ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini, türk xalqının bundan məmnun olduğunu bildirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan–Türkiyə qardaşlığını əks etdirən «bir millət – iki dövlət» kəlamının ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin səviyyəsini göstərdiyini vurğuladı. İsmail Rüştü Cirit bir müddət öncə Dağlıq Qarabağda qoşunların təmas xəttində baş vermiş hadisələr zamanı Azərbaycan hərbçilərinin şəhid olması ilə əlaqədar başsağlığı verdi, yaralananlara şəfa dilədi. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını bildirdi.*

*Görüşdə ölkələrimizin məhkəmə sistemləri arasındakı uğurlu əməkdaşlığın ikitərəfli münasibətlərimizin daha da genişlənməsi işinə töhfə verdiyi qeyd olundu.*

**EKVADOR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB RAFAEL KORREA DELQADOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş şiddətli zəlzələ nəticəsində çox saylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Ekvador xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 aprel 2016-cı il*

## «BAKUBUS» MMC-nin İKİNCİ DEPOSUNUN AÇILIŞI MƏRASİMİ

*18 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də «BakuBus» Məhdud Məsuliyyətli Cəmiyyətinin 2-ci deposunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına depoda yaradılan şərait barədə məlumat verildi.*

*Bakı metrosunun «Koroğlu» stansiyasının yaxınlığında yerləşən depoda 300 avtobusun eyni vaxtda park edilməsi mümkündür.*

*Prezident İlham Əliyev deponun rəmzi açılışını bildirən lenti kəsdi və inzibati binada yaradılan şəraitlə tanış oldu.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Depoda işçilərin normal fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılıb.*

*Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli prezident İlham Əliyevə «BakuBus» MMC-nin 10 aylıq fəaliyyəti barədə məlumat verdi.*

*Prezident İlham Əliyevin Bakıda nəqliyyat sahəsində islahatların aparılması, həmçinin I Avropa oyunları ilə əlaqədar yol-nəqliyyat kompleksi üzrə işlərin əlaqələndirilməsi məqsədilə əlavə tədbirlərlə bağlı fərmanına əsasən paytaxtın bugünkü simasına uyğun olaraq, şəhərin nəqliyyat sisteminin və infrastrukturunun inkişafı, sərnişindaşıma xidmətinin müasir tələblərə uyğun təşkili istiqamətində mühüm tədbirlər həyata keçirilib. Məhz bu tədbirlərin nəticəsi olaraq, Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli Qərarına əsasən, «BakuBus» MMC yaradılıb. Hazırda şirkətin Bakı şəhəri üzrə ümumilikdə 7 marşrut xətti ilə 170 avtobusu əhaliyə xidmət göstərir. 7 ay ərzində 24 milyona yaxın sərnişin daşınıb. «BakuBus» MMC-nin depoları fəaliyyətə başladıqdan sonra 1500-ə yaxın iş yeri yaradılacaq. Hazırda isə qurumda müxtəlif istiqamətlər üzrə 750-dək iş yeri açılıb.*

«BakuBus» avtobuslarının sərnişinləri və MMC-nin əməkdaşları qəzalara qarşı sığortalanıblar. Yaradılmış sistem vasitəsilə istənilən şəxs «BakuBus» MMC-nin saytına daxil olaraq, avtobusların marşrut xəttini öyrənə və onları onlayn rejimdə izləyə bilər.

Deponun inzibati binasındakı iclas zalı və digər otaqlar zəruri avadanlıqlarla təchiz edilib. Burada informasiya texnologiyaları və elektron xidmətlərin təşkili, insan resurslarını idarəetmə, marşrut xətlərinin planlaşdırılması, daxili nəzarət və digər şöbələr fəaliyyət göstərir. Binada işçilər üçün müasir yeməkxana da yaradılıb.

Prezident İlham Əliyev «BakuBus» MMC tərəfindən gələcəkdə alınması nəzərdə tutulan avtobuslara da baxdı.

Avtobusların hamısı rahatlığı və təhlükəsizliyi ilə seçilir. Sərnişinlərin təhlükəsizliyi və ətraf mühitə vurula biləcək zərərin minimum səviyyəyə endirilməsi məqsədilə STQ mühərriki ilə işləyən avtobuslara üstünlük verilib. «BakuBus» MMC gələcəkdə də sərnişindaşıma sahəsində müasir standartlar səviyyəsində fəaliyyət göstərməyi qarşısına məqsəd qoyub. Bu məqsədlə avtobus parkının yenilənməsi və müasirləşdirilməsi istiqamətində mühüm layihələr icra edilir.

Diqqətə çatdırıldı ki, «BakuBus» MMC tərəfindən ilk dəfə olaraq hava limanı ekspress xətti istifadəyə verilib. Müasirliyi və rahatlığı ilə seçilən 5 avtobus sərnişinləri metronun «28 May» stansiyasından Heydər Əliyev Beynəlxalq Aeroportuna və əks istiqamətə fasiləsiz olaraq daşıyır. Avtobusların sərnişin tutumu 48 yerlikdir.

Hazırda paytaxtın müxtəlif yerlərində, avtobus dayanacaqlarında «Bakıkart»ın ödəmə aparatları quraşdırılıb. Bundan başqa, «MilliON» aparatları da «Bakıkart» sisteminə inteqrasiya edilib. Sakinlər bu aparatlarda həm «Bakıkart» əldə edə, həm də kartın balansını artıra bilərlər.

Dövlətimizin başçısına məlumat verildi ki, «BakuBus» MMC-nin 2-ci deposunun ümumi ərazisi 8 hektardır. Ərazidə inzibati bina ilə yanaşı, köməkçi binalar, o cümlədən sürücü, tibb, təmir mərkəzləri, avtobusları yuma və gecə növbəsində işləyənlərin qalması üçün məntəqələr inşa edilib.

«BakuBus» MMC-nin 2-ci deposu əhali sıxlığının, hərəkətin intensivliyinin artdığı hazırkı dövrdə bu sahədə əldə olunmuş müsbət

*nəticələrin səmərəliliyinin daha da yüksəldilməsi məqsədilə yaradılıb. Ümumi sahəsi 650 kvadratmetr olan yuma məntəqəsində eyni vaxtda 3 avtobusun yuyulması mümkündür. Müasir yuyucu avadanlıqlarla təchiz edilən məntəqənin üstün cəhətlərindən biri də sərf olunmuş suyun 85 faizinin təmizlənərək, təkrar istifadə edilməsidir. Yuyulduqdan sonra avtobuslarda daxili dezinfeksiya işləri aparılır.*

*Deponun texniki təmir mərkəzi də müasir səviyyədə qurulub. Avtobuslara texniki baxış və təmir xidmətləri göstərmək üçün yaradılan mərkəzdə Almaniya və digər qabaqcıl ölkələrin istehsalı olan müxtəlif növ avadanlıqlar quraşdırılıb. Mərkəzdə eyni vaxtda 10 avtobusa xidmət göstərmək mümkündür.*

*Deponun buraxılış və tibbi yoxlama məntəqəsi də var. Burada sürücülərin xəttə çıxmazdan əvvəl tibbi müayinəsi və zəruri sənədləşmə prosesi aparılır. Ərazidə yağış sularından istifadə üçün kanallar çəkilib, yeraltı çənlər quraşdırılıb, geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.*

*Yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

## BAKI METROPOLİTENİNİN YENİ XƏTTİNİN – «AVTOVAĞZAL» VƏ «MEMAR ƏCƏMİ» STANSİYALARININ AÇILIŞI MƏRASİMİ

*19 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Bakı Metropoliteninin yeni – «bənövşəyi» xəttinin «Avtovağzal» və «Memar Əcəmi» stansiyalarının açılışında iştirak etmişdir.*

*«Avtovağzal» stansiyasının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Bakı Beynəlxalq Avtovağzal Kompleksinə metro xəttinin çəkilməsi ilə bağlı tapşırığı prezident İlham Əliyev 2008-ci ildə metronun «Nəsimi» stansiyasının açılışı zamanı vermişdi.*

*«Bakı Metropoliteni» QSC-nin sədri Zaur Hüseynov dövlətimizin başçısına Bakı Metropoliteni xətlərinin konseptual inkişaf sxemi barədə məlumat verdi. Konseptual inkişaf sxemi Bakı Metropoliteninin mövcud infrastrukturunun 2030-cu ilədək mərhələlərlə genişləndirilməsini və nəhəng yeraltı nəqliyyat şəbəkəsinin yaradılmasını nəzərdə tutur. Bu da Bakı Metropoliteninin gələcəkdə 2-si mövcud və 3-ü əlavə olmaqla, 5 xətdən, 76 stansiyadan və 119 kilometr uzunluğunda yeraltı yollardan ibarət ümumi şəbəkəsinin yaradılması deməkdir. 2030-cu ilədək 53 yeni stansiya inşa ediləcək.*

*Dövlətimizin başçısı «Avtovağzal» stansiyasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə yaxından tanış oldu.*

*Tikintisinə 2009-cu ilin sentyabrında başlanılan stansiyanın layihə işləri «Bakımetrolayihə» İnstitutu tərəfindən yerinə yetirilib. Layihəyə əsasən, «Avtovağzal» stansiyası platformadan, 2 vestibüldən, 8 çıxışdan, havalandırma keçidindən, vestibüllərin üzərində quraşdırılmış 2 piramidadan ibarətdir. Stansiya kompleksinin ümumi uzunluğu 560 metrə yaxındır. Yeni xətdə yaradılan həm «Avtovağzal», həm də «Memar Əcəmi» stansiyalarının platformalarının uzunluğu 144 metrdir. Bu isə platformaya əvvəlki stansiyalarda olduğu kimi 5 deyil, 7 vaqonun daxil olmasına imkan*

*yaradır. Stansiya və keçidlərdə müxtəlif hündürlüklü 20 eskalator, çıxışlarda isə 8 travelator qoyulub. Fiziki imkanları məhdud insanların istifadəsi üçün burada lift quraşdırılıb.*

*Biləcəri qəsəbəsində yaşayan sakinlərin rahatlığını təmin etmək üçün Bakı–Sumqayıt avtomobil yolunun altından keçid inşa edilib. Bakı Beynəlxalq Avtovağzal Kompleksinə 2 keçid quraşdırılıb. Digər 5 çıxış isə «Avtovağzal» stansiyası kompleksinin ərazisində yerləşir.*

*Sonra prezident İlham Əliyev qatarla «Avtovağzal» stansiyasından «Memar Əcəmi» stansiyasına gəldi.*

*«Avtovağzal» – «Memar Əcəmi» mənzil tunellərinin və «Memar Əcəmi» stansiyasının layihə işləri dünyanın aparıcı şirkətləri tərəfində həyata keçirilib. Tunellərin inşası üçün hazırlıq işlərinə 2011-ci ilin fevralında, tikintisinə isə həmin ilin sentyabrında başlanılıb. Podratçı təşkilat tərəfindən tunellərin tikintisi ilə yanaşı, tunellərarası 8 təxliyyə keçidi və 2 havalandırma şaxtası inşa edilib.*

*Dövlətimizin başçısına məlumat verildi ki, burada təmir-tikinti işləri yüksək keyfiyyətlə yerinə yetirilib, stansiya ən müasir tələblərə cavab verir. «Memar Əcəmi» stansiya kompleksinin ümumi uzunluğu 168,5 metrdir. Burada 3 çıxış yaradılıb. Ümumi sahəsi 12000 kvadratmetrə yaxın olan stansiyada və çıxışlarda 17 eskalator quraşdırılıb. Burada, həmçinin fiziki imkanları məhdud insanlar üçün də liftlər var. Hər 2 stansiyanın inşası zamanı əsasən yerli xammaldan istifadə olunub. Şəhər əhalisi üçün mühüm əhəmiyyət daşıyan metropolitenin genişləndirilməsi, yeni stansiyaların açılması, qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər son illər ardıcıl olaraq həyata keçirilir ki, bu da metro nəqliyyatında keyfiyyətin yüksəldilməsi ilə nəticələnib.*

## «AZƏRAVTOYOL» ASC-nin YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*19 aprel 2016-c il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da «Azəravtoyol» ASC-nin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına inzibati binada yaradılan şərait barədə məlumat verdi.*

*Bildirildi ki, 1,7 hektar sahəsi olan bu ərazidə genişmiqyaslı təmir-tikinti, abadlıq-quruculuq işləri aparılıb.*

*İnzibati binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulub, dahi rəhbərin həyatı və siyasi fəaliyyəti ilə bağlı fotolardan ibarət guşə yaradılıb. Burada, həmçinin dövlətimizin başçısının Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafına göstərdiyi diqqət və qayğını əks etdirən fotolar da var.*

*«Azəravtoyol» ASC-nin əvvəlki inzibati binasının sahəsi bu təşkilatın və investisiya layihələri üzrə işçi qruplarının səmərəli fəaliyyət göstərməsi üçün kifayət etmədiyindən, «Azərbaycan Dəmir Yolları» QSC-nin Biləcəri qəsəbəsindəki xəstəxana kompleksinin yararsız vəziyyətə düşmüş dördmərtəbəli 3 korpusu bu qurumun balansına verilib. Binada müasir yeməkxana, 252 yerlik akt zalı yaradılmışdır.*

*Prezident İlham Əliyevin 2016-cı il 9 mart tarixli Fərmanı ilə «Azəryolservis» ASC-nin adı dəyişdirilərək, «Azəravtoyol» ASC adlandırılıb. Həmin fərmana əsasən, «Azəravtoyol» ASC ölkəmizin avtomobil yolları təsərrüfatı sahəsində xidmətlər göstərir, balansına verilmiş avtomobil yollarının, habelə körpülərin, tunellərin və digər yol qovşaqlarının layihələndirilməsi, istismarı, bərpası, təmiri, yenidən qurulması və tikilməsini, avtomobil yollarının və yol qurğularının qorunub saxlanılmasını və onların vəziyyətinə nəzarəti, yol infrastrukturunun inkişafı ilə bağlı digər işləri kompleks şəkildə*

*həyata keçirir. ASC-nin inzibati ofisi, investisiyaların idarə olunması üzrə işçi layihə qrupları və «Azəryolelmitədqiqatlayihə İnstitutu» MMC bu inzibati binaya köçürülüb. Burada işçilər üçün ümumilikdə 210 kabinet yaradılıb. Bina ən müasir havalandırma və yanğından mühafizə sistemləri ilə təchiz edilib. İnşaat işləri zamanı keyfiyyətli tikinti materiallarından istifadə olunub. Orijinal interyeri ilə seçilən binada müasir videomüşahidə və kompüter sistemləri quraşdırılıb. Burada yeni rəqəmsal rabitə sistemi şəbəkəsi qurulub. Binanın dam örtüyünün konstruksiyası tamamilə yenilənib.*

*Ərazidə yaşıllıq-abadlaşdırma işləri aparılıb və meydançalara asfalt-beton örtük çəkilib, səkilər qurulub. Binanın elektrik enerjisi ilə fasiləsiz təmin edilməsi məqsədilə transformator yarımstansiyası tikilib. Su təchizatını təmin etmək üçün isə anbar inşa olunub.*

*Azərbaycan prezidenti İlham Əliyev kollektivə uğurlar arzuladı.*

## BİNƏ QƏSƏBƏSİ ƏLİ İSAZADƏ KÜÇƏSİNDƏ YENİDƏNQURMADAN SONRA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*20 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 20-də Bakının Xəzər rayonunun Binə qəsəbəsi Əli İsazadə küçəsinin yenidənqurma və əsaslı təmir işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşlar.*

*Binə qəsəbəsinin mərkəzindən keçən bu küçə əvvəllər əhalinin və nəqliyyatın gediş-gəlişi üçün olduqca yararsız vəziyyətdə idi. Ensiz küçədə vaxtaşırı tıxaclar yaranır və nəqliyyatın hərəkətində ciddi çətinliklər olurdu.*

*Azərbaycan Prezidentinin tapşırığı ilə Bakı və Bakıətrafı qəsəbələrin ayrı-ayrı yaşayış massivlərində abadlıq və quruculuq işlərinin davamlı olaraq həyata keçirilməsi nəticəsində qəsəbədaxili yollar genişləndirilir, yeni yaşıllıq zolaqları salınır, mövcud parklar abadlaşdırılır. Binə qəsəbəsində 2 kilometrdən çox uzunluğu, əvvəllər 5 metrə qədər eni olan küçədə əsaslı təmir və yenidənqurma işləri də dövlət başçımızın göstərişlərinə uyğun olaraq həyata keçirilib.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, görülən işlər nəticəsində küçənin eni 21 metrə qədər genişləndirilib, ara səkilər salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb. Küçənin genişləndirilməsi layihəsi çərçivəsində çoxlu sayda yaşayış və qeyri-yaşayış obyektləri başqa ərazilərə köçürülüb. Küçəyə ümumilikdə 40 min kvadratmetrə qədər asfalt örtüyü çəkilib.*

*Burada Almaniya istehsalı olan müasir kommunikasiya avadanlıqları quraşdırılıb, abadlaşdırma işlərində keyfiyyətli tikinti materiallarından istifadə olunub.*

# NƏSİMİ RAYONU ƏRAZİSİNDƏKİ YENİ PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*20 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 20-də Bakının Nəsimi rayonunun Səməd Vurğun və Bakıxanov küçələrinin kəsişdiyi ərazidə yeni salınmış istirahət parkında yaradılan şəraitlə tanış olmuşlar.*

*Park salınmazdan əvvəl burada istismar müddəti başa çatmış binalar və ətraf ərazilər yarasız vəziyyətdə olub. Bir sözlə, bu ərazi paytaxtın müasir simasına uyğun deyildi. Məhz buna görə də bu ərazidə yeni parkın salınması layihəsinin icrasına başlanılıb.*

*Yeni parkın salınması ərazinin simasını tamamilə dəyişib və paytaxt sakinlərinin istirahəti üçün müasir tələblərə cavab verən daha bir istirahət guşəsi yaradılıb.*

*Parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Ümumi ərazisi 10 min kvadratmetrə qədər olan yeni parkın salınmasında yüksəkkeyfiyyətli tikinti materiallarından istifadə edilib. Parkın 5 min kvadratmetr ərazisində yaşıllıq zolağı salınıb, çoxlu sayda şam, zeytun və çinar ağacları əkilib. Parkda, həmçinin müasir standartlara uyğun işıqlandırma sistemi quraşdırılıb.*

*İstirahət guşəsində müasir iaşə obyektləri də inşa edilib. Bu obyektlərin tikintisində sınmayan, təhlükəsiz şüşələrdən istifadə olunub. İaşə obyektləri də müasir tələblərə cavab verən işıqlandırma sistemi ilə təchiz edilib. Parkda istirahət üçün hər cür şərait yaradılıb.*

*Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.*

# İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİYƏ «DOSTLUQ» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*21 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri, Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Mahmud Vaezinin ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafı üçün çox böyük işlər gördüyünü, Azərbaycan xalqı və dövləti tərəfindən bu işlərin yüksək qiymətləndirildiyini dedi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə İranın Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezinin Azərbaycanın yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeni ilə təltif olunduğunu dedi və ordeni ona təqdim etdi.*

*Azərbaycanın yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeninə layiq görülməsinə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edən İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezi öz xalqına və öz dinindən olan qonşu Azərbaycan xalqına xidmət etməsindən iftixar hissi duyduğunu vurğuladı.*

*Aprelin 20-də Azərbaycan–İran dövlət sərhədində Astara çayı üzərində dəmir yolu körpüsünün təməlqoyma mərasiminə toxunan dövlətimizin başçısı bunu ötən müddət ərzində görülən işlərin nəticəsi kimi dəyərləndirdi və ölkələrimiz arasında əldə olunan bütün razılaşmaların icra edilməsindən məmnun olduğunu dedi. Prezident İlham Əliyev İstanbulda İran İslam Respublikasının*

Prezidenti Həsən Ruhani ilə görüşdüyünü və bir daha hər 2 tərəfin əlaqələrimizin inkişafı ilə bağlı görüləcək işləri müzakirə etdiklərini vurğuladı. Dövlətimizin başçısı İran İslam Respublikasına səfərini də məmnunluqla xatırlatdı.

Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. Mahmud Vaezi bildirdi ki, ölkəsinin dövlət başçısı prezident İlham Əliyev ilə İstanbuldakı görüşünü böyük razılıq hissi ilə xatırlayır. O, dövlət başçılarının rəhbərliyi ilə ölkələrimiz arasında əlaqələrin ikitərəfli və beynəlxalq əməkdaşlıq sahələrində uğurla inkişaf etdirildiyini vurğuladı.

Dövlətimizin başçısı prezident Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

## CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında əlaqələrin genişlənməsi, dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 aprel 2016-cı il*

**NİDERLAND KRALI**
**ƏLAHƏZRƏT VİLLEM-ALEKSANDRA**

Əlahəzrət!

Niderland Krallığının milli bayramı – Kral Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı və xoşbəxtlik, dost Niderland xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 aprel 2016-cı il*

## «ÜFÜQ», «ZƏFƏR» VƏ «TURAN» SƏRNİŞİN GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*22 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Bakı Gəmiqayırma zavodunda «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə inşa edilən «Üfüq», «Zəfər» və «Turan» sərnişin gəmilərinin istismara verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və «Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına zavodda inşa edilən gəmilər barədə məlumat verdilər. Bildirildi ki, hazırda gəmiçiliyin donanması üçün zəruri olan müxtəlif təyinatlı gəmilərin inşası ilə bağlı danışıqlar aparılır. Onların arasında tankerlər, quru yük gəmiləri, konteynerdaşıyan gəmilər, kran, yanğınsöndürən, yedək-təchizat, təchizat və nəqliyyat gəmiləri var.*

*Dövlətimizin başçısı gəmilərin istismara verilməsini bildirən lenti kəsdi.*

*Azərbaycan neftçilərinin dəniz platformalarına çatdırılması üçün nəzərdə tutulan sərnişin gəmilərinin inşasına dair müqavilə 2014-cü ilin mayında imzalanıb. Müvafiq layihə və hazırlıq mərhələsindən sonra tikinti işlərinə 2014-cü ilin oktyabrında başlanılıb. Gəmilərin hamısı körpüdə və dənizdə sınaqlardan uğurla keçib və istismara hazır vəziyyətdədir. Onların hər biri 80 sərnişin tutumuna malikdir. Uzunluğu 38, eni 8, suya oturumu 2,25 metr olan gəmilərin gövdəsi polad, üst tikililəri isə alüminium materialdan hazırlanıb. Yüngül materialların tətbiqi, hərəsinin gücü 1920 kilovat olan 2 baş mühərrikin qoyulması sərnişin gəmilərinə saatda 35 kilometrə yaxın sürət yığmağa imkan verir. Bu, mövcud gəmilərin sürəti ilə müqayisədə 2 dəfə çoxdur. Eyni zamanda, yeni gəmilər göyərtələrinə 10 tonadək*

*müxtəlif yük də götürə bilir. Beləliklə, neftçilərin və yüklərin dəniz platformalarına daha tez və rahat çatdırılması təmin ediləcək.*

*Sonra prezident İlham Əliyev «Üfüq» sərnişin gəmisinin istismara verilməsini bildirən düyməni basdı.*

*Yeni sərnişin gəmilərinin inşası Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsində mühüm rol oynayan Bakı Gəmiqayırma zavodunun növbəti uğurudur. Zavod Azərbaycanın gəmiçilik sahəsində idxaldan asılılığının aradan qaldırılmasına xidmət edərək, Xəzər donanmasını müasirləşdirməyə imkan verir. Eyni zamanda, bu zavod ixrac potensialımızın gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.*

*Qeyd edək ki, hazırda Bakı Gəmiqayırma zavodunda bp şirkətinin sifarişi ilə «Xankəndi» sualtı tikinti gəmisinin inşası aparılır. Bu, indiyə qədər Bakı Gəmiqayırma zavodunda icra olunan ən mühüm sifarişdir. Gəmi Xəzər dənizində xüsusi təyinatlı əməliyyatların həyata keçirilməsi üçün nəzərdə tutulub və DNV GL Norveç və Almaniya təsnifat cəmiyyətinin nəzarəti altında tikilir. Gəmidə 600 metr dərinlikdə sualtı quraşdırma və yükqaldırma işləri üçün 900 tonluq əsas kran qoyulacaq. Bundan əlavə, dərin sularda mürəkkəb dalğıc əməliyyatları üçün 18 nəfərlik dalğıc kameraları və məsafədən idarə olunan 2 sualtı robotla təchiz ediləcək. Dinamik mövqe idarəetmə sistemi–DP3 ilə təchiz olunmuş gəminin uzunluğu 155, eni 32, bortunun hündürlüyü isə 13 metr təşkil edir. Ümumi gücü 32 min kilovat olan gəmidə 8 mühərrik quraşdırılıb ki, bu da onun layihəyə uyğun olaraq 13,5 uzel sürətini təmin edəcək. 175 nəfərlik kayutlarla təchiz olunan gəminin layihəsi üzrə işlərin artıq 80 faizi yerinə yetirilib və 2017-ci ilin aprelində sifarişçiyə təhvil verilməsi planlaşdırılır.*

*Son dövrlərdə gəmiçilik sahəsinin inkişafına, gəmiçilik fəaliyyəti ilə əlaqəli infrastrukturun təkmilləşdirilməsinə dövlətimizin başçısı tərəfindən xüsusi diqqət göstərilir və ciddi islahatlar həyata keçirilir. «Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin müxtəlif təyinatlı gəmiləri ölkəmizin ərazisindən keçən tranzit yüklərin daşınmasında mühüm yer tutur və Azərbaycanın regionun nəqliyyat və logistika qovşağına çevrilməsinə, tranzit ölkə kimi, Asiya və Avropa arasında yükdaşımalarda mövqeyinin möhkəmlənməsinə xidmət edir.*

*Gəmiçiliyin strategiyasına müvafiq* olaraq, *Xəzərdən kənar* sular-da *fəaliyyətin genişləndirilməsi məqsədilə yaxın* vaxtlarda *hər* birinin 5500 ton *yükgötürmə qabiliyyəti* olan 6 quru *yük gəmisi* istismara *veriləcək.* Bununla da *Xəzərdən kənarda,* Qara *və Aralıq dənizləri hövzələrində Azərbaycan* bayrağı *altında üzən gəmilərimizin* sayı *11-ə çatacaq.*

*Gəmilərlə yaxından tanış* olan *prezident İlham Əliyev* kollektivə *uğurlar arzuladı.*

**LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOUNYANQ VOLAÇİTƏ**

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Laos arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Laos xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 aprel 2016-cı il*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*25 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Bakıda keçirilən BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda iştirak etmək üçün ölkəmizə işgüzar səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı qarşıladılar.*

*Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Yüksək səviyyəli görüşlərin əməkdaşlığın inkişafı baxımından önəmi vurğulandı. Əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirildi. Bakıda keçirilən BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun əhəmiyyəti vurğulandı və bu tədbirin beynəlxalq əməkdaşlıq işinə töhfə verdiyi bildirildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## QAZAXISTAN PARLAMENTİ SENATININ SƏDRİ QASIM-COMƏRD TOKAYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Qazaxıstan parlamenti Senatının Sədri Qasım-Comərd Tokayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qazaxıstan parlamenti Senatının Sədri Qasım-Comərd Tokayev prezident Nursultan Nazarbayevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna toxunan qonaq müasir böhranlı dövrdə forumun ideya və məqsədlərinin böyük əhəmiyyət daşıdığını və Birləşmiş Millətlər Təşkilatının belə bir tədbirinin Bakıda keçirilməsinin önəmini vurğuladı.*

*Dövlətimizin başçısı bildirdi ki, BMT Sivilizasiyalar Alyansının növbəti forumunun Bakıda keçirilməsi ölkəmizin sivilizasiyalararası dialoq çərçivəsində fəaliyyətinə verilən qiymətin nəticəsidir. Prezident İlham Əliyev Azərbaycanda bu istiqamətdə görülən işlərin, keçirilən tədbirlərin xalqların yaxınlaşması və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi işinə xidmət etdiyini vurğuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə bu yaxınlarda İstanbulda İslam Əməkdaşlıq Təşkilatının növbəti Sammitində görüşünü məmnunluqla xatırlatdı. BMT Sivilizasiyalar Alyansının Bakıda keçirilən VII Qlobal Forumunda Qazaxıstanın belə yüksək səviyyədə təmsil olunmasına görə minnətdarlıq edən dövlətimizin başçısı bunu Qazaxıstanın həm forumda müzakirə ediləcək məsələlərə olan marağının, həm də Azərbaycana münasibətinin yaxşı göstəricisi kimi dəyərləndirdi. Qazaxıstan parlamenti Senatının Sədrinin böyük nümayəndə heyəti ilə ölkəmizə səfərindən məmnunluğunu ifadə edən dövlətimizin*

*başçısı tədbirin maraqlı müzakirələrin aparılması və ölkələrimiz arasında ikitərəfli münasibətlərin gündəliyinin nəzərdən keçirilməsi üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu dedi.*

*Prezident İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qazaxıstan Prezidentinə çatdırmağı xahiş etdi.*

# BELARUS RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN SƏDRİ MİXAİL MYASNİKOVİÇ İLƏ GÖRÜŞ

*25 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Belarus Respublikası Milli Məclisinin Sədri Mixail Myasnikoviçi qəbul etmişdir.*

*Belarus Respublikası Milli Məclisinin Sədri Mixail Myasnikoviç prezident Aleksandr Lukaşenkonun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. 4 il bundan əvvəl Azərbaycana səfər etdiyini vurğulayan Mixail Myasnikoviç ötən dövr ərzində paytaxtımızda çox böyük dəyişikliklərin baş verdiyinin şahidi olduğunu bildirdi. O, prezident İlham Əliyevi Azərbaycanın əldə etdiyi uğurlar, müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə qazandığı böyük nailiyyətlər münasibətilə təbrik etdi. Mixail Myasnikoviç Azərbaycanın müxtəlif beynəlxalq miqyaslı mötəbər tədbirlərə, o cümlədən BM Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etməsinin önəmini vurğuladı.*

*Dövlətimizin başçısı Belarus Respublikasına bir neçə dəfə rəsmi səfər etdiyini və hər dəfə ölkədə inkişafın, tərəqqinin, nizam-intizamın və səmimiyyətin şahidi olduğunu dedi. Son vaxtlar dünyada və Avropada Belarusun roluna və uğurlu inkişafına böyük önəm verildiyini vurğulayan prezident İlham Əliyev əldə olunmuş bütün bu nailiyyətlər münasibətilə təbriklərini çatdırdı və ölkələrimizin bir-birilərinin uğurlarına sevindiyini dedi. BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda Belarusun belə yüksək səviyyədə təmsil olunmasının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bunu həm Belarusun foruma verdiyi önəmin, həm də Azərbaycana göstərdiyi hörmətin göstəricisi kimi dəyərləndirdi.*

*Görüşdə dost və tərəfdaş ölkə olan Belarus ilə ikitərəfli əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğu-*

*landı, parlamentlərarası əməkdaşlığımızın münasibətlərimizin inkişafına töhfə verdiyi qeyd edildi.*

*Prezident İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus Prezidentinə çatdırmağı xahiş etdi.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN TOLERANTLIQ ÜZRƏ DÖVLƏT NAZİRİ ŞEYXƏ LUBNA ƏL-QASİMİ İLƏ GÖRÜŞ

*25 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Tolerantlıq üzrə Dövlət naziri xanım şeyxə Lubna əl-Qasimini qəbul etmişdir.*

*Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinə uğurlu rəsmi səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. İki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayan prezident İlham Əliyev bildirdi ki, əvvəllər daha çox azərbaycanlı turistlər Birləşmiş Ərəb Əmirliklərinə səfər edirdilərsə, son dövrlər Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayı da artmaqdadır.*

*Xanım şeyxə Lubna əl-Qasimi Azərbaycanda böyük infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində sürətli inkişafa nail olunduğunu, Bakının gözəl və müasir bir şəhərə çevrildiyini məmnunluqla qeyd etdi. Azərbaycana bu dəfə Tolerantlıq üzrə Dövlət naziri vəzifəsində səfər etdiyini deyən qonaq Birləşmiş Ərəb Əmirliklərinin çoxmillətli ölkə olduğunu, burada yaşayan müxtəlif icmaların ölkənin inkişafı və iqtisadi uğurların əldə olunmasındakı rolunu vurğuladı.*

*Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığının önəmi qeyd olundu, ikitərəfli əlaqələrin mədəniyyət, ticarət, turizm və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## FRANSA MİLLİ ASSAMBLEYASININ DEPUTATI JAN-FRANSUA MANSELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Fransa Respublikası Milli Assambleyasının deputatı, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Fransa Milli Assambleyasının deputatı, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Manselin Azərbaycanın yaxın dostu olduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin inkişafında onun rolunu xüsusi qeyd etdi. BMT Sivilizasiyalar Alyansının Bakıda keçirilən VII Qlobal Forumuna toxunan dövlətimizin başçısı toplantıya artıq bir çox ölkələrdən qonaqların gəldiyini dedi və tədbirdə Fransanın geniş nümayəndə heyəti ilə təmsil olunmasından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Forumun eyni zamanda, ikitərəfli münasibətlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını vurğuladı. Dövlətimizin başçısı Jan-Fransua Manselin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini ifadə etdi.*

*Fransa Respublikası Milli Assambleyasının deputatı, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Mansel indiki mürəkkəb şəraitdə Azərbaycanın ədalətli mövqeyini dəstəklədiklərini vurğuladı. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Fransa hökumətinin ədalətli mövqe nümayiş etdirməsi və Fransa ictimaiyyətinin Azərbaycanı daha yaxından tanıması istiqamətində işlər apardıqlarını dedi. Parlamentlərarası əməkdaşlığa toxunan Jan-Fransua Mansel Azərbaycan–Fransa parla-*

*mentlərarası* dostluq qrupunun *rəhbəri, Azərbaycanın* birinci xa-*nımı* Mehriban *Əliyeva ilə sıx* dostluq *və əməkdaşlıq əlaqələrini məmnunluqla* qeyd etdi.

*Görüşdə* BMT Sivilizasiyalar *Alyansının* VII Qlobal Forumu-nun *əhəmiyyətindən danışıldı, Azərbaycan*–Fransa *ikitərəfli əla-qələrinin inkişafından məmnunluq ifadə* edildi *və* bu *əlaqələrin* bundan sonra daha da *möhkəmləndiriləcəyi əminliklə* qeyd olundu.

## FRANSA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ ARLEM DEZİR İLƏ GÖRÜŞ

*26 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Fransa Respublikası Xarici İşlər Nazirliyinin Dövlət katibi Arlem Dezir ilə görüşmüşdür.*

*Xarici İşlər Nazirliyinin Dövlət katibi Arlem Dezir Fransa prezidenti Fransua Ollandın salamlarını və Azərbaycanla bağlı xoş xatirələrini dövlətimizin başçısı İlham Əliyevə çatdırdı.*

*Fransa Prezidentinə salamlarına görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da salamlarını Fransa dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*Prezident Fransua Ollandın Azərbaycana 2 dəfə səfər etdiyini xatırladan dövlətimizin başçısı dedi ki, bu, özlüyündə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu göstərir. BMT Sivilizasiyalar Alyansının VII Forumunda iştirak etmək üçün Azərbaycana gəldiyinə görə Arlem Dezirə minnətdarlıq edən prezident İlham Əliyev səfərin ikitərəfli və regional məsələləri müzakirə etmək baxımından yaxşı fürsət olduğunu bildirdi.*

*Səmimi qəbula görə minnətdarlıq edən Fransanın Xarici İşlər Nazirliyinin Dövlət katibi forumun yüksək səviyyədə təşkilinə görə prezident İlham Əliyevə təbriklərini çatdırdı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və son proseslər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

# İSPANİYANIN XARİCİ İŞLƏR NAZİRİ XOSE MANUEL QARSİYA MARQALLO İLƏ GÖRÜŞ

*26 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da İspaniyanın Xarici İşlər naziri Xose Manuel Qarsiya Marqallo ilə görüşmüşdür.*

*Nazir Xose Manuel Qarsiya Marqallo Azərbaycana əvvəlki səfərlərini xatırlatdı.*

*Prezident İlham Əliyev Türkiyə və İspaniyanın birgə təşəbbüsü ilə yaradılan BMT Sivilizasiyalar Alyansının uğurlu fəaliyyətini qeyd etdi və İspaniyanın Alyansa verdiyi dəstəyi yüksək qiymətləndirdi. İspaniyanın Xarici İşlər nazirinin Bakıda keçirilən bu tədbirdə iştirakını bu dəstəyin nümunəsi kimi dəyərləndirdi.*

*Görüşdə mürəkkəb beynəlxalq vəziyyət və münasibətlərdə qarşıda duran vəzifələri müzakirə etmək baxımından forumun əhəmiyyəti qeyd edildi. Bu mühüm tədbirin beynəlxalq aləmə güclü müsbət mesaj verəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq əlaqələri və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ətrafında fikir mübadiləsi aparıldı.*

## MALTA RESPUBLİKASININ PREZİDENTİ MARİ-LUİZ KOLEYRO PREKA İLƏ GÖRÜŞ

*26 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Malta Respublikasının Prezidenti xanım Mari-Luiz Koleyro Preka ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Malta prezidenti Mari-Luiz Koleyro Prekaya BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda iştirak etmək üçün Bakıya gəldiyinə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı bu səfəri həm də ikitərəfli əlaqələr barədə fikir mübadiləsi aparmaq üçün yaxşı fürsət kimi dəyərləndirdi və ölkələrimiz arasında əlaqələrin müsbət məcrada inkişaf etdiyini söylədi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Malta arasında qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq sahələrinin mövcud olduğunu da bildirdi. Ölkəmizin bu cür mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdiyini söyləyən dövlətimizin başçısı xanım Prezidentin Bakıya səfərinin səmərəli keçəcəyinə ümidvar olduğunu vurğuladı.*

*Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Malta prezidenti Mari-Luiz Koleyro Preka forumun əhəmiyyəti, yüksək səviyyədə təşkili və tədbirin açılışında prezident İlham Əliyevin məzmunlu çıxışının yaratdığı yüksək təəssüratdan danışdı. İkitərəfli əlaqələrin inkişafında qarşılıqlı səfərlərin önəmini vurğulayan Malta Prezidenti ölkələrimiz arasında siyasi, iqtisadi, ticarət, turizm və digər sahələrdə səmərəli əməkdaşlıq perspektivlərinə də toxundu.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrlə bağlı fikir mübadiləsi aparıldı.*

## BMT SİVİLİZASİYALAR ALYANSININ VII QLOBAL FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*26 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və dünyanın 140 ölkəsindən dəvət olunmuş qonaqlar aprelin 26-da Bakıda BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışı mərasimində iştirak etmişlər.*

*BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna Bakının ev sahibliyi etməsi təsadüfi deyil. Çünki tolerantlığın məkanı, multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir.*

*2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərar qəbul edilmişdir. Ötən ilin iyul ayında prezident İlham Əliyev forumun Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.*

*«İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd» devizi altında keçirilən foruma BMT-yə üzv ölkələrin dövlət və hökumət başçıları, Xarici İşlər nazirləri, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri, donor təşkilatlar və fondlar daxil olmaqla, çoxlu qonaq qatılıb. Onların arasında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan da var.*

*Malta prezidenti Mari-Luiz Koleyro Prekanın da iştirak etdiyi BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakı şəhərində yüksək səviyyədə təşkili Azərbaycan dövlətinin beynəlxalq*

*nüfuzunun daha da artırılmasında, xalqımızın tarixi-mədəni irsinin geniş miqyasda tanıdılmasında əhəmiyyətli rola malikdir. Çünki tarixi İpək yolu üzərində yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlərboyu milli, mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadıqları diyar kimi tanınıb. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması isə müasir dövrdə ölkəmizdə gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.*

*Dövlət və hökumət başçıları, forumun digər yüksək səviyyəli iştirakçıları birgə foto çəkdirdilər.*

*Dövlətimizin başçısı forumun açılışında nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Zati-aliləri prezidentlər!

Hörmətli dostlar, dəyərli qonaqlar!

İlk növbədə, hamınızı ölkəmizdə salamlayıram, hər birinizi Azərbaycanda görməkdən məmnunluq duyuram. BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etmək bizim üçün böyük fəxrdir. Biz bunu mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsində fəaliyyətimizin yüksək qiymətləndirilməsi əlaməti kimi qəbul edirik.

İlk olaraq, Alyansın təsisçilərinə – Türkiyə və İspaniyaya, prezident Ərdoğan və Baş nazir Sapateroya 10 ildən artıq davam edən və olduqca əhəmiyyətli təşəbbüsə görə minnətdarlığımı bildirirəm. Alyansın yaradılması fikri siyasətçilərin – qardaşım prezident Ərdoğan və Baş nazir Sapateronun müdrikliyinin əlaməti idi və bu fikir beynəlxalq ictimaiyyət tərəfindən də dəstəkləndi.

Bununla yanaşı, mən BMT-nin Sivilizasiyalar Alyansındakı ali nümayəndəsi cənab Əl-Nasirə sülh, həmrəylik və dostluq dəyərlərinin təşviqi istiqamətində rəhbərliyi və töhfəsinə görə təşəkkürümü bildirmək istəyirəm.

Fərəhlənirik ki, bu gün 140-dan artıq ölkənin nümayəndəsi Sivilizasiyalar Alyansı ilə bağlı mühüm məsələlərin müzakirəsi üçün Bakıda toplaşıb. Azərbaycan əsrlərboyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olub. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlərboyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb.

Bunun nəticəsidir ki, bu gün Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu bizim ən böyük sərvətimizdir və biz tariximizlə fəxr edirik. Biz müxtəlif mədəniyyətləri özündə əks etdirən tarixi abidələrimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri Azərbaycanın qədim şəhəri olan Şamaxıda 743-cü ildə inşa edilmişdir.

Bununla yanaşı, ən qədim kilsələrdən biri – qədim Qafqaz Albaniyası dövrünə aid kilsə də məhz Azərbaycanda, daha bir qədim şəhər olan Şəkinin yaxınlığında yerləşir. Hökumətimiz məscidlərin, pravoslav və katolik kilsələrinin, habelə sinaqoqların inşası və təmirinə maliyyə vəsaiti ayırır. Bu bizim siyasətimiz və həyat tərzimizdir. Əsrlərboyu Azərbaycan ölkəmizdə mövcud olan siyasi və sosial vəziyyətə baxmayaraq, bu sərvəti qoruyub saxlamışdır. Ölkəmiz yalnız 25 ildir ki, müstəqil dövlətdir. Lakin bu, qədim dövlətdir, dərin tarixi və mədəni köklərə malikdir.

Bizim üçün multikulturalizm dövlət siyasətidir. Biz bu vacib məsələlərin müzakirə edilməsi üçün müxtəlif tədbirlər təşkil edirik. Biz hər 2 ildən bir Azərbaycanda Mədəniyyətlərarası Dialoq Forumunu təşkil edirik. Mütəmadi olaraq biz Bakı Beynəlxalq Humanitar Forumuna ev sahibliyi edirik. Burada da əsas məqsəd müxtəlif dinlərin nümayəndələrinin bir araya gətirilməsindən, aramızda daha mühüm qarşılıqlı anlaşmanın yaradılmasından ibarətdir.

Azərbaycan dinlərarası dialoq kimi vacib məsələyə həsr edilmiş Dünya Dini Liderlərinin zirvə toplantısına ev sahibliyi etmişdir. Hesab edirəm ki, bu mövzu bu gün dünyanın gündəliyində duran ən mühüm məsələlərdəndir və Sivilizasiyalar Alyansının rolu artmaqdadır. Əfsuslar olsun ki, biz eyni zamanda, regionumuzda, Avropada, Yaxın Şərqdə, keçmiş Sovet İttifaqı ərazisində böyük narahatlıq doğuran meyillərin şahidi oluruq. Etnik və ya dini zəmində baş verən qarşıdurma və toqquşmalar çox təhlükəli meyillərdir.

Hesab edirəm ki, Bakıda keçirilən belə bir toplantı – VII Qlobal Forum bu məsələlərin müzakirəsinə həsr ediləcək və həmrəylik, sülh, qarşılıqlı anlaşma və tərəfdaşlıq işinə öz töhfəsini verəcəkdir.

2008-ci ildə biz «Bakı prosesi»nin təşəbbüskarı olduq ki, bu da mədəniyyətlərarası dialoq üçün geniş bir platformaya çevrildi. Azərbaycan eyni zamanda, həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzv olan yalnız bir neçə dövlətdən biridir. Beləliklə, 2008-ci ildə Avropa Şurasına üzv dövlətlərin Mədəniyyət nazirlərinin Bakıda təşkil edilmiş toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Mədəniyyət nazirlərini dəvət etdik. Bu iki təşkilatı təmsil edən 100-dən artıq nazir ilk dəfə Bakıda bir araya gəldi.

Növbəti il, 2009-cu ildə biz İslam Əməkdaşlıq Təşkilatının Mədəniyyət nazirlərini burada topladıq və Avropa dövlətlərinin Mədəniyyət nazirlərini Bakıya dəvət etdik. Bu proses «Bakı prosesi» adlandırıldı və biz fəxr edirik ki, bu müsbət təşəbbüs artıq bizim qədim şəhərimizlə bağlıdır. Bu proses inkişaf edir və getdikcə daha çox dəstəklənir. O, qlobal təşəbbüsə çevrilir, həmrəylik, qarşılıqlı anlaşma və mədəniyyətlərarası dialoqa öz töhfəsini verir. Azərbaycanın coğrafi mövqeyi hər kəsə məlumdur, eyni zamanda, bizim təşəbbüslərimiz mədəniyyətlər və sivilizasiyalar arasında körpü kimi, ölkəmizin mövqelərinin gücləndirilməsi məqsədini daşıyır. O ölkə ki, qarşılıqlı anlaşmaya daha çox töhfə vermək iqtidarındadır, bunu etməlidir.

Çox fəxr edirik ki, ötən il Bakı ilk Avropa oyunlarına ev sahibliyi etdi. Gələn il isə biz Bakıda IV İslam Həmrəyliyi oyunlarını təşkil

edəcəyik. Yəni 2 il içərisində Avropa və islam dövlətlərinin idmançıları eyni şəhərdə oyunlarda iştirak etmiş və edəcəklər. Məsələ yalnız idman və medalların sayı, nailiyyətlərlə bağlı deyil. Bu, dostluq, qarşılıqlı anlaşma, həmrəylik və tərəfdaşlıq deməkdir.

Bizim aramızda bölüşdürəcəyimiz heç nə yoxdur. Hamımız eyni planetdə yaşayırıq. Bütün xalqlar sülh, əmin-amanlıq və təhlükəsizlik şəraitində yaşamağı, ailələrini qorumağı, övladlarını böyütməyi arzulayır. Bütün dinlər eyni dəyərləri – insanlıq, mərhəmət, həmrəylik və sülhü təbliğ edir. Bu gün dünyanın tələb etdiyi səylərimizin birləşdirilməsidir. Bugünkü toplantı, bu forum multikulturalizm ideyasının beynəlxalq ictimaiyyət tərəfindən güclü dəstəklənməsinin aydın göstəricisidir. Dediyim kimi, bu gün burada 140-dan artıq dövlətin nümayəndəsi iştirak edir.

Multikulturalizmin alternativi yoxdur. Əlbəttə, bizə məlumdur ki, bununla bağlı müxtəlif fikir və baxışlar var. Bəziləri multikulturalizmin iflasa uğradığını iddia edirlər, ancaq müsbət nümunələr var. Bizim üçün multikulturalizm dövlət siyasətidir və bizim həyat tərzimizdir.

Gəlin alternativlərə nəzər salaq, onlar nədən ibarətdir? Bunlar çox təhlükəli alternativlərdir – ksenofobiya, islamofobiya, antisemitizm, irqçilik, diskriminasiya, nifrət. Bu səbəbdən multikulturalizm dəyərlərinin gücləndirilməsi hesab edirəm ki, müasir siyasətin çox müsbət meyli olacaqdır. Bütün məsuliyyətli siyasətçilər bu müsbət dinamikaya töhfələrini verməlidirlər.

Bildirdiyim kimi, Azərbaycan nisbətən gənc dövlətdir, bu il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd edəcəyik. Bu illər bizim siyasi və iqtisadi sistemimizin transformasiya illəri, dövlət quruculuğu illəri olmuşdur. Düşünürəm ki, bütün mühüm hədəflərimizə nail olmuşuq.

Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilib. Azərbaycan BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, «Qoşulmama Hərəkatı» və bir sıra digər beynəlxalq qurumların üzvüdür. Biz güclü beynəlxalq dəstəyə malikik. 2011-ci ildə 155 dövlətin dəstəyi ilə Azərbaycanın ilk dəfə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi məhz bunun təzahürü

oldu. Bu, ölkəmizin böyük qələbəsi və Azərbaycana böyük ehtiramın əlaməti oldu.

Olduqca qısa zamanda, 25 il içərisində biz özümüzü etibarlı beynəlxalq tərəfdaş, müstəqil xarici siyasətə malik, regional inkişafa, təhlükəsizliyə, sabitliyə və multikulturalizmə töhfə verən ölkə kimi təqdim etməyə müvəffəq olmuşuq. Müstəqillik illəri bizim siyasi sistemimizin transformasiyası, demokratik təsisatların yaradılması illəri olmuşdur. Biz buna nail olmuşuq, Azərbaycanda bütün azadlıqlar təmin edilir, o cümlədən media və internet azadlığı. Ölkə əhalisinin 70 faizdən çoxu internet istifadəçisidir. Toplaşma və din azadlığı, yəni bütün azadlıqlar təmin edilir. Bu isə öz növbəsində, sürətli iqtisadi inkişaf üçün yaxşı zəmin yaradır. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar siyasi islahatlarla paralel şəkildə aparılmışdır.

Təəssüflər olsun ki, dövlətçiliyimizin yaranması zamanı qonşu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü dominant amil olmuşdur. Həmin təcavüz ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin bir hissəsinin işğalı ilə nəticələnmişdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi parçasıdır, hüquqi baxımdan da bu belədir. Azərbaycan BMT-yə üzv olarkən Dağlıq Qarabağ ölkəmizin tərkib hissəsi kimi qəbul edilmişdir.

Lakin həmin təcavüz nəticəsində Dağlıq Qarabağ Ermənistan tərəfindən tamamən işğal edilib. Nəinki Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, Dağlıq Qarabağın ətrafında yerləşən digər 7 rayonu da işğal altındadır. İşğal nəticəsində bizim 1 milyondan artıq qaçqın və məcburi köçkünümüz var. Ermənistan bizə qarşı etnik təmizləmə aparmışdır və ərazimizin 20 faizi 20 ildən artıqdır ki, işğal altındadır.

İşğal edilmiş ərazilərimizdə hər şey dağıdılıb. ATƏT oraya 2 dəfə faktaraşdırıcı missiya göndərib və onlar dəhşətli hesabatlar təqdim ediblər. Bütün tikililərimiz, tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız dağıdılmış vəziyyətdədir. Burada, Bakının mərkəzində siz erməni xalqının dini mirasının tərəfimizdən necə qorunduğunun şahidi ola bilərsiniz. Erməni kilsəsi bərpa edilmiş və ilk gündən inşa edildiyi yerdə yerləşir. Lakin işğal edilmiş torpaqlarda bizim bütün məscidlərimiz viran edilib.

Bu işğala son qoymaq üçün beynəlxalq ictimaiyyət müvafiq qətnamə və qərarlar qəbul edib. Ən ali beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, Ermənistan sadəcə, bu qətnamələrə məhəl qoymur və onlara əməl etmir.

Burada ən mühüm element beynəlxalq təşkilatların qətnamə və qərarlarının icrası mexanizmidir. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində həyata keçirilir. Bizə gəldikdə isə, artıq 20 ildən çox vaxt keçib və münaqişə həll olunmamış qalır.

ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, «Qoşulmama Hərəkatı» da Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən bənzər qətnamə və qərarlar qəbul ediblər. Ermənistan isə bunlara məhəl qoymur və işğalçını beynəlxalq hüququn normalarına əməl etməyə məcbur edəcək beynəlxalq təzyiq isə göstərilmir.

Xalqımıza qarşı soyqırımı həyata keçirilmişdir. Xocalı soyqırımı artıq 10 dövlət tərəfindən tanınmışdır. Həmin soyqırımı nəticəsində 200-ü qadın və uşaq olmaqla, yüzlərlə azərbaycanlı – mülki şəxslər qətlə yetirilib. Bu, insanlığa qarşı törədilmiş cinayətdir və bir daha bizim hansı təhlükəyə məruz qaldığımızı nümayiş etdirir.

Ermənistan ilə Azərbaycan arasındakı münaqişə beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı əsasında həll edilməlidir. Ərazilərimiz azad edilməlidir, insanlarımız evlərinə geri dönmək imkanına malik olmalıdır.

Keçən əsrin 90-cı illərinin əvvəllərində biz böyük humanitar fəlakətlə üzləşdik. Çünki 250 min azərbaycanlı Ermənistandan, daha 700 mindən çox məcburi köçkün isə Dağlıq Qarabağ və digər bölgələrdən qovulmuşlar. O zaman Azərbaycan əhalisinin 8 milyondan az olduğunu nəzərə alsaq, adambaşına düşən qaçqın və məcburi köçkün sayına görə Azərbaycan çox güman ki, dünyada birinci yeri tuturdu.

Biz bilirik ki, onların yerləşdirilməsi, zəruri şəraitin yaradılması nə dərəcədə çətin məsələdir. O vaxt biz tamamilə maliyyə vəsaitindən məhrum vəziyyətdə, dünyanın ən yoxsul, yaşayış səviyyəsinin yoxsulluqdan aşağı olduğu ölkələrindən biri idik. Əlbəttə, o zaman bizə müəyyən beynəlxalq dəstək göstərildi, lakin əsasən bu məsələnin öhdəsindən biz özümüz gəldik.

Bu günə qədər 90-dan artıq qəsəbə inşa etməyimizə və hər il 20 min qaçqın və köçkünü yerləşdirməyimizə baxmayaraq, onların bəziləri hələ də çətin şəraitdə – yataqxana, məktəb və uşaq bağçalarında yaşayır. Biz onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün əlimizdən gələni edirik, lakin bu, uzun zaman tələb edir.

Bu gün biz bəzi ölkələrin qaçqınlarla bağlı üzləşdiyi vəziyyəti aydın şəkildə anlayırıq. Bu həqiqətən də humanitar fəlakətdir və bütün beynəlxalq ictimaiyyət bu məsələlərin həllində iştirak etməlidir. Ən çox qaçqın qəbul etmiş ölkələr hazırda dəstəklənməlidir – yalnız sözlə deyil, ciddi maliyyə yardımları ilə. Bir daha qeyd etmək istəyirəm ki, işğaldan əziyyət çəkməkdə davam edən ölkə kimi, bunların nə dərəcədə çətin olduğu bizə yaxşı məlumdur. Hər bir nöqteyi-nəzərdən – siyasi, mənəvi, iqtisadi və sosial baxımdan.

İşğala baxmayaraq, ölkəmiz inkişaf edir. Biz onillik ərzində – 2004–2014-cü illərdə dünyada ən yüksək iqtisadi artım göstəricilərinə malik olmuşuq. Biz yoxsulluğu kəskin şəkildə – 50 faizdən təqribən 5 faizə endirə bilmişik. İşsizliyin səviyyəsi də 5 faizə yaxındır. Biz təhsilə sərmayə yatırırıq. Azərbaycanda savadlılığın səviyyəsi 100 faizə yaxındır. Son illər ərzində 3000-dən artıq yeni məktəb tikilib və ya bərpa edilib. Ölkə ərazisində 500-dən artıq xəstəxana inşa edilib. Bu isə uşaq ölümlərinin kəskin şəkildə azalmasına yardım etdi.

Azərbaycanda gender bərabərliyi tam olaraq müdafiə edilir. Əslində Azərbaycanda qadınlar təqribən 100 ildir ki, yəni 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövründən səsvermə hüququna malikdirlər. Yeri gəlmişkən, həmin respublika müsəlman dünyasının ilk demokratik respublikası olmuşdu.

Biz ətraf mühitin qorunmasına sərmayə yatırırıq. Burada, Abşeron yarımadasında neft hasilatı səbəbindən çirklənmiş geniş ərazilər mövcud idi və biz bu əraziləri təmizləməli olduq. Yerində isə parklar və ictimai yerlər yaratdıq. Başqa sözlə desək, biz BMT-nin Minilliyin İnkişaf Məqsədləri ilə bağlı çox vacib irəliləyiş əldə edirik və düzgün yoldayıq.

Hətta bu gün, neftin qiymətində kəskin ucuzlaşma baş verdiyi və bütün neft istehsalçısı olan dövlətlərin iqtisadi böhranla üzləşdiyi bir vaxtda bu bizim iqtisadiyyatımıza ciddi təsir göstərmədi və mən əminəm ki, biz 2016-cı ildə bütün əsas məqsədlərimizə nail olacağıq.

Azərbaycan enerji resursları ilə zəngin ölkə kimi tanınır. Ancaq bizim əsas məqsədimiz «qara qızıl»ın, yəni neftin insan kapitalına çevrilməsidir. Bu səbəbdən, təhsil sahəsinə sərmayələrin qoyuluşu, sosial müdafiənin gücləndirilməsi və islahatlar elə bir vəziyyət yaradıb ki, iqtisadiyyatımız şaxələndirilib və neftdən asılılıq azalmaqdadır.

Bununla yanaşı, biz irimiqyaslı enerji layihəsinin – «Cənub Qaz Dəhlizi»nin təşəbbüskarıyıq. Bu, enerji əməkdaşlığı və enerji təhlükəsizliyi layihəsidir. Eyni zamanda, biz coğrafi mövqemizi nəzərə alaraq, nəqliyyat dəhlizlərinin təşviqi ilə məşğul olan ölkələrdən ibarət heyətin fəal üzvüyük. Ölkələrin sayına nəzər salsaq, hansı regional əməkdaşlıqdan söhbət getdiyi aydın görünər. İcazənizlə, mən onların adlarını sadalamaq istərdim. Bu enerji və nəqliyyat dəhlizləri yalnız enerji və yüklərin daşınması demək deyil. Bu, əməkdaşlıq dəhlizləridir. «Cənub Qaz Dəhlizi» layihəsinin üzvləri Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadır. Əminəm ki, sonrakı mərhələdə Balkan ölkələri də layihəyə qoşulacaq.

Şərq–Qərb dəhlizi – İpək yolu layihəsi 3 dövlət – Azərbaycan, Gürcüstan və Türkiyə tərəfindən irəli sürülüb. Bu gün o genişlənməkdədir, Mərkəzi Asiya və Çini, Türkiyədən isə Avropa istiqamətini əhatə edir. Bu, yeni İpək yolu olacaqdır. Şimal–Cənub dəhlizi də Azərbaycanın fəal iştirak etdiyi layihədir. Bu layihə

Şimali Avropa ölkələrini, Rusiya, Azərbaycan, İran, Pakistan və Hindistanı əhatə edir.

Bu layihələr tərəfdaşlıq layihələridir. Çünki bütün bu dövlətlər bir-biri ilə bağlıdır. Əgər siz bir-birinizlə bağlı, bir-birinizə arxayın vəziyyətdəsinizsə, o zaman daha çox proqnozlaşdıra bilmə, təhlükəsizlik və əməkdaşlıq olur.

Enerji təhlükəsizliyi və nəqliyyat kimi iqtisadi maraqlar, çətinliklərin öhdəsindən gələrək, xalqlarımıza daha yaxşı şərait yaratmaq kimi dəyərlərin paylaşılması və bütün bunların təməlində birgə dəyərlərimiz olan dini dözümlülük, qarşılıqlı anlaşma və multikulturalizm əsasında qurulmuş beynəlxalq əməkdaşlıq formatları hesab edirəm ki, region xalqlarının həyatını daha da yaxşılaşdıracaq.

Bir daha bu vacib tədbirdə bu gün bizimlə olduqlarına görə bütün qonaqlarımıza minnətdarlığımı bildirir, Forumun işinə uğurlar arzulayıram.

* * *

**Nasir Əbdüləziz əl-Nasir** (*BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi*): Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev!

Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan!

İspaniyanın Xarici İşlər naziri cənab Xose Manuel Qarsia Marqallo!

Zati-aliləri, hörmətli qonaqlar, nümayəndələr, xanımlar və cənablar!

İcazə verin, çıxışıma Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının «İnklüziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd» mövzusuna həsr olunmuş VII Qlobal Forumunu qəbul etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, zati–aliləri cənab İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığımı ifadə etməklə başlayım.

Prezident Əliyevin bu məsələ ilə bağlı liderliyi xüsusi qeyd edilməlidir. 2016-cı ilin «Multikulturalizm ili» elan edilməsi ilə əlaqədar onun irəli sürdüyü təşəbbüs dünya xalqları arasında münasibətlərin

gücləndirilməsinə yönəlmiş mühüm addım kimi, geniş şəkildə təşviq edilir. Bu baxımdan hesab edirik ki, Bakı bu tədbirin keçirilməsi üçün ən münasib bir yer idi. Çox sağ olun, cənab Prezident.

Son bir neçə il ərzində mən multikulturalizm və tolerantlığı təşviq etmək şərəfinə nail oldum. Alyans radikallaşma və qütbləşmənin qarşısını almaqla, daha böyük mədəniyyətlərarası anlaşmanı həvəsləndirməklə, eləcə də bu məqsədləri irəliyə doğru aparan layihə və proqramlarda iştirak etməklə, daha təhlükəsiz dünyanın qurulmasına töhfə vermək üçün formalaşdırılmış zərif qüvvə mexanizmi rolunu oynayır. Bu gün bizim hamımızın əldə edilmiş nailiyyətləri nəzərdən keçirmək, üzləşdiyimiz çağırışları və qarşımızda duran vəzifələri araşdırmaq imkanımız olacaq.

Bu ilin şüarı «İnklüziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd» mövzusudur. Bu şüar BMT-nin sülh və təhlükəsizlik, insan haqları, qanunun aliliyi və davamlı inkişaf kimi 4 əsas prinsipinə uyğun gəlir. Daha dəqiq desək, bu şüar 2030-cu il üçün davamlı inkişaf gündəliyinə uyğundur. Davamlı inkişafın 16-cı məqsədində xüsusi olaraq deyilir: «Davamlı inkişaf naminə sülhsevər və inklüziv cəmiyyətlər təşviq edilməli, hamının ədalətə çıxışı təmin olunmalı və bütün səviyyələrdə səmərəli, məsuliyyətli və inklüziv təsisatlar qurulmalıdır». Davamlı inkişaf sülh və təhlükəsizlik olmadan həyata keçirilə bilməz. Eyni zamanda, sülh və təhlükəsizlik davamlı inkişaf olmadan riskə məruz qalır.

*Nasir Əbdüləziz əl-Nasir zorakı ekstremizm, terrorçuluq, işsizlik və digər problemlərin həllinə gənclərin də yaxından cəlb edilmələrinin vacibliyini diqqətə çatdırdı. O, qarşıya qoyulan ümdə vəzifələrə nail olmaqda dialoqun çox vacib rol oynadığını vurğuladı.*

**Nasir Əbdüləziz əl-Nasir:** İnklüziv cəmiyyətlərin qurulması dialoq və inteqrasiya, təhsil, gənclər, mədəni müxtəliflik, miqrasiya, media və ünsiyyət kimi sahələrdə çətinliklərin aradan qaldırılmasını tələb edir. Bu sahələrin hamısı Sivilizasiyalar Alyansının mandatı daxilindədir. Zorakı ekstremizmin araşdırılması, qarşısının alınması və vaxtında tədbirlərin görülməsi bəşəriyyətin üzləşdiyi ən mürəkkəb məsələlərdən biridir. Zorakı ekstremizm BMT-nin məqsəd

və prinsiplərinə qarşı çıxan bir çağırışdır. Baş katib BMT-nin müxtəlif qurum və təşkilatlarına müraciət edərək onlardan birgə işləməyi, «birgə nail olaq» adlı inklüziv yanaşma vasitəsilə zorakı ekstremizmin qarşısının alınması ilə bağlı tədbirlər planını həyata keçirməyi tələb etmişdir. BMT Sivilizasiyalar Alyansı bütün bu qlobal çağırışların mədəni və dini müxtəliflik, o cümlədən zorakı ekstremizm baxımından həlli üçün inklüziv yanaşmalar üzərində çalışır. Biz BMT-nin digər qurumları və bölmələri ilə birgə zorakı ekstremizmin aradan qaldırılması üçün Baş katibin tədbirlər planının tərtibatında iştirak etmişik. Nəzərdə tutulan tədbirlərdə xüsusən də dini və mədəni kökləri olduğu təqdirdə qütbləşməyə, radikallaşmaya və zorakı ekstremizmə qarşı mübarizə aparmaq planlaşdırılır.

Ötən il BMT Sivilizasiyalar Alyansı özünün 10-cu ildönümünü qeyd etdi və üzv dövlətlər konsensusla Baş Məclisin yeni qətnaməsini qəbul etməklə, dəstəyin vacibliyini etiraf etdilər. Bu tədbirlər zorakı ekstremizmin qarşısının alınmasına töhfə verən məsələlərə müsbət təsir göstərir. Vaxt keçdikcə həmin layihələr orada iştirak edən şəxslərin həyatını da dəyişdirdi.

BMT Sivilizasiyalar Alyansının layihə fəaliyyətinin təsiri yalnız təlimdə iştirak etmiş şəxslərin sayı, imkanların yaradılması, mədəniyyətlərarası mübadilə və təhsil proqramları ilə ölçülə bilməz. Onun real bəhrəsini gənc vətəndaş cəmiyyəti liderlərinin fəaliyyətini, icmalarda, eləcə də regional və milli səviyyələrdə həyata keçirilən proqramların nəticələrini hiss etməklə ölçmək olar. Bu tədbirlərlə BMT Sivilizasiyalar Alyansının proqramları tolerantlıq, anlaşma və qarşılıqlı hörmət kimi müsbət mesajlar almış yüz minlərlə insana, o cümlədən gənclərə müsbət təsir göstərir.

Xanımlar və cənablar, biz zorakı ekstremizmin qarşısını almaq üçün ədavət və etimadsızlıq kimi fikirlərin yayılmasına qarşı çıxmalıyıq. Biz mediada Avropada kütləvi böhranın idarə edilməsi üsulunu və bir sıra ölkələrdə miqrantların ədavət şüarları altında necə qəbul olunduqlarını görürük. Miqrantlar, qaçqınlar və gənclər terrorçu qruplar tərəfindən zor tətbiq edilməklə, səfərbər olunma kimi böyük risk altındadırlar. Bəzi mətbu orqanlar tərəfindən miqrantlar və terrorçular arasında yaradılan eyniləşmə xüsusən də qəbul edən ölkələrdə ksenofobiyanı, stereotipləri,

ittihamları artırır və nəinki ədavətə, təcrid olunmaya, qütbləşməyə, o cümlədən radikallaşmaya, zorakılığa və terrorçuluğa yol açır.

Cari münaqişələr, o cümlədən humanitar böhranlar və nəticədə insanların zorla didərgin düşməsi zorakı ekstremizm və terrorçuluq hədəsini artırır və son onilliklər ərzində əldə edilmiş inkişafı təhdid altına çəkir. Biz 2030-cu il üçün davamlı inkişaf gündəliyini həyata keçirmək istiqamətində səylərimizi artırmalıyıq. Heç kəs bu işdən kənarda qalmalı deyil. Yadda saxlayaq ki, bu işdə biz hamımız tərəfdaşıq, biz hamımız qlobal vətəndaşıq. Qoy işlərimiz sözlərimizlə düz gəlsin.

Yekunda icazə verin, bir daha bildirim ki, «müharibə insanların beynində başlayır» kəlməsi var və sülhə aparan yol insanların qəlbindən keçir. Ümid edək ki, BMT Sivilizasiyalar Alyansının təmin etdiyi bu platforma sülhə körpü salmaq üçün insanların beyninə və qəlbinə yol tapacaq.

Sizə forumun işində məhsuldar müzakirələr arzulayıram. Sağ olun.

**Pan Gi Mun** (*BMT-nin Baş katibi*): Zati-aliləri Azərbaycan prezidenti cənab İlham Əliyev!

Zati-aliləri Türkiyə prezidenti cənab Rəcəb Tayyib Ərdoğan!

Zati-aliləri İspaniyanın Xarici İşlər naziri cənab Xose Manuel Qarsiya Marqallo!

Zati-aliləri BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi cənab Nasir Əbdüləziz əl-Nasir!

Xanımlar və cənablar!

İcazə verin, nitqimə müəyyən səbəblərlə əlaqədar planlaşdırıldığı kimi, sizə şəxsən qoşula bilmədiyimə görə dərin təəssüfümü ifadə etməklə başlayım.

Mən BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun bütün iştirakçılarına səmimi salamlarımı çatdırmaqdan məmnunam. Mən bu dəyərli təşəbbüsə görə həmtəsisçilər olan Türkiyə və İspaniyaya təşəkkürümü bildirirəm.

Mən zati-aliləri prezident İlham Əliyevin, Azərbaycan hökumətinin və Bakı şəhərinin qonaqpərvərliyini yüksək qiymətləndirirəm.

Biz ağır böhranlar zamanında yaşayırıq. Rekord sayda insan öz evini tərk etmək məcburiyyətində qalır. Bir çoxları zorakı ekstremizm və təqibdən qaçır. Onlar təhlükəsiz sığınacaq olacağına ümid etdikləri yerə çatanda çox vaxt nifrət və diskriminasiya ilə qarşılanırlar. Bölünmə və təcrid ekstremistlərə sərf edir. Onların atdığı bombalar binaları hədəfə alır. Lakin əslində onların məhv etmək istədiyi bizim qarşılıqlı anlaşmamızdır. Bu səbəbdən də mən bu forumun «İnklüziv cəmiyyətlərdə birgəyaşayış» mövzusuna həsr olunmasını alqışlayıram.

Bu həmçinin davamlı inkişaf üzrə 2030-cu il gündəliyinin əsas - məqsədidir. Bu gündəlik bütün insanlar, xüsusilə irqçilik, diskriminasiya, ksenofobiya və zorakılığın digər formaları üzündən uzun müddət təcrid olunmuş insanlar üçündür. Alyans heç kimin unudulmaması və hamıya ləyaqətli həyat təmin etmək üçün bu qlobal planı reallaşdırmağa kömək edir. Mən BMT-nin bu qurumunu tam dəstəkləyirəm.

Zati-aliləri, xanımlar və cənablar, gələn ay İstanbulda keçiriləcək ilk Ümumdünya Humanitar Yardım Sammitində biz ən həssas insanların ehtiyacları ilə məşğul olacağıq. Mən sizin hamınızı bu əhəmiyyətli toplantını dəstəkləməyə çağırıram. Sonra sentyabrın 19-da Baş Məclis irimiqyaslı miqrasiya çağırışları üzrə mübarizə ilə bağlı yüksək səviyyəli görüş keçirəcək. Eyni zamanda, biz bütün dünyada mübahisə və münaqişələri həll etmək və sülhü möhkəmləndirmək üçün işləyirik. Biz münaqişələrin əsas səbəbləri ilə məşğul olaraq diqqəti onların qarşısının alınmasına cəmləşdiririk.

Baş Məclis BMT-nin zorakı ekstremizmin qarşısının alınması ilə bağlı Fəaliyyət Planını alqışlayıb. Bu fenomenin kökü heç bir din, region, milliyyət və etnik qrupla bağlı deyil. Stereotipləşmə təhlükəlidir və sabitliyi pozur. Sensasiya dalınca qaçmaq qəzetləri satdıra bilər, lakin problemləri həll etməz. Mən Alyansın mülayim baxışlı təbəqələrin səsini gücləndirmək və faktları təqdim etməyə yardımla bağlı işini alqışlayıram.

Şübhə və qorxu dolu dünyada Alyans etimad və anlaşma yaradır. Onun layihələri gənc innovatorları dəstəkləyir, jurnalistləri resurslarla təmin edir və dialoqu dəstəkləyən liderlərə hörmət edir.

Gəlin həmçinin zamanımızın çağırışları ilə üzləşdiyimiz bir vaxtda bu qiymətli Alyansı gücləndirək.

Təşkilatçılığınıza və hazırlığınıza görə təşəkkür edirəm.

**Xose Manuel Qarsia Marqallo** (*İspaniyanın Xarici İşlər naziri*): Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan!

Digər nümayəndələr, İspaniya hökumətinin nümayəndələri, xanımlar və cənablar!

Əvvəlcə səmimi qonaqpərvərliyə və bu foruma ev sahibliyi etdiyinə görə Azərbaycan hökumətinə təşəkkürümü bildirirəm. Həmçinin Baş katib cənab Pan Gi Muna bu təşəbbüsə verdiyi davamlı dəstəyə görə minnətdaram. Eyni zamanda, ali nümayəndə Əl-Nasiri və Sivilizasiyalar Alyansının həmtəsisçisi olan Türkiyə prezidenti Ərdoğanı salamlayıram.

Əsrlərboyu Bakı karvansarayları Roma və ya İstanbuldan başlayan Asiyanın hüdudlarına gedən böyük İpək yolunun səyahətçilərini qəbul edib. Bazar və küçələrdə həmin vaxt tacirlər ipək və ədviyyatlarla mübadilə etmiş, müxtəlif ölkələr barədə xəbərlərlə bölüşmüş və Şərqin, eləcə də Qərbin dahiləri barədə ətraflı məlumatlar vermişlər. İpək yolu bir növ, həmin vaxtın interneti, Bakı isə onun bir hissəsi, ən mühüm qovşaqlarından biri idi. Bu baxımdan xoş təsadüfdür ki, Bakı bu gün Sivilizasiyalar Alyansının Forumunu qəbul edir.

Azərbaycan və onun paytaxtı Lissabon və Madriddən tutmuş, Pekinə qədər böyük məkanın mərkəzində yerləşir, bir çox yeni marşrutların başlanğıcıdır. Buradan insanlar keçir, ideyalar mübadilə olunur və ticari əlaqələr qurulur.

Bu gün biz Bakıda ona görə toplaşmışıq ki, yeni qlobal İpək yolundayıq. Sivilizasiyalar Alyansı elə bir məkandır ki, dünyanın müxtəlif yerlərindən səyahətçilər və onların karvanları məhz buradan keçir. Bu baxımdan bu tədbir hamını bir araya gətirir. Bütün bu mübadilələr və əlaqələr bizim müxtəlif çağırışlara qarşı cavab

tədbirlərinin görülməsinə, çoxtərəfli münasibətlər sisteminin qurulmasına xidmət edə bilər.

*İspaniyanın Xarici İşlər naziri terrorizmə qarşı mübarizədə səyləri daha da artırmağın vacibliyini vurğulayaraq bildirdi:*

– Terrorizm heç bir vəchlə islamla əlaqələndirilməməlidir. Çünki terrorizmin qurbanlarının əksəriyyəti elə müsəlmanlardır. Əminəm ki, mənim ölkəmdə də məhz belə düşünürlər.

Üzləşdiyimiz terrorizm o qədər nəhəngdir ki, heç bir ölkə bu bəlaya qarşı təkbaşına mübarizə apara bilməz. Bu, BMT-nin müvafiq sənədlərində də əksini tapıb. Milli mədəniyyətlər də hər zaman BMT-nin sülh və təhlükəsizlik sahəsində gördüyü işlərdə və göstərdiyi səylərdə mühüm yer tutur. Təbii ki, mədəni meyarlar heç bir halda inkar edilə bilməz. Çünki mövcud münaqişələrə istər mədəniyyətlərarası, istərsə də dinlərarası dialoq yolu ilə son qoyula bilər. Beləliklə də mədəniyyətlərarası dialoq yolu ilə münaqişələrin qarşısının alınmasının preventiv – yəni qabaqlayıcı tədbirlərinə doğru getməliyik.

Biz BMT-nin Baş Məclisi qarşısında məsələ qaldırdıq. Çünki biz məhz terrorizmdən əziyyət çəkən ölkələrin nümayəndələrinin fikirlərini yüksək kürsüdən dinləmək istədik. Çünki biz bu məsələni BMT kürsülərindən hamının eşitməyini istəyirdik. Beləliklə də biz terrorizmin qarşısını almağı və buna son qoymağı tələb edirdik. Biz inanırıq ki, qarşıya qoyulan ali məqsədə nail olmaq üçün məhz terrorizmdən əziyyət çəkən ölkələrə daha çox diqqət yetirilməlidir. Biz həmçinin dini və etnik azlıqlara diqqət yetirilməsinin vacibliyini anlayırıq.

Hazırda dünyada baş verən böhranlardan və münaqişələrdən zərər çəkən çoxlu insanlar var. Biz terrorizmə və münaqişələrə qarşı səmərəli mübarizə aparmaq üçün 3 istiqamətdə işləməliyik. Birincisi, ümumi vətəndaşlıq prinsiplərini, insan haqlarını, bərabərlik amilini öndə tutmalıyıq. İkincisi, milli azlıqların müdafiə mexanizmləri səmərəli olmalıdır. Üçüncüsü isə terrorizm aktlarını törədənlər qanun qarşısında cavab verməlidir.

2015-ci ildə Parisdə dini münaqişələrin qarşısının alınması, Yaxın Şərqdən olan miqrantlar probleminin həlli ilə bağlı BMT

Təhlükəsizlik Şurası qarşısında konkret tədbirlərin görülməsi üçün iki təkliflə çıxış etdim. Birincisi, nümayəndənin təyin olunması, ikincisi isə BMT-nin terrorizmə və ekstremizmə qarşı mübarizə üzrə xüsusi qrupunun yaradılması təkliflərini irəli sürdüm. Mən bunu reallığa çevirmək üçün sizin hamınızı birgə fəaliyyətə çağırıram.

*İrqçiliyə və bu qəbildən olan digər problemlərə qarşı mübarizədən danışan İspaniyanın Xarici İşlər naziri sülh çağırışları və dialoqa qadınların da geniş cəlb edilmələrinin zəruriliyini qeyd etdi:*

– Xüsusilə xanımlara bir müraciətim var. BMT Təhlükəsizlik Şurasının 2015-ci ilin oktyabrındakı görüşündə 22.42 saylı qətnamə təsdiq edilmişdir. Bu qətnamə qadınların rolunu sülh carçıları kimi önə çıxartdı. Kişilərin isə məhz danışıqlar komandası qruplarında önəmli rolu danılmazdır. Eləcə də məhz sözügedən sülh danışıqlarının təbii ki, icrası da çox vacibdir. Təbii ki, qadınların iştirakı fəal şəkildə təmin edilmədən sülh qeyri-mümkündür. Mən həmçinin qabaqcıl müsbət təcrübələr toplusu qaydalarının sosial inklüzivliyi üçün qəbul edilməsinin lehinəyəm. Burada da qeyri-tolerantlığa qarşı qabaqcıl müsbət təcrübələrin tətbiqi təmin olunmalıdır. Təbii ki, kitab və çıxışlar toplusu heç də ən yaxşı, ən müsbət maarifləndirmə vasitəsi deyil. Ən müsbət vasitə deyərdim ki, müxtəlif qrupların bir araya gələrək, təhsil, tədris ocaqlarından kənarda fəaliyyət göstərmələridir.

Mən təklif edərdim ki, bu Alyans mütəxəssis qrupları səviyyəsində görüşərək, konkret tədris proqramlarına daxil edə biləcəkləri təlimatların və tədris təcrübələrinin müxtəlif ölkələrdə faydalı olduğunu sübut etsinlər ki, nəticə etibarilə biz onlardan agah olaq və onları öz müvafiq vəziyyətlərimizdə səmərəli şəkildə tətbiq edə bilək. Biz həmçinin gələn il gənclərin daha bir toplantısının da keçirilməsini təklif edərdik ki, orada onlar tolerantlıqla bağlı məsələlərdə öz fikir və rəylərini bildirib, təcrübə mübadiləsi apara bilsinlər. Beləliklə, biz gərək siyasi keçid proseslərində təmərküzləşməni təmin edə bilək. Bunlar da Sivilizasiyalar Alyansının 2 təməl prinsipidir, sütunudur. Bir tərəfdən, mədəniyyətlərarası anlaşma arasında və demokratik proseslərdə güclü əlaqələrin olması və eyni zamanda, proqramlarımız və layihələrimiz insan haqlarını, eləcə də

fundamental azadlıqlara olan rəğbəti, hörməti, həmçinin demokratik proseslərin təmərküzləşməsi və insanlara, xüsusilə milli azlıqlara olan rəğbət və hörmət təmin olunsun. İspaniyada demokratik keçid təbii ki, dialoq və tolerantlığın bir təntənəsi olmuşdu. Təcrübə də parlamentdən başlamışdı. Konsensus da ən fundamental məsələlərdən biridir ki, vacib bir meyar olaraq sülhün təmin olunmasında mühüm rol oynamışdır.

Mən çıxışımın sonunda Malyufdan sitat gətirmək istərdim. Astoriya mükafatını qəbul edərkən, o belə söyləmişdi: «Müxtəliflik özü sadəcə olaraq, bir reallıqdır. Bizim birgə yaşamağımız üçün fərqliliklərimiz, rəngimiz, inanclarımız, dillərimizin müxtəlifliyi heç də vacib deyil. Vacib olan bizim necə birliyə nail olmağımız, birgə yaşayaraq inkişaf, tərəqqi üçün bu müxtəliflikdən necə istifadə etməyimizdir». Zənnimcə, VII Qlobal Forum qarşımıza qoyulan bu hədəfə nail olmaq üçün bizə yeni imkanlar yaradacaqdır. Təşəkkür edirəm.

**Rəcəb Tayyib Ərdoğan:** Hörmətli prezident, qardaşım İlham Əliyev!

Hörmətli ali nümayəndə!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizləri sevgi və hörmətlə salamlayıram!

İspaniya ilə birlikdə təməlini qoyduğumuz Sivilizasiyalar Alyansının VII Qlobal Forumu münasibətilə Azərbaycanın paytaxtı Bakıda sizinlə birlikdə olmaqdan məmnunluq duyuram. Qlobal forumlar Alyansımızın müxtəlif regionlarda kök salmasına və o coğrafiyanın zənginliklərindən bəhrələnərək, güclənməsinə səbəb olur. Bu gün də Alyansı dəstəkləyən liderlər olaraq, tarix boyu qədim və fərqli mədəniyyətlərin sülh və əmin-amanlıq şəraitində birlikdə yaşadığı Azərbaycanda toplaşmışıq.

Ev sahibimiz, dəyərli qardaşım prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il Azərbaycanda «Multikulturalizm ili» elan edilib. Azərbaycan BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etməklə xüsusi məna daşıyan bu ili daha da zirvəyə qaldırdı. Bu forumun Alyansımıza Cənubi Qafqazın və Orta Asiyanın zəngin mədəni mirasından faydalanma imkanı təqdim

edəcəyinə inanıram. Təşəbbüsümüzün güclənərək gələcəyə çatdırılmasında mühüm vasitə olacaq bu toplantımıza ev sahibliyi etdiyi üçün Azərbaycana xüsusilə təşəkkürümü bildirirəm.

Hörmətli qonaqlar, Sivilizasiyalar Alyansı təşəbbüsünün təməlini 11 il əvvəl İspaniyanın o dövrdəki Baş naziri, hörmətli dostum Xose Luis Rodrigez Sapatero ilə birlikdə qoymuşduq. Ötən müddətdə təşəbbüsümüz daha geniş vüsət aldı və gücləndi. Bu gün 140-dan çox ölkə bu təşəbbüsə – Sivilizasiyalar Alyansına dəstək verir. Geniş miqyasda özünə dəstək tapan bu qrup güclənərək, hazırkı səviyyəyə çatdı. Sivilizasiyalar Alyansı BMT-nin nəzdində BMT platformasının ən mühüm təşəbbüslərindən birinə çevrildi. Ali nümayəndə Nasir Əbdüləziz əl-Nasirin rəhbərliyi ilə reallaşdırılan layihələr sayəsində Sivilizasiyalar Alyansının amalları, dəyərləri və mesajları hər gün artaraq geniş kütlələrə çatdırılır. Ötən il BMT Baş Məclisində 100-dək üzv ölkənin təşəbbüsü ilə bu istiqamətdə bir qərar qəbul edildi. Bu qərar Sivilizasiyalar Alyansının təqdim etdiyi baxışların və hədəflərin qlobal miqyasda qəbul edilməsinin ən gözəl ifadəsi oldu. Tolerantlıq, qarşılıqlı anlaşma və dialoqa əsaslanan birləşmək məqsədimizə dəstək verən bütün dost ölkələrə təşəkkürümü bildirirəm. Ailəmizə ən son qatılan üzvümüz Qırğızıstana da bu münasibətlə «Xoş gəldiniz!» – deyirəm.

*Türkiyə dövlətinin başçısı terrorçuluq və qarşıda duran digər problemlərlə mübarizə ilə bağlı daha çox iş görülməsinin zəruriliyini vurğulayaraq bildirdi:*

– Bu gün 60 milyon insanın ölkələrindəki toqquşmalar nəticəsində evlərini tərk etmək məcburiyyətində qaldıqları bir dünyada yaşayırıq. Əksəriyyəti uşaqlardan və qadınlardan ibarət olan bu məsum insanların bir hissəsinin ümidlə çıxdıqları yolçuluq dənizlərin qaranlıq sularında daha böyük fəlakətlərlə nəticələnir. İstədikləri yerə çata bilənlər isə qonaq olduqları cəmiyyətlərdə şübhə ilə qarşılaşır və ayrı-seçkiliyə məruz qalırlar. Bu faciələrin baş verməsinə səbəb olan hadisələrin yaşandığı ərazilərə baxdıqda, həqiqətən, ziddiyyətlərlə dolu mənzərə ilə qarşılaşırıq. İslam adından hərəkət edən qruplaşmalar ən böyük qətliamları məhz müsəlmanlara qarşı törədir, ən böyük zərəri onlara verirlər. Açıq-aydın deyirəm, bu

terror şəbəkələrinin əli ilə min illərlə mövcud olan mədəni sərvət məhv edilir, qədim şəhərlər xarabalığa çevrilir. Bu qruplaşmaların səbəb olduqları düşüncə ucbatından, xüsusilə Qərb dövlətlərində ksenofobiya və islamofobiyanın sürətlə artdığını müşahidə edirik. Bəzi məkrli siyasət yürüdən dairələrin fürsətdən istifadə edərək ayrı-seçkiliyi şiddətləndirməsini, sevgi əvəzinə nifrət toxumları əkməsini, ayrı-seçkiliyi özləri üçün vəzifə kimi gördüklərini müşahidə edirik. Beləliklə də, müxtəlif mədəniyyətlərə, inanclara sahib olan insanlar arasındakı uçurumun dərinləşməsi daha böyük fəlakətlərin yaşanacağını indidən deməyə əsas verir. Lakin biz həmişə bunu demişik və deyirik ki, terrorun, terrorçuların və terrorçu qruplaşmaların dini, mənşəyi, bölgəsi və mədəniyyəti yoxdur. Məsum insanların həyatına qəsd etməyi heç bir inanc, din, mədəniyyət, vicdan qəbul etməz. Xüsusilə də islam hərfi mənası sülh olan bir dindir. Mənası sülh olan bir din terroru qəbul edə bilərmi?! Bizim dinimizdə terrorun əsla yeri yoxdur. Başda İŞİD olmaqla, islam adından hərəkət edən bu qruplaşmaların islamla heç bir əlaqəsi yoxdur. Çünki terror hər şeydən əvvəl bilavasitə insanın özünə düşməndir.

İnsanlıq olaraq, qarşı-qarşıya olduğumuz bu təhdid hamımızı narahat edir. Təsəvvür edin – xüsusilə bu, zaldakıları daha yaxından maraqlandırdığı üçün deyirəm – ölənin və öldürənin «Allahu-Əkbər» dediyi bir anlayış ola bilərmi? Bunun bizim dinimizlə əlaqəsi yoxdur. Heç bir mədəniyyət bu təhdiddən kənarda qalmayıb. Terror qruplaşmaları mədəniyyətlər ittifaqı layihəsi kimi qurmağa çalışdığımız müştərək idealın ən böyük düşmənidir. Bu təhdidin qarşısını ancaq birgə səylərimizlə ala bilərik. Əks-təqdirdə, hər mövqe, hər bəyanat terrora, terror təşkilatlarına dəstək anlamına gəlir.

*Məzhəbçilik, irqçilik və terrorla bağlı mübarizəni geniş xarakterizə edən Rəcəb Tayyib Ərdoğan Türkiyənin miqrantların qəbulu və onların ağır vəziyyəti ilə bağlı həssas mövqe tutduğunu konkret faktlar əsasında diqqətə çatdıraraq dedi:*

– Hazırda 3 milyon qaçqın ölkəmizdədir. Sağ olsunlar, dostlar gəlib bizə təşəkkür edirlər. Bizdə belə bir ifadə var: «Bal, bal de-

məklə, ağız şirin olmaz». Balı yeyəndə ağız şirin olar. İndi bizə təşəkkür edirlər, bunu başa düşdük. Bizim bu vaxta qədər rəsmi sənədlərə əsasən, xərclərimiz 10 milyard dolları ötüb. Hələ QHT-lərimizin, bələdiyyələrimizin xərclədikləri vəsaiti demirəm. Onlarla birlikdə hesablasaq, 15–20 milyard dollara çatır. Hazırda qaçqın düşərgələrimizdə yaşayan insanların sayı 280 mindir. Bundan başqa, şəhərlərimizdə yaşayanlarla birlikdə bu 3 milyon insanı ölkəmizdə qonaq kimi qəbul etmişik. Üstəlik, biz qapılarımızı bəzi Qərb ölkələri kimi bağlamırıq. Bunu da demək istəyirəm ki, qapılarımızı o bombalardan qaçıb gələnlərin üzünə açmaqda davam edəcəyik. Çünki biz o insanları ölümün pəncəsində qoya bilmərik.

Əziz dostlar, bu gün açılışını etdiyimiz BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu əhatə etdiyi cəmiyyətlərdə birgəyaşama mövzusunda həyata keçiririk. Çünki aparacağımız mübarizədə bizi uğura qovuşduracaq yol fərqliliklərimizlə birlikdə yaşamağı öyrənməkdən keçir. Terrorun bütün formalarına qarşı mübarizədə zəfər ancaq ağıllara, qəlblərə, vicdanlara müraciət edərək əldə oluna bilər. Dözümsüzlüyə, ayrı-seçkiliyə, ksenofobiyaya, müxtəlifliyə qarşı olan qorxuya qalib gəldiyimiz gün bu mübarizədə uğur əldə edə bilərik. Zorakılıq tərəfdarları dini dəyərləri təhrif etməklə, yaratdıqları utopiyalarla gənc nəsillərə təsir göstərir, onları fəlakətə aparırlar. Bunun əvəzində yeni nəsillərə inancları, ədaləti və bərabərliyi əsas götürən həqiqi mesajları ən doğru şəkildə öyrətməliyik. Müxtəlif dinlərin nümayəndələri olaraq, bunu bacardığımızda dünyanın hamımızın birlikdə yaşaya biləcəyi yer olduğu daha yaxşı anlaşılacaq.

Bu istiqamətdə birlikdə fəaliyyət göstərməyə davam etməliyik. Sivilizasiyalar Alyansına, onun prinsip və dəyərlərinə həmişəkindən daha güclü şəkildə sahib çıxmalıyıq. XXI əsrdə bəşəriyyətin çatdığı yerin gündəmini terror təşkilatlarının müəyyən etdiyi bir sonluğa məhkum olmayacağına inanıram. Gələcək nəsillərə daha gözəl bir gələcək miras qoymaq üçün səsimizi bu gündən ucaltmalı və dərhal fəaliyyətə başlamalıyıq.

Bu Forumda iki gün ərzində veriləcək mesajlar çox önəmlidir. Dünyanın müxtəlif yerlərində dözümsüzlükdən, irqçilikdən, kseno-

fobiyadan, ayrı-seçkilikdən əziyyət çəkənlərin nəzərləri hazırda Bakıya yönəlib. Hamı Bakıda qəbul ediləcək yekun Bəyannaməni gözləyir. Eyni zamanda, bu meyillərdən güc alaraq güclənən radikal cərəyanları müdafiə edənlərin də nəzərləri bizim üzərimizdədir. Bizim qarşılıqlı hörmət, tolerantlıq və dialoq əsasında birləşməyimizdən ən çox utananlar da məhz onlardır.

Foruma qatılan siyasi və dini liderlər, alimlər, özəl sektor və vətəndaş cəmiyyəti nümayəndələri olaraq, hamımızın üzərinə düşən vəzifələr var. Dünya ictimaiyyətinə Sivilizasiyalar Alyansının qurulma məqsədini təşkil edən qarşılıqlı hörmət, anlayış və dialoq əsasında sülh şəraitində birgə yaşamağın mümkün olduğu mesajını verməliyik. Bu hədəfə nail olmaq üçün birlikdə hərəkət etməkdə qətiyyətli olduğumuzu həm məzlumlara, həm də zalımlara ən gur səslə çatdırmalıyıq. Bakıda Sivilizasiyalar Alyansını və onun dəyərlərini daha da inkişaf etdirməkdə qətiyyətli olduğumuzu açıq-aşkar ifadə edəcəyimizi düşünürəm. Mədəniyyətlərarası dialoq təşəbbüsünün güclü şəkildə fəaliyyətini davam etdirməsi üçün lazımi siyasi və maddi dəstəyin davam etdiriləcəyini hamımız birlikdə bəyan etməliyik. Bu şərəfli mövqe yalnız bəşəriyyətin bizdən gözlədiyi deyil, eyni zamanda, gələcək nəsillər qarşısında vəzifə borcumuzdur.

Mən bu düşüncə ilə bütün iştirakçılara forum müddətində görüləcək işlərdə uğurlar arzulayıram. Hamınıza sevgilərimi, ehtiramımı bildirirəm, təşəkkür edirəm.

* * *

*Forum işini plenar və bölmə iclasları, BMT Sivilizasiyalar Alyansının Dostları Qrupunun yüksək səviyyəli toplantısı ilə davam etdirdi.*

## BMT SİVİLİZASİYALAR ALYANSININ VII QLOBAL FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*26 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından aprelin 26-da BMT Sivilizasiyalar Alyansının Bakıda keçirilən VII Qlobal Forumunun iştirakçılarının şərəfinə ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ziyafətdə iştirak etmişlər.*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Gözəl bahar günlərində qeyd olunan Pasxa bayramı insanlarda yüksək əhval-ruhiyyə və nikbinlik yaradan, şəfqət və mərhəmət hisslərini artıran, cəmiyyətdə xeyirxahlıq və həmrəylik prinsiplərinin bərqərar olmasına xidmət edən əlamətdar günlərdəndir. Bu bayram müxtəlif dini konfessiyaların əsrlərboyu qarşılıqlı etimad və əmin-amanlıq şəraitində dinc yanaşı yaşadığı Azərbaycanda geniş surətdə qeyd edilir. Xristian həmvətənlərimiz ölkəmizdə təşəkkül tapmış etnik-dini tolerantlıq mühitində dini mərasim və ayinlərini sərbəst şəkildə həyata keçirirlər.

Azərbaycanda yaşayan xristian icmasının nümayəndələri ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni-mənəvi həyatında fəal iştirak edərək, onun hərtərəfli inkişafı işinə öz layiqli töhfələrini verir. Azərbaycan Respublikasında formalaşmış nümunəvi dövlət–din münasibətləri cəmiyyətin bütün təbəqələri kimi, xristian icmasına da öz dini-mənəvi dəyərlərindən lazımınca faydalanmaq imkanı yaradır.

Pasxa bayramı əmin-amanlığın, birlik və bərabərlik duyğularının rəmzidir. Qoy bu nurlu bayram hər birinizə xoş ovqat, ailələrinizə firavanlıq və sevinc gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 aprel 2016-cı il*

## SOSİALİST İNTERNASİONALININ BAŞ KATİBİ LUİS AYALAN İLƏ GÖRÜŞ

*28 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Sosialist İnternasionalının baş katibi Luis Ayalanı qəbul etmişdir.*

*Sosialist İnternasionalının baş katibi Luis Ayala rəhbərlik etdiyi təşkilatın Qara dəniz hövzəsi, MDB məkanı və Cənubi Qafqaz Komitəsinin Bakıda keçirilməsi planlaşdırılan iclasına hazırlıq işləri ilə tanış olmaq üçün ölkəmizə səfər etdiyini vurğuladı. Luis Ayala Sosialist İnternasionalının son vaxtlar həyata keçirdiyi işlərdən danışdı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyətinə dair fikir mübadiləsi aparıldı, Sosialist İnternasionalı ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri, o cümlədən beynəlxalq əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu.*

## AĞSU RAYONUNA SƏFƏR

*29 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Ağsu rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev məlumat verdi ki, ulu öndərin abidəsinin ucaldıldığı Heydər Əliyev parkında geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Park rayon sakinlərinin sevimli istirahət mərkəzlərindən birinə çevrilib.*

# MƏRKƏZİ XƏSTƏXANANIN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ AĞSU RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*29 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Ağsu Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak etmişdir.*

*Azərbaycanda səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Son illərdə prezident İlham Əliyevin səhiyyənin inkişafı ilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasət bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub. Tibb sektoru yeni inkişaf mərhələsinə qədəm qoyub. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə reallaşdırılan siyasətin prioritetləridir. Səhiyyə müəssisələrinin təmir və bərpası, modern avadanlıqlarla, həmçinin vətəndaşların dərman vasitələri və preparatlarla təchiz edilməsi, müalicəsi, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, uşaqların bütün növ tibbi xidmətlərlə yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində islahatların əsasını təşkil edir. Regionlarda yaşayan əhalinin tibbi xidmətlərlə keyfiyyətli şəkildə təmin olunması üçün bütün növ müayinə və müalicəni, əməliyyatları həyata keçirməyə imkan verən yeni səhiyyə müəssisələri yaradılıb. Son illərdə bu sahənin daha da təkmilləşdirilməsi, müasir tibb ocaqlarının inşası və mövcud səhiyyə müəssisələrinin əsaslı bərpası geniş vüsət alıb. Ağsu Rayon Mərkəzi Xəstəxanası üçün yeni binanın inşası da bu prosesin ardıcıl xarakter aldığını təcəssüm etdirir.*

*Prezident İlham Əliyev xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına görülən işlər barədə məlumat verən səhiyyə naziri Oqtay Şirəliyev bildirdi ki, 160 çarpayılıq Ağsu Rayon Mərkəzi Xəstəxanasının tikintisi 2012-ci ildə başlanıb və 2015-ci ilin sonunda başa çatdırılıb. Xəstəxana 3 hektardan çox ərazidə inşa olunub. Əsas bina, yoluxucu xəstəliklər korpusu və 15 çarpayılıq vərəm dispanserindən ibarət olan xəstəxanada doğum, terapiya, cərrahiyyə, pediatriya, anesteziologiya-reanimasiya, patoloji-anatomiya, poliklinika şöbələri fəaliyyət göstərəcək. Bundan əlavə, şüa-diaqnostika, hemodializ və laboratoriya şöbələri də xəstələrin istifadəsində olacaq. Bu şöbələrin hamısı tibbin son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin edilib.*

*Bütün bunlar göstərir ki, son illərdə səhiyyə sahəsində yaşanan genişmiqyaslı dəyişiklik bu sektorun dünyanın müasir tibbi texnika və avadanlıqları ilə təmin olunmasıdır. Müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri regionda ilk dəfə açıq ürək əməliyyatı, qaraciyərin köçürülməsi və digər bu kimi mühüm nailiyyətlərə imza atıb. Ötən illər ərzində regionlarda yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafından xəbər verir. Yeni tikilən tibb ocaqları, ölkəyə gətirilən müasir tibbi avadanlıqlar ilk növbədə bir məqsədə – Azərbaycan əhalisinin sağlam olması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir.*

*Sonra prezident İlham Əliyev Ağsu Rayon Mərkəzi Xəstəxanasının kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İlham Əliyev:** Sizi xoş gördük, hamınızı salamlayıram. Ağsu rayonunda bu gün çox əlamətdar bir gündür. Biz bu gün Ağsu Rayon Mərkəzi Xəstəxanasının açılışını qeyd edirik. 160 çarpayılıq bu xəstəxana dünyanın ən yüksək standartlarına cavab verir. Bina çox gözəldir, yaraşıqlıdır, Ağsu şəhərinə əlavə yaraşıq verir. Çox geniş ictimai yerlər var. Bax, bu zal görün necə gözəl bir memarlıq əsəridir. Xəstəxanada dünyanın aparıcı firmalarının

istehsal etdiyi ən müasir avadanlıqlar quraşdırılıb. Burada 12 şöbə fəaliyyət göstərir. Bütün əsas şöbələr var: pediatriya, terapiya, cərrahiyyə, reanimasiya, hemodializ, doğum və digər şöbələr. Yəni bu xəstəxanada bütün şərait yaradılıb.

Xəstəxananın tikinti sahəsi 24 min kvadratmetrdir. Bu, Azərbaycanda son vaxtlar tikilən ən böyük xəstəxanalardan biridir. Onu da qeyd etməliyəm ki, Ağsu rayonunun əhalisi təxminən 80 min nəfərdir. Bu gün 24 min kvadratmetr böyüklüyündə xəstəxana istifadəyə verilir. Əminəm ki, burada çalışan həkimlər yüksək xidmət göstərəcəklər, insanlara qayğı ilə yanaşacaqlar və artıq başqa yerlərə müalicə almaq üçün getməyə ehtiyac olmayacaq. Mənə verilən məlumata görə, Ağsuda 20-yə yaxın dializ xəstəsi var ki, onlar müalicə almaq üçün mütəmadi qaydada Şamaxı xəstəxanasına gedirdilər. İndi buna ehtiyac qalmır. Bütün müalicələr burada aparılacaqdır.

Xəstəxananın tikintisi ilə bağlı müvafiq göstəriş bir neçə il bundan əvvəl verilmişdir. Ancaq keçən il mən Ağsuda olarkən gördüm ki, binada işlər getmir, yarımçıq qalıbdır. Maraqlandım, dedilər ki, vəsait qurtarıb və büdcədə vəsait nəzərdə tutulmayıb. Mən də göstəriş verdim ki, dərhal Prezidentin ehtiyat fondundan əlavə vəsait ayrılsın. 10 milyon manat əlavə vəsait ayrıldı ki, bu xəstəxana yarımçıq qalmasın, tezliklə tikilib istifadəyə verilsin. Mən keçən dəfə ötən ilin sentyabrında Ağsuda olmuşam. 6 aydan sonra gəlmişəm ki, sizinlə birlikdə bu xəstəxananın açılışını qeyd edək.

Bu doğrudan da gözəl hadisədir. Bu onu göstərir ki, Azərbaycanda sosial məsələlər uğurla həll olunur. Sosial məsələlərin həllində səhiyyə ön plandadır. Son illər ərzində Azərbaycanda 500-dən çox xəstəxana, tibb ocağı tikilib və ya əsaslı şəkildə təmir edilib. İnsanlara gözəl xidmət göstərmək üçün bütün imkanlar var. Bir neçə ildir ki, mənim göstərişimlə ölkə üzrə dispanserləşdirmə aparılır, insanların müayinədən keçməsi işləri lazımi səviyyədə görülür. Bu il 5 milyona yaxın insan müayinədən keçibdir və mənə verilən məlumata görə, onların 91 faizi tam sağlamdır, 8 faizi isə ambulator müalicə ilə təmin edilibdir. O cümlədən Ağsu rayonunda 50 mindən çox insan pulsuz müayinədən keçibdir. Bu bir daha

Azərbaycanın sosial siyasətini göstərir. Çünki insanların sağlamlığı ən vacib məsələdir. İnsanların sağlamlığı üçün vaxtında müayinədən, diaqnostikadan keçmək, analizləri vermək lazımdır. Əgər hər hansı bir xəstəlik aşkar olunarsa, çox gözəl tibbi xidmət göstərilməlidir. Biz bu məsələlərə kompleks şəkildə yanaşırıq və bu gün Azərbaycanın, demək olar ki, bütün bölgələrində, rayonlarımızın mütləq əksəriyyətində ən müasir standartlara cavab verən xəstəxanalar var. Yaxın 1-2 il ərzində elə bir rayon qalmayacaq ki, orada müasir tibb ocağı olmasın.

Sosial məsələlərin həllinə gəldikdə, bilirsiniz ki, Azərbaycan dövləti bu məsələləri daim diqqət mərkəzində saxlayır. Baxmayaraq ki, dünyada iqtisadi, maliyyə böhranı yaşanır, neftin qiyməti 4 dəfə aşağı düşübdür, bu il Azərbaycanda maaşlar və pensiyalar 10 faiz artırılıbdır. Sosial məsələlərin həlli üçün insanların sağlamlığını şərtləndirən su layihələri icra olunur, o cümlədən biz Ağsu rayonunda keçən il içməli su layihəsinin açılışını qeyd etmişik. İndi şəhər əhalisi Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun fasiləsiz içməli su ilə təmin edilir və bir neçə kənd artıq bu şəbəkəyə qoşulubdur.

Təmiz ekoloji vəziyyət, ekologiya tədbirləri də insanların sağlamlığı üçün çox vacibdir və bu da Ağsuda var. Çünki Ağsunun gözəl təbiəti, havası insanın sağlamlığına gözəl şərait yaradır.

Əlbəttə ki, sosial məsələlərin həlli üçün güclü iqtisadi imkanlar olmalıdır. Azərbaycan bu istiqamətdə də liderlik göstərir. Dünya miqyasında iqtisadi artım templərinə görə biz ön plandayıq.

2016-cı il isə dərin iqtisadi islahatlar ilidir. İslahatlar dərinləşir, biznes mühiti yaxşılaşır. İlin əvvəlindən 30 mindən çox yeni iş yeri açılıbdır. İşsizliyə qarşı mübarizə aparılır və yeni müəssisələr, sənaye sahələri, zavodlar, fabriklər açılır, o cümlədən Ağsu rayonunda. Gələcəkdə sənaye potensialımızın artırılması, kənd təsərrüfatının inkişafı yeni bir vəziyyət yaradacaqdır.

Sahibkarlıqla bağlı çox ciddi addımlar atılıbdır. Biznes mühitinin yaxşılaşdırılması, özəl sektorun inkişafı, ixrac potensialımızın artırılması və idxaldan asılılığımızın azaldılması istiqamətində çox ciddi işlər gedir.

Bizim üçün keçmişdə ənənəvi olan sahələr indi yenidən canlanır. Bilirsiniz ki, mən pambıqçılığın inkişafı ilə bağlı müvafiq göstərişlər vermişəm. Artıq işlər başlanıb və o cümlədən Ağsu rayonunda bu il 1000 hektardan çox sahədə pambıq əkiləcək. Bu proses başlamışdır. Sovet dövründə Azərbaycanda ulu öndər Heydər Əliyevin böyük zəhməti, səyləri nəticəsində hər il 800 min, 900 min, hətta 1 milyon ton pambıq istehsal olunurdu.

Mən statistikaya baxdım. Keçən il cəmi 35 min ton pambıq istehsal olunub. Bu il 50 min hektarda pambıq əkiləcək. Əkin başlanıb və biz ən azı 100 min ton məhsul gözləyirik – yəni keçən ildən fərqli olaraq 3 dəfə çox. Ağsu rayonunda isə sovet dövründə 5 min hektar pambıq əkilirdi. Bu il 1000 hektardan çox əkiləcək. Əminəm ki, gələn il siz sovet dövründəki səviyyəyə çatacaqsınız. Bu, yerli istehsal, iş yerləri deməkdir. İnsanlar yaxşı pul qazanacaqlar və biz ixracyönümlü məhsul əldə edəcəyik.

İndi neftin qiymətinin aşağı düşməsi ilə bağlı bizim valyuta gəlirlərimiz azalıb, bu təbiidir. Əgər neftin qiyməti 4 dəfə düşürsə – yaxud indi 3 dəfə, misal üçün, bir az qalxıb – demək, gəlir 3-4 dəfə azalır. Biz bu gəliri ixracyönümlü məhsullarla kompensasiya etməliyik. Onların içərisində pambıq ən əlverişli məhsuldur, çünki dünya birjalarında satılır, satışla bağlı da heç bir problem yoxdur. Ona görə Ağsuda pambıqçılıq inkişaf etməlidir. Biz sovet dövrünün səviyyəsinə qalxmalıyıq və qalxacağıq da.

Baramaçılıqla bağlı oxşar göstərişlər verilib, bu istiqamətdə də işlər gedir. Biz daim insanları işlə təmin etmək üçün çox ciddi fəaliyyət göstərməliyik. Çünki Azərbaycanda son 12 il ərzində 1 milyondan çox daimi iş yeri açılıbdır, ümumiyyətlə, təxminən 1 milyon 300 min. Ancaq əhali də artır. Əhali artdıqca iş yerlərinin açılmasına daha da ehtiyac var. Ona görə bu, daimi proses olmalıdır. Kənd təsərrüfatı, emal sənayesi, sənaye müəssisələrinin yaradılması, turizm imkanlarının genişləndirilməsi – bütün bu məsələlərə biz kompleks şəkildə yanaşırıq. Bu səbəbdən Azərbaycan neftin qiyməti aşağı düşdükdə belə, neftlə zəngin olan bütün başqa ölkələrdən bəlkə də daha gözəl nəticələr göstərir. Çünki

düşünülmüş siyasət aparılır. İqtisadiyyatın şaxələndirilməsi prosesi gedir və qeyri-neft sektoru inkişaf edir.

Siz yaxşı bilirsiniz ki, Ağsu rayonunun sosial-iqtisadi inkişafı üçün bir çox tədbirlər görülmüşdür, sərəncamlar imzalanmışdır. Mən daim rayondakı vəziyyəti diqqətdə saxlayıram. Bu mənim prezident kimi, Ağsuya 5-ci səfərimdir. Bu illər ərzində doğrudan da bir çox vacib layihələr icra edildi. Qazlaşdırma səviyyəsi təxminən 90 faizə çatır. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Ağsu şəhərinin içməli su ilə təmin edilməsi məsələsi öz həllini tapıbdır. Kənd yollarının tikintisi gedir. Bir neçə layihə icra edilib. Mən indi əlavə göstəriş verəcəyəm, vəsait ayıracağam ki, yeni kənd yolları layihələri icra edilsin. Bakı–Şamaxı yolu artıq genişlənir. Dördzolaqlı yol olacaq, gəliş-gediş rahat olacaq. Digər istiqamətə gedən Göyçay–Ağdaş yolu da lazımi səviyyədə təmir edilir. Bütün infrastruktur layihələri artıq ya başa çatıb, ya da ki, yaxın zamanlarda başa çatacaq.

İndi əsas vəzifə yerli istehsalın artırılması, kənd təsərrüfatının inkişafıdır. Biz yeni əkin sahələrini dövriyyəyə buraxmalıyıq. Suvarmanı daha yaxşı səviyyədə təşkil etməliyik. Biz gərək ənənəvi olan kənd təsərrüfatı sahələrini canlandıraq, bərpa edək. Beləliklə, insanların rifah halı daha da yaxşılaşacaq və ölkəmiz neftdən asılılığını daha da aşağı səviyyəyə salacaqdır.

Hesab edirəm, bu gün təbii ki, tarixdə qalacaq. Təkcə ona görə yox ki, Ağsuda belə gözəl, yaraşıqlı, əzəmətli tibb ocağı yaradılıb. Ona görə ki, hətta böhranlı illərdə, müəyyən çətinliklərlə üzləşdiyimiz bir dövrdə yenə də biz sosial məsələləri, insanların sağlamlığını ön planda saxlayırıq. İnsanlar üçün belə gözəl memarlıq əsərləri yaradırıq. İnsanlar yaxşı yaşasınlar, dolanışıq daha yaxşı olsun, yaxşı tibbi xidmət alsınlar. Eyni zamanda, bu xəstəxana, əlbəttə ki, həkimlərin iş yeridir. Sizin üçün də gözəl şərait yaradılıbdır. Çünki əvvəlki rayon xəstəxanasının vəziyyəti – siz məndən yaxşı bilirsiniz – o qədər də ürəkaçan deyildi. Yeni binada isə şərait çox gözəldir. Belə də olmalıdır. Çünki bu tibb ocağı insanlara xidmət göstərəcək.

Sizi bir daha salamlayıram və bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun.

*Ağsu Rayon Mərkəzi Xəstəxanasının baş hakimi Şəhrabanu Məlikova diqqət və qayğıya görə prezident İlham Əliyevə minnətdarlıq etdi.*

**Ş ə h r a b a n u  M ə l i k o v a:** Cənab Prezident, müasir tələblərə cavab verən xəstəxana binasını bizə hədiyyə etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Çox sağ olun. Allah Sizə cansağlığı versin.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Vətəndaşlara yaxşı xidmət göstərin.

## Bakı–Şamaxı–Yevlax avtomobil yolunun Muğanlı–Yevlax mənzilinin 115 kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Bakı–Şamaxı–Yevlax avtomobil yolunun Muğanlı–Yevlax mənzilinin 115 kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Son illərdə ölkədə yol infrastrukturunun inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına da irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər ilk növbədə, Azərbaycan iqtisadiyyatının inkişafını göstərməklə yanaşı, vətəndaşların həyatının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir. Belə layihələrdən biri də Bakı–Şamaxı–Yevlax*

*avtomobil yolunun Muğanlı–Yevlax hissəsinin yenidən qurulması layihəsidir.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, ölkəmizin regionlarını birləşdirməsi baxımından mühüm əhəmiyyət daşıyan bu yol uzun müddət əsaslı təmir edilmədən istismarda olub. Yolu fərqləndirən cəhət bəzi yerlərdə çətin dağlıq ərazidən keçməsidir. Buna görə yolboyu geniş bərkitmə və torpaq işləri aparılıb. Əsaslı şəkildə yenidən qurulan 2 hərəkət zolaqlı yolun ümumi uzunluğu 115,15 kilometr, yol yatağının eni 12,5 metr, hərəkət hissəsinin eni isə 7,5 metrdir. Yolun yenidən qurulması layihəsində nəzərdə tutulan 7 eyni səviyyəli dairəvi yol kəsişməsinin, 54 yol birləşməsinin və 263 suötürücü borunun tikintisi işləri aparılıb, həmçinin 6 körpü sökülərək yenidən inşa edilib. Bundan başqa, layihə üzrə avtomobil yolunda yol qurğuları və avadanlıqlarının, elektrik dirəklərinin quraşdırma işləri həyata keçirilib, 39 avtobus dayanacağının tikintisi aparılıb, yol nişanları qoyulub, piyada səkiləri tikilib, drenaj işləri görülüb.*

*Onu da qeyd edək ki, bu yolun əsaslı şəkildə yenidən qurulmasına prezident İlham Əliyevin tapşırığı ilə 2010-cu ilin martında başlanılmışdır.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## MALTA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ CORC VELLA İLƏ GÖRÜŞ

*29 aprel 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Maltanın Xarici İşlər naziri Corc Vellanı qəbul etmişdir.*

*Prezident İlham Əliyev Malta Respublikasının Prezidenti xanım Mari-Luiz Koleyro Prekanın bu günlərdə Bakıda keçirilən BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda iştirakını yüksək qiymətləndirdi. Malta Prezidentinin səfəri zamanı ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlığın inkişafı, eyni zamanda, Azərbaycan–Avropa İttifaqı əlaqələri ətrafında da müzakirələrin aparıldığını qeyd edən dövlətimizin başçısı Maltanın Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq prosesinin fəal iştirakçısı olduğunu vurğuladı. Malta Respublikasının Baş naziri Cozef Muskatın Azərbaycana keçənilki səfərini də məmnunluqla xatırladan prezident İlham Əliyev bu dəfə Malta Xarici İşlər nazirinin Bakıya səfərini əməkdaşlığımızın dinamik şəkildə davam etdirilməsinin göstəricisi kimi dəyərləndirdi. Azərbaycan ilə Malta arasında fəal tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu deyən dövlətimizin başçısı bu əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd etdi, Maltanın Xarici İşlər naziri Corc Vellanın ölkəmizə səfərinin mövcud əməkdaşlıq formatının möhkəmləndirilməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Xarici İşlər naziri Corc Vella Malta Respublikasının Prezidenti xanım Mari-Luiz Koleyro Prekanın və Baş nazir Cozef Muskatın salamlarını prezident İlham Əliyevə çatdırdı. O, ölkəsinin Prezidentinin Bakıya səfərindən və keçirdiyi görüşlərdən məmnun olduğunu dedi. Maltanın Azərbaycan ilə əlaqələri daha da genişləndirməkdə maraqlı olduğunu deyən Corc Vella ikitərəfli münasibətlərin yalnız enerji deyil, hər iki ölkə üçün qarşılıqlı faydalı ola biləcək bir sıra digər sahələrdə möhkəmləndirilməsi üçün də*

*yaxşı potensialın olduğunu bildirdi, bu istiqamətdə imkanların araşdırılmasının vacibliyini vurğuladı.*

*Prezident İlham Əliyev Malta Respublikasının Prezidenti xanım Mari-Luiz Koleyro Prekanın və Baş nazir Cozef Muskatın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Malta Respublikasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## QEYDLƏR

**1. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 5–25, 39,62, 63, 72, 73, 114, 115,121, 144, 154, 155, 156, 158, 159, 161, 223, 322.

**2. Türkiyə,** Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 5, 7, 9, 10, 11, 12, 19, 24, 71, 72, 79, 105, 109–126, 139, 143, 214, 219, 222, 256, 265–280, 284, 303.

**3. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 5, 7, 9, 10, 11, 12, 23, 46, 63, 71, 79–80, 95, 214, 222, 256.

**4. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 326,7 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 6, 11, 15, 16, 22, 65, 72, 80, 106, 144, 153–173, 190, 214, 217, 219, 223, 240–264.

**5. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi

idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin 2 müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcə layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 6, 14, 16, 18, 21, 72, 134.

**6. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 12, 19, 63, 75–77, 94, 144, 214.

**7. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir. (İngiltərə hökuməti artıq qurumdan sıxmaq üzrədir)

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 6, 14, 16, 18, 21, 72, 134.

**8. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət.

Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 11, 72, 80–81, 144.

**9. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Mənzil-qərargahı Maniladadır (Filippin). Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 11.

**10. «Əsrin müqaviləsi» –** 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 17.

**11. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Company of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 17, 18, 39, 54, 61, 261, 262, 299.

**12. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 26, 139, 140, 192.

**13. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 201,9 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 27–28, 71, 131, 149.

**14. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 27, 28, 131, 149.

**15. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 29–30, 54, 71, 101–102, 135, 143, 176, 193–195, 200, 201–211, 214.

**16. Dmitri Roqozin** (d.1963) – Rusiyanın siyasi və dövlət xadimi, diplomat, fəlsəfə elmləri doktoru. 2003–2004-cü illərdə Dövlət Dumasının Sədr müavini, 2011-ci ildə Rusiya Federasiyasının NATO-da nümayəndəsi, 2012-ci ildən Dnestryanıda xüsusi nümayəndəsi, 2011–2018-ci illərdə Rusiya hökumətinin Sədr müavini olmuşdur. 2018-ci ilin mayından isə «Roskosmos» dövlət şirkətinin baş direktorudur. – 29–30.

**17. 8 Mart Beynəlxalq Qadınlar Günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq

həmrəylik günü. Beynəlxalq Qadınlar Gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların II Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 31–38.

**18. Macarıstan,** M a c a r ı s t a n R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 35–45, 144.

**19. Çin,** Ç i n X a l q R e s p u b l i k a s ı (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 39, 71, 80, 143, 229.

**20. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 43–45, 63, 82, 85, 136, 146, 147, 150, 212, 213, 265, 293, 294, 303, 310, 314.

**21. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 44.

**22. Qətər,** Q ə t ə r  d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min $km^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı əmirdir. Paytaxtı Doha şəhəridir. – 47–53, 270.

**23. Təmim bin Həməd əl-Tani** (d.1980) – 2013-cü ildən Qətər əmiri. – 47–53.

**24. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 48, 49, 75, 113, 265–280, 317, 318.

**25. Samir Şərifov,** S a m i r  R a u f  o ğ l u (d.1961) – hüquqşünas. 2001–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru olmuşdur. 2006-cı ildən isə Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təməlçi direktordur. – 52.

**26. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 53, 116.

**27. «Qazprom»** – Rusiyanın qaz istehsal edən və qaz paylayan şirkəti. Dünyanın ən böyük qaz ixrac edən şirkətlərindən biri. Şirkətin hazırkı adı – Rusiya «Qazprom» Səhmdar Cəmiyyəti. Mənzil-qərargahı Moskvadadır. – 54.

**28. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmış, həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 55–99.

**29. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 55, 82–84, 85–86, 99, 214.

**30. Vayra Vike-Freyberqa** (d.1937) – Latviyanın dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 55, 82–84, 85–86.

**31. Misir,** M i s i r  Ə r ə b  R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1,01 milyon km$^2$, əhalisi 97 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 55, 63, 151–152, 268.

**32. Ukrayna,** U k r a y n a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon

nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 56, 214.

**33. Viktor Yuşenko** (d.1954) – Ukraynanın dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukrayna Respublikasının Prezidenti olmuşdur. – 56.

**34. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 10,1 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 57, 214, 270.

**35. II Abdullah,** Abdullah bin Hüseyn (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır, kvalifikasiyalı dalğıc, paraşütçü və pilotdur. – 57.

**36. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 68, 76, 156, 170, 178, 202, 207, 269, 276, 318, 320.

**37. Suriya,** Suriya Ərəb Respublikası – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 17,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazaya (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşq şəhəridir. – 64, 65, 76, 270, 278.

**38. İraq,** İraq Respublikası – Cənub-Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 435

min km$^2$, əhalisi 37 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdad şəhəridir. – 64, 76, 270, 278.

**39. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin işğalı altındadır. –68, 106, 108, 119, 123, 134, 139, 154, 161, 163, 172, 179, 193, 195, 196, 201, 202, 204, 207, 217, 218, 266, 269,272, 273, 273, 276, 281, 282, 284–309, 311, 312.

**40. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 69, 178, 188, 195, 276, 318, 319, 320.

**41. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə Heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 71.

**42. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 71, 100, 139, 199–200, 274, 295–296.

**43. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 110 km$^2$, əhalisi 330 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 74.

**44. İmamzadə piri,** İ m a m z a d ə t ü r b ə s i, G ö y i m a m – Gəncədə orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Bagirin oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general-leytenant İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 metr, diametri 4,4 metrdir. Günbəzə

mavi kaşıdan üzlük çəkilmişdir («Göy imam» adı da bununla əlaqədardır). – 74.

**45. İpək yolu**, böyük İpək yolu – beynəlxalq tarixi tranzit-ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 114, 229, 322.

**46. Rosen Plevneliev** (d.1964) – Bolqarıstan siyasətçisi və sahibkarı. 2012–2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 75–77, 94.

**47. Giorgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013-cü ildən Gürcüstan Respublikasının Prezidentidir. – 79–80, 95.

**48. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri, 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 80–81.

**49. Leyla Əliyeva,** Leyla İlham qızı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 85.

**50. Bosniya və Herseqovina** – 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman başnak, serb və xorvat) milli-dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya–Herseqovinadan ibarət federativ respublika yarandı, sahəsi 51,2 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəhəridir. – 97, 267.

**51. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 100, 194, 199, 200, 274, 296.

**52. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər

Əliyev» ordeni ilə təltif edilmişdir. – 105, 110–126, 266–271, 275–277, 280, 303, 331–335.

**53. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Nax-

çıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına

«Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 112, 119, 120, 137, 145, 284, 336, 339, 344.

**54. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən indiyə kimi Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 116.

**55. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. – 129.

**56. Fransisk** (*əsl adı Jorqe Mario Bergoglio*) (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 129.

**57. Tunis,** T u n i s R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 130.

**58. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i- k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 133, 270.

**59. Əbdül Həmid** (d.1944) – Banqladeşin siyasi və dövlət xadimi. 2013-cü ildən Banqladeş Xalq Respublikasının Prezidentidir. – 133.

**60. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Bəzi məlumatlara görə daha erkən dövrlərdə inşa edilmişdir. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 28 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 136.

**61. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 139, 140, 141, 176, 194, 195, 196, 207, 211.

**62. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin

birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 147.

**63. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 147.

**64. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 148.

**65. Maqsud İbrahimbəyov,** M a q s u d M ə m m ə d i b r a h i m o ğ l u (1935–2016) – görkəmli nasir, dramaturq, ssenarist, ictimai xadim, Azərbaycan Xalq yazıçısı. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Respublikada və xaricdə nəşr edilən onlarla povest və hekayələrin müəllifi. Onun pyesləri keçmiş

SSRİ məkanında onlarla teatrlarda tamaşaya qoyulmuş, ssenariləri əsasında bir çox filmlər çəkilmişdir. 1995–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 150.

**66. Con Kerri** (d.1943) – ABŞ-ın siyasi xadimi. 2013–2014-cü illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 154–157, 162.

**67. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 156.

**68. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 162, 167, 168, 169, 246.

**69. Riçard Armitac** (d.1945) – Ronald Reyqanın prezidentliyi dövründə (1980–1988) Müdafiə nazirinin beynəlxalq təhlükəsizlik üzrə müşaviri olmuşdur. Corc Buşun (ata) prezidentliyi dövründə (1988–1992) xüsusi tapşırıqlar üzrə səfir işləyərkən yeni müstəqil dövlətlərə yardım göstərmək proqramının müəlliflərindən biri olmuşdur. Həmin vaxtdan 907-

ci düzəlişin əleyhinə çıxır. Amerika–Azərbaycan Ticarət Palatası Direktorlar Şurasının üzvüdür. «Armitac Assoşieyts El Si» şirkətinin sahiblərindən biridir. – 163.

**70. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 176.

**71. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 176, 217.

**72. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 178.

**73. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 179–181, 184.

**74. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 273, 278–279.

**75. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 307.

**76. Myanma,** M y a n m a İ t t i f a q ı R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada, Hind-Çin yarımadasının şimal-qərb hissəsində zəif inkişaf etmiş ölkə. 1989-cu ilə qədər Birma adlanırdı.

Sahəsi 678,5 $km^2$, əhalisi 55 milyon nəfərdir. İnzibati ərazisi 7 milli və 7 administrativ vilayətə bölünür. Paytaxtı Neypyido şəhəridir. – 182.

**77. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min $km^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 10, 176, 214, 309–310, 311.

**78. Məhəmməd Cavad Zərif** (d.1960) – İran diplomatı və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Xarici İşlər naziridir. – 199–200.

**79. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti, 2012-ci ilin may ayından Baş naziridir. – 201–211.

**80. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 194, 202, 203, 207.

**81. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon $km^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 235.

**82. Pranab Mukherci** (d.1935) – Hindistanın dövlət xadimi. 2004–2006-cı illərdə Müdafiə naziri, 2006–2009-cu illərdə Xarici İşlər naziri, 1982–1984 və 2009–2012-ci illərdə Maliyyə naziri, nəhayət, 2012–2017-ci illərdə Hindistan Respublikasının Prezidenti olmuşdur. – 235.

**83. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat. 2007–2016-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. – 272, 326–327.

**84. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 283.

**85. Ekvador,** Ekvador Respublikası – Cənubi Amerikanın cənub-qərbində dövlət. Sahəsi 283,6 min km$^2$, əhalisi 16 milyon nəfərdir. İnzibati ərazisi 21 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı Milli Konqresdir. Paytaxtı Kito şəhəridir. – 285.

**86. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 55 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Pretoriya şəhəridir. – 297.

**87. Ceykob Zuma** (d.1942) – Cənubi Afrika Respublikasının siyasi xadimi, 1999–2005-ci illərdə CAR-ın vitse-prezidenti, 2007–2017-ci illərdə CAR Milli Konqresinin sədri, 2009–2018-ci illərdə CAR-ın Prezidenti olmuşdur. – 297.

**88. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür.

Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 298.

**89. Villem-Aleksandr** (d.1967) – 2013-cü ildən Niderland Krallığının kralı. – 298.

**90. Qazaxıstan,** Q a z a x ı s t a n  R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 270, 304–305.

**91. Nursultan Nazarbayev,** N u r s u l t a n  A b i ş  o ğ - l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 305.

## Şəxsi adlar göstəricisi


**II Abdullah** – 57
**Abdullayev Rövnəq** – 299
**Akdoğan Yalçın** – 117
**Akihito** – 283
**Aqramunt Pedro** – 26
**Ala Əfkan** – 116
**Albayrak Berat** – 10, 12, 24
**Andre Pyer** – 196
**Armitac Riçard** – 163
**Ayalan Luis** – 338
**Ayan Tomaş** – 191
**Bağırov Faiq** – 116
**Barak Ehud** – 59
**Bayden Co** – 161–162
**Birrel Qordon** – 11, 256–258
**Bokova İrina** – 82
**Börns Uilyam** – 163
**Bradşav İn** – 11
**Buş Corc** – 246
**Cabbarov Mikayıl** – 53
**Canelidze Mixeil** – 46
**Cirit Rüştü** – 284
**Çan Day Kuanq** – 183
**Çavuşoğlu Mövlud** – 116
**Davudoğlu Əhməd** – 273, 278–279
**De Vinçenti Klaudio** – 12
**Delqado Rafael** – 285
**Dezir Arlem** – 311
**Düzyol Saltuk** – 11
**Əl-Emadi Əli** – 52

**Əl-Qasimi Lubna** – 308
**Əl-Əli Salah** – 53
**Əl-Macali Abdelsalam** – 57
**Əl-Nasir Əbdüləziz** – 323–326
**Əl-Sulaiti Cassem** – 52
**Əl-Tani Məhəmməd** – 53
**Əl-Tani Təmim bin Həməd** – 47–53
**Əliyev Aydın** – 52
**Əliyev Heydər** – 112, 119, 120, 137, 145, 284, 336, 339, 344
**Əliyev Natiq** – 9, 10
**Əliyeva Leyla** – 85
**Əliyeva Mehriban** – 43–45, 63, 82, 85, 136, 146, 147, 150, 212, 213, 265, 293, 294, 303, 310, 314
**Ərdoğan Rəcəb Tayyib** – 105, 110–126, 266–271, 275–277, 280, 303, 331–335
**Ərdoğan Əminə** – 303
**Əs-Sebsi Beji** – 130
**Əs-Sisi Əbdülfəttah** – 151, 152
**Əsədov Oqtay** – 147
**Əsədov Heydər** – 52
**Feltman Cefri** – 272
**Fransisk** *(Roma papası)* – 129
**Frilyand Tod** – 11
**Gəncəvi Nizami** – 55–99
**Halonen Tarya** – 98
**Hamaçek Yan** – 107–108
**Harris Devid** – 106
**Hembrik Con** – 190
**Həmid Əbdül** – 133
**Həsənov Zakir** – 179–181, 184
**Hokberq Fred** – 164
**Hokstayn Amos** – 9, 11, 22

**Hosker Edmund** – 11
**Hüseyn Mahmud** – 27–28
**Hüseyn Məmnun** – 27, 28, 131, 149
**İbrahimbəyov Maqsud** – 150
**İbrahimbəyova Anna** – 150
**İbrahimi Əhməd** – 151–152
**İsakzai Qulam** – 236–237
**İsayev Əfqan** – 11
**İvanov George** – 93
**İvaniç Mladen** – 97
**İzzetbekoviç Bakir** – 267
**Kaladze Kaxa** – 12, 23
**Kasprşik Anji** – 196
**Kavariç Vladimir** – 12
**Kemeron Devid** – 80–81
**Kerri Con** – 154–157, 162
**Kərimov Nurlan** – 253–254
**Kiandee Seri** – 238–239
**Klinton Bill** – 246
**Komorovski Bronislav** – 91
**Kulişov Vladimir** – 101–102
**Kvirikaşvili Giorgi** – 46
**Kretyen Jan** – 84
**Qarayev Əbülfəs** – 212
**Quliyeva Teybə** – 249–251
**Lavrov Sergey** – 193–195
**Leuka George** – 103–104
**Levaini Aniko** – 35
**Livni Tsipi** – 96
**Lukaşenko Aleksandr** – 307
**Mahmud Rəşad** – 27–28
**Marqallo Manuel** – 312, 327–331
**Marqvelaşvili Giorgi** – 46, 79–80, 95
**Medvedev Dmitri** – 201–211
**Mehdiyev Ramiz** – 147

**Mesiç Stepan** – 60
**Mədəni İyad** – 269
**Məmmədyarov Elmar** – 53, 116
**Mişel Şarl** – 148
**Moqerini Federika** – 13–14, 25
**Mansel Fransua** – 309–310
**Mukherci Pranab** – 235
**Myasnikoviç Mixail** – 306–307
**Nazarbayev Nursultan** – 305
**Nişani Buyar** – 77–79, 92
**Obasanjo Olusegun** – 84
**Obama Barak** – 162, 167, 168, 169, 246
**Olland Fransua** – 176
**Orban Viktor** – 35–45
**Paneniç Tomislav** – 12
**Pan Gi Mun** – 272, 326–327
**Papazov Rosen** – 251–253
**Paşayev Mövlan** – 254–256
**Pavlopulos Prokopis** – 132
**Petkova Temenujka** – 12
**Popov İqor** – 196
**Plevneliev Rosen** – 75–77, 94
**Preka Mari-Luiz** – 313, 348, 349
**Pritzker Penni** – 158
**Putin Vladimir** – 194, 202, 203, 207
**Rifai Taleb** – 33–34
**Rays Con** – 166
**Razak Məhəmməd** – 238
**Reyqan Ronald** – 246
**Roqozin Dmitri** – 29–30
**Ruhani Həsən** – 100, 194, 199, 200, 274, 296
**Rzayi Qasım** – 100
**Salber Herbert** – 134, 281–282
**Sekuta Robert** – 245–246
**Serageldin İsmail** – 55, 63–66

**Seyidəliyev Ənvər** – 339
**Sobotka Bohuslav** – 173
**Sununu Con** – 165
**Siddiq İrfan** – 80
**Şennak Stefan** – 192
**Şennon Tomas** – 172
**Şevçoviç Maroş** – 9–10, 14, 21
**Şərifov Abid** – 116, 117
**Şərifov Samir** – 52
**Şərif Nəvaz** – 27, 28
**Şükri Sameh** – 268
**Tadiç Boris** – 58
**Talu İlhan** – 116
**Thin Cjo** – 182
**Tokayev Qasım-Comərd** – 304–305
**Trüdo Castin** – 81
**Uorlik Ceyms** – 196
**Vaezi Mahmud** – 295–296
**Vella Corc** – 348–349
**Verroiopoulos Mixail** – 12
**Vəliyev İlqar** – 247–249
**Volaçit Bounyanq** – 302
**Vuyanoviç Filip** – 61–62
**Vike-Freyberqa Vayra** – 55, 66, 82–84, 85–86
**Villem-Aleksandr** – 298
**Yuşenko Viktor** – 56
**Zatlers Valdis** – 99
**Zeman Miloş** – 107, 108
**Zərif Məhəmməd** – 199–200
**Zuma Ceykob** – 297
**Zubkov Viktor** – 54

## Coğrafi adlar göstəricisi


**Ağdam** – 176, 217
**Ağdərə** – 183
**Ağsu** – 339–347
**Afrika Səhrası** – 64, 89, 270
**Albaniya** – 12, 19, 63, 72, 77–79, 92, 144
**Amerika Birləşmiş Ştatları** – 6, 11, 15, 16, 22, 65, 72, 80, 106, 144, 153–173, 190, 214, 217, 219, 223, 240–264
**Ankara** – 105, 109–126, 270
**Aralıq dənizi** – 7, 155
**Asiya** – 71, 114, 143, 270
**Avrasiya** – 7
**Avropa** – 6, 9, 10, 39–40, 65, 67, 71, 114, 143, 154, 222, 317
**Balkan ölkələri** – 76
**Banqladeş** – 133, 270
**Belçika** – 148
**Belarus** – 214, 306–307
**Bəhreyn** – 270
**Birləşmiş Ərəb Əmirlikləri** – 139, 218, 270, 307
**Binə** – 293
**Bolqarıstan** – 12, 19, 63, 75–77, 94, 144, 214
**Bosniya və Herseqovina** – 97, 267
**Böyük Britaniya** – 11, 72, 80–81, 144
**Bruney** – 270
**Brüssel** – 148, 270
**Cənub-Şərqi Avropa** – 10
**Cənubi Afrika Respublikası** – 297

**Cənubi Qafqaz** – 14, 134, 281–282
**Çex Respublikası** – 107–108, 173, 214
**Çin** – 39, 71, 80, 143, 229
**Dağlıq Qarabağ** – 68, 106, 108, 119, 123, 134, 139, 154, 161, 163, 172, 179, 193, 195, 196, 201, 202, 204, 207, 217, 218, 266, 269,272, 273, 273, 276, 281, 282, 284–309, 311, 312
**Dominikan** – 214
**Ekvador** – 285
**Əfqanıstan** – 76, 79, 154, 156, 270
**Ələt** – 114
**Fələstin** – 270
**Finlandiya** – 98
**Fransa** – 10, 176, 214, 309–310, 311
**Gəncə** – 74
**Gürcüstan** – 5, 7, 9, 10, 11, 12, 19, 23, 46, 63, 71, 79–80, 95, 214, 222, 256
**Hindistan** – 71, 235
**Xəzər dənizi** – 9, 79, 155, 230, 256, 274
**Xocalı** – 178
**Xorvatiya** – 12, 60, 144
**İndoneziya** – 270
**İordaniya** – 57, 214, 270
**İraq** – 64, 76, 270, 278
**İran** – 71, 100, 139, 199–200, 219, 274, 295–296
**İrəvan** – 178
**İsgəndəriyyə** – 63
**İspaniya** – 10, 214, 312
**İsrail** – 59, 96
**İtaliya** – 10, 12, 19, 144
**İstanbul** – 113, 265–282

**İsveçrə** – 214
**Kanada** – 81
**Küveyt** – 270
**Qars** – 5, 10, 124
**Qazax** – 174
**Qazaxıstan** – 270, 304–305
**Qətər** – 47–53, 270
**Qara dəniz** – 7
**Lahor** – 149, 270
**Laos** – 302
**Latviya** – 55, 82–84, 85–86, 99, 214
**Livan** – 270
**Liviya** – 64, 278
**Macarıstan** – 35–45, 144
**Madagiz** – 180
**Malayziya** – 238–239, 270
**Makedoniya** – 93
**Malta** – 313
**Misir** – 55, 63, 151–152, 268
**Moldova** – 103, 104
**Monteneqro** – 12, 19, 61, 62, 63, 214
**Moskva** – 207, 348–349
**Myanma** – 182
**Naxçıvan** – 122
**Niderland** – 298
**Nevada***(ABŞ-da ştat)* – 190
**Nyu-York** – 64
**Pakistan** – 27–28, 71, 131, 149
**Paravur** – 235
**Paris** – 176
**Polşa** – 91
**Rusiya** – 29–30, 54, 71, 101–102, 135, 143, 176, 193–195, 200, 201–211, 214

**Serbiya** – 58
**Səudiyyə Ərəbistanı** – 270
**Sloveniya** – 214
**Somali** – 64
**Sudan** – 64
**Suriya** – 64, 65, 76, 270, 278
**Şamaxı** – 316
**Şəki** – 316
**Şərqi Anadolu** – 197
**Şimali Afrika** – 64
**Tacikistan** – 270
**Tunis** – 130
**Türkiyə** – 5, 7, 9, 10, 11, 12, 19, 24, 71, 72, 79, 105, 109–126, 139, 143, 214, 219, 222, 256, 265–280, 284, 303
**Türkmənistan** – 79, 270
**Ukrayna** – 56, 214
**Vaşinqton** – 153–173
**Vatikan** – 129
**Vyetnam** – 183
**Yaxın Şərq** – 67, 74, 268
**Yaponiya** – 283
**Yəmən** – 64, 270
**Yunanıstan** – 10, 12, 19, 132, 144, 214

# MÜNDƏRİCAT

BAKIDA «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI
ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN İKİNCİ TOPLANTISI

*29 fevral 2016-cı il ........................................................................5*

YEKUN NİTQİ

*29 fevral 2016-cı il ......................................................................14*

«CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏ-
SİNDƏ NAZİRLƏRİN İKİNCİ TOPLANTISININ
BİRGƏ BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİ

*29 fevral 2016-cı il ......................................................................20*

AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-
PREZİDENTİ MAROŞ ŞEVÇOVİÇ İLƏ GÖRÜŞ

*29 fevral 2016-cı il ......................................................................21*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN RƏSMİSİ
AMOS HOKSTAYNIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 fevral 2016-cı il ......................................................................22*

GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ
KAXA KALADZE İLƏ GÖRÜŞ

*29 fevral 2016-cı il ......................................................................23*

TÜRKİYƏ RESPUBLİKASININ ENERJİ VƏ TƏBİİ
SƏRVƏTLƏR NAZİRİ BERAT ALBAYRAK İLƏ
GÖRÜŞ

*29 fevral 2016-cı il ......................................................................24*

AVROPA İTTİFAQININ ALİ NÜMAYƏNDƏSİ FEDERİKA MOQERİNİNİN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ İŞTİRAK

*29 fevral 2016-cı il* ........................................................................25

AŞPA-nın PREZİDENTİ PEDRO AQRAMUNT İLƏ GÖRÜŞ

*1 mart 2016-cı il*..........................................................................26

PAKİSTAN İSLAM RESPUBLİKASININ BİRLƏŞMİŞ QƏRARGAH RƏİSLƏRİ KOMİTƏSİNİN SƏDRİ RƏŞAD MAHMUDUN BAŞÇILIQ ETDİYİ NÜMA-YƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 mart 2016-cı il*..........................................................................27

RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 mart 2016-cı il*..........................................................................29

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*4 mart 2016-cı il*..........................................................................31

BMT-nin DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ TALEB RİFAİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2016-cı il*..........................................................................33

MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*6 mart 2016-cı il*..........................................................................35

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*6 mart 2016-cı il*..........................................................................36

MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*6 mart 2016-cı il*......................................................................................*38*

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVAYA MACARISTANIN ALİ ORDENİNİN TƏLTİFETMƏ MƏRASİMİNDƏ İŞTİRAK

*6 mart 2016-cı il*......................................................................................*43*

GÜRCÜSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MİXEİL CANELİDZE İLƏ GÖRÜŞ

*7 mart 2016-cı il*......................................................................................*46*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*8 mart 2016-cı il*......................................................................................*47*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*8 mart 2016-cı il*......................................................................................*48*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*8 mart 2016-cı il*......................................................................................*51*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*8 mart 2016-cı il*......................................................................................*52*

RUSİYA FEDERASİYASININ «QAZPROM» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VİKTOR ZUBKOV İLƏ GÖRÜŞ

*8 mart 2016-cı il*......................................................................................*54*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN LATVİYALI VƏ MİSİRLİ HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*8 mart 2016-cı il*......................................................................................*55*

UKRAYNA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VİKTOR YUŞENKO İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*..........................................................................*56*

İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ SABİQ BAŞ NAZİRİ ABDELSALAM ƏL-MACALİ İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*..........................................................................*57*

SERBİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ BORİS TADİÇ İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*..........................................................................*58*

İSRAİL DÖVLƏTİNİN SABİQ BAŞ NAZİRİ EHUD BARAK İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*..........................................................................*59*

XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*..........................................................................*60*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ GÖRÜŞ

*9 mart 2016-cı il*..........................................................................*61*

BAKIDA «ÇOXQÜTBLÜ DÜNYAYA DOĞRU» MÖVZUSUNDA IV QLOBAL FORUMUN AÇILIŞI MƏRASİMİ

*10 mart 2016-cı il*........................................................................*63*

IV QLOBAL BAKI FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ ZİYAFƏT

*10 mart 2016-cı il*........................................................................*85*

«EURONEWS» TELEKANALINA MÜSAHİBƏ

*10 mart 2016-cı il*........................................................................*89*

POLŞA RESPUBLİKASININ SABİQ PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*..........................................................................*91*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ BUYAR NİŞANİ İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*..........................................................................*92*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*..........................................................................*93*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*..........................................................................*94*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ GİORGİ MARQVELAŞVİLİ İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*..........................................................................*95*

İSRAİL DÖVLƏTİNİN SABİQ XARİCİ İŞLƏR NAZİRİ TSİPİ LİVNİ İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*..........................................................................*96*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN ÜZVÜ MLADEN İVANİÇ İLƏ GÖRÜŞ

*10 mart 2016-cı il*..........................................................................*97*

FİNLANDİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ TARYA HALONEN İLƏ GÖRÜŞ

*11 mart 2016-cı il*..........................................................................*98*

LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*11 mart 2016-cı il* ........................................................................ *99*

İRAN İSLAM RESPUBLİKASININ SƏRHƏD QOŞUNLARI KOMANDANI QASIM RZAYİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 mart 2016-cı il* ........................................................................ *100*

RUSİYA FEDERASİYASI SƏRHƏD XİDMƏTİNİN RƏHBƏRİ VLADİMİR KULİŞOV İLƏ GÖRÜŞ

*11 mart 2016-cı il* ........................................................................ *101*

MOLDOVA RESPUBLİKASININ ZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ GEORGE LEUKA İLƏ GÖRÜŞ

*12 mart 2016-cı il* ........................................................................ *103*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*13 mart 2016-cı il* ........................................................................ *105*

AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 mart 2016-cı il* ........................................................................ *106*

ÇEX RESPUBLİKASI PARLAMENTİNİN DEPUTATLAR PALATASININ SƏDRİ YAN HAMAÇEKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 mart 2016-cı il* ........................................................................ *107*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*15 mart 2016-cı il* ........................................................................ *109*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*15 mart 2016-cı il* ........................................................................ *110*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ

RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*15 mart 2016-cı il*.........................................................................111
AZƏRBAYCAN–TÜRKİYƏ YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ BEŞİNCİ İCLASINDA İŞTİRAK

*15 mart 2016-cı il*.........................................................................112

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*15 mart 2016-cı il*.........................................................................116

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*15 mart 2016-cı il*.........................................................................118

ALİ QONAĞIN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ İŞTİRAK

*15 mart 2016-cı il*.........................................................................126

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK!

*16 mart 2016-cı il*.........................................................................127

ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

*16 mart 2016-cı il*.........................................................................129

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BEJİ KAİD ƏS-SEBSİYƏ

*16 mart 2016-cı il*.........................................................................130

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*16 mart 2016-cı il*.........................................................................131

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA

*16 mart 2016-cı il* ........................................................................... *132*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL HƏMİDƏ

*16 mart 2016-cı il* ........................................................................... *133*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 mart 2016-cı il* ........................................................................... *134*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*19 mart 2016-cı il* ........................................................................... *135*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*19 mart 2016-cı il* ........................................................................... *136*

BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ŞARL MİŞELƏ

*22 mart 2016-cı il* ........................................................................... *148*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*28 mart 2016-cı il* ........................................................................... *149*

XALQ YAZIÇISI MAQSUD İBRAHİMBƏYOVUN MƏZARINI ZİYARƏT

*28 mart 2016-cı il* ........................................................................... *150*

MİSİR ƏRƏB RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ SƏRHƏD QOŞUNLARININ KOMANDANI ƏHMƏD İBRAHİM MƏHƏMMƏD İBRAHİMİ İLƏ GÖRÜŞ

*29 mart 2016-cı il* ........................................................................... *151*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA SƏFƏR

*30 mart 2016-cı il*......................................................................*153*
ABŞ-ın DÖVLƏT KATİBİ CON KERRİ İLƏ GÖRÜŞ

*30 mart 2016-cı il*......................................................................*154*

ABŞ-ın TİCARƏT NAZİRİ PENNİ PRİTZKER İLƏ GÖRÜŞ

*30 mart 2016-cı il*......................................................................*158*

ABŞ-ın BİR SIRA KONQRESMENLƏRİ İLƏ GÖRÜŞ

*30 mart 2016-cı il* ......................................................................*159*

ABŞ-dakı YƏHUDİ TƏŞKİLATLARININ RƏHBƏRLİYİ İLƏ GÖRÜŞ

*30 mart 2016-cı il*......................................................................*160*

ABŞ-ın VİTSE-PREZİDENTİ CO BAYDEN İLƏ GÖRÜŞ

*31 mart 2016-cı il* ......................................................................*161*

ABŞ-ın BİR SIRA İCTİMAİ XADİMLƏRİ İLƏ GÖRÜŞ

*31 mart 2016-cı il* ......................................................................*163*

ABŞ-ın «EXPORT-IMPORT» BANKININ SƏDRİ VƏ PREZİDENTİ FRED HOKBERQ İLƏ GÖRÜŞ

*31 mart 2016-cı il* ......................................................................*164*

ABŞ-ın NYU-HEMPŞİR ŞTATININ SABİQ QUBERNATORU CON SUNUNU İLƏ GÖRÜŞ

*31 mart 2016-cı il* ......................................................................*165*

ABŞ-ın «GENERAL ELECTRİC» ŞİRKƏTİNİN VİTSE-SƏDRİ CON RAYS İLƏ GÖRÜŞ

*31 mart 2016-cı il* ......................................................................*166*

AĞ EVDƏ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ
ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*31 mart 2016-cı il ........................................................................................167*

IV NÜVƏ TƏHLÜKƏSİZLİYİ SAMMİTİNDƏ İŞTİRAK

*1 aprel 2016-cı il .........................................................................................168*

ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ TOMAS ŞENNON İLƏ
GÖRÜŞ

*1 aprel 2016-cı il .........................................................................................172*

ÇEX RESPUBLİKASININ BAŞ NAZİRİ
BOHUSLAV SOBOTKA İLƏ GÖRÜŞ

*1 aprel 2016-cı il .........................................................................................173*

AZƏRBAYCAN PREZİDENTİNİN YANINDA TƏHLÜ-
KƏSİZLİK ŞURASININ İCLASINDA İŞTİRAK

*2 aprel 2016-cı il..........................................................................................174*

MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB THİN CJOYA

*5 aprel 2016-cı il..........................................................................................182*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DAY KUANQA

*5 aprel 2016-cı il..........................................................................................183*

MÜDAFİƏ NAZİRLİYİNİN MƏRKƏZİ HƏRBİ KLİNİK
HOSPİTALINDA MÜALİCƏ OLUNAN YARALI HƏRBÇİLƏRİ
ZİYARƏT

*5 aprel 2016-cı il..........................................................................................184*

ABŞ-ın NEVADA ŞTATI ASSAMBLEYASININ
SƏDRİ CON HEMBRİK İLƏ GÖRÜŞ

*5 aprel 2016-cı il..........................................................................................190*

BEYNƏLXALQ AĞIR ATLETİKA FEDERASİYASININ PREZİDENTİ TOMAŞ AYAN İLƏ GÖRÜŞ

*5 aprel 2016-cı il* ............................................................................ *191*

AŞPA MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİSİ STEFAN ŞENNAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 aprel 2016-cı il* ............................................................................ *192*

RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*6 aprel 2016-cı il* ............................................................................ *193*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*6 aprel 2016-cı il* ............................................................................ *196*

«AZƏRBAYCAN VƏ ŞƏRQİ ANADOLUNUN TÜRK-MÜSƏLMAN ƏHALİSİNİN SOYQIRIMI» MÖVZUSUNDA KEÇİRİLƏN III BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*7 aprel 2016-cı il* ............................................................................ *197*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİF İLƏ GÖRÜŞ

*7 aprel 2016-cı il* ............................................................................ *199*

AZƏRBAYCANA SƏFƏRƏ GƏLƏN RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ DMİTRİ MEDVEDEV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*8 aprel 2016-cı il* ............................................................................ *201*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*8 aprel 2016-cı il* ............................................................................ *204*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN
SƏDRİ DMİTRİ MEDVEDEV İLƏ BİRGƏ
MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*8 aprel 2016-cı il*..........................................................................206

«AITF–2016» XV AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ
SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*8 aprel 2016-cı il*..........................................................................212

NAZİRLƏR KABİNETİNİN 2016-cı İLİN BİRİNCİ RÜBÜNÜN
YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR
OLUNMUŞ İCLASINDA İŞTİRAK

*9 aprel 2016-cı il*..........................................................................216

YEKUN NİTQİ

*9 aprel 2016-cı il*..........................................................................224

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ

*11 aprel 2016-cı il*........................................................................235

BMT-nin AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ
REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ QULAM İSAKZAİ İLƏ
GÖRÜŞ

*11 aprel 2016-cı il* .......................................................................236

MALAYZİYA PARLAMENTİ NÜMAYƏNDƏLƏR
PALATASININ SƏDR MÜAVİNİ
SERİ RONALD KİANDEE İLƏ GÖRÜŞ

*12 aprel 2016-cı il*........................................................................238

AMERİKA TİCARƏT PALATASININ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*12 aprel 2016-cı il*........................................................................240

YEKUN NİTQİ

*12 aprel 2016-cı il* ........................................................................ *258*

TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏR

*13 aprel 2016-cı il* ........................................................................ *265*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*13 aprel 2016-cı il* ........................................................................ *266*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN
SƏDRİ BAKİR İZZETBEKOVİÇ
İLƏ GÖRÜŞ

*13 aprel 2016-cı il* ........................................................................ *267*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
XIII SAMMİTİNDƏ İŞTİRAK

*14 aprel 2016-cı il* ........................................................................ *268*

BMT BAŞ KATİBİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ
CEFRİ FELTMAN İLƏ GÖRÜŞ

*14 aprel 2016-cı il* ........................................................................ *272*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*14 aprel 2016-cı il* ........................................................................ *273*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*14 aprel 2016-cı il* ........................................................................ *274*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
XIII SAMMİTİNİN BİRİNCİ SESSİYASINDA ÇIXIŞ

*14 aprel 2016-cı il* ........................................................................ *275*

TÜRKİYƏ RESPUBLİKASI BAŞ NAZİRİNİN ADINDAN İƏT-in XIII SAMMİTİNİN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*14 aprel 2016-cı il ......................................................................................278*

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*14 aprel 2016-cı il ......................................................................................280*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 aprel 2016-cı il ......................................................................................281*

YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*17 aprel 2016-cı il ......................................................................................283*

TÜRKİYƏ RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN SƏDRİ İSMAİL RÜŞTÜ CİRİTİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 aprel 2016-cı il ......................................................................................284*

EKVADOR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAFAEL KORREA DELQADOYA

*18 aprel 2016-cı il ......................................................................................285*

«BAKUBUS» MMC-nin İKİNCİ DEPOSUNUN AÇILIŞI MƏRASİMİ

*18 aprel 2016-cı il ......................................................................................286*

BAKI METROPOLİTENİNİN YENİ XƏTTİNİN – «AVTO-VAĞZAL» VƏ «MEMAR ƏCƏMİ» STANSİYALARININ AÇILIŞI MƏRASİMİ

*19 aprel 2016-cı il ......................................................................................289*

«AZƏRAVTOYOL» ASC-nin YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*19 aprel 2016-c il* ......................................................................................*291*

BİNƏ QƏSƏBƏSİ ƏLİ İSAZADƏ KÜÇƏSİNDƏ YENİDƏNQURMADAN SONRA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*20 aprel 2016-cı il* ......................................................................................*293*

NƏSİMİ RAYONU ƏRAZİSİNDƏKİ YENİ PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*20 aprel 2016-cı il* ......................................................................................*294*

İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİYƏ «DOSTLUQ» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*21 aprel 2016-cı il* ......................................................................................*295*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA

*22 aprel 2016-cı il* ......................................................................................*297*

NİDERLAND KRALI ƏLAHƏZRƏT VİLLEM-ALEKSANDRA

*22 aprel 2016-cı il* ......................................................................................*298*

«ÜFÜQ», «ZƏFƏR» VƏ «TURAN» SƏRNİŞİN GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*22 aprel 2016-cı il* ......................................................................................*299*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOUNYANQ VOLAÇİTƏ

*25 aprel 2016-cı il.* .....................................................................................*302*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*25 aprel 2016-cı il* ......................................................................................*303*

QAZAXISTAN PARLAMENTİ SENATININ SƏDRİ QASIM-COMƏRD TOKAYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 aprel 2016-cı il ............................................................................304*

BELARUS RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN SƏDRİ MİXAİL MYASNİKOVİÇ İLƏ GÖRÜŞ

*25 aprel 2016-cı il ............................................................................306*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN TOLERANTLIQ ÜZRƏ DÖVLƏT NAZİRİ ŞEYXƏ LUBNA ƏL-QASİMİ İLƏ GÖRÜŞ

*25 aprel 2016-cı il ............................................................................308*

FRANSA MİLLİ ASSAMBLEYASININ DEPUTATI JAN-FRANSUA MANSELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 aprel 2016-cı il ............................................................................309*

FRANSA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ ARLEM DEZİR İLƏ GÖRÜŞ

*26 aprel 2016-cı il ............................................................................311*

İSPANİYANIN XARİCİ İŞLƏR NAZİRİ XOSE MANUEL QARSİYA MARQALLO İLƏ GÖRÜŞ

*26 aprel 2016-cı il ............................................................................312*

MALTA RESPUBLİKASININ PREZİDENTİ MARİ-LUİZ KOLEYRO PREKA İLƏ GÖRÜŞ

*26 aprel 2016-cı il ............................................................................313*

BMT SİVİLİZASİYALAR ALYANSININ VII QLOBAL FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*26 aprel 2016-cı il ............................................................................314*

BMT SİVİLİZASİYALAR ALYANSININ VII QLOBAL FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*26 aprel 2016-cı il* ........................................................................................*336*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*28 aprel 2016-cı il* ........................................................................................*337*

SOSİALİST İNTERNASİONALININ BAŞ KATİBİ
LUİS AYALAN İLƏ GÖRÜŞ

*28 aprel 2016-cı il ........................................................................................338*

AĞSU RAYONUNA SƏFƏR

*29 aprel 2016-cı il ........................................................................................339*

MƏRKƏZİ XƏSTƏXANANIN YENİ BİNASININ AÇILIŞI
MƏRASİMİNDƏ AĞSU RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*29 aprel 2016-cı il ........................................................................................340*

MALTA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ CORC
VELLA İLƏ GÖRÜŞ

*29 aprel 2016-cı il ........................................................................................348*

QEYDLƏR ........................................................................................*350*

*Şəxsi adlar göstəricisi........................................................................................374*

*Coğrafi adlar göstəricisi ........................................................................................379*

| | |
|---|---|
| **Texniki redaktor** | *Zoya Nəcəfova* |
| **Yığım üzrə operator** | *İlhamə Kərimova* |
| **Kompüter tərtibatı** | *Məhəbbət* **Orucov** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.